# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# İYİRMİ BEŞİNCİ KİTAB

## İYUN 2007 - AVQUST 2007

AZƏRNƏŞR
BAKI - 2015

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI - 2015

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2015, 408 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində QUAM ölkələri dövlət başçılarının ikinci zirvə görüşündə nitqi, regional əməkdaşlığın daha da genişləndirilməsinə, enerji təhlükəsizliyi, nəqliyyat sahəsində əməkdaşlıq, regionların sosial-iqtisadi inkişafına, eyni zamanda iqtisadi-siyasi həyatın digər sahələrinə dair çıxışları, nitq və tövsiyələri və digər sənədlər toplusu yer almışdır.

Kitabda prezident İlham Əliyevin İstanbula, Sankt-Peterburqa, Rostov-Don şəhərinə, İordaniya və Qazaxıstana səfərləri zamanı bu ölkələrlə qarşılıqlı münasibətlərin daha da möhkəmləndirilməsindən bəhs edən bəyanat və müsahibələri, həmçinin bir sıra beynəlxalq təşkilatların nümayəndələri ilə görüşlərinə, danışıqlarına aid materiallar dərc edilmişdir.

Cilddə həmçinin, prezident İlham Əliyevin Tacikistan prezidenti Emoməli Rəhmonun və İran İslam Respublikasının prezidenti Mahmud Əhmədinejadın Azərbaycana səfəri zamanı keçirdiyi görüşlərdən, apardığı danışıqlardan bəhs edən materiallar, kütləvi informasiya vasitələrinə verdiyi müsahibələr və bir çox digər məsələlər öz əksini tapmışdır. Eyni zamanda, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair müzakirələr də prioritet məsələ kimi bu cilddə verilmişdir.

**İSBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M} - \textbf{651(07)} - \textbf{2015}}$ **ББК - 32**

© Azərnəşr, 2015

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SANKT-PETERBURQA SƏFƏRİ

*9 iyun 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Müstəqil Dövlətlər Birliyinin (MDB) üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi zirvə toplantısında iştirak etmək üçün iyunun 9-da Rusiyanın Sankt-Peterburq şəhərinə səfərə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev adına Beynəlxalq hava limanında Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev həmin gün Sankt–Peterburqa gəlmişdir.*

*Pulkovo hava limanında Azərbaycan dövlətinin başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Rusiya XİN-in yüksək vəzifəli nümayəndələri, Azərbaycan diasporunun üzvləri qarşıladılar.*

*Milli geyimli azərbaycanlı uşaqlar Mehriban xanıma gül təqdim etdilər.*

*Prezident İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha – «Konqreslər sarayı» dövlət kompleksinə (Konstantinov sarayı) yola düşdü.*

* * *

*İyunun 9-da Sankt–Peterburqun «Konqreslər sarayı» dövlət kompleksinin «Baltik ulduzu» mehmanxanasında Azərbaycan prezidenti İlham Əliyevin və Ermənistan prezidenti Robert Köçəryanın görüşü keçirilmişdir.*

*Üç saat davam edən görüş başa çatdıqdan sonra Azərbaycanın Xarici Işlər naziri Elmar Məmmədyarov jurnalistlərə bildirmişdir ki, əvvəlcə prezidentlər təkbətək görüşmüşlər. Sonra ATƏT-in Minsk qrupunun həmsədrləri və Xarici Işlər nazirləri danışıqlara qatılmışlar.*

*Azərbaycanın Xarici İşlər naziri demişdir ki, tərəflər mövqelərini bildirmiş, başlıca prinsiplər müzakirə olunmuedur. Biz həmin prinsiplər əsasında regionda uzunmüddətli sülhə nail olunması barədə razılığa gəlməyə hazırlaşırıq.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV MDB DÖVLƏT BAŞÇILARININ QEYRİ-RƏSMİ ZİRVƏ TOPLANTISINDA İŞTİRAK ETMİŞDİR

*Sankt-Peterburq*

*10 iyun 2007-ci il*

*İyunun 10-da Sankt-Peterburqda MDB dövlət başçılarının qeyri-rəsmi zirvə toplantısı keçirilmişdir. Azərbaycan prezidenti İlham Əliyev toplantıda iştirak etmişdir.*

*MDB-nin üzvü olan 12 ölkənin dövlət başçıları əvvəlcə Konstantinov sarayının Danışıqlar pavilyonu qarşısında xatirə şəkli çəkdirmişlər.*

*Rusiya prezidenti Vladimir Putin Konstantinov sarayının Mərmər salonunda keçirilən zirvə görüşünü açaraq bildirmişdir ki, dövlət başçılarının budəfəki qeyri-rəsmi sammiti 11-ci Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu ilə eyni vaxta salınmışdır. O, forum kimi, zirvə toplantısının da iqtisadiyyat sahəsində inteqrasiya proseslərinin inkişafına həsr olunmasını arzu etmişdir.*

*MDB-də sədrlik edən Qazaxıstan prezidenti Nursultan Nazarbayev qonaqpərvərliyə və zirvə toplantısının yaxşı təşkilinə görə Vladimir Putinə təşəkkürünü bildirmişdir.*

*O demişdir ki, MDB çərçivəsində əməkdaşlıq Birlik ölkələrinin xarici siyasətinin mühüm istiqamətlərindəndir. N.Nazarbayev vurğulamışdır ki, zirvə toplantısında MDB-də islahatlar aparılması, onun strukturunun, o cümlədən icra orqanlarının fəallaşdırılması məsələləri müzakirə olunacaqdır. Qazaxıstan prezidenti bildirmişdir ki, onun ölkəsinin təklifi ilə xarici işlər nazirlərinin müavinləri səviyyəsində dövlətlərarası işçi qrupu yaradılmış və o, iyunun 1-dək MDB-nin gələcək inkişaf konsepsiyasının layihəsini hazırlamışdır.*

*Zirvə toplantısında MDB İcraiyyə Komitəsinin sədri Vladimir Ruşaylonun qrupun işi haqqında məruzəsi dinlənilmişdir.*

*MDB-də sədrlik edən Qazaxıstan prezidenti Nursultan Nazarbayev görüş başa çatdıqdan sonra jurnalistlərə bildirmişdir ki, MDB-də islahatlar aparılması konsepsiyası Birlik ölkələri dövlət başçılarının bu il oktyabrın 5–6-da Düşənbədə keçiriləcək rəsmi zirvə toplantısında müzakirə olunacaqdır.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev həmin gün Rusiyanın «Vesti» telekanalına müsahibə vermişdir.*

* * *

*İyunun 10-da Sankt-Peterburqda MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi sammiti başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Respublikasının Prezidenti Qurbanqulu Berdiməhəmmədovun görüşü keçirilmişdir.*

*Görüşdə ölkələrimiz və xalqlarımız arasında fəal əməkdaşlığın inkişaf perspektivləri müzakirə olundu. Bildirildi ki, Azərbaycan–Türkmənistan əlaqələrinin genişlənməsi ikitərəfli münasibətlərin yeni mərhələsinin başlanmasına təkan verəcəkdir. Dövlət başçıları vurğuladılar ki, qarşılıqlı əməkdaşlıq təkcə iqtisadi-ticarət sahəsində yox, digər sahələrdə də inkişaf etdirilməlidir.*

* * *

*MDB dövlət başçılarının Sankt-Peterburqda keçirilən qeyri-rəsmi zirvə toplantısında iştirak edən Azərbaycan prezidenti İlham Əliyev iyunun 10-da Vətənə yola düşmüşdür.*

*Azərbaycan dövlətinin başçısını Pulkovo-1 hava limanında Rusiya XİN-in yüksək vəzifəli nümayəndələri, Azərbaycan diasporunun üzvləri yola saldılar.*

* * *

*Prezident İlham Əliyev həmin gün gecə Bakıya qayıtdı.*

*Azərbaycan prezidentini Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV SUMQAYIT «ALÜMİNİUM» İSTEHSALAT SAHƏSİNDƏ YENİ ELEKTROLİZ KORPUSLARININ İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*Sumqayıt şəhəri*

*12 iyun 2007-ci il*

*İyunun 12-də «Azərbaycan Alüminiumu» Açıq Səhmdar Cəmiyyətinin Sumqayıt «Alüminium» istehsalat sahəsində 1 və 2 nömrəli elektroliz korpusları yenidən qurulduqdan sonra istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev bu münasibətlə keçirilən açılış mərasimində iştirak etmək üçün Sumqayıta gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək gül qoydu.*

*Sumqayıt «Alüminium» istehsalat sahəsində prezident İlham Əliyevi müəssisənin kollektivi böyük hörmət və ehtiramla qarşıladı.*

*«Azərbaycan Alüminiumu» Səhmdar Cəmiyyətinin baş direktoru Fərman Mustafayev görülən işlər barədə məlumat verərək bildirdi ki, səhmdar cəmiyyəti özündə üç müəssisəni – Sumqayıt «Alüminium», Gəncə «Gil-Torpaq» və Daşkəsən «Alunit» istehsalat sahələrini birləşdirir. Ölkəmizin «As Group» şirkəti tərəfindən yenidən qurulub istifadəyə verilən birinci və ikinci elektroliz korpuslarının istismara buraxılması ilə əlaqədar müəssisədə əlavə 600 yeni iş yeri açılmışdır. İndiyədək 540 nəfər işə qəbul edilmişdir.*

*1949-cu ildə inşasına başlanmış və 1955-ci il martın 8-də istifadəyə verilmiş Sumqayıt Alüminium Zavodunun istehsal gücü ötən əsrin 60–70-ci illərində 55 min ton təşkil etmişdir. Müəssisənin o vaxtkı elektroliz korpuslarının hər biri ildə 30 min ton məhsul verirdi. Hazırda görülən yenidənqurma işləri*

*nəticəsində alüminiumun illik istehsalı 60 min tona çatdırılacaqdır. Ötən il burada 30,2 min ton alüminium istehsal olunmuşdur.*

*Prezident İlham Əliyev Sumqayıt «Alüminium» istehsalat sahəsinin baş planı ilə tanış oldu, müəssisənin əvvəlki və indiki vəziyyətini əks etdirən fotoşəkillərə baxdı. Bildirildi ki, burada kompressor, metaltökmə, mexaniki, çuquntökmə, buxarlandırıcı, təkrar alüminium sexləri, hazır məhsul, xammal anbarları, məişət, inzibati və tibbi-sanitar, ventilyasiya binaları, avtopark və s. vardır.*

*Dövlətimizin başçısı yeni korpusların tikintisində iştirak etmiş və avadanlıq alınmış şirkətlərin siyahısı ilə də maraqlandı. Bildirildi ki, burada əsasən Türkiyə, Rusiya və Ukrayna şirkətlərinin avadanlığından istifadə edilmişdir. İlkin xammal Gəncədə istehsal olunur və Sumqayıt müəssisəsində hazır məhsul buraxılır. Azərbaycana boksit Hindistandan, Qvineyadan gətirilir. Hazırda Gəncə «Gil-Torpaq» istehsalat sahəsinə qoyulmuş sərmayələr nəticəsində alüminium oksidi istehsalı 2001-ci ildəki 87 min tondan 2006-cı ildə 423,6 min tona çatdırılmışdır ki, bu da müəssisənin ən yüksək göstəricisidir.*

*Səhmdar Cəmiyyətinin 4040 nəfərlik kollektivi qeyri-neft sektorunda aparıcı yerlərdən birini tutur. Ötən il daxili imkanlar hesabına bütövlükdə 62 milyon manat sərmayə qoyulmuşdur. İşçilərin orta aylıq əməkhaqqı 220 manatdan bu il 300 manata çatdırılmışdır. Onlara pulsuz yemək verilir, tibbi xidmət göstərilir. Hər bir işçi 15 min ABŞ dolları həcmində tibbi sığorta olunmuşdur.*

*Prezident İlham Əliyev sovet dövründə istehsal olunan məhsulun keyfiyyətinin o qədər də yüksək olmadığını bildirərək dedi ki, indi Azərbaycanda keyfiyyətə daha çox üstünlük verilir və dünya səviyyəli məhsul buraxılır.*

*Azərbaycan Respublikası Dövlət Əmlakının idarə edilməsi üzrə Dövlət Komitəsinin sədri Kərəm Həsənov bildirdi ki, dünyada ildə 33 milyon ton alüminium istehsal edilir və bu siyahıda Azərbaycan da vardır. Yeni layihələr nəzərdə tutulur. Belə ki, Çin şirkəti ilə bağlanmış müqaviləyə əsasən, Gəncədə müasir texnologiyaya malik illik gücü 100 min ton olan yeni alüminium zavodu tikiləcəkdir. Bu müəssisəyə 212 milyon ABŞ*

*dolları sərmayə qoyulacaq, 2009-cu ilin əvvəlində onun açılışı olacaqdır. Artıq inşaat işlərinə başlanmışdır. Zavod işə düşdükdən sonra Azərbaycanda alüminium istehsalı 160 min ton təşkil edəcəkdir. Dünya bazarında alüminium oksidinin qiyməti getdikcə aşağı düşdüyünə görə, biz hazır məhsul istehsalını genişləndirməliyik. Çünki indi dünya bazarında alüminiumun bir tonunun qiyməti 2700 dollardır. Eyni zamanda, öz müəssisələrimizi təmin etdikdən sonra Tacikistana da ildə 100 min ton alüminium oksidi göndərmək imkanımız olacaqdır.*

*Prezident İlham Əliyev görülən və nəzərdə tutulan işləri qiymətləndirərək dedi ki, Sovet İttifaqı zamanı ən yaxşı halda burada 55 min ton alüminium istehsal olunurdu. İndi isə 60 min tondur və yaxın illərdə 160 min tona çatdırılacaqdır. Budur müstəqil Azərbaycanın qüdrəti. Gələcəkdə istehsal gücünü artırmaq da mümkün olacaqdır. Bu həm də qeyri-neft sektorunun inkişafıdır. 150–160 min ton alüminium ixrac olunanda bundan xeyli gəlir əldə ediləcəkdir. Biz gərək xüsusilə qeyri-neft sektoruna qoyulan investisiyaları dəstəkləyək. Bu sahəyə böyük sərmayə qoyuluşu gözlənilir. Əlbəttə, bunlar daha çox kreditlər hesabına olacaqdır. Kreditlər də ona görə verilir ki, Azərbaycanın potensialına inam yaransın. İnam olmasaydı, Azərbaycana heç kim bir dollar da kredit verməzdi. Biz isə 100 milyon dollar həcmində kredit götürə bilərik.*

*Sonra prezident İlham Əliyev düyməni basaraq «Alüminium» istehsalat sahəsini işə saldı. Dövlətimizin başçısı yeni korpuslardakı elektroliz və tökmə sexlərini gəzdi, istehsal prosesi ilə maraqlandı. Məlumat verildi ki, bu məhsul dünya bazarına «Azeral» markası ilə çıxarılacaqdır.*

*Dövlətimizin başçısına «Azərbaycan Alüminiumu» Açıq Səhmdar Cəmiyyətinin Sumqayıt «Alüminium» istehsalat sahəsinin birinci və ikinci korpuslarının işə salınması zamanı ilk istehsal edilmiş və üzərinə «001» rəqəmləri möhürlənmiş alüminium külçəsi hədiyyə olundu.*

## «DİZAYN–GENAY AZƏRBAYCAN» POLİETİLEN VƏ POLİPROPİLEN

## BORU ZAVODUNUN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ

*Sumqayıt şəhəri*

*12 iyun 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev iyunun 12-də Sumqayıtda «Dizayn–Genay Azərbaycan» polietilen və polipropilen boru zavodunun rəsmi açılışında olmuşdur. Müəssisənin işçiləri dövlətimizin başçısını hörmət və ehtiramla qarşıladılar. Azərbaycan–Türkiyə birgə müəssisəsi olan zavodla tanışlıq zamanı prezidentə məlumat verildi ki, 1987-ci ildən Türkiyədə yaradılan «Dizayn Group» şirkəti polietilen və polipropilen borular istehsal edir. Hazırda bu şirkətin 6 zavodu fəaliyyət göstərir. Şirkətin məhsulları İngiltərə, Almaniya, Çin, Hollandiya, Avstraliya, Rusiya və İspaniyanın müstəqil beynəlxalq təşkilatlarının xüsusi sertifikatlarına layiq görülmüşdür və 72 ölkəyə ixrac olunur. Əsasən istilik, içməli su, qaz, kanalizasiya, kənd təsərrüfatı, suvarma və drenaj sistemləri üçün boru istehsalı üzrə ixtisaslaşmışdır.*

*Prezident İlham Əliyev müəssisənin rəmzi açılışını bildirən düyməni basdı və iridiametrli ilk məhsulun alınması prosesini izlədi.*

*Sumqayıt şəhərində 2003-cü ildən inşasına başlanan və yüksək keyfiyyətli polietilen boruların istehsalı üçün nəzərdə tutulan «Dizayn–Genay Azərbaycan» zavodu 2006-cı ilin oktyabrından işə düşmüşdür. Keyfiyyətli məhsul istehsalı üçün xaricdən alınan xammaldan istifadə edilir. Borular TS-1004, İS-1005, İSO-179, İSO-180 və digər dünya standartlarına cavab verir. Su, kanalizasiya, təbii qaz xətləri və digər məqsədlər üçün nəzərdə tutulan borular istifadə sahəsindən və sifarişdən asılı olaraq 4 atmosferdən 32 atmosferə qədər təzyiqə davam gətirə bilir.*

*Dövlətimizin başçısı müəssisədə* qurulan *müasir* texnoloji *avadanlıqla tanış* oldu, *məhsulların çeşidi, keyfiyyəti ilə maraqlandı.* Bildirildi ki, *hazırda* zavodda *xüsusi üstünlüklərə malik 50,75,110,125,180,200,250,280,315,355,400, 450 və 500 millimetr diametrli borular istehsal olunur.* Diametri 50 milli*metrə qədər* olan boruların rahat *daşınması və* qaynaq *sayının azaldılması məqsədilə 130–150 millimetr uzunluğunda* bura*xılır.* Bu borular asan *birləşir, daşınması digər* borulara *nisbə*tən daha *asandır,* torpaq *sürüşməsi və ya çökməsi nəticəsində qırılmır, çatlamır, uzunömürlüdür. Torpaq altında istənilən şəraitdə (nəm, duz və s.) öz xüsusiyyətlərini dəyişmir və zəmanət müddəti 50 ildir.* Polietilen borular *yumşaq olduğu üçün kənarda birləşdirildikdən* sonra *xəndəyə* qoyula *bilər.*

*Zavodda onlarca yeni iş yeri açılmışdır.*

*Prezident İlham Əliyev görülən işləri yüksək dəyərləndirdi, müasir* texnologiya *əsasında* istehsal *edilən bu cür məhsullara tələbatın böyük olduğunu* bildirdi.

*Zavodla tanışlıqdan xatirə* olaraq *dövlətimizin başçısına hədiyyə təqdim edildi.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV ŞƏHİDLƏR XİYABANINDA APARILAN YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR

*Şəhidlər xiyabanı*

*12 iyun 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 12-də Şəhidlər xiyabanında olmuş və burada aparılan yenidənqurma işləri ilə əlaqədar tapşırıqlarını vermişdir.*

*Prezident İlham Əliyev əvvəlcə Şəhidlər xiyabanında aparılacaq yenidənqurma işlərinin layihəsi ilə tanış oldu. Xatırladaq ki, prezidentin «Azərbaycan Respublikasındakı monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq kompleksləri haqqında» 2007-ci il 2 aprel tarixli sərəncamında vahid kompleks kimi, mərhələ-mərhələ formalaşmış Şəhidlər xiyabanının ümumi görkəminin memarlıq baxımından yenidən işlənməsinə ciddi ehtiyac duyulduğu xüsusi vurğulanmışdır. Sərəncamın imzalanmasının ertəsi günü prezident İlham Əliyev Şəhidlər xiyabanında olmuşdu. Dövlətimizin başçısı xatirə kompleksindəki vəziyyətlə diqqətlə tanışlıqdan sonra Bakı Şəhər İcra Hakimiyyətinə və müvafiq qurumlara burada yenidənqurma işlərinin həm yüksək səviyyədə, həm də azərbaycançılıq fəlsəfəsinin meyarlarına uyğunlaşdırılmış şəkildə aparılması barədə göstəriş vermişdi.*

*Prezident Sərəncamına əsasən, bir ay müddətində layihə hazırlanmış və Şəhidlər xiyabanında yenidənqurma işlərinə başlanmışdır. Dövlətimizin başçısı işlərin gedişi, istifadə edilən tikinti materialları ilə tanış oldu, milli memarlıq üslubuna xüsusi diqqət yetirilməsinin vacibliyini söylədi.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov məlumat verdi ki, xiyabanın hərəkət hissəsinə ağ və qara mərmər döşənəcəkdir. İşıqlandırma sistemi xiyabanın ümumi*

*rəng ansamblını tamamlayacaqdır. Bunun üçün ən müasir işıq effektlərindən istifadə olunacaqdır.*

*Prezident İlham Əliyev şəhidlərin portretlərinin yerləşdirilməsi və adlarının yeni formada yazılması ilə bağlı tövsiyələrini bildirdi.*

*Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə şəhidlərin xatirəsinə ucaldılmış «Əbədi məşəl» abidəsinə baxan dövlətimizin başçısı onu əzəmətliliyi artıran detallarla zənginləşdirmək və ətrafı abadlaşdırmaq barədə tapşırıqlarını verdi.*

## HEYDƏR ƏLİYEV ADINA İDMAN-KONSERT KOMPLEKSİNDƏ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*Heydər Əliyev adına İdman-Konsert Kompleksi*

*13 iyun 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Heydər Əliyev adına İdman-Konsert Kompleksində əsaslı təmir və yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Heydər Əliyev adına İdman-Konsert Kompleksi ulu öndərin yadigar qoyduğu çoxsaylı mühüm obyektlərdən biridir. Sovet İttifaqı zamanında külli miqdarda vəsait tələb edən bu tipli binaların tikilməsi üçün İttifaq hökuməti səviyyəsində qərarın verilməsi vacib idi. Məhz Heydər Əliyevin iradəsi sayəsində bu nəhəng idman qurğusunun Bakıda inşasına başlamaq mümkün olmuşdu. Ümummilli liderin uzaqgörənliyinin bəhrəsi olan bu kompleks indi müstəqil Azərbaycanın paytaxtında ən mötəbər tədbirlərin keçirildiyi məkana çevrilmişdir.*

*Lakin vaxt ötdükcə kompleksdə əsaslı təmir işlərinə zərurət yaranmışdı. Ötən ilin noyabrında başlayan əsaslı təmir və yenidənqurma işləri artıq sona çatır.*

*Dövlətimizin başçısına məlumat verildi ki, binanın fasadı yenidən qurulur. «Serb-Az» şirkəti ilə bağlanmış müqavilə əsasında işlər yüksək səviyyədə həyata keçirilir. 18 min kvadratmetrlik fasada Yunanıstanın «Etalbond» şirkətindən alınan üzlük vurulmuşdur. Təmir işlərində digər Avropa ölkələrindən alınmış materiallardan da istifadə edilir. Məsələn, fasad şüşələri Belçikadan gətirilmişdir.*

*Prezident İlham Əliyev kompleksin daxilində görülmüş işlərlə də tanış oldu. Bildirildi ki, 7800 tamaşaçı yeri olan salonda Çexiyadan gətirilmiş oturacaqlar, Koreyadan alınmış iki müasir tablo quraşdırılmışdır. Birinci və ikinci mərtəbələrə*

*İtaliya qraniti döşənmiş, pilləkənlər təzələnmişdir. Binada istilik sistemi quraşdırılmış, kondisioner sisteminin montajı artıq başa çatdırılmışdır.*

*Xatırladaq ki, paytaxtın ən böyük tikililərindən biri olan Heydər Əliyev adına İdman-Konsert Kompleksinin inşasına 1977-ci ildə başlansa da, yalnız 1990-cı ildə istifadəyə verilmişdir. Ötən əsrin 80-ci illərinin sonunda ölkədə yaranmış ümumi vəziyyət bu kompleksin inşasına təsirsiz ötüşməmiş və tikinti işləri lazımi səviyyədə tamamlanmamışdı. İndiki əsaslı təmir və yenidənqurma işlərindən sonra kompleks ən yüksək tələblərə cavab verəcəkdir.*

*Prezident İlham Əliyev əsaslı təmir olunan eyvana da baxdı, buradan ətrafı seyr etdi.*

*Xüsusi işıqlandırma sistemi ilə təmin edilmiş binanın əsaslı təmir və yenidənqurma işlərinə 11,6 milyon manat vəsait ayrılmışdır. İl ərzində 4-5 beynəlxalq səviyyəli yarışın, 12-14 sərgi və konsert tədbirlərinin keçirildiyi kompleksin ölkəmiz üçün əhəmiyyəti böyükdür. Bir neçə gündən sonra isə kompleks öz qonaqlarını yeni və daha mükəmməl görkəmdə qəbul edəcəkdir. İyunun sonu – iyulun əvvəlində burada bədii gimnastika üzrə 23-cü Avropa çempionatı, avqustda yeniyetmələr arasında boks üzrə dünya çempionatı, sentyabrda isə güləş üzrə dünya çempionatı və taekvondo üzrə Avropa birinciliyi keçiriləcəkdir.*

## YAPONİYANIN «NİKKEY» («NİHON KEYDZAY ŞİMBUN») QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ

*Prezident sarayı*

*13 iyun 2007-ci il*

**M ü x b i r: Sizə bir sıra suallar vermək istərdim. İlk növbədə, bunlar enerji məsələləri ilə bağlı olacaqdır. Belə ki, Yaponiya şirkətləri də Azərbaycanın enerji sahəsindəki siyasətinə böyük maraq göstərirlər. Keçən il Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirən neft boru kəməri istifadəyə verilmişdir. Avropanın enerji ilə təmin olunması sahəsindəki strategiyanız nədən ibarətdir?**

**İ l h a m Ə l i y e v:** Neft və qaz strategiyamızı milli maraqlarımıza uyğun olaraq həyata keçiririk. Bizim nəhəng neft və qaz ehtiyatlarımız var. Təkcə «Azəri», «Çıraq», «Günəşli» yataqlarındakı xam neft ehtiyatlarımız 1,2 milyard tondan çoxdur. Hazırda bu yataqlardan neft hasil edirik və gələn il Azərbaycanda ümumi hasilat 50 milyon tondan artıq olacaqdır. Əlbəttə, bu nefti nəql etmək üçün boru kəmərlərinə ehtiyacımız var. Bizim 3 boru kəmərimiz var – ikisi Qara dənizə, biri isə Aralıq dənizinə çıxır. Beləliklə, biz hasilat və nəql problemlərimizi tamamilə həll etmişik. Qaz hasilatına gəlincə, bu yaxınlarda, «Şahdəniz» yatağında böyük qaz ehtiyatları kəşf etmişik. Digər yataqlardakı ehtiyatlar ilə birlikdə hazırda ölkəmizin qaz ehtiyatı ümumilikdə 1,5 trilyon kubmetr həcmində qiymətləndirilir. Bu qazı dünya bazarlarına nəql edəcək boru kəməri artıq fəaliyyət göstərir. Artıq Gürcüstanı qaz ilə təchiz edirik və texniki baxımdan bu boru kəməri ilə qaz Avropa bazarlarına da nəql edilə bilər.

**M ü x b i r: Neftiniz Novorossiysk vasitəsilə Rusiya ərazisindən keçməklə də nəql edilirdi. Boru kəmərləri ilə neftin nəqli məsələlərini necə həyata keçirirsiniz?**

**İ l h a m Ə l i y e v:** 1997-ci ildə xarici şirkətlər konsorsiumu ilə neft hasilatına başlayan zaman bu, yeganə boru kəməri idi. Lakin bundan sonra daha 2 boru kəməri inşa edildi. Bunlardan biri Bakı–Supsa, digəri isə Bakı–Tbilisi–Ceyhan boru kəməridir. Beləliklə, bizim üç boru kəmərimiz var. Əlbəttə, biz onların hamısından istifadə edə bilərik. İstehlakçılar idxalın şaxələndirilməsi barədə fikirləşirlər. Biz isə ixracın şaxələndirilməsi barədə düşünürük və bunu artıq həll etmişik. Əlbəttə, biz daha artıq iqtisadi fayda verən neft infrastrukturundan istifadəyə üstünlük verəcəyik.

**M ü x b i r: Siz iqtisadi fayda barəsində danışdınız, bu baxımdan hansı boru kəməri daha sərfəlidir?**

**İ l h a m Ə l i y e v:** Əlbəttə, hazırda Aralıq dənizinə çıxışı olan Bakı–Tbilisi–Ceyhan boru kəməri. Belə ki, biz bu boru kəməri vasitəsilə gündə bir milyon barrel neft nəql edirik. Bu isə ildə 50 milyon ton deməkdir. Bundan başqa, bu boru kəməri bizə nefti bütün dünyaya satmağa imkan verir. Çünki Ceyhan limanından Azərbaycan nefti hər yerə – Asiyaya, Amerikaya satılır. İndi boru kəmərinin tam tutumunda fəaliyyət göstərməsinə çalışırıq və ehtimal ki, biz gələn il bu məqsədimizə nail olacağıq.

**M ü x b i r: Qaz ilə bağlı nə deyə bilərsiniz?**

**İ l h a m Ə l i y e v:** Yuxarıda dediyim kimi, Azərbaycan artıq qazı ixrac edən ölkəyə çevrilmişdir. Qaz infrastrukturumuz yenicə yaradılmışdır. Bu yaxınlarda Türkiyəyə gedən çox müasir qaz boru kəmərini inşa etmişik. Azərbaycan qazı Türkiyə vasitəsilə Avropa İttifaqı bazarına da nəql edilə bilər. Bu kəmər Cənubi Qafqaz boru kəməri adlanır. Bundan başqa, biz bu yaxınlarda Nabukko layihəsində iştirak etməyə dəvət almışıq. Bu layihəyə Türkiyə, Bolqarıstan, Rumıniya, Avstriya, Macarıstan kimi ölkələr də cəlb olunacaqdır. Biz aldığımız dəvəti, təklifi nəzərdən keçiririk. Dediyim kimi, bizim nəhəng qaz ehtiyatlarımız var və gələcəkdə qonşu dövlətləri, Avropa dövlətlərini qaz ilə təchiz edə biləcəyik. Lakin bu nəhəng qaz ehtiyatlarından istifadə ilkin mərhələdədir. «Şahdəniz» yatağından qaz yalnız bu ildən hasil edilməyə başlanmışdır. Hasilatı artırmaq və onu bazarın tələbatlarına uyğun yüksək səviyyədə saxlamaq üçün bir neçə il lazım olacaqdır.

**M ü x b i r: Burada xarici şirkətlərlə əməkdaşlığın rolu nədən ibarətdir?**

**İ l h a m Ə l i y e v:** Onların rolu çox mühümdür. Çünki onlar bizim əsas sərmayədarlardır. Onlar qaz və neftin hasilatına, boru kəmərlərinin inşasına sərmayə qoyublar. Yəni əsas sərmayə qoyuluşunu xarici şirkətlər həyata keçirmişdir, eyni zamanda, Azərbaycan Dövlət Neft Şirkəti də bu layihələrə böyük sərmayə qoyur. Beləliklə, bizim neft şirkəti ilə xarici enerji şirkətləri arasında yaxşı tərəfdaşlıq mövcuddur. Bu tərəfdaşlıq 1994-cü ildən başlamışdır və uzunmüddətlidir. Bu günə kimi geniş coğrafiyası olan xarici şirkətlərlə, o cümlədən Yaponiya şirkətləri ilə Azərbaycanda tərəfdaşlıq etməkdən çox məmnunuq.

**M ü x b i r: «Enerji millətçiliyi» adlandırılan meyillər haqqında nə düşünürsünüz? Bu sahədə sizin həyata keçirdiyiniz siyasət nədən ibarətdir?**

**İ l h a m Ə l i y e v:** Bizim siyasətimiz çox açıqdır, xarici şirkətlərlə olan sazişlərimizə sadiqik. Azərbaycanda xarici sərmayəçilər üçün çox əlverişli şərait vardır. Bütün əsas neft müqavilələri parlamentin müzakirəsindən keçir. Bundan sonra prezident imzalayır və onlar qanun qüvvəsini alır. Burada heç bir dəyişiklik etmək olmaz. Sazişlərimiz imzalandıqdan sonra onların heç biri barəsində yenidən danışıqlar aparılmamışdır. Hesab edirəm ki, bu, xarici şirkətlərin bizə etimad və inamının artırılması baxımından çox önəmlidir. Strategiyamızı milli maraqlarımız üzərində qururuq. Bununla yanaşı, anlayırıq ki, Azərbaycana sərmayə qoyan xarici şirkətlər gəlir götürmək istəyirlər. Bu da təbiidir. Biz bu iki marağı uzlaşdırmalıyıq və bunu edə bilmişik. Azərbaycanda xarici şirkətlər tərəfindən hasil edilən neftin çox böyük hissəsi tezliklə məhz Azərbaycana məxsus olacaqdır. Beləliklə, Azərbaycan ilə xarici şirkətlər arasında gəlirlərin bölgüsü sürətlə Azərbaycanın xeyrinə dəyişəcəkdir.

**M ü x b i r: Xəzər dənizi ətrafında yerləşən, neft və qaz istehsal edən ölkələrlə əməkdaşlığın genişləndirilməsi barədə nə düşünürsünüz? Boru kəmərinin Xəzər dənizindən keçməklə Qazaxıstan və Türkmənistan ilə**

**birləşdirilməsi imkanlarına dair fikirlər mövcuddur. Bu barədə nə deyə bilərsiniz?**

**İ l h a m Ə l i y e v:** Qazaxıstanın Bakı–Tbilisi–Ceyhan boru kəmərinə qoşulmasına dair keçən il mənimlə Qazaxıstan prezidenti arasında hökumətlərarası saziş imzalanmışdır. İndi biz Qazaxıstan hökuməti və Qazaxıstanda neft hasil edən və bu neftin sahibi olan xarici şirkətlərlə bu istiqamətdə çalışırıq. Bu proses çox uğurla inkişaf edir. Qazaxıstan ilə münasibətlərimiz dostluq xarakteri daşıyır. Biz Xəzərin şərq sahilində olan dostlarımız – istər Qazaxıstan, istərsə də Türkmənistan üçün infrastrukturumuzu istifadəyə verməyə hazırıq. Bizim neft və qazı Avropa və beynəlxalq bazarlara nəql etmək üçün bütün zəruri, müasir infrastrukturumuz var. Əgər Xəzərin şərq sahilində olan dost ölkələr tərəfindən Azərbaycanın infrastrukturuna qoşulmaq istəyi olarsa, biz bunu nəzərdən keçirə bilərik. Lakin bu qərar onlar tərəfindən verilməlidir.

**M ü x b i r: Bu möcüzə barədə nə düşünürsünüz? Mən çox təəccübləndim. İki il bundan öncə burada idim. Ölkənizdə həqiqi inkişaf var. Eyni zamanda, Gürcüstanda olmuşam, orada da çox işlər görülür. Siz Qafqazın iqtisadiyyatı, regionda inkişaf, inteqrasiya barədə nə fikirləşirsiniz?**

**İ l h a m Ə l i y e v:** Gürcüstan ilə inteqrasiyamız çox yüksək səviyyədədir. Biz tərəfdaş, dostuq. Neft və qazın nəqli ilə bağlı nəhəng çoxmilli, çoxmilyardlıq layihələr həyata keçiririk. Tezliklə Azərbaycan, Türkiyə və Gürcüstandan keçəcək, Mərkəzi Asiya ölkələrini, ümumiyyətlə, Asiyanı Azərbaycan vasitəsilə Avropa ilə birləşdirəcək yeni dəmir yolunun inşasına başlayacağıq. Bütün bu layihələr yalnız bizim üçün deyil, bütün Avrasiya ölkələri üçün önəmlidir. Bunu biz həyata keçiririk, bu proseslərin təşəbbüskarı bizik. Yeri gəlmişkən deyim ki, dəmir yolu layihəsi üzrə bu günə kimi biz heç bir maliyyə qurumundan yardım almamışıq, bu işləri öz hesabımıza görürük. Bu sahədə əməkdaşlığımız çox müsbətdir. Cənubi Qafqazın digər ölkəsinə – Ermənistana gəldikdə, onunla heç bir əlaqəmiz yoxdur. Bunun da səbəbi Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsi və azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparmasıdır ki,

bunun da nəticəsində 1 milyondan artıq azərbaycanlı əziyyət çəkərək, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Lakin Gürcüstan ilə tərəfdaşlığımız və əməkdaşlığımız çox uğurla həyata keçirilir. Bundan başqa, Sizin də dediyiniz kimi, bizim iqtisadiyyatımız inkişaf edir. Siz bunu statistik rəqəmlərdən görə bilər, eyni zamanda, Bakıda və regionlarda özünüz bu inkişafın şahidi ola bilərsiniz. Son bir neçə il ərzində ölkəmizdə misli görünməmiş inkişaf var. Əminəm ki, bu, yalnız başlanğıcdır. Bu güclü iqtisadiyyat yalnız regional formatda deyil, eyni zamanda, Avrasiya məkanında əhəmiyyətli rol oynaya biləcək güclü ölkə qurmaq planlarımızın həyata keçirilməsinin başlanğıcıdır. Artıq ölkəmiz bu rolu oynamaqdadır.

**M ü x b i r: Siz Avrasiya əməkdaşlığından danışarkən bunda Rusiyanın roluna necə baxırsınız? Belə ki, bu əməkdaşlıq dəhlizi, sanki Rusiyanın Transsibir dəhlizi ilə rəqabət aparır.**

**İ l h a m Ə l i y e v:** Biz heç zaman siyasətimizi rəqabət üzərində qurmuruq. Əksinə, biz daim əməkdaşlığın tərəfdarı kimi çıxış edirik. Azərbaycan rəqabət aparmaq üçün yer deyil. Mən bir neçə dəfə bunu bəyan etmişəm və əminəm ki, siyasətimizin açıqlığı, əməkdaşlığa hazırlığımız bizə uğur gətirir. Bütün bunları etmək bizim hüququmuzdur, təbii hüququmuzdur. Biz öz prioritetlərimiz, milli maraqlarımız barədə düşünürük. Bu isə region və Avrasiya miqyasında mühüm ölkəyə çevrilmək üçün enerji ehtiyatlarımızdan və coğrafi mövqeyimizdən səmərəli istifadəyə əsaslanır. Ona görə də neft və qaz kəmərlərimiz, dəmir yolu əlaqəsi kiməsə qarşı yönəlməmişdir, onlar kiminləsə rəqabət aparmaq üçün deyildir. Biz xalqımız, Azərbaycan üçün lazım olanı edirik.

**M ü x b i r: Neftlə bağlı son sualımı vermək istəyirəm. Avropada neft idxalının şaxələndirilməsinə böyük ehtiyac duyulur. İndi Azərbaycanın yeni boru kəməri vardır. Gələcəkdə bu tələbatı nə qədər ödəyə bilərsiniz?**

**İ l h a m Ə l i y e v:** Dediyim kimi, biz neft hasilatını artırırıq. 2010-cu ilə kimi ildə 65 milyon ton neft hasil etməyə ümid edirik. Gələn il hasilat 50 milyon tondan artıq olacaqdır. Qaz ilə bağlı deyə bilərəm ki, gələn il hasilatımız təxminən 16

milyard kubmetrə çatacaq, sonra isə hər şey bazardan asılı olacaqdır. Siz qazı istehlakçılara satmalısınız, siz onu açıq bazara sata bilməzsiniz. Bu, tələbata, Avropa ölkələri ilə potensial sazişlərimizə uyğun olacaqdır. Biz artıq Avropa İttifaqı ilə enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzalamışıq. Bu, əməkdaşlıq üçün yaxşı əsasdır. Əgər Azərbaycan qazına əlavə tələbat olarsa, əlbəttə, bu tələbatı təmin etmək üçün hasilatı artıracağıq. Biz bundan fayda götürəcəyik, belə ki, daha çox qaz satacaq və daha çox maliyyə vəsaiti qazanacağıq. Eyni zamanda, bunu etməklə Avropa iqtisadiyyatına daha çox inteqrasiya edəcəyik ki, bu da xarici siyasətimizin məqsədlərindən biridir.

**M ü x b i r: Sizin iqtisadiyyatın inkişafı daha çox neft və qaz ehtiyatlarından asılıdır. İqtisadiyyatın şaxələndirilməsi barədə nə düşünürsünüz? Azərbaycanı hansı istiqamətdə inkişaf etdirmək fikrindəsiniz?**

**İ l h a m  Ə l i y e v:** Bu təbiidir, çünki neft və qaz hələ də Azərbaycan iqtisadiyyatının mühüm elementidir və bir çox illər mühüm elementi olaraq qalacaqdır. Lakin biz iqtisadiyyatın şaxələndirilməsi üzərində də çalışırıq – sənaye istehsalı, regionların inkişafı proqramı... Təxminən son 4 il ərzində 550 mindən artıq yeni iş yeri açılmışdır. Son üç il ərzində yoxsulluğun səviyyəsi 49 faizdən 20 faizə salınmışdır. Tezliklə biz bu rəqəmi əhəmiyyətli dərəcədə aşağı salacağıq, ölkədə yoxsullar olmayacaqdır. Biz neft və qaz sektorunda, ümumiyyətlə, iqtisadi inkişafla bağlı şəffaflıq məsələlərində beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq edirik. İnfrastruktur sahəsinə böyük sərmayələr qoyuruq. Təkcə keçən il 5 elektrik stansiyası inşa etmişik. Biz regionlarda infrastrukturu təmin etmək məqsədi ilə avtomagistrallar, xəstəxanalar, məktəblər, yollar inşa edirik. Çünki neft əsasən burada – Abşeron yarımadasında, Xəzər dənizində hasil edilir. Regionlarda bizim neft iqtisadiyyatımız yoxdur. Ona görə də burada kənd təsərrüfatı istehsalını, özəl sektoru həvəsləndiririk. Sizə deyə bilərəm ki, keçən il ÜDM-də qeyri-neft sektorunun payı çox əhəmiyyətli olubdur, 12 faizdən çox idi. Ümumilikdə ÜDM-in artımı 35 faiz olmuşdur. Bu isə kifayət qədər yüksək rəqəmdir. Bu zaman nəzərə almaq lazımdır ki, son 10 ildə Azərbaycanda ÜDM-də

ildə ən azı 10 faizlik artım olmuşdur. Biz neft amilindən, bu imkandan istifadə edərək, ölkəmizi inkişaf etdiririk. Hazırda informasiya texnologiyaları sahəsində böyük sərmayələr qoyuruq. Azərbaycana yeni texnologiyalar gətiririk və ölkəmizi müasirləşdirmək üçün dünyanın informasiya texnologiyaları sahəsindəki aparıcı şirkətləri ilə əməkdaşlıq edirik.

**M ü x b i r: İndi mən diplomatiya və təhlükəsizlik məsələləri barəsində sual vermək istəyirəm. Mən bu sualı verməliyəm, çünki bu məsələ indi diqqət mərkəzindədir, çox həssas məsələdir. Əgər ABŞ və Rusiya ölkənizdəki radiolokasiya sistemindən istifadə ilə bağlı müraciət edirlərsə, bunun sizin üçün faydası və önəmi nədir?**

**İ l h a m Ə l i y e v:** Bizim ABŞ və Rusiya ilə çox yaxşı münasibətlərimiz var və hər iki ölkə ilə müxtəlif sahələrdə əməkdaşlıq edirik. Buna görə də Rusiya prezidenti Qəbələ radiolokasiya stansiyasından birgə istifadə məsələsi ilə bağlı mənə zəng edəndə, əlbəttə ki, mənim buna ilkin reaksiyam müsbət oldu. Belə ki, hesab etdim bu, hər iki ölkə üçün yaxşı əməkdaşlıq ruhuna uyğun olacaqdır. Əgər bu, dünyada potensial təhlükələri azaltmağa, qlobal təhlükəsizliyə töhfə verməyə kömək edərsə, biz bunu etməyə hazırıq. Belə ki, eyni zamanda, biz regionumuzda təhlükəsizliyin və proqnozlaşdırıla bilən vəziyyətin təmin olunması ilə bağlı bir çox proqramlarda iştirak edirik. Rusiya ilə radiolokasiya sisteminin icarəyə verilməsi barədə sazişimiz 2002-ci ildə imzalanmışdır və bu sazişin qüvvəsi 2012-ci ildə bitir. Sazişin 4-cü bölməsində açıq şəkildə deyilir ki, bu radiolokasiya stansiyasından istifadə ilə bağlı Rusiyanın istənilən üçüncü tərəflə əlavə sazişi Azərbaycanla razılaşdırılmalıdır. Buna görə də Rusiya prezidentinin mənə zəng etməsi və fikirlərimi soruşması təbii bir şeydir və mən dedim ki, məsələyə münasibətim müsbətdir. Əgər bu fikir həyata keçirilərsə, bu zaman istər Rusiya, istərsə də ABŞ-la çox ciddi və ətraflı müzakirələr aparmalıyıq. Azərbaycan dünyada qlobal təhlükəsizlik işinə töhfə vermək üçün bu işdə istər ikitərəfli, istərsə də üçtərəfli formatda iştirak etməyə hazırdır.

**M ü x b i r: Bu formatdan istifadədə hansısa bir fayda görürsünüzmü?**

**İ l h a m Ə l i y e v:** Bilirsiniz, biz siyasətimizi qısa və uzunmüddətli məqsədlər üzərində qururuq. Mən bu imkandan dərhal istifadə etməklə hansısa fayda axtarmaq istəməzdim. Mən hər iki ölkə ilə uzunmüddətli strategiyaya baxmağı üstün tutardım. Yalnız onda Azərbaycan daha çox fayda qazanacaqdır. Başqa sözlə, biz bu imkandan, sadəcə, özümüzə nə isə bir şey əldə etmək üçün yararlanmaq fikrində deyilik. Biz regionda möhkəm mövqeyi olan ölkəyik. İqtisadi mövqeyimiz çox güclüdür, ölkədə siyasi sabitlik bərqərar olmuşdur. Bizim ən böyük problemimiz torpaqlarımızın işğal altında olmasıdır. Əminəm ki, diplomatik səylərlə və ya istənilən digər yolla biz bunu həll edəcəyik. Bir daha demək istəyirəm ki, radiolokasiya stansiyası ətrafındakı məsələyə münasibətimiz və müzakirələrimiz uzunmüddətli strateji maraqlarımıza əsaslanacaqdır.

**M ü x b i r: Bəs bu məsələdə İran amili barədə nə deyə bilərsiniz? İran bundan məyus ola bilərmi?**

**İ l h a m Ə l i y e v:** Bizim İranla da yaxşı münasibətlərimiz vardır. Biz qonşuyuq, iqtisadi məsələlərdə güclü münasibətlərimiz var, siyasi, mədəni əlaqələrimiz çox müsbətdir. Buna görə hesab etmirəm ki, hər hansı bir problem olacaqdır. Bundan başqa, radiolokasiya stansiyasından istifadə barədə danışmaq hələ tezdir. İlk növbədə, ABŞ və Rusiya arasındakı danışıqların necə getdiyini görməliyik. Əgər onlar uğurlu olarsa, onda görəcəyik. Lakin biz hesab etmirik ki, radiolokasiya sistemi ilə bağlı hər hansı əlavə infrastrukturun inkişafına ehtiyac var. Rusiya prezidentinin mənə verdiyi təklif stansiyadan informasiyanın ötürülməsi ilə bağlı idi. Azərbaycan heç zaman öz dostları və qonşularının maraqlarına zərər gətirəcək addım atmayacaqdır.

**M ü x b i r: Bu o deməkdir ki, burada hər hansı müvafiq hərbi bazanın yerləşdirilməsi imkanı yoxdur?**

**İ l h a m Ə l i y e v:** Xeyr, biz Azərbaycanda hər hansı hərbi bazanın yerləşdirilməsi məsələsini nəzərdən keçirmirik.

**M ü x b i r: Siz dost ölkələr ilə GUAM çərçivəsində əməkdaşlıq edirsiniz. Bu təşkilata böyük önəm verirsiniz. Çox ölkələr Avropa ilə inteqrasiyaya maraq göstərir. Bəzilərinin dediyi kimi, Avropa İttifaqına qoşulma NATO-**

**ya üzvlüyə aparır. Bu məsələdə Azərbaycanın mövqeyi nədən ibarətdir?**

**İ l h a m Ə l i y e v:** Mövqeyimiz real əsaslara söykənir. Biz NATO və Avropa İttifaqı ilə çox səmərəli əlaqələr qurmuşuq. NATO ilə «Fərdi tərəfdaşlığın fəaliyyət planı» çərçivəsində əməkdaşlıq edirik. Bu «Sülh naminə tərəfdaşlıq» proqramından sonra irəliyə doğru çox mühüm bir addımdır. Bizim konstruktiv əlaqələrimiz var. Misal üçün, əsgərlərimiz NATO qoşunları ilə birgə Əfqanıstanda və Kosovoda çiyin-çiyinə xidmət edirlər. Biz dünyada qlobal sülh və təhlükəsizlik işinə töhfə veririk. Artıq dediyim kimi, Avropa İttifaqı ilə enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzalamışıq. Bundan əlavə, keçən il Avropa İttifaqı ilə ölkəmiz arasında «Yeni qonşuluq siyasəti» çərçivəsində 5 illik tədbirlər planı imzalamışıq. Bu plan qarşıdakı 5 il ərzində bizə imkan verəcək ki, iqtisadi, sosial, siyasi həyat meyarlarımızı Avropa meyarlarına daha da yaxınlaşdıraq. Növbəti addımın nə olacağını görəcəyik. Əgər Avropa İttifaqı Azərbaycanın üzvlüyünü ciddi şəkildə nəzərdən keçirərsə, əlbəttə ki, biz bundan məmnun olacağıq. Lakin hesab edirəm ki, bu gün bu və ya digər təşkilata üzvlük məsələsini bəyan etmək tezdir. Nə Azərbaycan, nə də təşkilatlar buna hazırdır. Ona görə də biz bu elementdən siyasi məqsədlərlə istifadə etmirik, siyasətimizi real faktlar üzərində qururuq. Bu əməkdaşlığın gələcəyinin necə olacağını görəcəyik. Təşkilat buna hazır olmalıdır. Əgər davamlı olaraq təkrar etsək ki, biz üzv olmaq istəyirik, daim «qapını döysək» və heç bir cavab eşitməsək, bu, yaxşı nəticə verməz. Biz ləyaqətlə, qürur hissi ilə və tərəfdaşlıq ruhunda hərəkət edirik. Əməkdaşlığımızın bugünkü səviyyəsi hər iki tərəf üçün qənaətbəxşdir və onun genişləndirilməsini davam etdiririk.

**M ü x b i r: Necə fikirləşirsiniz, Avropaya inteqrasiya sizə hansı fayda gətirir? Mən formal deyil, bütün istiqamətlərdə inteqrasiyanı nəzərdə tuturam.**

**İ l h a m Ə l i y e v:** Biz Avropaya inteqrasiya siyasətini həyata keçiririk. Avropa Şurasının üzvüyük. Biz bunu könüllü şəkildə etmişik. Heç kəs bizi Avropa Şurasına üzv olmağa məcbur etməmişdi. Özümüz bunu etmişik. Çünki biz

meyarlarımızın Avropa meyarlarına yaxın olmasını istəyirik. Avropa İttifaqının təcrübəsi dünyada ən səmərəli təcrübələrdən biridir. Siyasi inkişaf sistemi, iqtisadi inteqrasiya, güclü sosial müdafiə – biz bütün bunları Avropa İttifaqında görürük. Eyni zamanda, humanitar aspekt. Beləliklə, biz bundan faydalanmaq istəyirik. Hazırda biz artıq fiziki olaraq Avropaya qonşuyuq. Rumıniya və Bolqarıstan Avropa İttifaqının üzvü olduqdan sonra təşkilatın sərhədləri Qara dəniz sahillərinə çatmışdır. Deməli, biz artıq qonşuyuq. Biz yalnız coğrafi baxımdan deyil, mahiyyət baxımından da Avropaya yaxın olmaq istəyirik.

**M ü x b i r: GUAM-ın rolu barədə nə deyə bilərsiniz? Bu təşkilatın məqsədi nədən ibarətdir? GUAM necə inkişaf etdirilməlidir? Gələn həftə ölkənizdə GUAM-ın zirvə görüşü keçiriləcəkdir. Bu tədbirə yalnız GUAM-ın üzvü olan ölkələr deyil, başqa iştirakçılar da gələcəkdir.**

**İ l h a m Ə l i y e v:** GUAM çox mühüm beynəlxalq təşkilata çevrilir. O, 10 il bundan qabaq çox çətin bir siyasi vəziyyətdə yaradılmışdır. Lakin hesab edirəm ki, indi GUAM özünün ikinci, çox mühüm inkişaf mərhələsindədir. Üzv ölkələr bir-birləri ilə çox yaxındırlar. Bundan əlavə, biz hazırda çox mühüm enerji, nəqliyyat proqramları, siyasi dialoq, əməkdaşlıq üzrə proqramlar üzərində çalışırıq. Çox şadam ki, başqa dost ölkələr, Avropa İttifaqının üzvləri GUAM-a böyük maraq göstərirlər. Bu onu göstərir ki, GUAM artıq çox ciddi beynəlxalq təşkilata çevrilir. Biz BMT-də dondurulmuş münaqişələrə, separatçı hərəkatlara dair təşəbbüslər həyata keçirmişik. Regional əməkdaşlıq proqramlarına cəlb olunmuşuq. GUAM-a üzv olan ölkələr arasında möhkəm ikitərəfli əlaqələr vardır. Bu təşkilatın məqsədi əməkdaşlıq, inkişaf, demokratiya, iqtisadi müstəqillikdir və biz bunun tərəfdarıyıq. Biz bu təşkilatda mühüm rol oynamaqda davam edəcəyik. Əminəm ki, yaxın günlərdə keçiriləcək sammit bu istiqamətdə çox güclü addım olacaqdır.

**M ü x b i r: GUAM çərçivəsində sülhməramlı qüvvələrin yaradılmasına dair söhbətlər var. Bu mümkündürmü?**

**İ l h a m Ə l i y e v:** Bu məsələ müzakirə olunmaqdadır. Müzakirələrin nəticəsinin necə olacağını görəcəyik. Mən şəxsən hesab edirəm ki, bu mərhələdə biz fikrimizi əsasən iqtisadiyyat, enerji, nəqliyyat və inteqrasiya aspektləri üzərində

cəmləşdirməliyik. Əlbəttə ki, gələcəkdə tərəfdaşlarımız ilə müzakirələrdə bu aspekt də olacaq və nə etməyin mümkün olacağını görəcəyik.

**M ü x b i r: İndi Dağlıq Qarabağ ilə bağlı sual vermək istəyirəm. Siz Ermənistan prezidenti ilə görüşmüsünüz. Çoxları deyirdi ki, yeni addım var, məsələ həllə doğru gedir. Sizin gözləntiləriniz nədən ibarətdir? Məsələnin gələcək həllini necə görürsünüz?**

**İ l h a m Ə l i y e v:** Bu, indiyə kimi çox qeyri-konstruktivlik, qeyri-səmimilik nümayiş etdirən və münaqişənin dinc yolla həllinin tapılmasına imkan verməyən Ermənistandan asılı olacaqdır. Dinc yolla nizamlamaya yalnız beynəlxalq hüquq əsasında nail olmaq mümkündür. Ərazi bütövlüyümüz bərpa olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələr, BMT də daxil olmaqla, bütün beynəlxalq birlik tərəfindən tanınır. Bu, əsas prinsipdir. Ermənistanın işğalçı qüvvələri bütün işğal edilmiş ərazilərimizdən çıxarılmalıdır. Məcburi köçkünlərimiz öz torpaqlarına qaytarılmalıdır. Dağlıq Qarabağın gələcək statusunun nə olacağı barədə isə qərar veriləcək, bu məsələ danışıqlarda müzakirə olunacaqdır. Dünyada mövcud olan muxtar qurumların müsbət təcrübəsini araşdıracağıq. Biz dəfələrlə bildirmişik ki, Dağlıq Qarabağda yaşayan ermənilərə və oraya geri dönəcək azərbaycanlılara yüksək muxtariyyət statusu verməyə hazırıq. Beləliklə, bunlar əsas prinsiplərdir. Biz heç zaman Dağlıq Qarabağın ayrılması, müstəqilliyi ilə, 10, 20 və ya 100 ildən sonra Dağlıq Qarabağın Azərbaycandan ayrılmasına imkan verə biləcək hər hansı bir formula ilə razılaşmayacağıq. Dağlıq Qarabağda «referendum» barəsində möhtəkirlik edərək orada 10 ildən sonra belə bir referendum keçiriləcəyini deyənlər yanılırlar. Bu insanlar ya danışıqların məzmunundan xəbərsizdirlər, yaxud da bundan xəbərləri var, lakin ictimai rəyi azdırmağa çalışırlar. Bu heç zaman baş verməyəcəkdir. Nə baş verə bilər?! Dağlıq Qarabağda əhalinin təhlükəsizliyi sülhməramlı qüvvələr tərəfindən təmin olunacaq, Dağlıq Qarabağ Ermənistanla hazırda qeyri-qanuni istifadə edilən Azərbaycan ərazisi – Laçın dəhlizi vasitəsilə quru əlaqəsinə malik olacaq, qaçqın-köçkünlər geri qayıdacaq, sonra

isə biz hüquqi statusun nə olacağına baxacağıq. Lakin bu status yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, yüksək özünüidarə hüququ verilməklə müəyyənləşdiriləcəkdir.

**M ü x b i r: Son sualım demokratikləşmə ilə bağlıdır. İqtisadiyyatınızda güclü artım mövcuddur. Bəzən qərbdən ölkənizdə demokratikləşmə ilə bağlı tənqidlər səslənir. Ola bilsin ki, eyni zamanda, sosial strukturdakı gəlirlərdə fərqlər problemi də mövcuddur. Bu problemləri necə həll etmək fikrindəsiniz?**

**İ l h a m Ə l i y e v:** Biz siyasi islahatlar ilə bağlı beynəlxalq təşkilatlarla əməkdaşlıq edirik və bu əməkdaşlıq çox konstruktivdir. Hesab edirəm ki, müstəqillik qazandıqdan sonrakı 15 il ərzində Azərbaycan demokratik inkişaf sahəsində çox böyük uğurlar qazanmışdır. Biz totalitar sistemdən açıq sistemə keçmişik. Burada bütün siyasi azadlıqlar, təsisatlar, siyasi partiyalar, mətbuat azadlığı, fikir və söz azadlığı mövcuddur. Biz Avropa Şurası kimi təşkilatlara üzv olmuşuq və siyasi islahatlarla bağlı öhdəliklər götürmüşük. Avropa İttifaqı ilə qonşuluq siyasəti çərçivəsində 5 illik tədbirlər planı imzalamışıq. Bu bizim hədəfimiz, məqsədimizdir. Biz qanunun aliliyinin təmin olunduğu, yüksək səviyyədə şəffaflıq olan, hər bir insanın sülh və əmin-amanlıq şəraitində yaşadığı və bütün azadlıqlardan istifadə etdiyi cəmiyyət qururuq. Bütün bunlar bu gün baş verir. Əlbəttə ki, bizdən dünyanın inkişaf etmiş ölkələrinin malik olduğu siyasi inkişaf səviyyəsini tələb etmək çox ədalətsiz olardı. Belə ki, müstəqillik əldə ediləndən çox az zaman, cəmi 15 il keçibdir.

Lakin çox böyük və əhəmiyyətli irəliləyiş var. Haqlı tənqidi biz qəbul edirik və onun üzərində çalışırıq. Haqsız olan və bəzi təşkilatların və ölkələrin Azərbaycan ilə bağlı maraqlarına söykənən tənqidləri qəbul etmirik. Biz bərabərhüquqlu tərəfdaşlığı qəbul edirik, münasibətlərimizi qarşılıqlı hörmət, qarşılıqlı inam, əməkdaşlıq üzərində qururuq və çox uğurla fəaliyyət göstəririk. Beləliklə, Azərbaycanda demokratik proseslərin səviyyəsi çox yüksəkdir.

Gəlirlər arasında fərq məsələsinə gəldikdə, biz bu fərqi azaltmağa çalışırıq. Hazırda bu proses gedir, daha çox insan zənginləşir, çoxları isə yoxsulluq vəziyyətindən çıxır. Proses bu

cür gedir. Biz zənginlərlə yoxsullar arasındakı fərqi zənginlərin yoxsullaşması hesabına azaltmaq istəmirik, biz yoxsulların zənginləşməsini istəyirik. İqtisadi göstəricilərimiz, sənaye istehsalı, ÜDM-in artımı, yoxsulluq səviyyəsinin aşağı salınması, iş yerlərinin açılması, infrastruktur layihələri – hər şey Azərbaycan xalqının daha yaxşı yaşaması məqsədini daşıyır. Əgər insanların gəlirlərinin illik artımına baxsaq görərik ki, 2007-ci ilin birinci rübündə 2006-cı ilin birinci rübünə nisbətən 35,2 faiz artım olmuşdur. Bu çox yüksək rəqəmdir. Qarşıdan gələn illərdə biz imkanlardan istifadə edərək güclü, hər bir insanın xoşbəxt və firavan yaşadığı ölkə quracağıq. Sağ olun.

# HEYDƏR ƏLİYEV ADINA BEYNƏLXALQ HAVA LİMANINDA «HOLİDAY İNN» MEHMANXANASININ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*14 iyun 2007-ci il*

*İyunun 14-də Heydər Əliyev adına Beynəlxalq Hava Limanı ərazisində tikilən müasir «Holiday İNN» mehmanxanasının təntənəli açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Mərasimə toplaşan dövlət və hökumət nümayəndələri, xarici ölkələrin respublikamızdakı səfirləri, hava limanının və yeni mehmanxananın əməkdaşları dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı böyük hörmət və ehtiramla qarşıladılar.*

*Prezident İlham Əliyev mehmanxananın rəmzi açılışını bildirən lenti kəsdi, «Holiday İNN» ilə yaxından tanış oldu.*

*«Azərbaycan Hava Yolları» Dövlət Konserninin Baş direktoru Cahangir Əsgərov və mehmanxananın Baş meneceri Tuncay Bokin məlumat verdilər ki, bu otel xarici ölkələrdən Azərbaycana gələn qonaqların, tranzit sərnişinlərin, uçuş heyətlərinin, eləcə də ölkəmizin vətəndaşlarının istifadəsi məqsədi ilə inşa edilmişdir. 25 milyon ABŞ dollarına başa gələn və «Silk Way» (İpək Yolu) özəl Azərbaycan şirkətinin sifarişi və maliyyə vəsaiti hesabına tikilən bu otel «İntercontinental Hotels-Group» mehmanxana şəbəkəsinə aiddir. Bu şəbəkə dünyada ən böyük hesab olunur (dünyanın təqribən 100 ölkəsində 593 min otaqlı 3600 mehmanxanası vardır). İlk dəfə olaraq «İntercontinental Hotels-Group» tərəfindən «Holiday İNN» mehmanxanasına eksklüziv əməkdaşlıq etmək hüququ verilmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, yeni mehmanxananın tikintisinə 2005-ci ilin sentyabrında başlanmışdı. 6 mərtəbəli bina mərkəzləşmiş istilik, havalandırma, yanğın-siqnalizasiya, rabitə və sair sistemlərlə təchiz edilmişdir. Abşeron*

*çimərliklərindən 10 dəqiqəlik, «Atəşgah» məbədindən 15 dəqiqəlik, Bakı şəhərinin mərkəzindən isə 25 dəqiqəlik məsafədə yerləşən mehmanxana qonaqlara ən münasib qiymətlə etibarlı, yüksək xidmət təklif edir.*

*Prezident İlham Əliyev mehmanxananın müxtəlif mərtəbələrini gəzdi, yaşayış, xidməti, inzibati və iclas otaqlarına və digər sahələrə baxdı, burada yaradılan müasir şəraitlə tanış oldu.*

*Bildirildi ki, oteldə 207 otaq var və bunlardan 194-ü bir və iki nəfərlik, 8-i yüksək səviyyəli qonaqların (VİP) qəbulu üçün, 1-i prezident-lüks otağıdır. Əlillər üçün 4 xüsusi otaq nəzərdə tutulmuşdur. Burada qonaqların rahatlığı üçün dünya standartlarına uyğun bütün şərait yaradılmışdır. Mehmanxanada örtülü hovuz, sauna, sağlamlıq guşəsi, iki restoran, bir kafe, iki bar, internet otağı, 16 və 20 nəfərlik 10 iclas otağı, iki konfrans salonu, 100 nəfərlik yeməkxana, şüşəli liftlər, əlillər üçün xüsusi dincəlmə otaqları və müxtəlif xidmət sahələri vardır.*

*Mehmanxananın ərazisində 200 nəqliyyat vasitəsi üçün sahəsi 7350 kvadratmetr olan dördmərtəbəli qapalı avtomobil dayanacağı tikilmişdir. Otelin elektrik enerjisi ilə təmin olunması üçün 2500 KVat-lıq transformator qoyulmuşdur.*

*Məlumat verildi ki, «Silk Way» şirkəti və «İntercontinental Hotels-Group» gələcəkdə Lənkəran, Gəncə, Zaqatala və Naxçıvanda da oxşar mehmanxanaların, Bakıda isə «Crowne Plaza» otelinin tikintisini planlaşdırır.*

*Prezident İlham Əliyev görülən işləri yüksək qiymətləndirdi, burada yaradılan müasir şəraitdən razılığını bildirdi və açılış mərasimində nitq söylədi.*

**İlham Əliyev:** Əziz dostlar!

Mən ilk növbədə, sizin hamınızı qarşıdan gələn Qurtuluş günü münasibətilə təbrik etmək istəyirəm. Qurtuluş gününün Azərbaycanın müasir tarixində çox böyük rolu vardır. Məhz bu gündən etibarən Azərbaycan öz inkişaf dövrünü yaşamağa başlamışdır. Müstəqilliyimizi əldə etdikdən sonra ölkəmiz çox böyük problemlərlə üzləşmişdi. Demək olar ki, ölkəmiz idarəolunmaz vəziyyətə düşmüşdü. Məhz ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı, fəaliyyəti

nəticəsində ölkəmiz bu çətin günlərdən şərəflə çıxa bildi, öz inkişaf dövrünü yaşamağa başladı. Bu inkişaf indi sürətlə davam edir.

Son 14 il ərzində Azərbaycanın hərtərəfli tərəqqisi bizə imkan verib ki, ölkəmizin hər bir sahəsi, iqtisadiyyatımızın hər bir istiqaməti uğurla inkişaf etsin. Əldə edilmiş nailiyyətlər bizdə inam hissini daha da gücləndirir. Biz qarşıda duran bütün vəzifələri ləyaqətlə yerinə yetiririk, bütün proqramları vaxtında icra edirik və Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının təmin olunması üçün böyük işlər görürük.

Mən çox şadam ki, bugünkü gözəl gündə biz Bakıda istifadəyə verilən çox gözəl mehmanxananın açılışına toplaşmışıq. «Holiday İNN» otellər zənciri dünya şöhrətli bir qrupdur və müxtəlif ölkələrdə çoxsaylı otelləri vardır. Mən də çox şadam ki, artıq Azərbaycanda da «Holiday İNN» oteli fəaliyyət göstərəcəkdir. Bu gün bu otellə tanış olarkən gördüm ki, burada dünyanın ən yüksək standartları mövcuddur. Çox gözəl xarici görünüşü, daxili dizaynı var, istirahət etmək, dincəlmək üçün qonaqlara bütün imkanlar yaradılıb. Azərbaycana çoxsaylı turistlərin, qonaqların gəlməsi üçün də əlavə imkanlar yaradır. Əminəm ki, otelin fəaliyyəti çox uğurlu olacaq, burada bütün otaqlar həmişə dolu olacaqdır. Çünki belə gözəl otelin yaradılması şəhərimizin həyatında çox əlamətdar bir hadisədir.

Azərbaycanda dünya şöhrətli otellərin markaları fəaliyyət göstərir. Ancaq uzun müddət ərzində yeni otellər, demək olar ki, tikilmirdi. Amma indiki zamanədə yeni otellərin fəaliyyətə başlaması üçün çox gözəl şərait var – Azərbaycanın sürətli iqtisadi inkişafı, gözəl investisiya mühiti. Biz Azərbaycana gələn turistlərin ildən-ilə artmasını müşahidə edirik. Əlbəttə ki, bundan sonra da gözəl otellər tikilməlidir. Məndə olan məlumata görə, yaxın zamanlarda digər dünya şöhrətli otel şəbəkələri Azərbaycana gələcəkdir.

Çox əlamətdar hadisədir ki, bu otel məhz Heydər Əliyev adına Beynəlxalq Hava Limanının yaxınlığında tikilmişdir. Bu onu göstərir ki, Azərbaycan beynəlxalq hava nəqliyyatı üçün də regional mərkəzə çevrilir. Əgər belə olmasaydı, otelin aeroportda tikilməsinə də ehtiyac olmazdı. Biz bilirik ki, yalnız böyük beynəlxalq hava limanlarında bu səviyyəli otellər tikilir.

Azərbaycanın coğrafi vəziyyəti, onun nəqliyyat infrastrukturunun möhkəmlənməsi, əlbəttə ki, bu otelin məhz burada tikilib istifadəyə verilməsinə şərait yaradıbdır.

Azərbaycanda bütün nəqliyyat infrastrukturu, xüsusilə hava nəqliyyatı möhkəmlənir. Azərbaycanda bir neçə beynəlxalq aeroport tikilib və tikilməkdədir – Bakı, Naxçıvan, Gəncə, Lənkəran, Zaqatala. Bütün bunlar bizim güclü nəqliyyat infrastrukturumuzun möhkəmlənməsinə də şərait yaradır. İndi Azərbaycandan başqa ölkələrə uçuşların sayı artır, yeni reyslər açılır, bizim başqa ölkələrlə hava körpülərimiz yaranır, müasir tipli «Boinq» və «Aerobus» təyyarələri alınır. Demək olar ki, indi «Azal»ın parkında bu təyyarələr üstünlük təşkil edir və yəqin bir neçə ildən sonra artıq bizdə sovet istehsallı köhnə təyyarələr qalmayacaqdır.

Bildiyiniz kimi, bu yaxınlarda imzalanmış müqavilələrə görə Azərbaycana dünyanın ən müasir təyyarələrinin gətirilməsi də nəzərdə tutulur. «Boinq-787» drimlayner adlanan təyyarə bütün postsovet məkanında ilk olaraq Azərbaycana gələcəkdir və bizim aviaşirkətimiz ondan istifadə edəcəkdir. Bütün bunlar Azərbaycanın ümumi inkişaf dinamikasının əlamətləridir. Bizim ölkəmiz hərtərəfli inkişaf edir. İqtisadi inkişaf, o cümlədən sənayenin inkişafı, uğurlu neft strategiyamız, Azərbaycanın dünya birliyinə inteqrasiyası, dünya birliyində özünə layiq yerini tutması, xidmət sektorunun inkişafı, çox liberal iqtisadi siyasət, investisiyaların qorunması, gözəl investisiya iqliminin formalaşması, xarici və daxili investisiyaların artımı, özəl sektora, qeyri-neft sektoruna olan diqqət, infrastruktur layihələrinin icrası – bütün bunlar bir-biri ilə sıx bağlı olan məsələlər, istiqamətlərdir. Azərbaycanda elə sahə yoxdur ki, orada inkişaf, özü də çox güclü inkişaf olmasın. Bütün bunları iqtisadi artım mümkün edir.

Bizim ölkəmiz artıq bundan sonra maliyyə çətinlikləri ilə üzləşməyəcəkdir. Bundan sonra biz ancaq və ancaq irəliyə gedəcəyik, ancaq və ancaq öz iqtisadi və maliyyə potensialımızı gücləndirəcəyik. Belə olan halda, əlbəttə ki, Azərbaycanda istənilən sosial məsələlər öz həllini tapa bilər və biz bu gün bunu görürük.

Azərbaycanda «Holiday İNN» otelinin fəaliyyətə başlaması çox böyük əhəmiyyətə malik olan hadisədir. Bu sadəcə, yeni bir otelin açılışı, fəaliyyətə başlaması deyildir. Bu onu göstərir ki, Azərbaycanın bu gününə, Azərbaycanın gələcəyinə inam var. Xarici investorlar Azərbaycana inanırlar, əmindirlər ki, bura qoyulan böyük həcmdə sərmayə qaytarılacaq, onlar bundan gəlir əldə edəcəklər. Belə olan halda, əlbəttə ki, bu, növbəti investisiyaların gəlməsi üçün gözəl şəraitdir. İstənilən ölkədə biləndə ki, Azərbaycanda «Holiday İNN» oteli də fəaliyyət göstərir, əlbəttə, bu, ölkəmizin infrastrukturuna, xidmət sektoruna daha da böyük marağın yaranmasına gətirib çıxaracaqdır.

Əlbəttə, mən otelin xarici görünüşü ilə tanış idim, hamımız bunu görürdük. Amma ilk dəfədir otelin içindəyik və deyə bilərəm ki, daxili tərtibatı, görünüşü xarici görünüşündən daha da üstündür. İşlər çox yüksək səviyyədə görülüb, gözəl materiallardan istifadə olunubdur. Çox keyfiyyətli avadanlıq var və səviyyə də çox yüksəkdir. Bu da məni çox sevindirir. Çünki mən istəyirəm ki, Azərbaycanda yeni yaradılan, tikilən hər bir müəssisə, hər bir otel, hər bir sənaye obyekti dünyanın ən yüksək standartlarına cavab versin. Bu otelin timsalında biz bunu görürük.

Bir daha demək istəyirəm ki, bu gözəl gündə otelin açılışı çox əlamətdar hadisədir. Bu onu göstərir ki, Azərbaycan düzgün istiqamətdə inkişaf edir, bizim çox gözəl gələcəyimiz var. Otelin bütün işçilərinə uğurlar arzulayıram. Arzu edirəm ki, burada yaxşı işləsinlər, qonaqlara yaxşı xidmət göstərsinlər.

Otelin fəaliyyətinə uğurlar arzulayıram. Əminəm ki, fəaliyyəti uğurlu olacaq və Azərbaycanın ümumi inkişafına öz töhfəsini verəcəkdir. Sağ olun.

## MƏŞHUR AZƏRBAYCANLI PİANOÇU, BƏSTƏKAR VƏ CAZ İFAÇISI ƏZİZƏ MUSTAFAZADƏ VƏ ANASI, TANINMIŞ MUSİQİÇİ ELZA MUSTAFAZADƏ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 iyun 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 14-də Prezident sarayında Beynəlxalq Bakı Caz Festivalında iştirak edən məşhur azərbaycanlı pianoçu, bəstəkar və caz ifaçısı Əzizə Mustafazadəni və anası, tanınmış musiqiçi Elza Mustafazadəni qəbul etmişdir.*

*Dövlətimizin başçısı Beynəlxalq Bakı Caz Festivalının Azərbaycanın mədəni həyatında əhəmiyyətini vurğuladı. Respublikamızın hüdudlarından kənarda Azərbaycan mədəniyyətini layiqincə təmsil edən Əzizə Mustafazadənin ölkəmizlə bundan sonra da mütəmadi əlaqə saxlayacağına əminliyini ifadə etdi.*

*Sənətinə verilən yüksək qiymətə görə Azərbaycan prezidenti İlham Əliyevə minnətdarlıq edən Əzizə Mustafazadə əldə etdiyi nailiyyətlərdə dövlətimizin başçısının qayğısını daim hiss etdiyini bildirdi.*

## MƏŞHUR OPERA MÜĞƏNNİSİ, SSRİ XALQ ARTİSTİ YELENA OBRAZTSOVA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 iyun 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 14-də Prezident sarayında məşhur opera müğənnisi, SSRİ Xalq artisti Yelena Obraztsovanı qəbul etmişdir.*

*Tanınmış opera müğənnisi Yelena Obraztsova xalqımızın ümummilli lideri Heydər Əliyevlə bağlı xatirələrini böyük ehtiramla xatırladı. Uzun müddət Bakıya səfər etmədiyini deyən müğənni indiki səfəri zamanı ölkəmizdə çox böyük inkişafın getdiyini, aparılan abadlıq işlərinin onda böyük heyranlıq doğurduğunu qeyd etdi.*

*Dövlətimizin başçısı Azərbaycanın iqtisadi inkişafı, tarixi abidələrimizin qorunması, bərpa edilməsi və mədəniyyətimizin inkişaf etdirilməsi sahəsində görülən işlərdən danışdı.*

**AZƏRBAYCAN RESPUBLİKASININ XALQ ARTİSTİ FİDAN QASIMOVAYA**

Hörmətli Fidan xanım!

Sizi – Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsini yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz Azərbaycan vokal sənətinin inkişafında böyük xidmətləri olan nadir sənətkarlarımızdansınız. Opera səhnəmizdə aparıcı partiyaların mahir ifaçısı kimi, Sizin adınız incəsənət tariximizə həmişəlik daxil olmuşdur. Milli opera və dünya musiqi xəzinəsinin şah əsərlərində yaratdığınız rəngarəng səhnə obrazları öz təkrarolunmaz ifa tərzi ilə mütəxəssislər tərəfindən əsl sənət inciləri kimi qiymətləndirilmişdir.

Yaratdığınız unikal konsert proqramları milli ifaçılıq məktəbinin inkişafında yeni bir mərhələ təşkil edərək, klassik opera irsinin təbliğində mühüm rol oynamışdır. Azərbaycan bəstəkarlarının əsərləri və xalq mahnılarımızın ifaçısı kimi də Siz böyük rəğbət qazanmısınız.

Siz Azərbaycan mədəniyyətinin xarici ölkələrdə təbliği işinə layiqli töhfələr vermisiniz. Azərbaycan musiqisinin əsrarəngiz gözəlliyi Sizin ifanızda yeni çalarlarla zənginləşərək, ölkəmizin musiqi şöhrətinin artmasına xidmət etmişdir.

Opera sənətinin sirlərinə yeni nəslin yiyələnməsi sahəsində uğurla çalışaraq, Bakı Musiqi Akademiyasında uzun illərdən bəri göstərdiyiniz pedaqoji fəaliyyətiniz də təqdirəlayiqdir.

Ümidvaram ki, bundan sonra da müstəqil Azərbaycan Respublikasının mədəniyyətinin inkişafı naminə var qüvvənizi sərf edəcək, pərəstişkarlarınızı yeni müvəffəqiyyətlərlə sevindirəcəksiniz.

Sizə möhkəm cansağlığı, səadət və sənət uğurları arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 iyun 2007-ci il*

## GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ MİXEİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 iyun 2007-ci il*

*İyunun 18-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Respublikasının Prezidenti Mixeil Saakaşvilinin görüşü olmuşdur.*

*Dövlətimizin başçısı Gürcüstan rəhbərini Prezident sarayının önündə səmimiyyətlə qarşıladı.*

*Görüş zamanı dövlət başçıları* iqtisadiyyat, energetika, *nəqliyyat sahələrində Azərbaycan–Gürcüstan münasibətlərinin* ugurla *inkişafından razı qaldıqlarını bildirdilər.* GUAM-*ın* artmaqda olan rolu *və ikitərəfli münasibətlərin inkişafı baxımından* əhəmiyyəti *vurğulandı, həm* bu regional qurum, *həm də digər beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrin genişlənəcəyinə əminlik ifadə* olundu.

## UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ VİKTOR YUŞŞENKO İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 iyun 2007-ci il*

*İyunun 18-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ukrayna Respublikasının Prezidenti Viktor Yuşşenkonun görüşü olmuşdur.*

*Dövlətimizin başçısı Ukrayna rəhbərini Prezident sarayının önündə səmimiyyətlə qarşıladı.*

*Görüş zamanı tərəflər Azərbaycan–Ukrayna əlaqələrinin dinamik inkişafından, iki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığının səviyyəsindən razı qaldıqlarını bildirdilər. Azərbaycan və Ukrayna prezidentləri ölkələrimizin xalqlarının mənafelərinə xidmət edən GUAM-ın beynəlxalq siyasətdə rolunun getdikcə artdığını vurğuladılar.*

## POLŞA RESPUBLİKASININ PREZİDENTİ LEX KAÇİNSKİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 iyun 2007-ci il*

*İyunun 18-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Polşa Respublikasının Prezidenti Lex Kaçinskinin görüşü olmuşdur.*

*Dövlətimizin başçısı Polşa rəhbərini Prezident sarayının önündə səmimiyyətlə qarşıladı.*

*Təkbətək görüş zamanı bütün sahələrdə uğurla inkişaf edən Azərbaycan–Polşa əlaqələrindən danışıldı, iki ölkə arasında qarşılıqlı surətdə faydalı əməkdaşlığın genişlənməsində GUAM-ın rolu vurğulandı.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Prezident! Sizi bir daha salamlayıram. Bizi maraqlandıran bir çox məsələlərə dair səmimi, konstruktiv diskussiyamız oldu və geniş tərkibdə görüşdə də ikitərəfli əlaqələr, uğurla inkişaf edən regional əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparacağıq.

Çox minnətdarıq ki, Siz dəvətimizi qəbul etdiniz və inkişafının çox mühüm mərhələsini yaşayan təşkilatın – GUAM-ın zirvə görüşündə iştirak edirsiniz.

Mən Sizinlə belə intensiv dialoqu Azərbaycana rəsmi səfərinizin, uğurla keçən və yaxşı inkişaf edən Krakov energetika sammitində möhkəmlənmiş əlaqələrimizin davamı hesab edirəm. İkitərəfli münasibətlərin qarşılıqlı surətdə faydalı zəmində və mühüm layihələrin gerçəkləşdirilməsi əsasında inkişaf etdirilməsi baxımından biz çox nikbinik.

Xüsusilə mühümdür ki, Bakıya Sizin üçün belə əziz bir gündə – doğum gününüzdə gəlmisiniz. Mən Sizi bu gözəl gün münasibətilə səmimi-qəlbdən təbrik etmək və Sizə Polşa xalqının rifahı, Avropanın rifahı naminə fəaliyyətinizdə uğurlar, ölkəyə uzun illər fəal rəhbərlik etməyinizi arzulamaq istəyirəm.

**L e x  K a ç i n s k i:** Cənab Prezident, çox sağ olun. Mən, həqiqətən, buraya doğum günündə gəlmişəm. Azərbaycan və GUAM təşkilatı ilə qarşılıqlı münasibətlərə verdiyim əhəmiyyət mənim doğum günümdən daha önəmlidir. Bu əhəmiyyəti belə bir fakt da təsdiq edir ki, mən Bakıya, GUAM görüşünə Avropa İttifaqının çox vacib, mütəmadi olaraq mart, iyun və dekabrda keçirilən zirvə görüşünə iki gün qalmış gəlmişəm.

## LİTVA RESPUBLİKASININ PREZİDENTİ VALDAS ADAMKUS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 iyun 2007-ci il*

*İyunun 18-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Litva Respublikasının Prezidenti Valdas Adamkusun görüşü olmuşdur.*

*Azərbaycan prezidenti Litva dövlətinin başçısını Prezident sarayının önündə səmimiyyətlə qarşıladı.*

*Görüş zamanı dövlət başçıları bildirdilər ki, Azərbaycan–Litva əlaqələri uğurla inkişaf edir. Litva prezidenti vurğuladı ki, onun ölkəsi Avropa İttifaqı ilə danışıqlar prosesində Azərbaycanın mövqeyini daim dəstəkləyib və indi də dəstəkləyir.*

*Prezident İlham Əliyev bu dəstəyi yüksək qiymətləndirərək dedi ki, Avropa İttifaqının «Yeni qonşuluq siyasəti» proqramı çərçivəsində Azərbaycanda beşillik tədbirlər planının əməli şəkildə həyata keçirilməsinə başlanmışdır.*

**BOLQARISTAN RESPUBLİKASININ VİTSE-PREZİDENTİ ANQEL MARİN İLƏ GÖRÜŞ**

*Prezident sarayı*

*18 iyun 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Prezident sarayında Bolqarıstan Respublikasının vitse-prezidenti Angel Marini qəbul etmişdir.*

*Azərbaycan–Bolqarıstan əlaqələrinin uğurla inkişaf etdiyindən razılığını söyləyən dövlətimizin başçısı bildirdi ki, GUAM-ın Bakıda keçirilən zirvə görüşündə Bolqarıstan nümayəndə heyətinin iştirakı ikitərəfli münasibətlərin genişlənməsinə təkan verəcək, habelə dünyada GUAM-ın artmaqda olan əhəmiyyətinin təsdiqidir. Azərbaycan və Bolqarıstan rəhbərlərinin qarşılıqlı səfərləri, onların arasında yaranmış dostluq münasibətləri də dövlətlərimizin əlaqələrinin möhkəmlənməsi üçün yaxşı bazadır.*

*Bolqarıstanın vitse-prezidenti Angel Marin GUAM-ın Bakıdakı zirvə görüşündə ölkəsinin nümayəndə heyətinin iştirakından məmnun qaldığını bildirdi və Azərbaycan torpağında qonaqpərvərliklə qarşılandığını vurğuladı. O dedi ki, zirvə görüşündə Bolqarıstanın iştirakı regionun inkişafı ilə bağlı məsələlərdə GUAM-ın rolunun artdığını göstərir.*

## MOLDOVA RESPUBLİKASININ BAŞ NAZİRİ VASİLE TARLEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 iyun 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 18-də Prezident sarayında Moldovanın Baş naziri Vasile Tarlevi qəbul etmişdir.*

*Görüş zamanı Azərbaycan–Moldova əlaqələrinin uğurla inkişaf etdiyi vurğulandı, GUAM çərçivəsində ikitərəfli əmək-daşlığın genişlənəcəyinə əminlik ifadə olundu.*

*Moldova hökumətinin başçısı Azərbaycanın iqtisadi uğurlarına, ölkəmizdə gedən genişmiqyaslı quruculuq işlərinə həqiqətən heyran qaldığını söylədi.*

# YAPONİYA XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MİTODZİ YABUNAKA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 iyun 2007-ci il*

*İyunun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Prezident sarayında Yaponiya Xarici İşlər nazirinin müavini Mitodzi Yabunakanı qəbul etmişdir.*

*GUAM-ın Bakıda keçirilən zirvə görüşündə Yaponiyanın iştirakından məmnun qaldığını söyləyən diplomat bu beynəlxalq foruma dəvətə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi. O, Yaponiya–Azərbaycan münasibətlərinin bütün sahələrdə yüksək səviyyədə olduğunu vurğuladı.*

*Dövlətimizin başçısı Azərbaycanla Yaponiya arasında fəal inkişaf edən əlaqələrdən danışaraq, ikitərəfli əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əmin olduğunu bildirdi. Prezident İlham Əliyev dedi ki, GUAM-ın zirvə görüşündə Yaponiyanın iştirakı Azərbaycan–Yaponiya əməkdaşlığı imkanlarını daha da genişləndirəcəkdir.*

## BAKIDA GUAM–POLŞA GÖRÜŞÜ

*Prezident sarayı*

*18 iyun 2007-ci il*

*İyunun 18-də Bakıda Prezident sarayında GUAM–Polşa formatında görüş keçirilmişdir.*

**İ l h a m  Ə l i y e v:** Mən hamınızı Azərbaycanda bir daha səmimi-qəlbdən salamlayıram. Biz sizinlə ikitərəfli məsləhətləşmələr apardıq, münasibətlərimizin yeni formatında yığışmışıq. Polşa prezidenti Lex Kaçinskini əziz qonaq kimi salamlamaq mənə çox xoşdur. Onun GUAM-in zirvə görüşündə iştirakı bu hadisəyə xüsusi əhəmiyyət verir. Bu gün yeni GUAM–Polşa formatı çərçivəsində bizi birləşdirən, təkcə ölkələrimiz üçün deyil, həm də geniş mənada regional əməkdaşlıq baxımından qarşılıqlı maraq doğuran məsələləri müzakirə edəcəyik.

Bütövlükdə Avropa İttifaqı ölkələri prezidentlərinin GUAM zirvə toplantısında iştirakı təşkilata marağın, onun əhəmiyyətinin, ciddi beynəlxalq qurum kimi təşəkkülünün parlaq sübutudur. Biz bu yaxınlarda təxminən belə tərkibdə Krakovda görüşmüşdük, çox ətraflı diskussiya apardıq. Münasibətlərimizin gündəliyi çox genişdir və həm siyasi münasibətləri, həm iqtisadi inteqrasiyanı, həm nəqliyyat və energetika sahələrində qarşılıqlı fəaliyyət məsələlərini, həm də humanitar əməkdaşlığı əhatə edir. Başqa sözlə, ölkələrimizin həyatının bütün cəhətləri bu və ya digər dərəcədə bizim ikitərəfli və çoxtərəfli əlaqələrimizin mövzusudur.

Sizi bir daha ürəkdən salamlamaq və zirvə toplantısında iştirakınıza görə təşəkkürümü bildirmək istəyirəm. Ümidvaram ki, sabahkı gün də bugünkü kimi uğurlu olacaqdır.

**L e x  K a ç i n s k i:** GUAM ölkələri dövlət başçılarının zirvə görüşünə dəvətə görə dərin minnətdarlığımı bildirirəm. Polşanın bu mötəbər tədbirdə təmsil olunmasını ölkəmizin,

eləcə də Avropa İttifaqının GUAM çərçivəsində əməkdaşlığa verdiyi böyük əhəmiyyətin əyani nümunəsi kimi dəyərləndirirəm.

*Görüşdə GUAM–Rolşa əməkdaşlığına dair ətraflı fikir mübadiləsi aparıldı.*

*Görüşün sonunda xatirə şəkli çəkdirildi.*

* * *

*İyunun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından GUAM dövlət başçıları zirvə görüşü iştirakçılarının şərəfinə ziyafət verilmişdir.*

*Ziyafətdə çıxış edən prezident İlham Əliyev dövlət başçılarını və digər qonaqları salamlayaraq, onlara zirvə görüşündə iştirak etmək barədə dəvəti qəbul etdiklərinə və Azərbaycan paytaxtına gəldiklərinə görə minnətdarlığını bildirdi. Azərbaycan prezidenti GUAM çərçivəsində əməkdaşlığın, inteqrasiya proseslərinin vacibliyini vurğuladı, zirvə görüşündə təmsil olunan ölkələrin xalqlarına sülh, tərəqqi və firavanlıq arzuladı.*

* * *

*İyunun 18-də GUAM-ın zirvə görüşündə iştirak edən dövlət başçıları və onların xanımları, digər qonaqlar Yaşıl Teatrda konsertdə olmuşlar.*

*Azərbaycan incəsənət ustalarının geniş konsert proqramı böyük maraqla qarşılandı.*

## DEMOKRATİYA VƏ İQTİSADİ İNKİŞAF UĞRUNDA TƏŞKİLAT – GUAM ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ 2-ci ZİRVƏ GÖRÜŞÜNDƏ NİTQ*

*«Gülüstan» sarayı*

*19 iyun 2007-ci il*

Hörmətli cənab prezidentlər!
Hörmətli nümayəndə heyətlərinin başçıları!
Hörmətli qonaqlar, xanımlar və cənablar!
Mən sizin hamınızı Azərbaycanda ürəkdən salamlayıram. Ölkəmizə xoş gəlmisiniz!

Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilatın – GUAM-ın Bakı zirvə görüşü çox önəmli hadisədir. Təşkilatımız son bir il ərzində çox sürətlə inkişaf edibdir, bütün strukturları artıq fəaliyyətdədir. Əminəm ki, bugünkü zirvə görüşü təşkilatımızın gələcək fəaliyyətinə də çox böyük töhfə verəcəkdir.

Bu fürsətdən istifadə edərək, son bir il ərzində GUAM-a sədrlik etmiş Ukraynaya və onun prezidenti cənab Viktor Yuşşenkoya göstərdiyi fəaliyyətə, təşkilatın inkişafına və formalaşmasına verdiyi töhfəyə görə dərin minnətdarlığımı bildirmək istəyirəm. Bugünkü zirvə görüşündə bizimlə bərabər,

---

* 2-ъи зирвя эюрцшцндя Ukrayna prezidenti Viktor Yuşşenko, Gürcüstan prezidenti Mixeil Saakaşvili, Moldovanın Baş naziri Vasile Tarlev, Polşa prezidenti Lex Kaçinski, Litva prezidenti Valdas Adamkus, Rumıniya prezidenti Trayan Besesku, Bolqarıstanьн vitse-prezidenti Angel Marnің, Естонийа парламенти сядринин мцавини Кристина Ойуланд, Латвийанын Игтисадиййат назири Йури Страдс, АБШ Дювлят катиби мцавининин кюмякчиси Девид Креймер вя ЭУАМ-ын Баш катиби Валерии Чечелашвили чыхыш етдиляр.

dostlarımız, dost ölkələrin prezidentləri də iştirak edirlər. Mən onları xüsusi salamlamaq istəyirəm. Bu gün bizimlə bərabər olan Litva, Polşa, Rumıniya prezidentlərini, Bolqarıstanın vitse-prezidenti, Latviya, Estoniya, Amerika Birləşmiş Ştatlarının nümayəndə heyətlərinin başçılarını səmimiyyətlə salamlayıram. Bu özlüyündə bir göstəricidir. Onu göstərir ki, GUAM təşkilatı qısa müddət ərzində çox ciddi beynəlxalq təşkilata çevrilmişdir. GUAM-ın məramı, məqsədləri, niyyətləri dost ölkələr üçün də maraqlıdır. Biz ortaq maraqlar üzərində işləyirik. GUAM dövlətlərinin ikitərəfli formatda gözəl münasibətləri, çoxtərəfli formatda münasibətləri, əlbəttə ki, təşkilatın güclənməsinə gətirib çıxarır.

Avropa İttifaqına üzv olan ölkələrin rəhbərlərinin bu gün bizimlə bərabər iştirakı, əlbəttə ki, təşkilatın gələcək fəaliyyəti üçün də çox böyük əhəmiyyət daşıyır. Əminəm ki, bu zirvə görüşü həm təşkilatın gələcək fəaliyyətinə, həm də ki, geniş mənada regional əməkdaşlıq məsələlərinə çox böyük töhfə verəcəkdir.

Bu gün biz artıq regional əməkdaşlığın yeni formatı haqqında söhbət aparırıq. Xəzər dənizi, Qara dəniz, Baltik dənizi regionlarının əməkdaşlığından söhbət gedir. Bizim iqtisadi əlaqələrimiz, siyasi niyyətlərimiz, güclü siyasi dialoqun mövcudluğu, bununla bərabər, real, konkret proqramların, layihələrin mövcud olması, əlbəttə ki, bizi daha da birləşdirir. Regional əməkdaşlıq çərçivəsində Avrasiya materikində mühüm rola malik olan GUAM təşkilatı və dost ölkələrin bu təşkilata olan diqqəti, əlbəttə ki, bizim qarşımızda duran məqsədlərin həlli üçün çox gözəl şərait yaradır.

İqtisadi əməkdaşlıq sahəsində çox böyük imkanlar var. Deyə bilərəm ki, Azərbaycanda son illər ərzində iqtisadi artım çox sürətlə gedir. Biz son üç il ərzində iqtisadi artım baxımından dünyada birinciliyi saxlayırıq. 2005-ci ildə iqtisadiyyatımız 25 faiz, 2006-cı ildə 35 faiz, 2007-ci ilin beş ayında yenə də 35 faiz artmışdır. Şübhəsiz ki, bizim iqtisadi potensialımız gücləndikcə, dost ölkələrlə iqtisadi əlaqələrimiz də möhkəmlənir. Siyasi müstəvidə çox gözəl münasibətlər var. Bir daha demək istəyirəm ki, bizim təşkilatı birləşdirən siyasi məramlar da, məqsədlər də eynidir, Avroatlantik strukturlarına inteqrasiya

məsələləridir. Bu gün bizimlə bərabər həm Avropa İttifaqının, həm də NATO-nun üzvü olan ölkələrin rəhbərlərinin iştirakı, əlbəttə, inteqrasiya siyasətimizi daha da gücləndirir və əməkdaşlıq üçün yeni imkanlar açır.

Biz siyasi və iqtisadi əlaqələrlə bərabər, eyni zamanda, konkret layihələr üzərində də çalışırıq. Xüsusilə enerji, nəqliyyat və başqa sahələrdə. Azərbaycan çox önəmli neft-qaz hasil və ixrac edən ölkəyə çevrilir. Bizim çox böyük neft yataqlarımız var. Azərbaycan nefti artıq müxtəlif istiqamətlərlə dünya bazarlarına nəql edilir. Üç böyük neft kəmərinin fəaliyyəti Azərbaycan neftini həm Avropa, həm də dünya bazarlarına çıxarır. Dəqiqləşdirilmiş son məlumata görə, Azərbaycanda təkcə «Azəri», «Çıraq», «Günəşli» yataqlarında 1 milyard 200 milyon ton neft ehtiyatı vardır. Bu yataqlarda istismar işləri səmərə ilə davam etdirilir. Gələn il Azərbaycanda gündə azı 1 milyon barrel neft hasil ediləcəkdir. Bu, böyük göstəricidir. Gələcək illərdə biz bu rəqəmi artıracağıq.

Bakı–Supsa, Bakı–Novorossiysk, Bakı–Tbilisi–Ceyhan neft kəmərləri fəaliyyətdədir. Bu yaxınlarda Krakovda zirvə görüşündə Odessa–Brodı–Qdansk neft kəməri haqqında geniş fikir mübadiləsi aparılmışdır. Ölkələrimiz tərəfindən siyasi dəstək verilmişdir. Artıq qısa müddət ərzində işçi qruplarının da fəaliyyəti başlanmışdır. Deyə bilərəm ki, fəaliyyət çox uğurludur. Əminəm ki, birgə səylər nəticəsində biz bu istiqamətdə də ixracın və bəzi ölkələr üçün idxalın şaxələndirilməsini təmin edəcəyik. Bununla bərabər, Azərbaycanda kəşf olunan nəhəng «Şahdəniz» yatağından və digər yataqlardan çıxarılacaq qaz da Avropa bazarı üçün böyük maraq kəsb edir.

Biz artıq bu sahədə böyük işlər görürük. Azərbaycanda hazırda istismarda olan mövcud yataqlarda qaz ehtiyatı 1,5 trilyon kubmetrdir. Bu çox böyük rəqəmdir. Artıq Azərbaycan qazını Avropa bazarına çatdırmaq üçün ən müasir nəqliyyat infrastrukturu mövcuddur. Bakı–Tbilisi–Ərzurum qaz kəməri artıq fəaliyyətdədir. Azərbaycan bu ildən başlayaraq qaz ixrac edən ölkəyə çevrilibdir. Hazırda Gürcüstanın qaz bazarının təxminən 70–75 faizini Azərbaycan qazı təmin edir. Əminəm ki, bu ilin sonuna qədər Azərbaycan qazı Türkiyə və Yunanıstana nəql edilməyə başlayacaqdır. Beləliklə,

Azərbaycan öz qaz potensialı ilə Avropa İttifaqının bazarına daxil olacaqdır. Bu hələ işin ilkin mərhələsidir. Əminəm ki, qazın hasilatı Avropada mövcud olan tələbata uyğun şəkildə artırılacaq və Azərbaycan çox etibarlı enerji tərəfdaşı olacaqdır. Biz Avropa İttifaqı ilə enerji sahəsində strateji əməkdaşlıq haqqında ilkin anlaşma memorandumu imzaladıq. Enerji sahəsində gələcək fəaliyyətimizi bu çərçivələrdə aparacağıq.

Nəqliyyat məsələləri də böyük əhəmiyyət daşıyır. Biz, demək olar ki, Xəzər dənizindən Avropaya və dünya bazarlarına enerji dəhlizlərini açdıq. Bu neft və qaz kəmərləri ilə artıq bu yolu reallığa çeviririk. Əlbəttə ki, bunun ardınca nəqliyyat infrastrukturu da inkişaf etməlidir. Türkiyə və Gürcüstanla birlikdə biz Avropanı Asiya ilə birləşdirəcək dəmir yolu layihəsi üzərində çalışırıq. Bu da çox böyük, həm iqtisadi, həm geosiyasi əhəmiyyətə malik olan layihədir. Əminəm ki, biz Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisinə yaxın zamanlarda başlayacağıq. Bu dəmir yolu Avropanı Asiya ilə birləşdirəcəkdir. Bu dəhlizlə daşınacaq yüklər, əlbəttə ki, həm idxal edən, həm də ixrac edən ölkələrə iqtisadi cəhətdən də böyük səmərə gətirəcəkdir.

Bir sözlə, bizim fəaliyyətimiz müxtəlif müstəvilərdə – həm siyasi, həm iqtisadi, həm regional, həm nəqliyyat, həm də enerji sahələrində, yəni bütün istiqamətlərdə mövcuddur. Bütün istiqamətlərdə real proqramlar var. Bizim təkcə niyyətlərimiz deyil, eyni zamanda, konkret proqramlarımız, təşəbbüslərimiz var. Azərbaycan olduqca çətin geosiyasi vəziyyətdə öz neft strategiyasını uğurla həyata keçirərkən çox böyük uğurlara nail olubdur. Hazırda Azərbaycanın nefti və qazı Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün öz rolunu oynamağa başlayıbdır.

Bizi GUAM ölkələri ilə birləşdirən təkcə tarixi bağlılığımız, siyasi baxışlarımız, ortaq maraqlarımız deyildir. Əfsuslar olsun ki, bizim ölkələrimiz üçün problem yaradan məsələlər də kifayət qədərdir. Onların başlıcası GUAM-ın üç ölkəsində olan separatçı meyillər, separatçı hərəkatlardır. Gürcüstanın, Moldovanın və Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Separatçı rejimlər qanunsuz fəaliyyət göstərərək, ölkələrimizə təcavüz edərək, hərbi təcavüzü həyata keçirərək, etnik

təmizləmə siyasəti apararaq bizim torpaqlarımızın işğal altına düşməsinə nail ola biliblər. Biz çalışırıq ki, məsələni danışıqlar yolu ilə, sülh yolu ilə həll edək. Amma görürük ki, əgər biz güclü dövlət, güclü iqtisadiyyat, güclü hərbi potensial yaratmasaq, çətin ki, separatçı qüvvələr işğal etdikləri ərazilərdən öz xoşu ilə çıxsınlar. Ona görə biz səylərimizi birləşdiririk. Bu gün GUAM-ın dondurulmuş münaqişələrlə bağlı təşəbbüsü çox böyük əhəmiyyət kəsb edir. Bu bizi birləşdirir. Çünki bütün bu separatçı, qanunsuz, kriminal rejimlərin mahiyyəti eynidir. Hər bir ölkədə – Gürcüstanda, Moldovada, Azərbaycanda separatizm baş vermişdir, etnik təmizləmə siyasəti baş vermişdir, ərazimizin işğal altına düşməsi baş vermişdir və milyonlarla insanlarımızın qaçqın-köçkün vəziyyətinə düşməsi baş vermişdir. Təbii ki, biz məsələnin həllini ancaq və ancaq beynəlxalq hüquq əsasında görürük. Ərazi bütövlüyümüzün bərpa olunması başlıca şərtdir. Avropanın ən gözəl təcrübəsindən istifadə edib yüksək statuslu muxtariyyət verilməsinə də razılıq verə bilərik. Münaqişələr öz həllini ancaq bu əsaslarda tapa bilər. Çox sevindirici haldır ki, GUAM təşkilatı bu məsələyə vahid yanaşma nümayiş etdirir. Dondurulmuş münaqişələrlə bağlı məsələnin Birləşmiş Millətlər Təşkilatında gündəliyə salınması, əlbəttə, bizim çox önəmli siyasi və diplomatik uğurumuzdur.

GUAM-ın indi yeni mərhələsi başlayır. Demokratiya və İqtisadi İnkişaf Uğrunda Təşkilat adında onun mahiyyəti göstərilir. Demokratiya, insan haqları, açıq cəmiyyətin yaradılması, qanunun aliliyi, beynəlxalq və Avropa strukturlarına inteqrasiya məsələləri, bununla bərabər iqtisadi islahatlar, iqtisadi potensialın güclənməsi və insanların həyat səviyyəsinin yaxşılaşması. Azərbaycanda bu iki istiqamətdə paralel işlər görülür. Beləliklə, ölkəmiz müasirləşir, həm iqtisadi, həm siyasi cəhətdən Avropa ilə çox sürətlə inteqrasiya siyasəti aparır. Beləliklə, öz imkanlarını da artırır.

Əziz dostlar, mən bir daha sizi Azərbaycanda ürəkdən salamlamaq istəyirəm. Hər bir qonağa Azərbaycana gəldiyinə görə bir daha öz təşəkkürümü bildirmək istəyirəm. Mən şübhə etmirəm ki, GUAM-ın bugünkü zirvə görüşü həm təşkilatın

fəaliyyətinə, həm də ki, bütövlükdə regionda gedən proseslərə çox ciddi və çox müsbət təsir göstərəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

## YEKUN NİTQİ

Çıxışlarınıza görə çox sağ olun. Beləliklə, görüşümüz sona çatır. Mən sonda diskussiyamıza yekun vurmaq istərdim. GUAM zirvə görüşünün belə geniş tərkibdə keçirilməsi faktından bir daha dərin məmnunluğumu ifadə etmək istərdim. Bir daha demək istəyirəm ki, bu, 10 il əvvəl yaradılmış, ancaq indi, deyərdim ki, özünün ikinci həyatını yaşayan təşkilatımız üçün çox vacibdir. O zaman, 1997-ci ildə GUAM-ın üzvü olan ölkələr dövlətçiliyinin ilkin təşəkkül mərhələsini yaşayırdı. Sovet İttifaqının süqutu nəticəsində ölkələrimiz müstəqillik əldə etmişdi. Müstəqilliyin ilk illəri bütün ölkələr üçün həm iqtisadi, həm siyasi baxımdan çox ağır keçirdi. Əlbəttə, Azərbaycanın, Gürcüstanın və Moldovanın məruz qaldığı təcavüz ölkələrimizin vəziyyətini daha da ağırlaşdırmışdı. Bizim müstəqilliyimiz öz əlimizdə idi və bu gün biz fəxrlə deyə bilərik ki, bütün çətinliklərə, bütün maneələrə, bəzən təzyiqlərə ləyaqətlə tab gətirdik. Bu gün demək olar ki, müstəqilliyimizdən 15 il ötəndən sonra biz ayaq üstə möhkəm dayanmış, müstəqil dövlət olmuş, Avropada, dünyada yerimizi və rolumuzu tapmışıq.

Əminəm ki, bu gün biz GUAM təşkilatında birləşərək əməkdaşlıq, Avrasiya materikində demokratik proseslərin inkişafı, siyasi sistemin təkmilləşdirilməsi və Avropa strukturlarına inteqrasiya işində mühüm rol oynamışıq və bundan sonra da oynayacağıq. Çox sevindirici haldır ki, GUAM-ın əməkdaşlıq formatı genişlənir. Uzun illər boyu ənənəvi olaraq bu, GUAM–ABŞ formatı idi. Biz Amerika Birləşmiş Ştatları hökumətinin təşkilatımızın fəaliyyətinə dəstəyini daim hiss etmişik. Bu gün biz bu coğrafiyanı genişləndiririk. Artıq qeyd olundu ki, dünən təşkilatın GUAM–Polşa, GUAM–Yaponiya görüşləri kimi yeni formatları keçirilmişdir. Bu bir tərəfdən, Avropa İttifaqı, digər tərəfdən isə dünyanın aparıcı iqtisadiyyatlarından biri – Asiya qitəsidir. Təşkilatımızın coğrafiyası genişlənir. Dost ölkələrin

prezidentlərinin və Avropa İttifaqının üzvü olan dövlətlərin rəhbərliyinin iştirakı – bütün bunlar çox mühüm elementlərdir. Öz strukturunu və aparatını bu yaxınlarda formalaşdırmış bir təşkilat üçün bu çox böyük uğurdur.

Dünən biz GUAM ölkələrinin prezidentləri ilə təşkilatın indiki vəziyyəti, onun gələcəyi barədə fikir mübadiləsi apararkən hamı belə bir ümumi rəy söylədi ki, bizim aramızda nəinki bu təşkilat daxilində heç bir problemimiz yoxdur, əksinə, GUAM-ın üzvü olan ölkələr arasında çox konstruktiv, dostcasına, açıq münasibətlər yaranmışdır. Həm ikitərəfli, həm çoxtərəfli problemlərin, gərginliyin mövcud olduğu müxtəlif beynəlxalq təşkilatlarda buna heç də həmişə rast gəlinmir. Bizim təşkilat bundan azaddır. Bu çox müsbət haldır. Əminəm ki, belə möhkəm təməl, belə möhkəm zəmin üzərində, belə beynəlxalq dəstəklə biz qarşıya qoyulan məqsədlərə nail ola biləcəyik. Müstəqilliyimizi möhkəmləndirə, iqtisadiyyatı möhkəmləndirə, ölkələrimizin meyarlarını dünyanın inkişaf etmiş ölkələrinin meyarlarına yaxınlaşdıra biləcəyik. İndi biz burada, Qafqazda Avropa İttifaqının Cənubi Qafqaz ölkələri üçün «Yeni qonşuluq» proqramı çərçivəsində fəaliyyət göstəririk. Bu bizə qarşıdan gələn beş il ərzində bütün istiqamətlərdə – siyasi islahatlar, demokratik proseslər, sosial məsələlərin həlli, əhalinin rifah halının yüksəldilməsi, yoxsulluğun azaldılması və sair baxımdan meyarlarımızı Avropa İttifaqının meyarlarına yaxınlaşdırmağa imkan verəcəkdir.

Odur ki, bugünkü zirvə görüşünün əhəmiyyəti çox böyükdür. Təşkilatın fəaliyyəti sırf coğrafi çərçivədən artıq çıxmışdır. Dediyimiz kimi, biz Xəzər dənizi, Qara dəniz və Baltik regionunun ciddi, real, siyasi, iqtisadi inteqrasiyası layihələri üzərində işləyirik. Biz həm də Xəzərin o biri tayında, dənizin şərq sahillərində yerləşən ölkələrlə də fəal əməkdaşlıq edirik. Əlbəttə ki, coğrafi cəhət bundan sonra da mühüm rol oynayacaqdır. Energetika, nəqliyyat, siyasi inteqrasiya – bütün bunlar təşkilatı çox dinamik, real edir, onun üçün böyük imkanlar açır, Əlbəttə, biz məqsədlərimizə nail olmaq üçün bütün bunlardan istifadə edəcəyik. Məqsədlərimiz isə sadə və təbiidir. Biz insanların firavan, təhlükəsiz, azad yaşayacağı və

azad müstəqil ölkədə həyatın bütün gözəlliklərindən həzz alacağı müasir dövlət qurmaq istəyirik.

Bizim ölkələrimiz – GUAM-ın üzvləri çoxəsrlik tarixi boyu digər dövlətlərin tərkibində olmuşlar. Ona görə də bizim üçün azad, müstəqil olmaq ən yüksək sərvət, ən böyük dəyərdir və biz öz gündəlik fəaliyyətimizlə bunu möhkəmləndirmək üçün hər şeyi etməliyik.

Bu gün zirvə görüşünün yekunlarına əsasən, təşkilatın ümumi istiqamətini və gələcək inkişafını, niyyətlərimizi müəyyənləşdirən Bakı bəyannaməsi qəbul ediləcəkdir. Bu bizi narahat edən problemlərin dəqiq əksini tapdığı, ümumi yanaşmaların göstərildiyi çox ciddi sənəddir. Əlbəttə, əminəm ki, Bakı bəyannaməsi və onun siyasi komponenti yaxın il üçün fəaliyyətimizdə çox vacib istiqamət olacaqdır. GUAM-ın sədri olan ölkə kimi, Azərbaycan qarşıdakı ildə təşkilatımızı daha da möhkəmləndirməyimiz üçün öz tərəfindən mümkün olan hər şeyi edəcəkdir.

Bu gün bizi narahat edən, bizi yaxınlaşdıran məsələləri müzakirə etdik. Bütün iştirakçıların çıxışlarında gələcəyimizin tam anlaşılması, onu necə görməsi öz əksini tapmışdır. Əlbəttə, qonaqlarımızın, xüsusilə Avropa İttifaqının üzvü olan ölkələrin prezidentlərinin diqqətini həll edilməmiş, «dondurulmuş» münaqişələrə bir daha cəlb etmək istərdim. Onlar «dondurulmuş» adlanır, lakin «dondurulmamışdır». Bu barışıq çox kövrəkdir və istənilən an pozula bilər. Biz bu məsələnin sülh yolu ilə həllinə çalışırıq. Lakin təəssüf ki, separatçı rejimlərin və onların havadarlarının bu münaqişələri həll etmək arzularını görmürük. Əksinə, biz Gürcüstan, Moldova və Azərbaycanın tarixi torpaqlarını zorla qoparmaq və işğal faktını de-yure təsbit etmək cəhdlərini görürük. Ölkələrimiz və xalqlarımız ərazilərimizin bir hissəsinin qoparılması ilə heç vaxt razılaşmayacaqlar. Ölkələrimizin beynəlxalq aləmdə tanınmış sərhədləri heç vaxt dəyişdirilməyəcəkdir. Dünya birliyi Abxaziya, Cənubi Osetiya, Dnestryanı bölgə və Dağlıq Qarabağdakı kriminal rejimləri heç vaxt tanımayacaqdır. Biz konstruktiv yanaşma təklif edirik, dünyadakı müsbət təcrübədən istifadə olunmaqla ən yüksək özünüidarəyə malik muxtariyyət verilməsini, ölkələrimizin iştirak etdiyi inteqrasiya proseslərinə

qoşulmağı təklif edirik. Təəssüf ki, biz adekvat reaksiya görmürük. Ona görə də Avropa İttifaqı–Cənubi Qafqaz «Yeni qonşuluq» proqramının həyata keçirilməsində də məhz bu cəhətə diqqəti cəlb etmək çox mühüm olardı. İlk növbədə ona görə ki, bu, ən böyük təhlükədir, Qafqazda qeyri-sabitlik təhlükəsidir. Bu – separatizm, tanınmamış kriminal rejimlər Avropanın bədənində qara ləkələrdir, burada qanunsuz əməliyyatlar aparılır, heç bir beynəlxalq monitorinq yoxdur, real şəkildə mövcud olan, lakin rəsmən sanki olmayan qanunsuz silahlı qruplaşmalar fəaliyyət göstərir.

Bizim çox böyük planlarımız, artıq böyük nəticələrimiz vardır. Biz Avrasiya materiki üçün çox mühüm transregional enerji və nəqliyyat layihələri həyata keçiririk. Biz onları təhlükəsizlik şəraitində həyata keçirməliyik. Bu hər bir dövlətin inkişafının başlıca amilidir. İndiki halda isə təhlükə mövcuddur – separatçı rejimlərdən və onların havadarlarından gələn təhlükə. Ona görə də mən dostlarımıza, tərəfdaşlarımıza müraciət etmək istərdim. Ölkələrimizin ərazi bütövlüyünün bərpa edilməsi məsələsində biz daim onların dəstəyini hiss etmişik. Bir də onunla bağlı müraciət etmək istərdim ki, bu cəhət, bizim bu narahatlığımız nəzərə alınsın və Avropa ölkələri, bizim digər tərəfdaşlarımız bundan sonra da məsələnin həllinə kömək etsinlər, bəlkə də hətta daha cəsarətli, daha birmənalı şəkildə kömək etsinlər. İşğalçı – işğalçı adlandırılmalıdır. İşğalçıya havadarlıq edən ifşa olunmalıdır. Qeyri-qanuni hərəkətlər pislənməlidir. Yalnız bu halda məsələni həll etmək olar, əgər qeyri-qanuni hərəkətə yol verən açıq məzəmmət edilmirsə, pislənmirsə, onda həmin cəzasızlıq digərini doğuracaqdır. Bu, qarşısıalınmaz proses olacaqdır.

Mən zirvə görüşünün bütün iştirakçılarına bir daha təşəkkürümü bildirmək istəyirəm. Çox şadam ki, bu iki gün ərzində Azərbaycan belə mühüm beynəlxalq hadisənin məkanına çevrildi. Dəvəti qəbul edib ölkəmizə gəldiklərinə görə prezident dostlarımın hamısına, bütün qonaqlara təşəkkür etmək istəyirəm. Ümidvaram ki, bu iki gün məsələlərin həlli baxımından faydalı, habelə sadəcə, insani ünsiyyət mənasında xoş oldu. Zirvə görüşündə iştirak edən nümayəndə heyətlərinin başçıları ilə bizi çox yaxın dostluq əlaqələri bağlayır və bunun

özü də inteqrasiya proseslərinin inkişafı üçün əhəmiyyətlidir. Ona görə də bir daha hamıya təşəkkür etmək, ən xoş arzularımı bildirmək istəyirəm. Gələcəkdə səmərəli əməkdaşlıq ümidləri ilə diqqətinizə görə təşəkkür edirəm.

* * *

*İyunun 19-da Azərbaycan prezidenti İlham Əliyevin adından Demokratiya və İqtisadi İnkişaf Ugrunda Təşkilat – GUAM-ın üzvü olan ölkələrin dövlət başçılarının Bakıda keçirilən ikinci zirvə görüşü iştirakçılarının şərəfinə rəsmi nahar verilmişdir.*

*Prezident İlham Əliyev dövlət və hökumət başçılarını, digər qonaqları və nümayəndə heyətlərini salamlamışdır.*

## RUMINİYA RESPUBLİKASININ PREZİDENTİ TRAYAN BESESKU İLƏ GÖRÜŞ

*19 iyun 2007-ci il*

*İyunun 19-da Azərbaycan prezidenti İlham Əliyev GUAM-ın üzvü olan ölkələrin dövlət başçılarının Bakıda keçirilən zirvə görüşü çərçivəsində Rumıniya prezidenti Trayan Besesku ilə görüşmüşdür.*

*Dövlət başçıları ölkələrimiz arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini vurğuladılar.*

*Prezident İlham Əliyev dedi ki, ölkəmiz bu sammit çərçivəsində ikitərəfli əlaqələrin inkişafına xüsusi diqqət yetirir. Bununla yanaşı, Avropa İttifaqı ilə əlaqələrin genişlənməsi də diqqət mərkəzindədir.*

*Prezident Trayan Besesku bildirdi ki, xalqlarımız və ölkələrimiz arasında mehriban dostluq münasibətləri var və Rumıniya Azərbaycanla əlaqələrin inkişafında maraqlıdır.*

## GUAM-ın ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI

*«Gülüstan» sarayı*

*19 iyun 2007-ci il*

**İ l h a m Ə l i y e v:** Hörmətli xanımlar və cənablar!

Hörmətli mətbuat nümayəndələri!

GUAM-ın Bakıda keçirilən zirvə görüşü bu gün işini başa çatdırmışdır. Biz dünən və bu gün ərzində görülən işlərin yekunlarından çox razıyıq. GUAM təşkilatı gənc olsa da, çox dinamikdir, çox fəaldır, özünün dirçəliş, mən deyərdim ki, tərəqqi dövrünü yaşayır. Dostlarımızın – Avropa İttifaqının üzvü olan ölkələrin prezidentlərinin və rəhbərlərinin iştirakı təşkilatımızın nüfuzunu artırır.

Təşkilatda çox yaxşı ab-hava, çox yaxşı vəziyyət var, prezidentlər arasında dialoq, şəxsi münasibətlər yüksək səviyyədədir. Biz həm siyasi, həm də iqtisadi müstəvilərdə, həm enerji ehtiyatlarının nəqlinin şaxələndirilməsi baxımından, həm də nəqliyyat məsələlərində əməkdaşlıq edirik. Bizi ərazi bütövlüyünün pozulması ilə əlaqədar ölkələrimizin üzləşdikləri problemlər birləşdirir. Başqa sözlə, ümumi maraqlarımız, ümumi yanaşmalarımız, ümumi baş xəttimiz var. Təbii ki, belə şəraitdə təşkilat dinamik, çox fəal olur və çox mühüm məsələləri həll edə bilər.

Bizim çox yaxşı siyasi niyyətlərimiz, habelə yerinə yetirilməsi ölkələrimizin həm siyasi, həm iqtisadi maraqlarını təmin edən böyük konkret layihələr, proqramlar zərfimiz var.

Mən bilirəm ki, bu gün siz bizim həm salonda keçirilən görüşümüzdə, həm də mətbuat mərkəzində olmusunuz, hamı eşitdi, ona görə də orada baş verənlər barədə danışmağa heç bir ehtiyac yoxdur. Sadəcə olaraq, mən bu mühüm beynəlxalq hadisəyə bir daha öz münasibətimi bildirmək istərdim.

Bu gün GUAM artıq ciddi beynəlxalq təşkilatdır. Düşünürəm ki, o, regional statusdan çıxmışdır, gələcəkdə bütün Avrasiya materikində mühüm rol oynayacaq ciddi beynəlxalq quruma çevrilir. Diqqətinizə görə təşəkkür edirəm.

* * *

*Sonra jurnalistlərin suallarına cavablar verildi.*

**S u a l (*İnter-TV, Ukrayna*): Mənim sualım zirvə görüşünün ev sahibi cənab Əliyevədir. İpək Yolunun enerji baxımından bərpası ilə əlaqədar Odessa–Brodı boru kəməri ilə nəqli üçün Azərbaycan neftinin qiyməti razılaşdırılmışdırmı? Əgər razılaşdırılmışsa, bu hansı məbləğdir? Kəmərin işə düşməsi üçün Azərbaycan neftindən nə zaman istifadə oluna bilər? Qazaxıstan neftindən istifadə etmədən keçinmək mümkün olacaqmı?**

**İ l h a m Ə l i y e v:** Qiymətə gəldikdə, onu bazar müəyyənləşdirir. Təbii ki, neft ticarəti ilə bağlı bütün hallarda hamı üçün eyni olan bazar mexanizmi mövcuddur. Şübhəsiz ki, bu məsələ həm bizim ikitərəfli görüşlərimiz çərçivəsində, həm də dünən Polşa–GUAM formatında görüşdə, habelə bu yaxınlarda keçirilən, layihənin dəstəklənməsi haqqında siyasi qərarın qəbul olunduğu, dərhal işçi qrupunun yaradıldığı – həmin işçi qrupu bu ayın əvvəlində ilk işgüzar iclasını keçirmişdir – Krakov zirvə görüşündə müzakirə edilmişdir. Biz ümid edirik ki, payızda Litvada keçirilməsi planlaşdırılan növbəti zirvə görüşündə gündəliklə bağlı işçi qrupunun konkret tövsiyələrini alacağıq.

Başqa sözlə, biz bu məsələyə əməli baxımdan yanaşmalı və addımları – bir nömrəli addımı, iki nömrəli, üç nömrəli addımı müəyyən etməli və onları həyata keçirməliyik.

Bir daha demək istəyirəm ki, ölkələrimizin ciddi siyasi təşəbbüsləri var, mövcud resurslarımız var. Azərbaycan artıq iri neft hasilatçısına çevrilir. Mən bu gün rəqəmləri misal gətirdim. Gələn il hasilat minimum 50 milyon ton olacaq, Zərurət olarsa 2010-cu ilədək Azərbaycanda neft hasilatını 60 milyon tona çatdırmaq imkanımız vardır. Bakı–Tbilisi–Ceyhan boru kəməri artıq gələn il tam qüvvəsi ilə işləyəcəkdir. Azərbaycan neftini Qara dəniz hövzəsinə nəql edən iki boru kəməri də var, Odessa–

Brodı–Qdansk gələcəkdə məhz Qara dənizdən «qidalanacaqdır».

Ehtiyatlara gəldikdə isə, Azərbaycanda onlar kifayət qədər-dir. Son məlumatlara görə, «Azəri», «Çıraq», «Günəşli» yataqlarında 1,2 milyard ton ehtiyat var. Əlbəttə, tələbat olarsa, bizə nə qədər lazımdırsa, o qədər neft hasil edə bilərik.

Üçüncü ölkələrin neftinin Odessa–Brodı layihəsinə cəlb olunmasına gəldikdə isə bu onların suveren hüququdur. Biz yalnız özümüzün mövcud infrastrukturumuzu təqdim edə bilərik və buna həmişə çox konstruktiv yanaşmışıq. Hazırda Azərbaycanın neft və qaz nəqli üçün infrastrukturu keçmiş sovet məkanında ən müasir infrastrukturdur, çünki bizim neft, qaz kəmərlərimiz bu il və ötən il istifadəyə verilmişdir. Xəzərin şərq sahillərindəki dostlarımızın layihəyə qoşulmaq arzusu olarsa, biz onların istifadə etməsi üçün öz infrastrukturumuzu tam təqdim edə bilərik.

**S u a l (*Alaniya TV, Gürcüstan*): GUAM beynəlxalq təşkilatından münaqişələrin həlli mexanizmi kimi necə istifadə oluna bilər? Sual bütün prezidentlərədir.**

**İ l h a m  Ə l i y e v:** Münaqişələrin həlli regionumuzda uzunmüddətli təhlükəsizlik sistemi yaradılmasının ən mühüm elementidir. Bunlar süni şəkildə yaradılmış münaqişələr, süni şəkildə yaradılmış qurumlardır. Bu gün biz bu barədə yetərincə ətraflı danışdıq, mən təkrar etmək istəmirəm. Nizamasalma mexanizmləri yalnız və yalnız beynəlxalq hüquq normalarına əsaslanmalıdır. Heç bir digər yanaşma ola bilməz. Əgər bu baş verərsə, hər yerdə zəncirvarı reaksiyaya səbəb olacaqdır. Bütün dünyada qəbul edilən ərazi bütövlüyü məsələsinə məxsusi yanaşma ola bilməz. Gürcüstanın, Moldovanın və Azərbaycanın ərazi bütövlüyü dünya birliyi tərəfindən tanınmışdır.

Biz BMT-yə ərazi bütövlüyünə malik dövlətlər kimi daxil olmuşuq. O separatçı hərəkatlar ki, mövcud idi, onlar heç kim tərəfindən tanınmamışdır və heç vaxt heç kim tərəfindən tanınmayacaqdır. Mən tez-tez deyirəm ki, ölkələrimizin ən çox iqtisadi və siyasi çətinliklərlə üzləşdiyi dövrdə əgər bu qeyri-leqal, kriminal rejimlərin müstəqilliyi tanınmadısa, onlar ölkələrimizin artıq sabit inkişaf yoluna çıxdığı və bütün

Avrasiya məkanında çox mühüm rol oynadığı bir vaxtda da heç zaman tanınmayacaqdır.

Təşkilat kimi, GUAM-ın nizamasalma mexanizmi yoxdur. Lakin GUAM getdikcə böyük siyasi nüfuz qazanan təşkilatdır, bu məsələdə, ölkələrimizin ərazi bütövlüyünün bərpası məsələsində, onların işğalına son qoyulması və separatizmin kökünün kəsilməsində dəqiq mövqeyi var, yəni ölkələrimizdəki bütün milli azlıqlar – bizim ölkələr isə çoxmillətlidir – sülh, əmin-amanlıq şəraitində Avropada və bütün dünyada mövcud olan normal təcrübə, muxtariyyət təcrübəsi çərçivəsində yaşasınlar. Bu, məsələnin yeganə həlli ola bilər.

Buna görə indiki halda GUAM-ın rolu bu təşkilatın, şübhəsiz ki, artan siyasi nüfuzu, habelə iqtisadiyyatımızın yüksəlişi ilə müəyyən edilir. Biz isə təşkilatımız çərçivəsində həm iqtisadi, həm enerji baxımından çox fəal inteqrasiya edirik, əmtəə dövriyyəsi, potensial artır. Biz nə qədər güclü olsaq, qanunsuz, kriminal separatçı rejimlərin öhdəsindən bir o qədər asan gələrik.

**Viktor Yuşşenko:** Əlavə etmək istəyərdim. Ümumiyyətlə, söhbətin Dnestryanı bölgə, yaxud Dağlıq Qarabağ və ya Cənubi Osetiya münaqişəsindən getməsindən asılı olmayaraq, münaqişənin həlli formulu beynəlxalq hüquq çərçivəsindədir. Hər şeydən əvvəl, bu, ərazi bütövlüyünün tanınmasıdır. Bu prinsiplə bağlı diskussiya yoxdur. Geniş muxtariyyət. Bu prinsiplə də bağlı diskussiya yoxdur. Buna bənzər münaqişələrin həllində beynəlxalq hüquq, beynəlxalq ənənə bu prinsiplərdən ibarətdir. Başqa alternativ olmayacaqdır. Əlbəttə, GUAM ölkələrinə aid olan bu üç münaqişənin həllində bu yolla gediləcəkdir.

Bu prinsipin mümkün qədər tez başa düşülməsini və hər bir konkret halda lazımi qədər dərindən həyata keçirilməsini təmin etmək üçün əsas yaradan siyasi komponentin olması çox zəruridir. Fikrimcə, burada bir faktor kimi, siyasi dialoqun, siyasi komponentin rolu – o cümlədən də GUAM çərçivəsində – çox böyükdür. Bizim bu gün və hər bir zirvə görüşündə bu problemlə məşğul olmağımız bir daha onu göstərir ki, biz bütün münaqişə tərəflərinə, ictimaiyyətə problemin həllinin yeganə mümkün yolu barədə dolğun bilgilər verməliyik. Qoy heç kim məsələnin digər

üsullarla, hansısa model əsasında həll edilməsi barədə fərsiz ideyalarla yaşamasın. Ona görə mən bu planda apardığımız siyasi dialoqu yüksək dəyərləndirirəm. Biz bu dialoqu aparırıq, o cümlədən vasitələr axtarılması səviyyəsində. Məsələn, söhbətlərin mövzularından biri GUAM ölkələrinin sülhməramlı taburunun formalaşdırılması barədə idi. Heç şübhəsiz, əgər buna müvafiq dəstək olarsa, əgər belə siyasi qəar qəbul edilərsə, əgər bizim diskussiya müsbət nəticələnərsə, bu qüvvələr ya ATƏT-in, yaxud da Birləşmiş Millətlər Təşkilatının mandatı çərçivəsində fəaliyyət göstərəcəkdir.

Biz məsələnin həllinin başqa yollarını da axtaracağıq. Lakin mən Ukrayna adından həm dostlarımıza, həm də GUAM-ın üzvü olan dost dövlətlərə demək istəyirəm ki, bu, GUAM-ın inkişaf strategiyasında bizim üçün ən vacib məsələlərdən biridir. Əlbəttə ki, bu gün «dondurulmuş» adandırdığımız münaqişələrdə sabitlik üçün böyük təhlükə vardır. Ona görə də bu, mahiyyət etibarilə bir nömrəli, ən vacib məsələ kimi həmişə GUAM-ın gündəliyində olacaqdır.

**V a s i l e  T a r l e v:** Mən təsdiqləmək istəyirəm ki, GUAM-ın üzvü olan dövlətlər arasında heç bir fikir ayrılığı yoxdur. GUAM çərçivəsində müzakirə olunan bütün məsələlərdə bizdə yekdillik vardır. Bizim vahid məqsədimiz və məsələlərin həlli üçün, o cümlədən «dondurulmuş» münaqişələr üzrə vahid reseptimiz vardır. Mən təəssüf edirəm ki, Moldova da «dondurulmuş» adlanan münaqişələrin mövcud olduğu ölkələrin siyahısındadır. Tanrı heç kimə ərazisində belə münaqişələrin olmasını göstərməsin. Bunlar süni surətdə yaradılmış, xaricdən dəstəklənən münaqişələrdir. Yaxşıdır ki, indi bütün dünya terrorçuluqla mübarizə aparır. Əgər biz terrorçuluğun – onun növlərindən biri də separatçılıqdır – maliyyə mənbələri ilə mübarizə aparmasaq, bu yolda çox şeyə nail ola bilməyəcəyik. Bunlar «qara ləkələr», bütün ölkələrin, o cümlədən də Avropanın bədənində olan yaralardır və düşünürəm ki, bu mənada GUAM-ın da təsir göstərmək imkanları vardır.

İlk nəticə budur ki, biz «dondurulmuş» münaqişələr məsələsinin Birləşmiş Millətlər Təşkilatının gündəliyinə salınmasına nail olmuşuq. İkincisi – GUAM ciddi beynəlxalq

təşkilata çevrilir, tərəfdaşlarımız ildən-ilə artır. Məhz münaqişələrin beynəlmiləlləşməsi insanlara kömək edir ki, söhbətin nədən getdiyini və bu problemlərin necə həll edilməli olduğunu başa düşsünlər. Biz «dondurulmuş» münaqişələrin həll olunmasının tərəfdarıyıq, lakin dialoq yolu ilə, sülh yolu ilə. Əminəm hamı başa düşəcək ki, gec-tez bu məsələ həll olunacaqdır. Nə qədər tez olsa, bir o qədər yaxşıdır.

**M i x e i l S a a k a ş v i l i:** Mən, sözsüz ki, dostlarımızın bütün dedikləri ilə razıyam. Sadəcə olaraq, demək istəyirəm ki, indi bu dörd xitabət kürsüsündə təmsil edilən ölkələrin hamısı, habelə Avropa İttifaqının üzv ölkələrindən olan dostlarımız – hamımız birlikdə 60 milyon insanı, digər müttəfiqlərimiz və dostlarımızla birlikdə isə 130–140 milyondan artıq insanı təmsil edirik. Bu dörd ölkə prinsip etibarilə bizim hamımızın əlaqələndirdiyi siyasi, iqtisadi, hərbi və digər potensialına görə olduqca böyük qüvvədir. Sərhədlərlə oynamaq lazım deyil, illüziyalarla oynamaq lazım deyil, insanları aldatmaq lazım deyildir.

Cənubi Osetiya televiziyası tərəfindən konkret sual verildi. Bu gün yalnız tamamilə axmaq bir adam inana bilər və tamamilə vicdansız bir adam insanlara sübut etməyə çalışar ki, Cənubi Osetiyanı götürüb başqa bir yerə aparmaq olar. Bu, min illər boyu olmayıb və heç vaxt da olmayacaqdır. Onlar bizim insanlar, bizim vətəndaşlardır. Biz onları sevirik və son min illərdə olduğu kimi, gələcək min illərdə də onlarla sülh və dostluq şəraitində yaşamağa ümid bəsləyirik.

Hazırda Gürcüstan çox dinamik inkişaf edir. Biz az qala Sxinvaliyə qədər avtoban tikirik. Çox yaxşı yolla 50 dəqiqəyə Sxinvalidən Tbilisiyə çatmaq mümkün olacaqdır. Gürcüstanda yüksək iqtisadi artım vardır. Osetinlər çox gözəl gördülər ki, onlar gürcü dövlət hakimiyyətinin bütün səviyyələrində təmsil ediliblər, onları hər yerdə alqışlayırlar, kiçik vəzifələrdən başlayaraq bütün yollar üzlərinə açıqdır. Bəziləri sübut etməyə çalışırlar ki, indi Gürcüstan prezidenti osetindir. Mən buna etiraz etmirəm, soyad bəlkə də osetin soyadıdır. Ona görə də bütün yollar onlar üçün açıqdır. Hesab edirəm ki, bu çox qısa zamanın məsələsidir. Saniyəölçən hamı üçün qoşulubdur. Biz bu məsələni həll edəcəyik. Orada heç bir «dondurulmuş»

münaqişə yoxdur. Düzünü desək, orada insanlar arasında heç bir münaqişə yoxdur və demək olar ki, heç vaxt olmayıbdır. Kriminal keçmişi və kriminal indisi olan bir neçə həddini aşmış konkret yerli adamın cəzalandırılmalı konkret cinayət əməlləri vardır.

Yoldaş Kokoyevə xəbərdarlıq etmək istəyirəm. Onun orada vaxtı bitir. Biz Dmitri Sanakoyev hökuməti ilə muxtariyyət və müvəqqəti administrasiya haqqında danışıqlara başlayırıq. Biz osetinlərə Gürcüstanda bütün vaxtlarda arzu etdikləri hər şeyi verəcəyik. Bu, yaxın bir neçə ayın məsələsidir. O zaman bu məsələ bitəcəkdir.

Bu məsələni sülh yolu ilə və tezliklə həll etmək üçün Gürcüstanın bütün imkanları vardır. Bunu sonsuzluğa qədər təxirə salmaq fikrimiz yoxdur, çünki hər bir səbrin hüdudu vardır. Biz osetinləri sevirik. İnteqrasiya prosesini uzun müddət və böyük səbirlə keçirməyə həmişə hazırıq. Orada hökumət işləməyə başlayıbdır. Hamı görməlidir ki, etnik gürcülər – halbuki, artıq dediyim kimi, bunun mənim üçün sırf şərti mənası var – hələ dünən onlara güllə atan insanlara səs veriblər. Bu, dəqiq sübut edir ki, eyni cəmiyyətdə birlikdə yaşamaq və birlikdə inteqrasiya olunmaq problemi qətiyyən yoxdur. Biz bunu bütün dünyaya göstəririk.

Stereotiplərlə düşünmək lazım deyildir. Gürcüstan və bizim vətəndaşlar, etnik osetinlər – onlar bizim vətəndaşlardır, bizim kimi gürcülərdir – hamıya sübut edəcək ki, münaqişəni necə həll etmək lazımdır. Düşünürəm ki, bu, burada təmsil edilən bütün ölkələr üçün yaxşı nümunə olacaqdır.

**S u a l: (*Moldova TV*) Sual Moldovanın Baş nazirinədir. Cənab Tarlev, yaxın vaxtlarda Moldova GUAM-ın hansı birgə iqtisadi və enerji layihələrində bilavasitə iştirak edəcəkdir?**

**V a s i l e T a r l e v:** Suala görə sağ olun. Qısa desək, bütün layihələrdə. Konkret olaraq isə biz Nabukko qaz kəmərinin tikintisində və Odessa–Brodı neft kəmərinin istifadəyə verilməsində maraqlıyıq. Biz elektrik enerjisinin tranzit idxalına və təkrar ixracına, habelə bəzi başqa layihələrə maraq göstəririk. Enerji təhlükəsizliyi bütün dövlətlərin, o cümlədən də Moldovanın suverenliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün çox mühüm elementidir.

**S u a l: (*Space TV, Azərbaycan*): Sual Ukrayna prezidenti cənab Viktor Yuşşenkoyadır. Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin həyata keçirilməsi bütun GUAM ölkələri arasında iqtisadi əlaqələrin genişlənməsinə necə kömək edə bilər? Eyni zamanda, Ukrayna bu layihədən hansı konkret fayda əldə edə bilər?**

**V i k t o r  Y u ş ş e n k o:** GUAM çərçivəsində biz bunu əsas tuturuq ki, yaxın vaxtlarda bu təşkilatın himayəsi altında bir sıra orijinal layihələrin, o cümlədən Sizin indicə dediyiniz layihənin həyata keçirilməsi təmin olunacaqdır. Biz bunu əsas tuturuq ki, Ukraynanın imkanlarından istifadə etməyə, onları reallaşdırmağa imkan verən digər layihələr kimi, Gürcüstan, Türkiyə istiqamətində dəmir yolu layihəsi də Ukrayna üçün maraqlıdır. Hər şeydən əvvəl, tikinti üzrə bu layihələrin həyata keçirilməsində lazım olan avadanlıq, metal və digər malların təchiz edilməsi baxımından.

Daha sonra biz bu layihələrin bir hissəsinin inkişafını onların bərə vasitəsilə Kerçə qədər davam etdirilməsində görürük. Beləliklə, regionumuzda yeni nəqliyyat alternativi yaratmaq olar. Qeyd etmək vacibdir ki, hazırda bu məsələ artıq kifayət qədər dərindən işlənmişdir. Qafqazın dəmir yol layihələrinin genişlənməsinə xidmət edən bərə keçidinin bir hissəsinin tikilməsini təmin edən işçi qrupu yaradılmışdır. Ümid edirik ki, 2008-ci ildə regionun nəqliyyat imkanlarının kompleks şəkildə istifadəsini təmin edəcək ikinci bərə xəttini işə salacağıq.

## ÜMUMRUSİYA DÖVLƏT TELERADİO ŞİRKƏTİNİN BAŞ DİREKTORU OLEQ DOBRODEYEV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 iyun 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Prezident sarayında Ümumrusiya Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin Baş direktoru Oleq Dobrodeyevi qəbul etmişdir.*

Oleq Dobrodeyev *Bakıya səfərində* ilk olaraq *Azərbaycanın ümummilli* lideri *Heydər Əliyevin və* akademik *Zərifə xanım Əliyevanın məzarlarını ziyarət* etdiyini dedi. *O, ölkəmizə səfəri zamanı böyük inkişafın, genişmiqyaslı* tikinti *və* quruculuq *işlərinin şahidi olduğunu* bildirdi. Qonaq *həmçinin ölkəmizdə* rus *dilinə hörmətlə yanaşıldığını da məmnunluqla* qeyd etdi.

*Azərbaycanın sürətli* iqtisadi *inkişafından danışan dövlətimizin başçısı ölkəmizdə müasir tikintilərlə yanaşı,* tarixi *memarlıq abidələrinin də əsaslı bərpa və təmir olunduğunu* bildirdi. Prezident *İlham Əliyev Azərbaycanda mədəniyyətin və* informasiya *texnologiyalarının inkişafına böyük* diqqət *göstərildiyini vurğuladı.*

Oleq Dobrodeyev *rəhbərlik* etdiyi *şirkətin ümummilli* lider *Heydər Əliyev haqqında indiyədək yayımladığı filmləri və* video *yazılarını* prezident *İlham Əliyevə təqdim* etdi.

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ LOS-ANCELES DAİRƏSİNİN ŞERİFİ LEROY BAKAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 iyun 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 20-də Prezident sarayında Amerika Birləşmiş Ştatlarının Los-Anceles dairəsinin şerifi Leroy Bakanı qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla Amerika Birləşmiş Ştatlarının müxtəlif regionları, habelə Kaliforniyanın hüquq-mühafizə orqanları arasında əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulandı.*

## GÜRCÜSTANIN KVEMO-KARTLİ REGİONUNUN QUBERNATORU ZURAB MELİKİŞVİLİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 iyun 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 21-də Prezident sarayında Gürcüstanın Kvemo-Kartli regionunun qubernatoru Zurab Melikişvilinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Gürcüstan arasında münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, iki ölkənin müxtəlif regionlarının əməkdaşlığının əlaqələrimizin daha da genişləndirilməsinə öz töhfəsini verdiyi bildirildi və bu səfərin münasibətlərimizin bundan sonra da inkişafına xidmət göstərəcəyinə əminlik ifadə olundu.*

# HEYDƏR ƏLİYEV ADINA AZƏRBAYCAN ALİ HƏRBİ MƏKTƏBİNİN NÖVBƏTİ BURAXILIŞINA HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ*

*Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi*

*22 iyun 2007-ci il*

*İyunun 22-də Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin növbəti 7-ci buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev mərasimdə iştirak etmək üçün məktəbə gəldi. Dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü. Müdafiə naziri general-polkovnik Səfər Əbiyev və Fəxri qarovul dəstəsinin rəisi Ali Baş Komandana raport verdilər.*

*Mərasimdən əvvəl dövlətimizin başçısı ümummilli lider Heydər Əliyevin abidəsi önünə əklil qoydu.*

*Prezident İlham Əliyev sonra Heydər Əliyev adına Ali Hərbi Məktəbin növbəti buraxılışı münasibətilə mərasimin keçirildiyi stadiona gəldi. Mərasimə toplaşanlar dövlətimizin başçısını hərarətli alqışlarla qarşıladılar. Ali Hərbi Məktəbin rəisi general-mayor Heydər Piriyev Ali Baş Komandana raport verərək, şəxsi heyətin buraxılış mərasimi münasibətilə düzüldüyünü bildirdi.*

*Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyev məzunları «Salam, gənc zabitlər!» sözləri ilə salamladı.*

*Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin və ümummilli lider Heydər Əliyevin*

---

* Мярасимдя Мцдафия назири эенерал-полковник Сяфяр Ябийев чыхыш етмишдир.

*əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin və kursantların ifasında Azərbaycanın Dövlət himni əzəmətlə səsləndi.*

Əziz kursantlar, zabitlər, generallar!

Hörmətli mərasim iştirakçıları!

Mən sizin hamınızı qarşıdan gələn Silahlı Qüvvələr günü münasibətilə ürəkdən təbrik edirəm, ordumuzun bütün şəxsi heyətinə yeni-yeni uğurlar arzulayıram.

Eyni zamanda, bu gün Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin növbəti buraxılışıdır. Bu münasibətlə bütün məzunları təbrik edirəm. Arzu edirəm ki, onlar Milli Ordumuzda ləyaqətlə xidmət etsinlər, Azərbaycanın müdafiə potensialını gücləndirsinlər.

Azərbaycan ordusu çox sürətlə inkişaf edir. Azərbaycanda ordu quruculuğu çox sürətlə gedir. Ordumuzun indiki vəziyyəti çox sevindiricidir. Biz həm hərbi potensialımızı gücləndiririk, həm də orduda hazırlıq səviyyəsi yüksəlir və beləliklə, ordumuz qarşıda duran bütün vəzifələri həll etməyə qadirdir.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra vəziyyət tamamilə başqa idi. Demək olar ki, Azərbaycanda mütəşəkkil ordu yox idi, ayrı-ayrı silahlı birləşmələr, silahlı dəstələr fəaliyyət göstərirdi. Vahid komandanlıq, vahid idarəetmə sistemi mövcud deyildi. Bütövlükdə, ölkəmiz o vaxt çox çətin problemlərlə üzləşmişdi, həm siyasi, həm iqtisadi böhran, eyni zamanda, hərbi böhran hökm sürürdü. O vaxt ölkəyə və orduya rəhbərlik edən səriştəsiz insanlar ölkəmizi uçurum kənarına gətirib çıxarmışdılar. Yalnız 1993-cü ildə ulu öndər Heydər Əliyevin Azərbaycana siyasi hakimiyyətə qayıdışından sonra respublikamızda bütün istiqamətlərdə inkişaf başladı, o cümlədən ordu quruculuğu prosesi başlandı. O ildən bu günə qədər bizim ordumuz çox şərəfli yol keçmişdir.

Azərbaycanın müstəqilliyi bizim ən böyük dəyərimizdir, ən böyük sərvətimizdir. Ölkəmiz 1918-ci ildə müstəqillik əldə etmişdi. Ancaq iki il keçmədən o müstəqillik əldən getdi və Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. 1993-cü ildə də buna oxşar vəziyyət yaranmışdı. 1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində müstəqilliyini bərpa etmiş Azərbaycan

1993-cü ildə ölkədə gedən çox çətin və xoşagəlməz proseslər nəticəsində müstəqillikdən məhrum ola bilərdi. Ancaq və ancaq xalqın iradəsi, xalqın öz liderinə inamı və Heydər Əliyevin siyasəti və cəsarəti ölkəmizi o çətin vəziyyətdən xilas edə bilmişdir.

İndi Azərbaycan ən sürətlə inkişaf edən ölkələr sırasındadır. Bu gün Azərbaycanda elə sahə yoxdur ki, orada güclü inkişaf getməsin. Bütün bu işlərin təməli məhz keçən əsrin 90-cı illərinin ortalarında qoyulmuşdur. Bugünkü ordunun səviyyəsinin də əsas səbəbi həmin illərdə orduda başlanmış islahatlar, ordunun hazırlıq səviyyəsinin qaldırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi, orduda peşəkar kadrların hazırlanması, təhsil məsələlərinə verilən böyük diqqət olmuşdur. Bütün bunların nəticəsində bu gün deyə bilərik ki, biz çox güclü orduya malikik və regionda bizim ordumuz qarşıda duran bütün vəzifələri həll etməyə qadirdir.

Orduda hazırlıq səviyyəsi qalxır və qalxmaqdadır. Biz buna sevinirik. Ancaq bununla bərabər, hamımız bilirik ki, hələ çox işlər görülməlidir. Ordumuzun maddi-texniki bazası möhkəmlənir. Bu sahəyə çox böyük diqqət göstərilir. Ordumuz üçün lazım olan bütün avadanlıq, hərbi texnika, silah-sursat alınır. Bizim imkanlarımız artdıqca, bunu daha da böyük həcmdə həyata keçiririk. Müqayisə üçün deyə bilərəm ki, əgər 2003-cü ildə Azərbaycanda hərbi xərclərə 135 milyon dollar xərclənirdisə, 2007-ci ildə bu məbləğ 1 milyard dollara çatıbdır. Yəni orduya ayrılan xərclər 4 ildə təxminən 8 dəfə artıbdır. Bu gün Azərbaycanın dövlət büdcəsində hərbi xərclər birinci yeri tutur. Bu onu göstərir ki, biz ordunun möhkəmlənməsinə çox böyük diqqət yetiririk və bu da təbiidir. Çünki biz müharibə şəraitində yaşayırıq, torpaqlarımız işğal altındadır. Müharibə hələ bitməyibdir. Sadəcə olaraq, atəşkəs rejimi saxlanılır. Ona görə bundan sonra da biz orduya daim böyük diqqət göstərməliyik. Bu hər bir vətəndaşın işi olmalıdır və ilk növbədə, dövlət öz tərəfindən bu işləri aparmalıdır və biz bunu edirik.

Ordumuzun inkişafı üçün, hərbçilərin rahat yaşaması üçün onların məişət problemləri, sosial problemləri də həll olunmalıdır. Bu məqsədlə hərbçilərin əməkhaqları mütəmadi qaydada artırılır,

onlar mükafatlandırırlar. Nazir Səfər Əbiyev burada qeyd etdi ki, hərbçilər üçün yeni evlər tikilir, mənzillər veriləcəkdir. Bu proses daim getməlidir. Çünki ordumuzda xidmət göstərən, böyük nailiyyətlərə malik olan, öz peşəkarlığını göstərən hərbçilər dövlət tərəfindən layiqincə qiymətləndirilməlidirlər. Biz bunu edirik. Əlbəttə, maddi imkanlarımız artdıqca, bunu daha böyük həcmdə edəcəyik.

Azərbaycanda eyni zamanda, ordumuz üçün lazım olan avadanlığın, silah-sursatın istehsalı üçün də böyük işlər görülür. Azərbaycanda bu yaxınlarda yaradılmış Müdafiə Sənayesi Nazirliyinin əsas məqsədi ondan ibarətdir. Düzdür, biz orduya böyük vəsait ayırırıq və heç kim üçün sirr deyil ki, böyük həcmdə silah-sursat, texnika, döyüş təyyarələri alırıq və bunu, bu siyasəti davam etdirəcəyik.

Ancaq bununla bərabər, imkanlarımız var ki, bizə lazım olan avadanlığı daxildə, Azərbaycanda da istehsal edək. Bu məqsədlə Müdafiə Sənayesi Nazirliyi yaradıldı və əminəm ki, nazirlik tərəfindən görülmüş işlər nəticəsində biz artıq ilin sonuna qədər ilkin istehsalı görəcəyik. Bundan sonra isə daha da böyük vəsait ayrılmaqla Azərbaycanda çox güclü hərbi sənaye kompleksi yaradılacaqdır. Biz bunu edirik və bu sahədə siyasətimiz çox açıqdır və birmənalıdır. Bütün bu işləri görmək üçün, əlbəttə ki, ölkəmizin çox güclü maliyyə resursları olmalıdır. Ölkəmizin çox güclü iqtisadi potensialı olmalıdır. Çünki hər bir maddi-texniki bazanın möhkəmləndirilməsi üçün başlıca amil budur. Biz də bunu edirik.

Bildiyiniz kimi, Azərbaycan son üç il ərzində iqtisadi baxımdan dünyada ən sürətlə inkişaf edən ölkədir. Bizim iqtisadiyyatımız artır, iqtisadi islahatların aparılması nəticəsində əhalinin maddi rifahı yüksəlir və bizim büdcə gəlirlərimiz artır. Müqayisə üçün onu da deyə bilərəm ki, 2003-cü ildə bizim dövlət büdcəmiz təxminən 1,5 milyard dollar idisə, bu il 7,5 milyard dollara çatmışdır. Bu çox böyük irəliləyişdir. Azərbaycanda mövcud olan büdcə xərcləri bizə imkan verir ki, ölkə qarşısında duran bütün problemləri həll edək. İlk növbədə, infrastruktur layihələrinə, təhsilə, səhiyyə məsələlərinə, ordu quruculuğuna, bizi narahat edən, bizə lazım olan bütün məqsədlərə lazımi vəsaiti ayırırıq və ayıracağıq. Əlbəttə ki, ordu

quruculuğu prosesi sürətlə getməlidir. Biz hələ çox işlər görməliyik. Bizim planlarımız böyükdür və mən şübhə etmirəm ki, qarşıda duran bütün vəzifələri yerinə yetirəcəyik.

Azərbaycanda çox güclü iqtisadi potensial yaradılıbdır. Yenə də deyirəm, iqtisadi islahatlar, siyasi islahatlar, sosial sahəyə böyük diqqət – biz bütün bu işləri kompleks şəkildə aparırıq. Eyni zamanda, biz Heydər Əliyev neft strategiyasının gözəl nəticələrini də görürük. Azərbaycan bu sahədə qarşıda duran hər bir vəzifəni yerinə yetiribdir. Biz çox çətin və ağır coğrafi-siyasi vəziyyətdə öz neft, qaz məsələlərimizi tam şəkildə həll etmişik. Heydər Əliyevin adını daşıyan Bakı–Tbilisi–Ceyhan neft kəməri artıq gələn il tam gücü ilə fəaliyyət göstərəcəkdir. Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin tikintisi ilə Azərbaycan dünya qaz bazarına yol açdı. Bu yaxınlarda tikintisinə başlanacaq Bakı–Tbilisi–Qars dəmir yolu Azərbaycanı çox vacib nəqliyyat məntəqəsinə çevirəcəkdir. Bizim ərazimizdən Avropa ilə Asiyanı birləşdirən dəmir yolu keçəcəkdir. Bütün bu layihələri icra edirik. Bunu etmək üçün həm siyasi iradə var, həm cəsarət var, həm də imkanlar var.

Azərbaycan indi zəngin ölkəyə çevrilir. Mən bir neçə il bundan əvvəl demişdim ki, məqsədim Azərbaycanı zəngin dövlətə çevirməkdir, biz artıq bunun ilkin əlamətlərini görürük. Bizim əsas layihələrimiz həyata keçiriləndən sonra, növbəti illərdə Azərbaycanda daha da böyük həcmdə maliyyə imkanları yaranacaqdır. Sözün əsl mənasında, zəngin dövlət yaradılacaq və insanların həyat səviyyəsi yaxşılaşacaqdır.

Bir sözlə, biz bütün istiqamətlərdə öz siyasətimizi proqram üzrə aparırıq və hər bir sahədə böyük uğurlar var. İstər iqtisadi islahatlar sahəsində, istər enerji sahəsində, istər siyasi islahatlar sahəsində – bütün sahələrdə. O cümlədən xarici siyasət məsələlərində də Azərbaycan çox fəaldır və bizim beynəlxalq mövqelərimiz möhkəmlənir. Azərbaycan regionda böyük güc mərkəzinə çevrilibdir. Bizim dünyanın aparıcı dövlətləri ilə çox səmərəli və qarşılıqlı hörmət əsasında qurulan münasibətlərimiz var. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının beş daimi üzvü olan ölkələrlə, qonşu dövlətlərlə çox gözəl münasibətlərimiz var.

Bu yaxınlarda Azərbaycanda GUAM-ın zirvə görüşünün keçirilməsi Azərbaycanın nə qədər önəmli ölkə olduğunu bir daha göstərdi. Müxtəlif ölkələrin dövlət və hökumət başçılarının Azərbaycanda sammitdə iştirak etməsi bunun əyani nəticəsidir. Azərbaycanda qəbul edilmiş qərarlar bütün regiona öz təsirini göstərir. Bir daha demək istəyirəm, həm bizim coğrafi vəziyyətimiz, təbii sərvətlər, mövcud olan nəqliyyat və enerji infrastrukturu, Azərbaycanın Avropa İttifaqı ilə enerji sahəsində əməkdaşlığı və ölkədə mövcud olan sabitlik, ictimai-siyasi asayiş, xalqla dövlət arasında olan birlik – bütün bunlar, əlbəttə ki, ölkəmizin hərtərəfli inkişafı üçün çox gözəl şərait yaradır.

Biz müxtəlif proqramlar həyata keçirməklə ölkəmizi gücləndiririk. Bu həm makroiqtisadi sahədə, eyni zamanda, insanların gündəlik həyatında da öz əksini tapır. Regionların inkişafı sürətlə gedir, işsizlik, yoxsulluq aradan qaldırılır. Böyük həcmdə investisiyalar qoyulur. Budur Azərbaycanın bugünkü reallıqları. Bütün bu amilləri bir araya yığıb görürük ki, doğrudan da ölkəmiz artıq çox dinamik inkişaf edir, müstəqil siyasət aparır, Azərbaycan xalqının maraqlarını tam şəkildə müdafiə edir və qarşıya qoyulan hər bir vəzifəyə nail olur. Elə bir vəzifə yoxdur ki, biz onu qarşıya qoyaq və ona nail ola bilməyək. O cümlədən ordu quruculuğu sahəsində.

İki il bundan əvvəl mən bəyan etmişdim ki, Azərbaycanda hərbi xərclər Ermənistanın ümumi dövlət xərclərinə bərabər olacaqdır. O vaxt bəlkə bəziləri buna o qədər də inanmırdı. Çünki belə bir vəziyyət o qədər də real görünmürdü. Ancaq mən bilirdim. Bilirdim ki, bunu həll etmək üçün yollar var. Bilirdim ki, əgər biz səmərəli işləsək, bütün gücümüzü səfərbər etsək, iqtisadi islahatları davam etdirsək, liberal iqtisadiyyat qursaq, gözəl investisiya mühiti yaratsaq, sahibkarlığı gücləndirsək, nəhəng enerji layihələrini başa çatdırsaq buna nail olacağıq. Hər bir istiqamətdə bizim uğurlarımız var. Hər bir sadaladığım sahədə biz istədiyimizə nail olmuşuq və bunun nəticəsidir ki, indi Azərbaycanın müdafiə xərcləri Ermənistanın bütün dövlət büdcəsinə bərabərdir. Gələcək illərdə bundan da artıq olacaqdır. Ondan sonra şübhəsiz ki, Ermənistan Azərbaycanın qarşısında dayana bilməyəcəkdir.

Bizim bir nömrəli problemimiz var. Bütün xalqımızı, bizim hamımızı narahat edən Azərbaycan torpaqlarının işğal altında qalmasıdır. Baxmayaraq ki, danışıqlar uzun illərdir gedir, biz ciddi irəliləyiş görmürük. Ermənistanın qeyri-səmimi, qeyri-konstruktiv siyasəti nəticəsində biz razılaşmaya nail ola bilmirik. Bunu artıq bütün dünya ictimaiyyəti görür və bu məsələ ilə bilavasitə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədrləri də görməmiş deyildir.

Azərbaycanın mövqeyi beynəlxalq hüquq normalarına əsaslanır və bizim bu siyasətimiz tam şəkildə bütün dünya birliyi tərəfindən, həm beynəlxalq təşkilatlar çərçivəsində, həm də ikitərəfli münasibətlərdə dəstəklənir. Son dörd ilə yaxın müddətdə mənim dünyanın müxtəlif ölkələrinin dövlət və hökumət başçıları ilə çoxsaylı görüşlərim olubdur. Bizim hər bir ölkə ilə imzaladığımız sənəddə Azərbaycanın ərazi bütövlüyü tanınır və dəstəklənir. Bu onu göstərir ki, bütün beynəlxalq ictimaiyyət, dünyanın siyasi elitası bu məsələnin Azərbaycanın ərazi bütövlüyü prinsipləri əsasında həll edilməsini mümkün sayır. Bundan başqa heç bir əsas ola bilməz. Heç vaxt Azərbaycanın ərazi bütövlüyü pozula bilməz. Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcəkdir. Əgər dünya birliyi 90-cı illərin ortalarında – o vaxt Azərbaycan iqtisadi və siyasi cəhətdən o qədər də güclü deyildi – Dağlıq Qarabağın müstəqilliyini tanımayıbsa, bugünkü vəziyyətdə, Azərbaycanın güclü dövlət olduğu bir dövrdə heç tanımayacaqdır. Dağlıq Qarabağ heç vaxt Ermənistana birləşməyəcəkdir. Bunu Ermənistanda və Dağlıq Qarabağda nə qədər tez başa düşsələr, onlar üçün bir o qədər yaxşıdır. Onlar hesab edirlər ki, vaxt uzatmaqla, danışıqları süni şəkildələngitməklə nə isə əldə edəcəklər. Xeyr! Bəlkə də bu hansısa siyasətçilər üçün, onların siyasi karyerası üçün əlverişli ola bilər. Amma inanmıram ki, bu, Ermənistan dövlətinin maraqlarına xidmət göstərsin. Çünki vaxt keçdikcə bizim mövqelərimiz möhkəmlənir.

Beş il bundan əvvəl Ermənistan və Azərbaycanın iqtisadiyyatı təxminən eyni səviyyədə idi. Bu gün bizim iqtisadiyyatımız onların iqtisadiyyatından 7 dəfə böyükdür.

Beş il bundan əvvəl büdcə xərcləri təxminən eyni idi. Bu gün bu sahədə 7 dəfə fərq var. Azərbaycan dünya və Avropa

üçün çox önəmli ölkəyə çevrilir. Azərbaycanın çox çevik xarici siyasəti var. Azərbaycan çox zəngin neft, qaz yataqlarına malikdir. Hamı artıq bilir ki, dünyanın gündəliyində enerji məsələləri bir nömrəli məsələlərdir. İndi enerji məsələlərini beynəlxalq təşkilatlarda və aparıcı ölkələrdə təhlükəsizlik məsələsi kimi qəbul edirlər. Bu resurslar bizdə var. Biz artıq dünyanın, Avropanın enerji təhlükəsizliyi üçün işlər görürük.

Biz Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum kimi nəhəng layihələri icra etmişik. Biz nəqliyyat üçün tranzit ölkəyə çevrilirik. Ermənistanda bunların heç biri yoxdur və gələcək inkişaf perspektivləri də yoxdur. İqtisadi inkişaf üçün heç bir zəmin yoxdur. Əksinə, orada sənaye istehsalı aşağı düşür. Azərbaycanın əhalisi artır. Bu da təbiidir, çünki insanların həyat səviyyəsi yaxşılaşdıqca, əlbəttə ki, əhali də artır. Ermənistanda isə vəziyyət tam başqadır. Orada əhalinin sayı həm təbii səbəblərə görə, həm də böyük miqrasiyaya görə azalır. Orada heç kim qalmaq istəmir. Artıq bizdə olan məlumata görə, təmas xəttində onlarda canlı qüvvə çatışmır. Bu bizim uğurlarımızın hələ ilkin mərhələsidir. Baxın görün, bir neçə ildən sonra nə olacaq. Bunu biz də bilirik və dünya birliyi də bilir. Dünya Bankının hesablamalarına görə növbəti 20 ildə Azərbaycana ancaq bir neft layihəsindən 200 milyard dollar vəsait gələcəkdir. Nəzərə alsaq ki, bizim üçün Dağlıq Qarabağdan başqa heç bir ciddi məsələ yoxdur, təbii ki, bundan istifadə edəcəyik, ordumuzu gücləndirəcəyik, bütün yollarla Ermənistana təzyiq edəcəyik və öz doğma torpaqlarımızı azad edəcəyik.

Mən bunu bir neçə dəfə demişəm və çox şadam ki, biz artıq bunu görürük – biz bütün istiqamətlərdə Ermənistana hücum etməliyik. Siyasi, diplomatik, təbligat, iqtisadi – bütün sahələrdə və bizim imkanlarımız da artır. Həm öz imkanlarımız, həm bizim müttəfiqlərimizin imkanları, həm də bizimlə çox böyük və uzunmüddətli strateji tərəfdaşlığa başlamış ölkələrin imkanları artır. Biz bütün bunları səfərbər etməlyiik. Çünki haqq-ədalət bizim tərəfimizdədir. Siyasi proseslər bizim xeyrimizə inkişaf edir. Diplomatik müstəvidə Azərbaycanın mövqeyi dəstəklənir. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınıbdır və danışıqlar prosesində Azərbaycanın mövqeyi üstünlük təşkil edir.

Ermənistanda danışıqların gedişatını nə qədər təhrif etməyə çalışsalar da, bunun heç bir səmərəsi yoxdur. Çünki hamı bilir, o cümlədən Ermənistan tərəfi və bununla bilavasitə məşğul olan Minsk qrupunun həmsədr ölkələri bilir ki, danışıqlar hansı prinsiplər əsasında aparılır. Bu prinsiplər bizə imkan verəcək ki, Azərbaycanın işğal edilmiş bütün torpaqları qaytarılsın, azərbaycanlılar öz yurdlarına, o cümlədən Dağlıq Qarabağa qayıtsınlar. Ondan sonra danışıqlar nəticəsində Dağlıq Qarabağın gələcək statusu müzakirə oluna bilər. Ermənistan tərəfi öz daxili siyasəti üçün bir çox hallarda danışıqların məzmununu təhrif edir. Azərbaycan heç vaxt – nə bu gün, nə on ildən sonra, nə də yüz ildən sonra Dağlıq Qarabağı Azərbaycandan ayıra biləcək razılaşmaya getməyəcəkdir. Bu heç vaxt olmayacaqdır. Mən əminəm ki, bunu Ermənistanda nə qədər tez başa düşsələr, onlar üçün o qədər yaxşı olar.

Biz istəmirik ki, məsələni hərbi yolla həll edək. Ancaq buna hazır olmalıyıq. Bizim siyasətimiz açıqdır, heç nəyi gizlətmirik. Biz bəyan edirik ki, bəli, danışıqlara sadiqik. Amma bunun müəyyən müddəti var. Bu danışıqlar əbədi aparıla bilməz. Bu danışıqlar artıq 13 ildir aparılır. Bundan sonra 13 il də aparıla bilməz. Qısa müddət ərzində aydınlıq gətirilməlidir ki, biz haradayıq, haraya gedirik. İndi bütün prinsiplər mövcuddur, təkcə qalır ki, Ermənistan rəhbərliyi özündə cəsarət tapıb bu addımı atsın, onlara aid olmayan, məxsus olmayan torpaqlardan çıxsın. İmkan versin ki, bizim soydaşlarımız o torpaqlara qayıtsınlar və ondan sonra bölgədə sülh bərqərar oluna bilər. Hələ ki, bu yoxdur. Hələ ki, bölgədə gərginlik mövcuddur, atəşkəs rejimi pozulur və gələcəkdə də pozula bilər. Əlbəttə, bunu Ermənistanda nəzərə almalıdırlar.

Bir sözlə, Azərbaycan öz siyasətini çox uğurla, çox fəal şəkildə aparır. Yenə də deyirəm ki, bizim bütün ölkələrlə münasibətlərimiz qarşılıqlı hörmət, qarşılıqlı maraqlar əsasında qurulubdur. Deyə bilərəm ki, biz dünyada çox böyük hörmətə malik olan ölkəyik. Çox böyük hörmət qazanmışıq. Artıq bunu hamı bilir. Azərbaycana münasibət çox müsbətdir. Ölkəmizdə gedən iqtisadi və siyasi islahatlar ölkəmizi daha da gücləndirir və hər bir sahədə inkişaf var, bundan sonra da olacaqdır. O cümlədən ordu quruculuğunda. Mən, ölkə prezidenti və Silahlı

Qüvvələrin Ali Baş Komandanı bir daha bəyan edirəm ki, ordunun güclənməsi üçün bundan sonra da əlimdən gələni edəcəyəm. Bu gün burada nümayiş etdiriləcək yeni döyüş təyyarələri də bunun çox gözəl təzahürüdür. Yadınızdadırsa, keçən il burada bizim mahir pilotlarımız çox gözəl uçuşlar etmişlər. Bu il isə burada, Azərbaycan səmasında yeni təyyarələrdə uçacaqlar.

Əziz dostlar!

Əziz hərbçilər!

Sizin hamınızı qarşıdan gələn Silahlı Qüvvələr günü münasibətilə bir daha təbrik edirəm. Hər birinizə cansağlığı, uğurlar arzulayıram.

Sağ olun.

* * *

*Sonra prezident, Ali Baş Komandan İlham Əliyev Ali Hərbi Məktəbdə tədris və intizamda birinci yerləri tutan və təhsili fərqlənmə ilə bitirən məzunlara diplomlar təqdim etdi. Tədrisdə və intizamda birinci yerləri tutan məzunlar qiymətli hədiyyələrlə təltif olundular.*

*Dövlətimizin başçısı bir qrup zabitə mənzillərin orderlərini təqdim etdi.*

*Respublikamızın rəhbəri onları təbrik etdi, gələcək xidmətlərində uğurlar arzuladı.*

*Digər məzunlara diplomlar məktəbin müəllim heyəti tərəfindən təqdim edildi.*

* * *

*Azərbaycan Hərbi Hava Qüvvələrinin şəxsi heyəti müxtəlif növlü döyüş təyyarələri və vertolyotlarında yüksək pilotaj nümunələri göstərdi.*

*Heydər Əliyev məktəbinin yetirmələri xalqımızın ümummilli liderinin müqəddəs xatirəsinə hörmət və ehtiramlarını, Azərbaycan xalqına, dövlətinə, prezidentinə sədaqətlərini, Silahlı Qüvvələrin Ali Baş Komandanına isə döyüş əmrinə hər an hazır olduqlarını nümayiş etdirmək üçün nümünəvi manevrlər etdilər.*

*Ulu öndər Heydər Əliyevdən xeyir-dua almış Azərbaycanın milli şahinlərinin idarə etdikləri döyüş vertolyotları, müasir*

*avadanlıqla təchiz olunmuş, düşmənin bütün hava və yerüstü hədəflərini məhv etməyə, döyüş meydanında yerüstü qoşunlara dəstək verməyə qadir olan səsdənsürətli hücum, qırıcı-tutucu, qırıcı-bombardmançı təyyarələr mərasim keçirilən stadionun üzərindən qrup şəklində uçdular. Onların ilk dəfə «MİQ-29» qırıcı-bombardmançı təyyarələrində məharətlə nümayiş etdirdikləri yüksək pilotaj nümunələri, manevrlər ölkəmizin güclü hava hücumundan müdafiə sisteminə və şahinlərimizin peşəkarlığa və döyüş qabiliyyətinə malik olduğunu bir daha təsdiqlədi.*

*Mərasim iştirakçıları tərəfindən alqışlarla qarşılanan uçuşlar zamanı bildirildi ki, bu gün əbədiyaşar Ali Baş Komandanımızın arzularının həyata keçdiyi, ümidlərinin doğrulduğu gündür. Ümummilli liderimiz Heydər Əliyev on il əvvəl, 1997-ci ildə Azərbaycanın ilk milli hərbi təyyarəçilərinin buraxılış mərasimində Hərbi Hava Qüvvələrimiz haqqında demişdir:* «Çox sevinirəm ki, indi milli şahinlərimiz var və sevinirəm ki, bizim şahinlərimiz Azərbaycanın səmasını daim qorumağa, Azərbaycanın müstəqilliyini qorumağa qadirdirlər».

*Səkkiz il öncə isə ulu öndərimiz böyük inam hissi ilə bildirmişdi:* «Milli aviasiyamızın böyük gələcəyi var. Mən bu gələcəyi açıq-aydın görürəm. İstəyirəm səma şahinlərimizin addımları daim uğurlu olsun, bu təməl əsasında bizim güclü milli aviasiyamız olsun, cəsur şahinlərimiz olsun və bu şahinlər öz məharətlərini bütün dünyaya göstərsinlər. Göstərsinlər ki, azərbaycanlılar hər bir işin öhdəsindən gəlməyə qadirdirlər. Azərbaycanlıların istedadı, qabiliyyəti səmanı fəth etməkdə də ən yüksək səviyyədə ola bilər.

Mən əminəm ki, Azərbaycanın gələcəyi etibarlı əllərdədir. Çünki bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclərdir, vətənpərvər gənclərdir, xalqını, millətini sevən gənclərdir. Mən əminəm ki, müstəqil Azərbaycanın gələcəyini qoruyub saxlaya bilən gənc nəsillər yetişir. Bizim ordumuz bu gün Azərbaycanın müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə qarşı yönəldilmiş hər hansı bir qəsdə layiqli cavab verməyə qadirdir».

*Hərbi təyyarəçilər havada müstəqil Azərbaycanın müqəddəs üçrəngli bayrağını təsvir etdilər. Onlar bir daha Ali Baş Komandanın hər bir döyüş əmrinə hazır olduqlarını bəyan*

*etdilər. Vertolyotlardan birinin bortundan gənc pilotun məruzəsi eşidildi:* «Cənab Ali Baş Komandan, Azərbaycan şahinləri Sizin hər bir əmirinizi yerinə yetirməyə hazırdır».

*Uçuşlar mərasim iştirakçıları tərəfindən heyranlıqla seyr edildi, təyyarəçilərimizin məharəti hamının qəlbini qürur, iftixar hissi ilə doldurdu.*

* * *

*Sonra məzunların buraxılış mərasimi davam etdirildi. Üzərində ulduz və aypara təsviri olan emblemi Silahlı Qüvvələrin təhsil müəssisələrinin rəmzi yaş kötüklərinə vurmaq üçün dəvət edilən kursant dedi:*

Cənab Ali Baş Komandan!

Hərbi tədris müəssisələrinin yaş kötüklərinə 2007-ci il məzunları tərəfindən üzərində ulduz və aypara təsviri olan emblemlər vurarkən, bu şərəfli vəzifəni yerinə yetirməkdən qürur və sevinc hissi duyur, bütün silahdaşlarım adından Sizə təşəkkür edirəm.

Yaş kötüyü Silahlı Qüvvələrin sıralarına daxil olanların ölkəsinə və millətinə xidmət üçün bu vəzifəni təhvil almalarının bir rəmzidir. Bu şərəfli vəzifəni təhvilalmanın məsuliyyəti ilə 2007-ci il məzunları adından bir daha bildiririk ki, alacağımız hər tapşırığı vətən sevgisi ilə yerinə yetirəcək, içdiyimiz anda daim sadiq qalacağıq.

Cənab Ali Baş Komandan, icazənizlə, 2007-ci il məzunları adından rəmzləri yaş kötüklərinə vururuq.

*Silahlı Qüvvələrin təhsil müəssisələrinin məzunları üzərində ulduz və aypara təsviri olan emblemi rəmzi yaş kötüklərinə vurdular.*

*Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin döyüş bayrağını gələn ilin məzunu olacaq 4-cü kurs taburuna təhvil verən kursant Ramin Qasımov dedi:*

Silahdaşım, babalarımızın qanı bahasına ucalan bu şanlı döyüş bayrağının müqəddəs keşik növbəsi sənindir. Bayrağımın göy rəngi ümidin, al rəngi qanın, yaşıl rəngi imanın olsun.

Parçası tarixin nişanəsi, parıltısı zəfərlərin işığıdır. Yazısı qəhrəmanlıq və şücaətə çağırışdır. Ağacı dözüm, baftası şərəf və məsuliyyət rəmzidir. Bu böyük və müqəddəs əmanəti əlində bərk saxla. Vətənin azadlığı yolunda tökülməyə hazır olan qanının son damlasına qədər onu daim yüksəklərdə tut.

Ulu öndər Heydər Əliyevin ruhunu yaşadan bu şanlı bayraq nəsillər boyunca əbədi olacaq, uca tutulacaq, Vətənin göylərində daim vüqarla dalğalanacaqdır. Müqəddəs bayrağı qorumaq, bayraq keşikçiliyi keşik xidmətlərinin ən alisı, ən şərəflisi, ən müqəddəsidir. Onu səndən sonra sağ qalanın əlinə təhvil verməyənə qədər son nəfəsini verməməlisən. Bu şanlı bayrağı təhvil aldığım kimi, vicdanla, namusla qoruduğumu göstərmək üçün onu öpür və sənə təhvil verirəm!

*Məktəbin döyüş bayrağı 4-cü kurs taburuna təhvil verildi.*

*Bayrağı qəbul edən kursant Emin Teymurov dedi:*

Silahdaşım, namusuma və canıma and içirəm ki, bu müqəddəs keşikdə bir an da olsun gözümü ondan ayırmayacağam. Babalarımızın qanı bahasına ucalan bu şanlı döyüş bayrağını öz canımdan əziz bilib, onu daim yüksəklərdə tutacağam.

Parçası tarixin nişanəsi, parıltısı zəfərlərin işığıdır. Yazısı qəhrəmanlıq və şücaətə çağırışdır. Ağacı dözümüm, bayrağının göy rəngi ümidim, al rəngi qanım, yaşıl rəngi imanım olsun. Ay-ulduzuna varlığım fəda olsun. Yazısını vicdanımtək təmiz saxlayacağam. Kəmərini qürurla bərk tutacağam. Baftası iman dolu yolumda namus, çökməz çiyinlərimdə ən şərəfli məsuliyyət kimi qalacaqdır.

Ulu öndər Heydər Əliyevin ruhunu yaşadan bu şanlı bayrağı məndən sonra sağ qalana təhvil verənəcən ölmək mənə haram olsun. İçdiyim bu anda sadiq qalacağımı göstərmək üçün bayrağımı öpür və təhvil alıram.

* * *

*Nümunəvi orkestrin və kursantların ifasında məktəbin marşı ifa olundu.*

*Sonra Ali Hərbi Məktəbin döyüş bayrağı gətirildi, kursantlar təntənəli hərbi marşın sədaları altında Azərbaycan prezidenti,*

*Ali Baş Komandan İlham Əliyevin olduğu tribunanın qarşısından keçdilər.*

*Azərbaycan prezidenti İlham Əliyev məzunlarla, kursantlarla, hərbçilər və valideynlərlə sağollaşdı.*

*Mərasimdə Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Baş nazirin, parlament sədrinin müavinləri, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları, xarici ölkələrin Bakıdakı səfirləri və ictimaiyyətin nümayəndələri iştirak edirdilər.*

## ABŞ-ın KEMBRİC ENERJİ TƏDQİQAT ASSOSİASİYASININ SƏDRİ DENİEL YERGİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 iyun 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 22-də Prezident sarayında ABŞ-ın Kembric Enerji Tədqiqat Assosiasiyasının sədri Deniel Yerginin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Deniel Yergin ilə bu ilin əvvəlində Davosda keçirdiyi görüşü xatırladı. Son illər ərzində Azərbaycanda siyasi, iqtisadi və digər sahələrdə böyük inkişafın olduğunu qeyd edən prezident İlham Əliyev bu səfərin ölkəmizlə daha yaxından tanışlıq üçün yaxşı imkan yaradacağına əminliyini söylədi.*

*Deniel Yergin Azərbaycana ilk dəfə səfər etdiyini və bundan dərin məmnunluq hissi keçirdiyini dedi. O, Azərbaycanın* rolunun *dünyada getdikcə artdığını vurğuladı. Səfəri çərçivəsində dünyanın ən nəhəng neft terminallarından olan Səngəçal terminalına baş çəkdiyini deyən qonaq Bakı–Tbilisi–Ceyhan kimi mühüm enerji layihəsinin başlanğıc məntəqəsini görməyin dərin təəssürat doğurduğunu bildirdi.*

**KANADANIN GENERAL-QUBERNATORU**
**ZATİ-ALİLƏRİ**
**XANIM MİŞEL JANA**

Hörmətli xanım General-qubernator!

Milli bayramınız – Kanada günü münasibətilə Sizi və bütün xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Son dövrdə Azərbaycan–Kanada münasibətləri ikitərəfli və çoxtərəfli qaydada inkişaf etməkdədir. Ümidvaram ki, qarşılıqlı əlaqələrimizin, dostluq və əməkdaşlığımızın genişlənməsi sahəsində müşahidə olunan müsbət proseslər bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə ən xoş arzularımı yetirməkdən məmnunluq duyur, xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyun 2007-ci il*

**KANADANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB STEFEN HARPERƏ**

Hörmətli cənab Baş nazir!

Ölkənizin milli bayramı – Kanada günü münasibətilə Sizi və bütün Kanada xalqını öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Dövlətlərarası münasibətlərimizin qarşılıqlı anlaşma, dostluq və əməkdaşlıq ruhunda inkişafından məmnunluq duyuram. Əminəm ki, uğurlarımızı daha da artırmaq, əlaqələrimizi dərinləşdirmək sahəsində birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kanada xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyun 2007-ci il*

**BELARUS RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALEKSANDR LUKAŞENKOYA**

Hörmətli Aleksandr Qriqoryeviç!

Milli bayram – Müstəqillik günü münasibətilə Sizi və Belarus xalqını Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Ölkələrimiz arasındakı ənənəvi dostluq münasibətləri hazırda uğurla inkişaf edir. Əminəm ki, bundan sonra da bizim birgə səylərimiz xalqlarımızın və dövlətlərimizin rifahı naminə bütün sahələrdə əməkdaşlığımızın, qarşılıqlı surətdə faydalı əlaqələrimizin genişlənməsinə və möhkəmlənməsinə yönəldiləcəkdir.

Hörmətli Aleksandr Qriqoryeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dövləti fəaliyyətinizdə uğurlar, dost Belarus xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyun 2007-ci il*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN İSTANBULA SƏFƏRİ

*24 iyun 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak etmək üçün iyunun 24-də İstanbula yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də İstanbula gəlmişdir.*

*Prezident İlham Əliyevi Atatürk Beynəlxalq Hava Limanında İstanbul valisi Müəmmər Gülər, şəhər bələdiyyəsinin başçısı Qədir Topbaş və digər rəsmi şəxslər səmimiyyətlə qarşıladılar.*

# TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏR İLƏ GÖRÜŞ

*İstanbul, Çırağan sarayı*

*25 iyun 2007-ci il*

*İyunun 25-də İstanbulun Çırağan sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Türkiyə prezidenti Əhməd Necdət Sezərin görüşü olmuşdur.*

*Prezidentlər dost və qardaş ölkələrimiz arasında münasibətlərin davamlı inkişafından məmnunluqlarını bildirdilər, bu əməkdaşlığın gələcəkdə də genişlənəcəyinə və möhkəmlənəcəyinə əminliklərini söylədilər.*

*Dövlət başçıları Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının 15-ci zirvə görüşünün əhəmiyyətini, ölkələrimiz və xalqlarımız üçün faydalı olan münasibətlərin inkişafında QİƏT-in rolunun böyük olduğunu vurğuladılar.*

*Tərəflər Azərbaycanla Türkiyə arasında ikitərəfli münasibətlərə, regional əməkdaşlığa və qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair fikir mübadiləsi apardılar.*

.

## TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*İstanbul, Çırağan sarayı*

*25 iyun 2007-ci il*

*İyunun 25-də İstanbulda Çırağan sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın görüşü olmuşdur.*

*Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq va qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyi vurğulandı. Bildirildi ki, ölkələrimiz arasında siyasi, iqtisadi və bütün başqa sahələrdə əlaqələr dinamik inkişaf edir. Qlobal layihələr – Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz və Bakı–Tbilisi–Qars dəmir yolu layihələri bölgədə sülhün və təhlükəsizliyin təmin olunmasına öz töhfəsini verir. Bu layihələrin xalqlarımızın rifahının yaxşılaşdırılması baxımından da böyük əhəmiyyəti vardır.*

*Görüşdə ölkələrimizin QİƏT çərçivəsində də uğurlu əməkdaşlıq etdiyi vurğulandı.*

## YUNİSEF-in İCRAÇI DİREKTORU XANIM ANN VENEMAN İLƏ GÖRÜŞ

*İstanbul, Çırağan sarayı*

*25 iyun 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev iyunun 25-də İstanbulun Çırağan sarayında YUNİSEF-in icraçı direktoru xanım Ann Veneman ilə görüşmüşdür.*

*Görüşdə ölkəmizdə həyata keçirilən iqtisadi və sosial inkişaf proqramları diqqət mərkəzində oldu.*

*Xanım Ann Veneman Azərbaycanda ailə və uşaq problemlərinin həllinə göstərilən diqqəti, təhsil və idman, habelə yoxsulluğun azaldılması, məşğulluq probleminin həlli sahəsində gürülən işləri qiymətləndirdi.*

*Prezident İlham Əliyev xanım Ann Venemanı ölkəmizə səfərə dəvət etdi.*

*Dəvət məmnunluqla qəbul olundu.*

## ALBANİYANIN BAŞ NAZİRİ SALİ BERİŞA İLƏ GÖRÜŞ

*İstanbul, Çırağan sarayı*

*25 iyun 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 25-də İstanbulun Çırağan sarayında Albaniyanın Baş naziri Sali Berişa ilə görüşmüşdür.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin dərinləşdirilməsi üçün potensialın olduğu və əlaqələrimizin bundan sonra genişlənəcəyi əminliklə vurğulandı.*

**QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ ZİRVƏ GÖRÜŞÜ**

*İstanbul, Çırağan sarayı*

*25 iyun 2007-ci il*

*İyunun 25-də İstanbulun Çırağan sarayında Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına (QİƏT) üzv olan ölkələrin dövlət və hökumət başçılarının qurumun 15 illiyinə həsr edilmiş zirvə görüşü keçirilmişdir.*

*Zirvə görüşünə təşkilatın üzvü olan 12 ölkənin və müşahidəçi statusuna malik 13 ölkənin təmsilçiləri – Azərbaycan prezidenti İlham Əliyev, Türkiyə prezidenti Əhməd Necdət Sezər, Rusiya prezidenti Vladimir Putin, Ukrayna prezidenti Viktor Yuşşenko, Rumıniya prezidenti Trayan Besesku, Moldova prezidenti Vladimir Voronin, Bolqarıstan prezidenti Georgi Pırvanov, Serbiya prezidenti Boris Tadiç, Gürcüstan prezidenti Mixeil Saakaşvili, Yunanıstanın Baş naziri Konstantinos Karamanlis, Albaniyanın Baş naziri Sali Berişa, Slovakiyanın, Ermənistanın xarici işlər nazirləri, habelə ABŞ-ın, BMT-nin, Avropa İttifaqının, ATƏT-in, Dünya Bankının, Ümumdünya Ticarət Təşkilatının nümayəndələri iştirak edirdilər.*

*Zirvə görüşünü Türkiyənin və xarici ölkələrin 489 mətbuat nümayəndəsi işıqlandırırdı.*

*Xatırladaq ki, mənzil-qərargahı İstanbulda yerləşən QİƏT 1992-ci ilin iyulunda yaradılmışdır. QİƏT-in inkişaf strategiyası 1995-ci ilin iyununda Buxarestdə və 1998-ci ilin iyununda Yaltada keçirilən zirvə görüşlərində müəyyənləşdirilmişdir. Yaltada təşkilatın nizamnaməsi qəbul olunmuşdur.*

*Təşkilata sədrlik ildə iki dəfə rotasiya yolu ilə dəyişir. Bu ilin mayından oktyabrınadək QİƏT-in sədri Türkiyədir.*

*Türkiyə prezidenti Əhməd Necdət Sezər zirvə görüşünü açaraq iştirakçıları salamladı, QİƏT-in ötən 15 ildə keçdiyi yolu xatırlatdı. O, təşkilatın məram və məqsədlərinə uyğun*

*fəaliyyət göstərdiyini, əsas məqsədin iqtisadi işbirliyinin genişləndirilməsi, üzv ölkələr arasında dialoqun gücləndirilməsi, bölgədə təhlükəsizliyin və sabitliyin qorunması, habelə azad bazar iqtisadiyyatına keçən ölkələri dəstəkləmək olduğunu bildirdi.*

*Bolqarıstan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Serbiya, Ukrayna və digər ölkələrin dövlət və hökumət başçıları çıxışlarında QİƏT çərçivəsində möhkəm işbirliyi yaratmaq yönündə istək və iradlarını ifadə etdilər, 300 milyondan çox əhalinin yaşadığı məkanı birləşdirən bu təşkilatın perspektivlərindən danışdılar. Bildirildi ki, bölgənin iqtisadi və insani potensialı, enerji ehtiyatları və nəqliyyat dəhlizləri kimi strateji məsələlər dünyanın diqqət mərkəzindədir və bu QİƏT-ə marağı daha da artırır.*

*Vurğulandı ki, QİƏT-lə Avropa İttifaqı arasında işbirliyini konkretləşdirmək üçün nəzərdə tutulan ilk tədbir bu ilin oktyabr ayında, Türkiyənin sədrliyi dövründə nazirlər səviyyəsində keçiriləcəkdir. QİƏT-in BMT-nin İnkişaf Proqramı ilə imzaladığı əməkdaşlıq sazişi bölgədə əməkdaşlıq və inkişafa mühüm töhfə verəcəkdir.*

*Çıxış edənlər regional əməkdaşlığa və yeni layihələrin icrasına mane olan təhdidlərin aradan qaldırılmasının, ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşılmasının, dünyanın və Avropanın enerji təhlükəsizliyinə öz töhfəsini verən ölkələrin mövqeyinin dəstəklənməsinin zəruriliyini, çoxtərəfli iqtisadi əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyətini vurğuladılar.*

*Ermənistanın Xarici İşlər naziri Vartan Oskanyan çıxışında Dağlıq Qarabağ münaqişəsi ilə bağlı faktları saxtalaşdırmağa cəhd etdi. O bildirdi ki, artıq hər şey arxada qalıb, Azərbaycan Dağlıq Qarabağdakı insanların rahat yaşaması üçün şərait yaratmalıdır.*

*Azərbaycan prezidenti İlham Əliyev növbəti dəfə söz alaraq Ermənistan nazirinin saxtakarlığına aydınlıq gətirdi. O dedi:*

İlk növbədə onu demək istərdim ki, müharibə bitməyib ki, qələbədən danışaq. Bu, sadəcə birinci mərhələ idi ki, müxtəlif səbəblərdən müvəqqəti üstünlük əldə edilibdir. Bu vəziyyət uzun sürə bilməz. Münaqişənin həlli ilə bağlı bizim

mövqeyimiz aydındır və beynəlxalq hüquqa əsaslanır. Təşkilatımızın bütün üzv ölkələri – birindən başqa – ərazimizin bütövlüyünü tanıyır. Ermənistan və Azərbaycan bir sıra beynəlxalq təşkilatların üzvüdür – Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, Avropa Şurası. Bütün bu təşkilatlarda bütün ölkələr, Dağlıq Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünə hörmətlə yanaşır. Məsələnin həlli istiqamətində təklifimiz aydındır və reallığa söykənir. Biz Dağlıq Qarabağa yüksək statusa malik özünüidarə təklif edirik və bu orada yaşayan ermənilərə öz hüquqlarından istifadəyə imkan verəcəkdir. Lakin biz torpaqlarımızın işğalı ilə heç vaxt barışa bilmərik. Nəinki Dağlıq Qarabağ, hətta onun inzibati sərhədlərindən kənarda olan daha yeddi rayon işğal altındadır və bu yolverilməzdir. XXI əsrdə etnik təmizləmə siyasəti ədalətli sayıla bilməz, bu aydındır. Beləliklə, mən istərdim ki, həmkarlarım tarixi saxtalaşdırma cəhdlərinə yox, reallıqlara diqqətlərini yönəltsinlər.

Təşəkkür edirəm.

* * *

*Zirvə görüşünün sonunda dövlət və hökumət başçıları yekun bəyannaməsi qəbul etdilər və birgə xatirə şəkli səkdirdilər.*

*Bəyannamədə bildirilir ki, 15 il əvvəl Qara dəniz bölgəsində regional əməkdaşlıq sahəsində layihənin həyata keçirilməsinə dair təşəbbüs özünün səmərəliliyini sübut etdi və zamanın sınağından çıxdı. Sənəddə QİƏT-in fəaliyyətinin gələcək perspektivləri, iqtisadi əlaqələrin genişləndirilməsi, enerji və nəqliyyat dəhlizləri üzrə Avropa İttifaqı ilə əməkdaşlığın inkişafı və s. məsələlər əksini tapmışdır.*

*Sammit başa çatdıqdan sonra dövlət və hökumət başçıları gəmi ilə İstanbulun Dolmabagça sarayına gəldilər. Burada Qara dəniz orkestrinin konserti oldu.*

* * *

*İyunun 25-də İstanbulun Dolmabaxça sarayında Türkiyə Respublikasının Prezidenti Əhməd Necdət Sezərin adından Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının 15 illiyinə həsr*

*olunmuş zirvə görüşündə üzv ölkələrin dövlət və hökumət başçılarının şərəfinə şam yeməyi verildi.*

*Azərbaycan prezidenti İlham Əliyev ziyafətdə iştirak edirdi.*

*Ziyafətdən sonra dövlət və hökumət başçıları Bosfor boğazında gəzintiyə çıxdılar.*

*Azərbaycan prezidenti İlham Əliyevin İstanbula səfəri davam edir.*

* * *

*İyunun 25-də İstanbulun Çırağan sarayında Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan tərəfindən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının 15 illiyi münasibətilə üzv ölkələrin dövlət və hökumət başçılarının şərəfinə nahar verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev naharda iştirak etmişdir.*

## QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ ZİRVƏ GÖRÜŞÜNDƏ NİTQ

*İstanbul, Çırağan sarayı*

*25 iyun 2007-ci il*

Xanımlar və cənablar!

İlk növbədə mən istərdim ki, zirvə görüşünün yüksək səviyyədə təşkil olunmasına və bizə göstərilən qonaqpərvərliyə görə Türkiyə dövlətinə və şəxsən Türkiyə cümhurbaşqani Əhməd Necdət Sezərə dərin minnətdarlığımı bildirim. 15 ildir ki, biz bir təşkilatda fəaliyyət göstəririk. Təşkilatın bu 15 il ərzindəki fəaliyyəti çox müsbətdir. Bu illər ərzində ölkələrimiz bir-biri ilə sıx əməkdaşlıq etməyə başlamışdır və bu əməkdaşlığın praktik nəticələri də görünməkdədir. 15 il bundan əvvəl təşkilata üzv olan ölkələrin yarısı cəmi bir ildən az bir müddətdə müstəqil ölkələr kimi yaşayırdı, o cümlədən Azərbaycan da.

Sovet İttifaqının dağılması nəticəsində müstəqillik əldə etmiş Azərbaycan cəmi bir neçə ay idi müstəqil ölkə kimi yaşayırdı. Əlbəttə ki, o illərlə bugünkü vəziyyət arasında çox böyük fərq var. Bu illər ərzində ölkəmiz çətin, ancaq şərəfli yol keçmişdir. Demək olar ki, 90-cı illərin ortalarında üzləşdiyimiz problemlərin tam əksəriyyəti artıq arxada qalmışdır. Ölkəmiz dünyada özünə layiq yeri tuta bilmişdir. Aparılan çox ciddi siyasi və iqtisadi islahatlar ölkəmizin hərtərəfli inkişafına gətirib çıxarmışdır. Son üç il ərzində Azərbaycanda ümumi daxili məhsul 96 faiz artmışdır və əlbəttə ki, bu bizim iqtisadi imkanlarımızı çox gücləndirir. Biz regional əməkdaşlıq məsələlərinə çox böyük diqqət göstəririk, bəzi hallarda çox böyük layihələrin təşəbbüskarıyıq. Bütövlükdə Xəzər dənizi – Qara dəniz əməkdaşlıq məsələlərində də Azərbaycan çox fəal rol oynayır. Bizim artıq real, konkret nəticələrimiz var,

layihələrimiz var və bu layihələr hər bir iştirakçı ölkənin xeyrinədir. Azərbaycanın çox zəngin enerji resursları həm ölkəmizi gücləndirir, həm də regional əməkdaşlıqda çox mühüm rol oynayır. Tikilib istifadəyə verilmiş neft kəmərləri üç istiqamətdə Azərbaycan neftini dünya və Avropa bazarlarına çıxarır. Onlardan ikisi Qara dənizə, biri isə Aralıq dənizinə çıxır və biz bu məsələlərdə tərəfdaşlarımızla – Gürcüstan, Rusiya və Türkiyə ilə çox sıx əməkdaşlıq edirik. Gələn ildən başlayaraq, Azərbaycanda gündə 1 milyon barrel neft hasilatı gözlənilir və bu rəqəm artacaqdır. Azərbaycan bu ildən başlayaraq, qaz ixrac edən ölkəyə çevrilir. Artıq bu sahədə də böyük işlər görülüb, müvafiq nəqliyyat infrastrukturu, boru kəməri mövcuddur. Biz demək olar ki, öz enerji problemlərimizi uğurla həll etmişik və indi enerji siyasətimizin növbəti mərhələsindəyik. Mən şübhə etmirəm ki, gələcəkdə regional əməkdaşlıq müstəvisində həm nəqliyyat, həm də enerji sektorundakı təşəbbüslərimiz daha da böyük uğurlara gətirib çıxaracaqdır.

Bizim nəqliyyat sektorunda da gözəl nəticələrimiz var. Bu yaxınlarda tikintisinə başlanacaq Bakı–Tbilisi–Qars dəmir-yolu böyük regional əhəmiyyətə malikdir. Avropanı Asiya ilə birləşdirəcək bu dəmir yolu ilə daşınacaq yüklərin həcmi kəskin şəkildə artacaq və bütövlükdə bütün dost ölkələr üçün yeni imkanlar yaradacaqdır. Bu məsələyə də biz çox ciddi şəkildə yanaşırıq və artıq Azərbaycan ərazisindən keçən enerji dəhlizləri nəqliyyat dəhlizlərinin yaradılmasına gözəl zəmin yaradır.

Bütün bunlar həm regional əməkdaşlıq əlaqələrinin nəticələridir, həm də ki, bütövlükdə təşkilata üzv olan ölkələrin inkişafının təzahürüdür. Bir daha demək istəyirəm, təşkilata üzv olan ölkələrin yarısı ancaq 90-cı illərin əvvəllərində öz dövlət müstəqilliyini bərpa etmişdi və bu illər ərzində həqiqətən tarixi, uğurlu və şanlı yol keçmişdir.

Bununla bərabər, bizi narahat edən problemlər, məsələlər da var. O cümlədən həll olunmamış münaqişələr. Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüz nəticəsində ölkəmizin, torpaqlarımızn 20 faizi hələ də işğal altındadır. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür.

Bu, böyük ədalətsizlikdir, beynəlxalq hüquq normalarının pozulmasıdır. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının bu məsələyə dair 4 qətnaməsi icra olunmamış qalır. O qətnamələrdə işğalçı qüvvələrin çıxarılması nəzərdə tutulurdu. Beləliklə, məsələnin həll olunmaması bölgədə gərginliyin artmasına gətirib çıxarır. Bölgədə sülh bərqərar olunmur. Müvəqqəti atəşkəs mövcuddur, o da ki, çox həssasdır. Mən düşünürəm ki, Ermənistanda başa düşməlidirlər ki, biz artıq orta əsrlərdə yox, XXI əsrdə yaşayırıq və XXI əsrin əlamətləri hər bir ölkə üçün əsas olmalıdır. Biz istəyirik ki, bölgədə sülh olsun. Biz istəyirik ki, beynəlxalq hüquq normaları təmin edilsin. Hər bir işğalçı bilməlidir ki, bu işğalın sonu olmayacaqdır. Bu işğalın sonu ya sülh müqaviləsidir, ya da qaçılmaz məğlubiyyətdir. Mən bu fürsətdən istifadə edib dövlət və hökumət başçılarının diqqətini bir daha bu məsələyə çəkmək istəyirəm. Çünki bu məsələnin həll olunmaması həm bizim üçün, həm bütün region üçün, həm də regionda yaranan və güclənən əməkdaşlıq üçün çox böyük təhlükə mənbəyidir. Biz hesab edirik ki, məsələ yalnız və yalnız beynəlxalq hüquq əsasında öz həllini tapa bilər. Azərbaycanın ərazi bütövlüyü qeyd-şərtsiz bərpa olunmalıdır, 1 milyondan artıq soydaşımız, on ildən artıq əziyyət çəkən soydaşlarımız öz doğma torpaqlarına qayıtmalıdırlar. Bu onların hüququdur. Dağlıq Qarabağın gələcək statusuna gəldikdə isə, dünyada, o cümlədən Avropada kifayət qədər müsbət muxtariyyət nümunələri var və əlbəttə ki, bu müsbət nümunələr bizim bölgədə də tətbiq olunmalıdır. Əgər hər bir milli azlıq yaşadığı ölkədə öz müqəddəratını təyin etmək istəyərsə, təsəvvür etmək çətin deyil ki, dünyada nə qədər yeni dövlətlər yaranacaqdır. Azlıq olmaq o demək deyil ki, yaşadığı ölkənin bir hissəsini qoparıb başqa ölkəyə birləşdirmək mümkün olsun. Bu, qətiyyən belə deyil və beynəlxalq hüquq normaları və sadəcə olaraq, normal davranış qaydaları buna yol vermir. Mən ümid edirəm ki, gələcəkdə məsələlərin həlli və bütövlükdə həll olunmamış münaqişələrin həlli öz yerini tutacaq və bölgəyə əmin-amanlıq, uzunmüddətli sülh və əməkdaşlıq gələcəkdir.

Əziz həmkarlar, sizin hamınızı bu gözəl yubiley münasibətilə bir daha təbrik etmək istəyirəm. Əmin olduğumu

bildirmək istəyirəm ki, bundan sonrakı illərdə də bizim təşkilatımız çox fəal işləyəcək, bölgədə və regionda yeni-yeni layihələr öz həllini tapacaqdır.

Diqqətinizə görə təşəkkür edirəm.

## «ŞƏRQ QƏRBLƏ QARŞILAŞIR: ENERJİ TƏHLÜKƏSİZLİYİNDƏ YENİ HÜDUDLAR» MÖVZUSUNDA 10-cu İLLİK KONFRANS

*İstanbul, « Ceylan İnterkontinental» mehmanxanası*

*26 iyun 2007-ci il*

*İyunun 26-da İstanbulun «Ceylan İnterkontinental» mehmanxanasında «Şərq Qərblə qarşılaşır: enerji təhlükəsizliyində yeni hüdudlar» mövzusunda 10-cu illik konfrans keçirilmişdir.*

*Konfransda Azərbaycan prezidenti İlham Əliyev, Türkiyə prezidenti Əhməd Necdət Sezər, Ukrayna prezidenti Viktor Yuşşenko, Gürcüstan prezidenti Mixeil Saakaşvili, habelə ABŞ-ın, Böyük Britaniyanın, Almaniyanın, eləcə də Avropa İttifaqının, OPEK-in və digər beynəlxalq təşkilatların nümayəndələri iştirak etmişlər.*

*Xatırladaq ki, əsasən, Cənubi Qafqazda enerji təhlükəsizliyi məsələlərinə həsr olunmuş ilk beynəlxalq konfransın (1997-ci il) həmin vaxt təşəbbüsçüsü Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsində çalışan İlham Əliyev olmuşdur və o, konfransın əsas məruzəçisi idi.*

*Konfransı ABŞ-ın Kembric Araşdırmalar Qrupunun (CERA) sədri Deniel Yergin açaraq, dövlət başçılarını salamladı. O bildirdi ki, hazırda enerji təhlükəsizliyi məsələsi dünyanın diqqət mərkəzində olan əsas məsələdir və bu baxımdan yeni iqtisadi əməkdaşlıq mərhələsi başlayır.*

*Konfransın açılışında «Tekfen» orkestrinin ifasında musiqi səsləndi. Bu orkestr Qara dəniz hövzəsində yerləşən 23 ölkənin musiqiçilərini birləşdirir.*

*Xarici İşlər üzrə İqtisadi Qrupun (DEİK) Fəxri üzvü və «Tekfen Holdinq» şirkətlər qrupunun sədri Nihat Gökyigid Bakı–Tbilisi–Ceyhan neft kəmərinin «Əsrin layihəsi» oldugunu*

*bildirərək* dedi ki, *Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin iradəsi sayəsində Bakı–Tbilisi–Ceyhan layihəsi gerçəkləşdi, indi yeni layihələrə* ehtiyac *var. Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşünün təşkilatın həyatında mühüm hadisə olduğunu söyləyən DEİK*-in prezidenti, *Türkiyə Sənaye, Ticarət və Birjalar Palatasının sədri Rifat Hisarciklioğlu* bunu *həm də* regionda *enerji təhlükəsizliyinin təmin olunmasına şərait yaradan amil kimi qiymətləndirdi. Türkiyənin* Energetika *və Təbii* Ehtiyatlar naziri *Hilmi Gülər çıxışında diqqəti* boru *xətlərinin müxtəlifliyinə çəkərək* bildirdi ki, *Türkiyə və* onun *yerləşdiyi* region boru *xətlərinin kəsişmə nöqtəsidir. O, Bakı–Tbilisi–Ceyhanın əhəmiyyətindən danışaraq vurğuladı ki, Bakı–Tbilisi–Ceyhan layihəsini əfsanədən reallığa çevirən Heydər Əliyevin* tarixi *xidmətləri nəzərə alı*naraq, *Ceyhan limanına* onun *adı verilmişdir. Bu ayın* sonunadək *Ceyhanda 193-cü* tanker *neftlə yüklənəcəkdir. Gələn* ay *isə «Şahdəniz» qazı Türkiyə vasitəsilə Yunanıstana,* oradan *İtaliyaya göndəriləcəkdir. Nazir bildirdi ki, «Şahdəniz» qazına* Balkan *ölkələri də maraq göstərir.* Lakin *bununla bağlı* Azərbaycanla *məsləhətləşmələrin aparılması lazımdır. OPEK Konfransının* prezidenti, *Birləşmiş Ərəb Əmirliklərinin* Energetika naziri *Məhəmməd bin Zayen əl-Hamili çıxışında* dedi ki, *OPEK dünya ölkələrinin neftə* olan *tələbatının ödənilməsi kimi mühüm işini* davam etdirir *və bu* qurum *dünyada* enerji *təhlükəsizliyinin təmin olunması ilə bağlı bütün təşəbbüsləri dəstəkləməyə hazırdır.*

*«Bugünkü konfrans həm də ötən on ilə nəzər salmaq baxımından çox əhəmiyyətlidir» – deyən Ukrayna prezidenti Viktor Yuşşenko və Gürcüstan prezidenti Mixeil Saakaşvili yeni* neft-*qaz boru xətlərindən, onların təhlükəsizliyindən söhbət açdılar, ümumi yeni layihələrə qoşulacaqlarını bildirdilər, eyni zamanda, Türkiyənin enerji terminalı və dəhlizlər proqramını dost ölkələrlə birlikdə gerçəkləşdirəcəyini vurğuladılar.*

*Dövlət başçıları Avropa və dünyanın enerji təhlükəsizliyində Azərbaycanın oynadığı rolu yüksək qiymətləndirdilər. M.Saakaşvili çətin vəziyyətə düşən Gürcüstana göstərdiyi köməyə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

*Yeni iqtisadi şərtlərin yerinə yetirilməsi üçün daha fəal çalışmağın, beynəlxalq və regional əməkdaşlığa üstünlük verməyin zəruriliyi vurğulandı.*

*Sonra konfransın aparıcısı Deniel Vergin Azərbaycan prezidentinə söz verərək dedi:*

Mən konfransın 10-cu ildönümünə həsr olunmuş bu tədbirdə demək istəyirəm ki, prezident İlham Əliyev belə məsələlərin müzakirəsində uzun illərdir iştirak edir. O bu mövzular üzrə əvvəlki konfranslarda da çıxış etmişdir. Ötən cümə günü biz Bakıda fikir və ideyaların bu gün hamımızın gördüyü reallığa çevrilməsi haqqında danışdıq və enerjinin gələcəyi ilə bağlı hazırkı fikirlərimiz və ideyalarımız üçün yeni reallığın yaradılmasının zəruri olduğunu qeyd etdik. İndi isə mən Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevi çıxışa dəvət edirəm.

*Azərbaycan prezidenti İlham Əliyev konfransda çıxış etdi.*

## «ŞƏRQ QƏRBLƏ QARŞILAŞIR: ENERJİ TƏHLÜKƏSİZLİYİNDƏ YENİ HÜDUDLAR» MÖVZUSUNDA 10-cu İLLİK KONFRANSDA ÇIXIŞ

*İstanbul, «Ceylan İnterkontinental» mehmanxanası*

Hörmətli cənab prezidentlər!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, mən son iki gün ərzində hamımızın duyduğu qonaqpərvərliyə görə prezident Sezərə minnətdarlığımızı bildirmək istəyirəm. Biz dünən Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının sammitində birgə iştirak etdik. Bu gün isə biz bu cür vacib konfransda iştirak etmək üçün buraya toplaşmışıq. Hesab edirəm, bu iki tədbir bir-biri ilə bağlıdır. Çünki gördüyümüz bütün işlər və planlaşdırdığımız bütün məsələlər regional əməkdaşlığa, xalqlarımızın və dövlətlərimizin rifahına xidmət edir.

Mən eyni zamanda, burada bütün prezidentləri, rəsmi şəxsləri və dostlarımızı salamlamaq istəyirəm. Biz bu gün nailiyyətlərimizi nəzərdən keçiririk və eyni zamanda, gələcəyə nəzər salırıq ki, hələ nəyə nail olmalıyıq. Mən keçmişdə prosesin başlanğıcına nəzər salaraq, 90-cı illərin ortalarında baş vermiş iki mühüm hadisəyə diqqətinizi cəlb etmək istərdim. 1994-cü ilin sentyabr ayı və 1996-cı ilin iyun ayı. 1994-cü ildə «Əsrin müqaviləsi» imzalandı və bu, ümummilli liderimiz Heydər Əliyevin neft strategiyasının başlanğıcı idi. 1996-cı ilin iyun ayında regionun enerji təhlükəsizliyi sahəsində olduqca mühüm rol oynayan və nəticədə Avropanın enerji təhlükəsizliyində daha vacib rol oynayacaq «Şahdəniz» qaz yatağının işlənilməsinə dair müqavilə imzalandı. Həmin vaxtdan etibarən biz nəyə nail olduq?! Bütün bunlar çox çətin geosiyasi şəraitdə Azərbaycanın ümummilli liderinin cəsarətli, müdrik qərarlarının nəticələri idi.

Bu gün Azərbaycan 90-cı illərin əvvəllərində olduğundan tamamilə fərqli vəziyyətdədir. Həmin vaxt bizim çoxsaylı iqtisadi və sosial problemlərimiz var idi. Siyasi sabitlik hələ təmin olunmamışdı. Azərbaycan sərmayələr üçün çox riskli ölkə hesab edilirdi. Bizimlə işləmək üçün xarici şirkətləri cəlb etməli, Azərbaycanın etibarlı tərəfdaş və dost olmasını nümayiş etdirməli idik. Ölkəmiz xarici sərmayələri qorumalı idi. Mən bu gün böyük məmnunluq hissi ilə qeyd edirəm ki, biz qarşımıza qoyduğumuz bütün məqsədlərə birgə səylər, Azərbaycanın rəhbərliyinin qətiyyəti və sadiqliyi, bu gün müzakirə etdiyimiz bütün layihələrdə əsas sərmayədarlar olan xarici neft şirkətləri ilə möhkəm tərəfdaşlıq nəticəsində nail olduq. Biz bunlara beynəlxalq maliyyə qurumlarının dəstəyi, ABŞ hökumətinin çox güclü dəstəyi və bütün regional ölkələrin iştirakı ilə nail olduq. Bu dəstək olmadan bu gün danışdığımız layihələrdən heç biri həyata keçirilə bilməzdi. Bu, regional əməkdaşlığın çox yaxşı nümunəsidir, tərəfdaşlığımızın və dostluğumuzun çox müsbət misalıdır.

Bu gün mənim dostum Mixeil çətin qış şəraiti və Gürcüstan ilə Azərbaycan arasındakı əməkdaşlıq haqqında danışdı. O tamamilə haqlıdır. Biz başqa cür addım ata bilməzdik. Çünki qonşumuzun və tərəfdaşımızın təhlükəsizliyi bizim təhlükəsizliyimizdir. Biz dostuq və tərəfdaşıq, bir-birimizə kömək etməliyik və dəstək verməliyik.

Dünənki görüş zamanı mən xatırlatdım ki, QİƏT-ə üzv olan 12 dövlət arasında 6-sı bu təşkilatın yaradılmasından bir neçə ay öncə öz müstəqilliyini qazanmışdı. Biz müstəqil dövlət kimi yaşamağa qadir olduğumuzu sübuta yetirməliydik. Müstəqilliyimizi qorumalı və onu möhkəmləndirməli idik. Böyük siyasi və iqtisadi çətinliklərə, bəzən sosial problemlərə, vətəndaş müharibəsinə, xaricdən təcavüzə baxmayaraq, 15 illik müddət ərzində ölkələrimiz öz müstəqilliyini möhkəmləndirə bildi və bir çox uğurlar qazandı. O cümlədən, çox gözəl perspektivlərə malik olan ölkələrə çevrildi.

Bu gün isə enerji təhlükəsizliyi nəinki region, həm də bütün dünya üçün ümumi təhlükəsizlik məsələsinə çevrilir. Təsadüfi deyil ki, bu gün biz enerji məsələsi haqqında təhlükəsizlik çərçivəsində danışırıq. Mən bunu tamamilə düzgün hesab edirəm. Çünki bir çox işlər nəinki iqtisadi, o cümlədən siyasi

inkişaf artıq enerji gündəliyindən asılıdır. Azərbaycan böyük enerji resurslarına malik olan ölkədir və artıq bu baxımdan mühüm rol oynayır.

Yeri gəlmişkən, dünyada sənaye üsulu ilə ilk neft XIX əsrdə Azərbaycanda hasil olunmuşdur. Dəniz yataqlarından da ilk neft Azərbaycanda çıxarılmışdır və bu, XX əsrin ortalarında baş vermişdir. Bu gün Azərbaycan yenidən enerji təhlükəsizliyi və təchizatın şaxələndirilməsində olduqca vacib rol oynayır. Biz bütün mühüm daşıma layihələrini həyata keçirmişik. Bu gün təqdimat zamanı nümayiş etdirilmiş, Bakıdan başlayan və müxtəlif istiqamətlərə gedən bütün boru kəmərləri istismar olunur. Azərbaycanda üç boru kəməri var. Onlardan ikisi Qara dənizə, biri isə Aralıq dənizinə çıxır. Türkiyəyə çəkilmiş qaz boru kəməri mövcuddur. Həmin boru kəmərləri müasirdir. Ona görə də biz təchizatımızı şaxələndirə bildik.

Cari hasilat və sərmayələrin qoyulmasından əlavə, neft strategiyamızın vacib aspektlərindən biri də çoxlu kəmərlərin çəkilməsi siyasətidir. Keçmişdə, 90-cı illərin ortalarında biz enerji təchizatının şaxələndirilməsi barədə çox eşitmişdik. Ölkəmiz təchizatın şaxələndirilməsinə qadir olmaq üçün strategiyasını planlaşdırdı. Bu gün isə bizim neftimiz müxtəlif istiqamətlərdə ixrac olunur. Azərbaycanda neft hasilatının həcmi artmaqdadır. Gələn il bu, gündə 1 milyon barrelə bərabər olacaqdır. 2008-ci ildən sonrakı müddət ərzində hasilat daha da artacaqdır. Biz istismar etdiyimiz bütün boru kəmərlərini doldura biləcəyik.

Bakı–Tbilisi–Ceyhan haqqında şayiələr hamımızın yadındadır. Yataqlarımızda nefti hasil etməyə başlayarkən Azərbaycanda neftin kifayət dərəcədə olmaması, Azərbaycanın oyun oynadığı haqqında yayılan şayiələr hamımızın yadındadır. Müqavilələrimizə qarşı təzyiq və müqavimət xatirimizdədir. Biz bu yaxınlara qədər eşidirdik ki, bir çox hallarda üçüncü tərəfin nefti olmadan Bakı–Tbilisi–Ceyhan tam gücü ilə işləməyəcəkdir. Bu boru xətti artıq gələn ildən tam gücü ilə işləyəcəkdir. Son məlumatlara əsasən, hazırda nefti hasil etdiyimiz «Azəri», «Çıraq», «Günəşli» yataqlarında 9 milyard barrel neft var. Bu bizim üçün gələcək onilliklərə kifayət edəcəkdir. Başqa sözlə desək, biz bu gün mühüm daşıma

layihələrini artıq həyata keçirmişik. Biz artıq neftin nəqli ilə bağlı, hansı növbəti addımların atılması ilə bağlı müxtəlif planlar üzərində işləyirik.

Biz Odessa–Brodi boru kəməri barədə geniş müzakirələr aparırıq. Bunu ukraynalı və gürcüstanlı həmkarlarımızla müzakirə edirik və bu yaxınlarda Bakıda və Krakovda daha geniş şəkildə nəzərdən keçirmişik. Biz bunun üzərində işləyirik və birgə işçi qrupu yaratmışıq. Əminəm ki, onlar yaxşı təkliflərlə çıxış edəcəklər. Mən fərəh hissi ilə sizə deyə bilərəm ki, qarşıya qoyduğumuz bütün layihələri həyata keçirmişik. Biz heç bir səhv addım atmamışıq və vahid heyət kimi işləyirik. Bu, uğurumuzun əsas meyarıdır.

Biz bu gün Avropa bazarının qaz təchizatı haqqında yenidən danışdıq və yenə də Azərbaycan qazı xatırlandı. Söhbət «Şahdəniz» qazından gedir. Artıq o, Gürcüstan bazarına çıxarılıb, bu yaxınlarda Türkiyəyə və daha sonra Avropa ölkələrinə çatdırılacaqdır. «Şahdəniz» qaz yatağında nəhəng qaz ehtiyatları – 1,3 trilyon kubmetr qaz var.

Bu gün Azərbaycanda mövcud olan digər yataqlarda bizim ən azı 300 milyard kubmetr qaz ehtiyatımız var. Bu, gələn 150 il ərzində bizim daxili tələbatımız üçün kifayət olacaqdır. Lakin, əlbəttə, biz onu ixrac etməyi də planlaşdırırıq. Bizim artıq müasir nəqletmə qurğularımız var və qazımız dostlarımızın bazarlarına çıxarılacaqdır. Əlbəttə, biz qaz layihələrimizi başlayanda, Avropa bazarı bizim üçün prioritet hesab edilmirdi. Eynilə bizim qazımız da Avropa İttifaqının gündəliyində durmurdu. Bu gün isə vəziyyət dəyişibdir. İndi tələbat artmaqdadır və biz həmin tələbatı ödəməyə hazır olmalıyıq. Bu səbəbdən biz ötən ilin noyabr ayında Avropa İttifaqı ilə Azərbaycan arasında enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma memorandumu imzalamışıq. Eyni zamanda, Birləşmiş Ştatlar ilə Azərbaycan arasında enerji təhlükəsizliyi sahəsində əməkdaşlığa dair sənəd imzalanıbdır. Bunlar gələcək əməkdaşlıq və fəaliyyət üçün yaxşı çərçivədir. Azərbaycandakı neft və qaz xalqımızın və dövlətimizin rifahına xidmət edəcəkdir. Biz qeyri-neft sektoruna böyük sərmayələr qoyuruq, qeyri-neft məhsullarının istehsalını artırırıq.

Azərbaycanda son üç il ərzində ən dinamik iqtisadi artım müşahidə olunubdur. İqtisadiyyatımız son üç ildə dünyada ən böyük sürətlə inkişaf edən iqtisadiyyatdır və demək olar ki, bu, 100 faiz, yəni iki dəfə artacaqdır. Eyni vəziyyəti sənaye istehsalı sahəsində də görürük. Gələn üç il ərzində buradakı həcm iki dəfə artacaqdır. Bu bizə insan kapitalına – təhsilə, səhiyyəyə, infrastruktura, regional inkişafa sərmayə qoymaq imkanı yaradır.

Biz şəffaflıq məsələsi üzərində beynəlxalq təşkilatlarla çox fəal işləyirik. Bu xüsusən də neft hasil edən ölkələrdə çox vacibdir. Mən böyük məmnunluq və fərəh hissi ilə demək istəyirəm ki, bu gün, iyunun 26-da Azərbaycan Dövlət Neft Fondu yüksək səviyyəli şəffaflığa görə Vyanada Birləşmiş Millətlər Təşkilatının mükafatını alır.

Bunlar yeni siyasətimizin elementləridir. Biz ölkəmizi müasirləşdiririk, onu dünya iqtisadiyyatına inteqrasiya edirik, regional miqyasda çox fəalıq. Regionumuzdakı dostlarımızla və digər ölkələrlə tərəfdaşlıqda çox açıq və səmimiyik. Bu, uğurun əsasıdır.

Bu gün isə başladığımız anlara nəzər salsaq, təbii ki, biz görərik ki, olduqca böyük nailiyyətlər qazanılmışdır. Əlbəttə, bu, artıq əfsanə deyil, reallıqdır. Həmin reallıq, həmçinin digər ölkələri bizim nümunəmizi nəzərdən keçirməyə, bunun mümkünlüyünü görməyə sövq edə bilər. Siyasi iradə, siyasi müdriklik, cəsarət, möhkəm tərəfdaşlıq və ölkənin milli maraqlarına qəti sadiqlik olduğu təqdirdə, hər şeyə nail olmaq mümkündür. Bizim nümunəmiz, Türkiyə, Gürcüstan, Ukrayna, Azərbaycan və bu prosesdə iştirak edən digər ölkələr dediklərimin aydın göstəricisidir.

Əminəm ki, gələn illərdə biz uğurlu enerji əməkdaşlığımızı davam etdirəcəyik. Dörd neft və qaz boru kəmərini çəkməklə, Azərbaycan bu mərhələdə qarşıya qoyulmuş bütün proqramları yerinə yetirib və hazırda biz yeni istiqamətlərdə işləyirik. Biz indi Xəzər dənizi, Qara dəniz, Baltik dənizi arasında regional əməkdaşlıq üzərində çalışırıq. Digər ölkələrin və həmin ölkələrdən olan şirkətlərin marağı olarsa, onlar tərəfindən istifadə edilə biləcək kifayət dərəcədə müasir infrastrukturumuz var. Biz Enerji Xartiyasını imzalamışıq. Beləliklə, əgər belə bir tələbat olarsa, biz tranzit ölkəyə çevrilməyə çox açığıq.

Başqa sözlə, biz bugünkü nailiyyəti enerji strategiyamızın, sadəcə, birinci mərhələsi kimi qəbul edirik. Mən sizə deyə bilərəm ki, bu cür inkişaf regiondakı geosiyasi vəziyyəti artıq dəyişir. Bu gün regionu Bakı–Tbilisi–Ceyhan və Cənubi Qafqaz boru kəmərləri olmadan təsəvvür etmək çox çətindir. Bu əfsanə reallığa çevrildi. Əminəm ki, bundan sonra bir daha əfsanələr olmayacaq və işlədiyimiz hər bir layihəni həyata keçirəcəyik, çünki biz vahid heyət, tərəfdaşlar kimi işləyirik. Bugünkü konfrans və dünənki Qara dəniz sammiti belə vacib strateji qərarların sübutudur.

Çox sağ olun.

* * *

*Türkiyə prezidenti Əhməd Necdət Sezər çıxışında millətlərin rifahına beynəlxalq əməkdaşlıq nəticəsində nail olmağın mümkünlüyünü vurğuladı, müasir iqtisadiyyatın inkişafının enerji daşıyıcıları ilə bağlı olduğunu söylədi. O dedi ki, enerji daşıyıcılarının Avropa bazarlarına təhlükəsiz nəqli üçün tranzit ölkələrin üzərinə böyük vəzifələr düşür. İndi alternativ enerji mənbələrinin tapılması, boru xətlərinin şaxələndirilməsi zərurəti yaranmışdır.*

*Qardaş ölkənin prezidenti BTC-nin beynəlxalq əməkdaşlığa nümunə olduğunu diqqətə çatdırdı, nəzərdə tutulan layihələrin dost ölkələrlə reallaşdırılacağını vurğuladı. O dedi ki, neft və qaz boru xətlərinin Türkiyə ərazisindən keçməsi həm Bosfor boğazındakı gərginliyi azaldacaq, həm də Ceyhanı önəmli limana çevirəcəkdir.*

* * *

*Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin dövlət və hökumət başçılarının 15-ci zirvə görüşündə iştirak edən Azərbaycan prezidenti İlham Əliyev iyunun 26-da İstanbuldan Vətənə yola düşmüşdür.*

*Azərbaycan dövlətinin başçısını Atatürk Beynəlxalq Hava Limanında İstanbul valisi Müəmmər Gülər, şəhər bələdiy-*

*yəsinin başçısı Qədir Topbaş və digər rəsmi şəxslər böyük hörmət və ehtiramla yola saldılar.*

* * *

*Prezident İlham Əliyev həmin gün Bakıya gəldi.*

*Azərbaycan prezidentini Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş qasırğa nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Baş vermiş faciə ilə əlaqədar dərdinizə şərik çıxır, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayır, xəsarət alanlara şəfa diləyirəm.

Bu ağır anlarda Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Pakistan xalqına dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 iyun 2007-ci il*

**VENESUELA BOLİVAR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HUQO RAFAEL ÇAVEZ FRİASA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Venesuela arasındakı münasibətlər daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımızı yetirir, xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 iyun 2007-ci il*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB CORC BUŞA**

Hörmətli cənab Prezident!

Amerika Birləşmiş Ştatlarının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda dost Amerika xalqını öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu gün Birləşmiş Ştatlar bütün dünya miqyasında mütərəqqi proseslərin, eyni zamanda qlobal təhlükələrə və çağırışlara qarşı mübarizənin önündə gedərək sülhün, sabitliyin və təhlükəsizliyin təmin edilməsi, ümumbəşəri dəyərlərin və sivilizasiyanın qorunması naminə ardıcıl səylər göstərir. Bu qəbildən Birləşmiş Ştatların beynəlxalq terrorizmə qarşı mübarizəsi, enerji təhlükəsizliyinin təmin edilməsi sahəsində fəaliyyəti çox dəyərlidir və biz də öz növbəmizdə bu işə töhfəmizi verməyə çalışırıq.

Ölkələrimiz arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi, bir çox sahələrdə birgə uğurlu fəaliyyətimiz xüsusi məmnunluq doğurur. Xəzərin Azərbaycan sektorundakı neft-qaz yataqlarının işlənilməsində, enerji daşıyıcılarının hasilatında və onların dünya bazarlarına nəqli üçün irimiqyaslı transmilli nəqliyyat infrastrukturunun yaradılması layihələrinin gerçəkləşdirilməsində Birləşmiş Ştatların prinsipial mövqeyi və hərtərəfli dəstəyi bizim üçün böyük əhəmiyyət kəsb etməkdədir.

Biz həmçinin cəmiyyətimizin demokratikləşdirilməsi proseslərinin dərinləşdirilməsi, insan hüquqlarının qorunması sahəsində ölkəmizdə aparılan islahatlara Birləşmiş Ştatların maraq, diqqət və yardımını razılıq hissi ilə qarşılayırıq.

Birləşmiş Ştatların regionumuzda sülhün, sabitliyin bərqərar olması yolunda davamlı səyləri ən ağrılı problemimiz olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılacağına böyük ümidlər doğurur. İnanırıq

ki, ATƏT-in Minsk qrupunun həmsədri olan Birləşmiş Ştatların iradəsi və vasitəçiliyi ilə haqq-ədalət tezliklə öz yerini tutacaq, Ermənistanın təcavüzünə son qoyulacaq, Azərbaycanın işğal olunmuş torpaqları azad ediləcək, ölkəmizin ərazi bütövlüyü bərpa olunacaq, qaçqın və köçkünlərimiz öz doğma yurd-yuvalarına qayıdacaqlar.

Bu bayram günündə, cənab Prezident, bir daha Sizi ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Amerika xalqına daim firavanlıq və yüksəliş arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 iyun 2007-ci il*

## AZƏRBAYCAN VƏ ERMƏNİSTANIN BİR QRUP ZİYALISI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 iyun 2007-ci il*

*Azərbaycan və Ermənistanın Rusiya Federasiyasındakı səfirlərinin təşəbbüsü ilə Azərbaycan və Ermənistanın bir qrup ziyalısı ATƏT-in xəttilə iyunun 28-də Xankəndidə, Şuşada olmuş, buradan Ermənistana gedərək prezident Robert Köçəryan ilə görüşmüşlər.*

*Həmin gün qrupun üzvləri Yerevandan Bakıya gəlmiş və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qəbulunda olmuşlar.*

*Qrupa Ermənistanın Rusiya Federasiyasındakı Fövqəladə və Səlahiyyətli səfiri, Ermənistanın Əməkdar incəsənət xadimi, professor Armen Smbatyan, Yerevan Dövlət Konservatoriyasının rektoru, professor Sergey Saracyan, Ermənistanın Milli Elmlər Akademiyasının prezidenti, akademik Radik Martirosyan, Ermənistanın Xalq artisti, Rus Dram Teatrının bədii rəhbəri, professor Aleksandr Qriqoryan, Ermənistanın Respublika Xəstəxanasının terapiya şöbəsinin müdiri Lyudmila Qriqoryan, Azərbaycanın Rusiya Federasiyasındakı Fövqəladə və Səlahiyyətli səfiri, Azərbaycanın Xalq artisti, professor Polad Bülbüloğlu, Bakı Musiqi Akademiyasının rektoru, SSRİ-nin Xalq artisti, professor Fərhad Bədəlbəyli, Bakı Slavyan Universitetinin rektoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, Əməkdar elm xadimi Kamal Abdullayev, Azərbaycan Teatr Xadimləri İttifaqının sədri, Azərbaycanın Xalq artisti, professor Azər Paşa Nemətov, Azərbaycanın Əməkdar mühəndisi, iş adamı İlham Fətəliyev daxil idilər.*

*Görüş zamanı dövlətimizin başçısı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin mövqeyini bir daha bəyan edərək vurğulamışdır ki, bu münaqişə yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü və sərhədlərimizin toxunulmazlığı prinsipləri əsasında Dağlıq Qarabağa yüksək muxtariyyət verilməklə həll edilə bilər.*

**BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB QORDON BRAUNA**

Hörmətli cənab Baş nazir!

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri vəzifəsinə təyin edilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Biz Azərbaycan ilə Birləşmiş Krallıq arasındakı münasibətlərə xüsusi əhəmiyyət veririk. Çox şadam ki, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız bu gün dinamik şəkildə inkişaf etməkdədir.

Qlobal enerji təhlükəsizliyinin təmin edilməsi üçün böyük əhəmiyyət kəsb edən Xəzər dənizinin Azərbaycan sektorundakı neft-qaz yataqlarının işlənilməsi, enerji daşıyıcılarının hasilatı və onların dünya bazarlarına nəqli məqsədi ilə transmilli nəqliyyat infrastrukturunun yaradılması sahəsində hökumətlərimizin, ölkələrimizi təmsil edən şirkətlərin birgə işi və əməkdaşlıq zəminində qazandığımız nailiyyətlər məmnunluq doğurur.

Ümidvaram ki, Azərbaycan ilə Birləşmiş Krallıq arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Cənab Baş nazir, bir daha Sizə təbriklərimi yetirir, möhkəm cansağlığı, xoşbəxtlik, Birləşmiş Krallığın dost xalqının rifahı naminə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 iyun 2007-ci il*

## MOSKVANIN MERİ CƏNAB YURİ LUJKOVA

Hörmətli Yuri Mixayloviç!

Moskva meri vəzifəsinə yenidən seçilməyiniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Moskva hökuməti uzun müddət ərzində Sizin rəhbərliyiniz altında iqtisadiyyatın və sənayenin müxtəlif sahələrinin, sosial sahənin dinamik inkişafı, Rusiya Federasiyası paytaxtı infrastrukturunun abadlaşdırılması və modernləşdirilməsi işinə çox böyük töhfə vermişdir.

Siz Azərbaycanla Moskva arasında dostluq və hərtərəfli əməkdaşlıq münasibətlərinin möhkəmlənməsi və genişlənməsinə sanballı töhfə vermisiniz. Əminəm ki, bu xoş ənənələr bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Uzun illər Sizi tanıdığıma görə Sizin işgüzar və insani keyfiyyətlərinizi yüksək qiymətləndirirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Moskvanın və moskvalıların tərəqqisi naminə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 iyun 2007-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ROSTOV-DON ŞƏHƏRİNƏ SƏFƏRİ

*30 iyun 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya prezidentinin mükafatı uğrunda cıdıra tamaşa etmək üçün Vladimir Putinin dəvəti ilə iyunun 30-da Rostov-Don şəhərinə səfərə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 30-da Rostov-Dona gəlmişdir.*

*Dövlətimizin başçısını hava limanında Rusiya Xarici İşlər Nazirliyinin, Rostov Vilayəti Qanunvericilik Məclisinin yüksək vəzifəli şəxsləri qarşıladılar.*

*Prezident İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

* * *

*İyunun 30-da Rostov ippodromunda Rusiya prezidentinin mükafatı uğrunda cıdır keçirilmişdir.*

*Rusiya prezidenti Vladimir Putin, Azərbaycan prezidenti İlham Əliyev, Moldova prezidenti Vladimir Voronin, Özbəkistan prezidenti İslam Kərimov, Ermənistan prezidenti Robert Köçəryan, habelə Rusiyada rəsmi səfərdə olan Venesuelanın prezidenti Uqo Çaves, Rusiya Federasiyasının müxtəlif regionlarının rəhbərləri Fəxri qonaqlar lojasında əyləşmişdilər.*

*Cıdırın təntənəli açılışı Don kazak qoşununun bələdiyyə dəstələrinin paradı ilə başladı. Sonra müxtəlif mükafatlar uğrunda yarışlar keçirildi.*

*Üç və daha çox yaşı olan atların Rusiya prezidentinin mükafatı uğrunda 2000 metr məsafəyə yarışında Azərbaycanı Avsarbəy adlı at (çapar Özcan İldırım, usta-məşqçi Y.Musayev) təmsil edirdi.*

*Xatırladaq ki, həmin at indiyədək Türkiyədə 79 qaçışda 10 dəfə birinci olmuş, 15 dəfə isə ikinci yeri tutmuşdur.*

*Bu yarışın ümumi mükafat fondu 7 milyon rubl idi.*

*Fəxri qonaqlar üçün cıdır münasibətilə xüsusi xatirə medalı hazırlanmışdı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN GÖRÜŞÜ

*Rostov şəhəri*

*30 iyun 2007-ci il*

*İyunun 30-da Rostov ippodromunda cıdır başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olmuşdur.*

*Rusiyanın dövlət başçısı onun dəvətini qəbul edib Rostova gəldiyinə görə Azərbaycan prezidentinə təşəkkürünü bildirərək dedi ki, qarşılıqlı maraq doğuran məsələləri, o cümlədən ikitərəfli münasibətləri, bütün region üçün çox həssas olan bəzi beynəlxalq problemləri müzakirə etmək imkanının yaranmasına şaddır.*

**İ l h a m  Ə l i y e v:** Mən buraya böyük məmnuniyyətlə gəldim, bir neçə saat birlikdə olduq və söhbət etmək imkanımız oldu, maraqlı yarışları izlədik. Əlbəttə ki, bu görüş çox dinamik və səmərəli şəkildə inkişaf edən ikitərəfli əlaqələrimizə, habelə regional məsələlərə dair fikir mübadiləsi aparmaq üçün yaxşı imkandır. Bu məsələlərə yanaşmamız, bu məsələlər barədə mövqeyimiz eynidir. Biz münasibətlərimizi strateji tərəfdaşlıq kimi səciyyələndiririk və bu tərəfdaşlığa sadiqik. Rusiyaya həmişə məmnuniyyətlə gəlirəm, mən əvvəllər Rostovda heç olmamışdım, şəhərə tamaşa etmək, Rusiyanın bu hissəsini də görmək çox maraqlı idi.

**V l a d i m i r  P u t i n:** Biz Azərbaycanda iqtisadi artımın sürətinin təsiri altındayıq, neçə ildir ki, artım 34-35 faizdir, bu sadəcə heyrətləndiricidir. Azərbaycanda da zəngin olan enerji daşıyıcılarının qiymətinin qalxması haqqında nə istəsən danışmaq olar, lakin hər halda, bu artımın səbəbi başqadır,

şübhəsiz ki, bu, ölkə hökumətinin apardığı düşünülmüş iqtisadi siyasətdir.

**İ l h a m Ə l i y e v:** Bu həqiqətən belədir. Son üç il ərzində iqtisadiyyatımızın artımı 96 faiz olmuşdur. Əlbəttə, bunda həm neft, həm də qeyri-neft amilləri rol oynayır.

Son üç il ərzində biz bunu əslində üçqat artırmışıq, bu, ölkələrimizin potensialını, habelə münasibətlərimizin yaxınlığını göstərir. Çünki, adətən, biznes yaxşı siyasi bazanın olduğu yerdə səmərəli əməkdaşlıq qurur, ölkələrimiz arasında isə bu var. Biz münasibətlərimizin bütün istiqamətlərdə möhkəmlənəcəyinə ümid edirik.

* * *

*Azərbaycan prezidenti İlham Əliyev iyunun 30-da Rostov-Don şəhərinə səfərini başa çatdıraraq Vətənə yola düşmüşdür.*

*Azərbaycan prezidenti hava limanında Rusiya Xarici İşlər Nazirliyinin və Rostov Vilayəti Qanunvericilik Məclisinin yüksək vəzifəli şəxsləri yola saldılar.*

* * *

*Dövlətimizin başçısı həmin gün Bakıya qayıtdı.*

*Azərbaycan prezidentini Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Baş nazir Artur Rasizadə, Prezidentin İcra aparatının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV AZƏRBAYCAN POLİSİNİN YARANMASININ 89-cu İLDÖNÜMÜNƏ VƏ POLİS AKADEMİYASININ 2006–2007-ci il TƏDRİS İLİNİN BURAXILIŞINA HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ İŞTİRAK ETMİŞ VƏ NİTQ SÖYLƏMİŞDİR*

*2 iyul 2007-ci il*

*İyulun 2-də Daxili İşlər Nazirliyinin Polis Akademiyasında Azərbaycan polisinin yaranmasının 89-cu ildönümünə və bu ali təhsil ocağının 2006–2007-ci tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilmişdir.*

*Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev mərasimdə iştirak etmək üçün Polis Akademiyasına gəldi.*

*Burada dövlətimizin başçısını Daxili İşlər naziri general-polkovnik Ramil Usubov qarşıladı və raport verdi:*

Möhtərəm Prezident, cənab Ali Baş Komandan, şəxsi heyət Azərbaycan polisinin yaranması gününə həsr olunmuş təntənəli mərasimə hazırdır.

*Prezident İlham Əliyev zabitləri salamladı.*

*Dövlətimizin başçısı ulu öndər Heydər Əliyevin akademiyanın baş meydanında ucaldılmış heykəlinin üzərindən ağ örtüyü götürdü və abidə önünə gül dəstəsi qoydu.*

*Sonra prezident İlham Əliyev akademiyada Heydər Əliyev muzeyinin rəmzi açılışını bildirən lenti kəsdi.*

* Мярасимдя Дахили Ишляр назири эенерал-полковник Рамил Усубов чыхыш етмишдир.

*Məlumat verildi ki, muzeyin müxtəlif bölmələrində xalqımızın ümummilli liderinin həyat və fəaliyyətindən bəhs edən 150-dən çox eksponat toplanmış, əbədiyaşar prezidentin büstü qoyulmuşdur. Onun müxtəlif dövrlərdə milis və polis işçiləri ilə görüşlərini əks etdirən fotoşəkillər, daxili işlər orqanına göstərdiyi diqqət və qayğıdan bəhs edən kitablar, Azərbaycan polisinin yaranması ilə əlaqədar keçirilən tədbirlərdə söylədiyi nitqlər muzeyi daha da zənginləşdirir və bu ali təhsil ocağında təhsil alanlar üçün çox böyük praktik əhəmiyyət daşıyır.*

*Dövlətimizin başçısı eksponatlarla, kompyuter zalı ilə tanış oldu, muzeyin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:*

«Heydər Əliyev muzeyində ulu öndərin həyat və fəaliyyəti əks olunur. Nümayiş etdirilən eksponatlar, fotoşəkillər, sənədlər çox böyük maraq doğurur. Müstəqil Azərbaycanın daxili işlər orqanlarının formalaşmasında Heydər Əliyevin çox böyük rolu olmuşdur.

Daxili İşlər Nazirliyi Azərbaycanda ictimai asayişin qorunmasında öz vəzifəsini şərəflə yerinə yetirir. Ölkəmizdə mövcud olan sabitlik, qayda-qanun ölkəmizin hərtərəfli inkişafı üçün əsas rol oynayır.

Bütün polis əməkdaşlarına yeni uğurlar arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

2 iyul 2007-ci il».

* * *

*Sonra təntənəli mərasim keçirildi.*

*Ümummilli lider Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların, xidməti tapşırıqları yerinə yetirərkən həlak olan polis əməkdaşlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi.*

*Azərbaycanın Dövlət himni səsləndirildi.*

*Mərasimi Daxili İşlər naziri general-polkovnik Ramil Usubov açdı.*

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi

Əziz zabitlər!
Əziz generallar!
Əziz polis əməkdaşları!

Mən sizi və Daxili İşlər Nazirliyinin bütün şəxsi heyətini Azərbaycan polisi günü münasibətilə ürəkdən təbrik edirəm, hər birinizə cansağlığı, uğurlar arzulayıram.

89 il bundan əvvəl Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən Azərbaycanda ilk polis orqanı yaradılmışdır. O vaxt Azərbaycan müstəqilliyə qovuşan bir ölkə idi. Ancaq müstəqilliyimiz cəmi iki il davam etdi. Ondan sonra xarici qüvvələr Azərbaycanı yenidən işğal etdi və demokratik respublika süqut etdi. Bu tarix keçən əsrin 90-cı illərinin əvvəllərində də təkrarlana bilərdi. Çünki o illərdə də cəmi ikinci ilini yaşayan müstəqil Azərbaycan öz dövlət müstəqilliyini itirə bilərdi. Azərbaycanda gedən xoşagəlməz proseslər, total böhran, xaos, anarxiya faktiki olaraq Azərbaycanı parçalayırdı. Ölkəmizdə inkişaf üçün heç bir əsas yox idi. O illərdə Azərbaycan xalqı öz müdrikliyini göstərərək ulu öndər Heydər Əliyevə müraciət etmiş, onu Azərbaycana siyasi rəhbərliyə dəvət etmişdi. Ondan sonra, 1993-cü ildən başlayaraq Azərbaycan öz inkişaf yolunu uğurla davam etdirdi. Bütün xoşagəlməz proseslərin qarşısı alındı, xüsusilə polis orqanlarında fəaliyyət göstərən səriştəsiz, bacarıqsız, kriminal ünsürlərdən təmizlənmə getdi və beləliklə, bütün cəmiyyət normal yaşamağa başladı.

O vaxt polis orqanlarının çox böyük əhəmiyyəti var idi. Hər bir ölkənin polis orqanları çox böyük rola malikdir, o cümlədən də Azərbaycanda. Əfsuslar olsun ki, müstəqillik bərpa olunandan sonra polis orqanlarında vəziyyət ürəkaçan deyildi. Bir daha demək istəyirəm ki, orqanların rəhbərliyinə heç bir bacarığı, biliyi olmayan adamlar gətirilmişdi. Onlar bir çox hallarda nəinki cinayətkarlığa qarşı mübarizə aparmırdılar, hətta özləri cinayətlər törədirdilər. O illər hamımızın yadındadır. Məhz o illərdə ən böyük cinayətləri törədən insanlar polis orqanlarının rəhbər işçiləri idi, Daxili İşlər Nazirliyinin rəhbərləri

idi. Belə olan halda heç bir inkişafdan, sabitlikdən, heç bir irəliləyişdən söhbət gedə bilməzdi. Bütün cəmiyyətdə olduğu kimi, polis orqanlarında da təmizləmə aparıldı və bu gün Azərbaycan polisi öz vəzifə borcunu ləyaqətlə icra edir, Azərbaycanın hərtərəfli inkişafında öz rolunu oynayır. Azərbaycanda ictimai asayişin qorunmasında, sabitliyin saxlanmasında çox önəmli rol oynayır.

Hər bir ölkədə polis orqanlarının çox böyük əhəmiyyəti var. İlk növbədə cinayətkarlığa qarşı mübarizə daha da güclənməlidir. Bu sahədə böyük uğurlar var. Azərbaycanda kriminogen vəziyyət bütün MDB məkanında və hətta geniş mənada, bölgədə ən müsbətdir. Biz bunu həm statistik göstəricilərdə, eyni zamanda, gündəlik həyatda görürük. Azərbaycanda insanlar rahat yaşayırlar. Azərbaycanda sabitlik var, ictimai təhlükəsizlik var. İnsanlar günün istənilən vaxtında – gündüz, günorta, gecə rahat gəzirlər, dincəlirlər. Yəni bütün bunlar Azərbaycanın reallıqlarıdır. Biz bütün bunları əldə etmişik. Ulu öndər Heydər Əliyev siyasəti nəticəsində, onun Azərbaycana xidmətləri nəticəsində biz bu gün bunu yaşayırıq və Azərbaycanı, müstəqil dövlətimizi daha da gücləndiririk.

Ancaq yenə də deyirəm, bütün dövrlərdə belə deyildi. 90-cı illərin əvvəllərində ölkəmiz çox böyük təhlükələrlə üz-üzə qalmışdı və müstəqilliyimizi əldən verə bilərdik. Bu gün isə biz öz inkişaf dövrümüzü yaşayırıq. Polis orqanlarının bu işlərdə çox əhəmiyyətli vəzifələri vardır.

Dövlət tərəfindən polisə qayğı artır. Polisin məişət problemləri həll olunur. Biz bu sahəyə böyük diqqət göstəririk, mütəmadi qaydada maaşlar qaldırılır. Polis orqanlarında çalışan insanların sosial məsələləri bundan sonra da mütəmadi qaydada həll olunacaq, maaşlar bundan sonra da artırılacaqdır. Polis orqanlarında çalışan insanlar bütün sosial-məişət problemlərinin həlli baxımından ən yüksək səviyyədə olmalıdırlar. Çoxlu avadanlıq, texnika alınır, müasir tələblərə uyğun avadanlıq polisi gücləndirir. Biz müasir dövlət qururuq. Azərbaycanın hər bir sahəsi, hər bir sektoru ən müasir tələblərə cavab verməlidir. Bu məqsədlə çox böyük işlər görülür, xüsusi vəsait ayrılmışdır və bundan sonrakı illərdə də polisin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün lazımi işlər görüləcəkdir. Bunu

etməyə bizim maddi imkanlarımız var. Azərbaycanın artan iqtisadi potensialı bizə istənilən məsələnin həllinə imkan yaradır. İqtisadi potensialın artması da öz növbəsində, Azərbaycanda bərqərar olunmuş sabitliyin nəticəsidir. Bu, başlıca şərtdir. Sabitlik olmayan ölkələrdə, ictimai təhlükəsizlik olmayan bir ölkədə heç vaxt heç bir inkişafdan, nə siyasi, nə də iqtisadi inkişafdan söhbət gedə bilməz.

Bu gün bizim uğurlu iqtisadi və siyasi işlərimizin, bu sahələrdə aparılan siyasətin təməlində Azərbaycanda mövcud olan sabitlik dayanır. Biz bunu gündəlik həyatda da görürük. Ardıcıl üç ildir ki, Azərbaycan dünyanın iqtisadi cəhətdən ən sürətlə inkişaf edən ölkəsidir və bu proses davam edir. Azərbaycanda çox böyük quruculuq, abadlıq işləri aparılır, çox gözəl ab-hava var. İctimai vəziyyət çox gözəldir. Xalqla iqtidar arasında əlaqələr çox yüksək səviyyədədir. Bizim həyata keçirdiyimiz bütün proqramlar Azərbaycan xalqının maddi rifahının yaxşılaşmasına yönəldilibdir.

Nəhəng infrastruktur layihələri, transmilli enerji layihələri, neft-qaz kəmərləri, nəqliyyat infrastrukturunun möhkəmlənməsi Azərbaycanı regionun mərkəzinə çeviribdir. Bu, artıq reallıqdır və bunu biz öz ardıcıl fəaliyyətimizlə, ulu öndər Heydər Əliyevin siyasi xəttinə sədaqətimizlə, Azərbaycanda aparılan çox düşünülmüş və çoxşaxəli iqtisadi islahatlarla qazanmışıq. Bütün bu uğurlar göydən düşmür. Bunu etmək üçün ardıcıl şəkildə iş aparmaq lazımdır, çox düşünülmüş proqramlar icra olunmalıdır və hər bir sahədə inkişaf da göz qabağındadır. Bütün bunların müxtəlif səbəbləri var, amma bir də demək istəyirəm ki, əsas başlıca səbəb Azərbaycanda çox gözəl ictimai-siyasi vəziyyətin mövcud olmasıdır.

Bir daha vurğulamaq istəyirəm ki, polis orqanlarının hər bir cəmiyyətdə çox böyük funksiyaları var. Onlardan biri də daxili sabitliyi qorumaq, asayişi qorumaq, cinayətkar dəstələrə qarşı barışmaz mübarizə aparmaqdır. Ölkədə vəziyyəti gərginləşdirmək istəyən, qanunsuz yollarla hakimiyyəti dəyişmək istəyən qüvvələrə qarşı barışmaz mübarizə aparmaqdır. Bunların hamısı Azərbaycanın tarixində yaşandı. Həm 90-cı illərin əvvəllərində və bir də 2005-ci ildə.

Hamımız yaxşı xatırlayırıq, 2005-ci ildə parlament seçkiləri ərəfəsində Azərbaycanda vəziyyət bəzi cinayətkar ünsürlər və «siyasətçilər» tərəfindən süni şəkildə gərginləşdirilirdi. Buna siyasi səhnədə heç bir uğur qazanmayan və bütün nüfuzunu itirmiş «siyasətçilər» cəhdlər edirdilər. Onları maddi cəhətdən dəstəkləyən rüşvətxor və xəyanətkar məmurlar və bəzi xarici dairələr bu işlərdə iştirak edirdilər. Biz bunların hamısını bilirik. Bilirik ki, o vaxt Azərbaycanda vəziyyətin gərginləşdirilməsi, Azərbaycanda qanuni seçilmiş hakimiyyətin devrilməsi planları da kifayət qədər geniş şəkildə müzakirə olunurdu. Özü də həm Azərbaycanda, həm də Azərbaycanın hüdudlarından kənarda. Biz bütün bunları o vaxt da bilirdik, bu gün də bilirik. Onların bütün planları haqqında bizdə məlumatlar var idi. İndi Azərbaycanda elə məsələ yoxdur ki, biz onu bilməyək. Azərbaycanda bütün vəziyyət güclü nəzarət altındadır.

Əlbəttə ki, biz bunu bilirdik və öz tədbirlərimizi də görürdük. O vaxt Azərbaycanda «inqilab» etmək istəyən qüvvələrə Azərbaycan dövləti layiqli cavab verdi. İlk növbədə, xalqla iqtidar arasında birlik, Azərbaycan iqtidarının xalq tərəfindən dəstəklənməsi və Azərbaycan iqtidarının xalqa xidmət etməsi onların bütün bu planlarını alt-üst etdi. Digər tərəfdən, Azərbaycanın gücü, Azərbaycan dövlətinin gücü, əlbəttə, bu xoşagəlməz ssenarilərin həyata keçirilməsinə imkan vermədi. Ancaq belə planlar var idi. Təsəvvür etmək çətin deyil ki, əgər onların planları həyata keçsəydi, Azərbaycanı yenidən hansı bəlalar gözləyirdi.

Çevriliş olan ölkələrdə bir neçə il ərzində total böhran yaşanır. Orada inkişafdan söhbət getmir, daxili çəkişmələr qızışır. Orada iqtisadiyyatla məşğul olan yoxdur, sadəcə olaraq, siyasi mübarizə aparılır. Azərbaycanda isə vəziyyət tam başqadır. Biz çox sakit şəkildə öz siyasətimizi aparırıq. İqtisadi potensialımızı gücləndiririk. Regional müstəvidə çox böyük rol oynayırıq. Əgər sabitlik pozulsaydı, Azərbaycanda heç vaxt heç bir böyük layihə həyata keçirilə bilməzdi.

Biz keçən il Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismara verilməsini qeyd etdik. Əgər Azərbaycanda xaos yaransaydı, heç vaxt xarici investorlar vəsait qoymazdılar. Əgər biz o neft kəmərini inşa etməsəydik, təsəvvür etmək çətin deyil ki, bizim

iqtisadi vəziyyətimiz tam başqa olardı. İqtisadi vəziyyət, öz növbəsində, siyasi vəziyyətə də təsir edir. Bu gün Azərbaycan öz xarici və daxili siyasətini tam müstəqil şəkildə aparır. Nəyin hesabına? Onun hesabına ki, biz heç kimdən asılı deyilik. Biz iqtisadi cəhətdən özümüzü təmin edirik. Enerji təhlükəsizliyi baxımından nəinki özümüzü təmin edirik, başqa ölkələrin enerji təhlükəzliyinə dəstəyimizi veririk. Əgər bunlar olmasaydı, əlbəttə, Azərbaycan başqa ölkələrin təsiri altına düşə bilərdi. Çünki iqtisadi cəhətdən asılı olan hər bir ölkə başqa ölkələrin təsiri altına düşür.

Əgər 2005-ci ildə Azərbaycanın düşmənlərinin, daxili və xarici düşmənlərinin planları baş tutsaydı, Bakı–Tbilisi–Ərzurum qaz kəməri heç vaxt tikilməyəcəkdi və bu gün biz nəinki Avropanın qaz təminatından danışa bilməzdik, hətta özümüzü qazla gücnən təmin edə bilərdik. Xüsusilə görürsünüz ki, bu bölgədə enerji məsələləri necə kəskinləşir.

Biz bu yaxınlarda Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisinə başlayacağıq. Əgər 2005-ci ildə Azərbaycan hakimiyyəti qanunsuz yollarla dəyişdirilsəydi, buna heç vaxt heç bir tərəf vəsait qoymazdı. Yəni, mən bu siyahını davam etdirə bilərəm. Əsas odur ki, Azərbaycan öz siyasətini müstəqil şəkildə aparır, görülən və gələcəkdə görəcəyimiz bütün işlər Azərbaycan xalqının maraqlarına cavab verir. Azərbaycanda çox güclü dövlətçilik ənənələri yaranıbdır, çox güclü iqtisadi potensial var, siyasi proseslər çox müsbət istiqamətdə inkişaf edir və beləliklə, ölkəmiz dünyanın aparıcı ölkələrinin siyahısına mütləq daxil olacaqdır.

O ki qaldı regional müstəvidə, heç kəs üçün sirr deyil ki, Azərbaycan regionda aparıcı rol oynayır. Ancaq hələ bu bizim planlarımızın, görülən işlərin birinci mərhələsidir. Görün iki ildən, beş ildən sonra Azərbaycan hansı dövlətə çevriləcəkdir. Biz bir neçə ildən sonra ölkəmizi iqtisadi cəhətdən güclü, siyasi cəhətdən güclü, öz siyasətini inamla aparan və sosial problemləri həll olunmuş vəziyyətdə görəcəyik.

2005-ci ilə bir daha qayıtmaq istəyirəm. Məhz o vaxt həm Azərbaycan xalqı öz sözünü dedi, həm də Azərbaycan polisi bütün bu qanunsuz hərəkətlərin qarşısını çox cəsarətlə, çox qətiyyətlə və lazım olan şəkildə aldı. Mənim yadımdadır, ondan

sonra bəzi xarici təşkilatlar və dairələr bizə təzyiq etməyə çalışdılar. Hətta tələb edirdilər ki, polis işçiləri cəzalandırılsın, onlar həbs olunsunlar, cinayət işləri açılsın. İmkan vermədim. Bütün bu tələbləri rədd etdim və dedim ki, bir nəfər də polis işçisi cəzalandırılmayacaqdır. Çünki onlar öz vəzifə borcunu yerinə yetirir, dövlətçiliyin keşiyində dururdular. Onlar qanunsuz cinayətkar hərəkətlərin qarşısını alırdılar. Mən bu gün də Azərbaycan polisini dəstəkləyirəm, polisin inkişafı üçün bütün lazımi tədbirləri görürəm. Həm polisin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün, həm sosial problemlərinin həlli üçün və həm də cəmiyyətdə nüfuzunun qaldırılması üçün.

Ancaq polis işçiləri də, əlbəttə, öz fəaliyyəti ilə, öz hərəkətləri ilə elə etməlidirlər ki, xalq tərəfindən daha da böyük hörmətə layiq olsunlar. Ona görə müasir tələblərə uyğun şəkildə polis kadrları hazırlanmalıdır. Biz müasir ölkə qururuq, Avropaya inteqrasiya edirik. Avropa İttifaqı ilə beşillik qonşuluq proqramına qoşulmuşuq. Yəni, Azərbaycanda növbəti beş ildə bütün meyarlar Avropa İttifaqının meyarlarına ya uyğun, yaxud da ona çox yaxın olmalıdır. O cümlədən, hüquq mühafizə orqanları sahəsində. Ona görə Azərbaycan polisinin həm maddi-texniki təchizatı, həm avadanlığı, həm də hərəkətləri, ən əsası isə işi, qabiliyyəti, peşəkarlığı dünyanın ən yüksək standartlarına cavab verməlidir.

Polis həm qətiyyətli olmalıdır, cinayətkarlara qarşı barışmaz, sərt olmalıdır, eyni zamanda, insanlara qarşı çox mədəni, mülayim olmalıdır, kobudluğa yol verməməlidir. Çünki biz hamımız, dövlət işində işləyən insanlar xalqa xidmət edirik. Bizi ona görə seçirlər, ona görə etibar edirlər ki, biz öz tərəfimizdən qərarların qəbul olunması ilə, öz hərəkətimizlə, öz nümunəmizlə xalqa xeyir gətirək. Onun problemlərini həll edək, dərdlərini dinləyək, ona kömək edək. Polis işçiləri xalqla birbaşa təmasda olan insanlardır. Ona görə bu mənim əsas tələbimdir: həm qətiyyət olmalıdır, çox böyük peşəkarlıq olmalıdır, həm də polis işçiləri özlərini çox mədəni şəkildə aparmalıdırlar. Belə olan halda, siz Azərbaycan xalqının daha da böyük rəğbətini qazanacaqsınız.

Bu işlərdə Polis Akademiyasının böyük rolu var. Mən bu gün çox şadam ki, burada gördüyüm işlər yüksək səviyyədədir. Burada oxumaq üçün, yaxşı təhsil almaq üçün bütün imkanlar

var. Ən müasir avadanlıq, gözəl binalar, tədris korpusları, yeməkxana, yataqxanalar, yəni gözəl təhsil almaq üçün bütün şərait var. Polis Akademiyasının da rolu artır. Çünki Polis Akademiyasında oxuyan kursantlar müasir tələblərə cavab verməlidirlər, ona görə tədris prosesinə çox böyük diqqət yetirilməlidir. Akademiyanı bitirən kursantlar ən yüksək meyarlara, ən yüksək tələblərə cavab verməlidirlər.

Əziz dostlar, mən bu əlamətdar gündə sizi bir daha ürəkdən təbrik etmək istəyirəm. Bir də demək istəyirəm ki, Azərbaycan polisinin çox böyük və şərəfli yolu var. Bu yol Azərbaycan dövlətçiliyinin yoludur. Bizim əsas gücümüz Azərbaycan dövlətçiliyidir, Azərbaycanın müstəqilliyidir, müstəqil ölkə kimi inkişafımızdır. Biz bu gün bunu çox böyük qürur hissi ilə deyə bilərik ki, Azərbaycan müstəqil ölkə kimi, dünyada öz yerini tuta bildi. Bizim ardıcıl inkişafımız, siyasi və iqtisadi qələbələrimiz, əlbəttə ki, bizə yeni uğurlar gətirəcəkdir.

Mən bu bayram günündə Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş polis işçilərinin xatirəsini bir daha yad etmək istəyirəm. Mindən çox polis işçisi müharibədə şəhid olmuşdur. Müharibə hələ bitməyib, müharibənin birinci mərhələsi başa çatıbdır. Biz ordumuzu gücləndiririk, iqtisadi potensialımızı gücləndiririk. Biz hazır olmalıyıq ki, doğma torpaqlarımızı istənilən yolla işğalçılardan azad edək və bu günə yaxınlaşırıq. Həm diplomatik, həm siyasi uğurlarımız, həm də Azərbaycanın artan rolu, artan iqtisadi potensialı və ilk növbədə, beynəlxalq hüquq normalarının mövcud olması, əlbəttə ki, bizim mövqeyimizi daha da gücləndirir.

Biz münaqişənin yalnız və yalnız beynəlxalq hüquq əsasında həll olunmasını tələb edirik və çox şadıq ki, bütün dünya ictimaiyyəti bizim mövqeyimizi dəstəkləyir. Biz bu dəstəyi hiss edirik. Düzdür, bu dəstək hələ kifayət deyil ki, biz öz ərazi bütövlüyümüzü bərpa edək. Amma siyasi dəstək bir tərəfdən, iqtisadi və hərbi güc digər tərəfdən, əlbəttə ki, məsələnin bizim xeyrimizə həllinə gətirib çıxaracaqdır.

Azərbaycan öz torpaqlarının itirilməsi ilə heç vaxt barışmayacaqdır. Bizim ərazi bütövlüyümüz qeyd-şərtsiz bərpa olunmalıdır. Biz istəyirik ki, bunu sülh yolu ilə edək. Amma bununla bərabər, bütün bu illər ərzində öz hərbi gücümüzü

gücləndirmişik. Bu gün Azərbaycan hərbi cəhətdən bölgədə ən güclü ölkədir. Bir neçə ildən sonra isə bizim qabağımızda heç kim dura bilməyəcəkdir. Bunu Ermənistanda da yaxşı başa düşürlər. Sadəcə olaraq, onlar özlərində cəsarət tapmalı və onlara məxsus olmayan torpaqlardan öz xoşları ilə çıxmalıdırlar. Belə olan halda müharibə olmayacaq, belə olan halda sülh olacaq və bizim soydaşlarımız öz doğma torpaqlarına rahat şəkildə qayıdacaqlar. Əks təqdirdə, biz istənilən yolla öz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Amma o yolun, əlbəttə ki, böyük çətinlikləri, böyük itkiləri olacaqdır. Heç kim istəmir ki, itkilər olsun, heç kim istəmir ki, şəhidlər olsun. Amma eyni zamanda, indiki vəziyyətlə biz heç vaxt barışa bilməyəcəyik. Biz güc toplayırıq, güclənirik və istənilən anda istənilən əməliyyatı keçirməyə hazırıq.

Sizi bir daha təbrik edirəm. Sizə uğurlar, cansağlığı arzulayıram.

Sağ olun.

* * *

*Prezident İlham Əliyev Polis Akademiyasının məzunları Vüqar Ağayevə, Raciv Almazova və Asif Behbudova fərqlənmə diplomlarını təqdim etdi.*

*Akademiyanı fərqlənmə diplomu ilə bitirmiş polis baş leytenantı Vüqar Ağayev yaş kötüyünə rəmzi xatirə lövhəsini vuraraq dedi:*

Cənab Ali Baş Komandan, 2007-ci il məzunlarının rəmzi xatirə lövhəsini yaş kötüyünə vuraraq and içirəm: Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət edəcək, Silahlı Qüvvələrin Ali Baş Komandanının hər bir əmrinə hər an hazır olacağam.

*Sonra döyüş bayrağını dördüncü kurs müdavimlərinə təhvil verən polis leytenantı Azad Əliyev dedi:*

Davamçım, xalqımızın azadlıq və istiqlal ideyalarının, milli varlığının, ərazilərimizin bütövlüyünün rəmzi olan bu bayrağı sənə təhvil verirəm. Ulu öndər Heydər Əliyevin müqəddəs ruhunu özündə yaşadan və hər birimizi Azərbaycan uğrunda daha böyük zəfərlərə çağıran bu bayrağı öpür və sənə təhvil verirəm. Mübariz keşikdə ayıq-sayıq ol!

*Dördüncü kurs bayraqdarı müdavim Cəsarət Mustafazadə döyüş bayrağını təhvil alaraq dedi:*

Həmkarım, and içirəm ki, təhvil aldığım bu bayrağın keşiyində ayıq-sayıq duracaq, öz qanımı və canımı əsirgəmədən onu şərəflə qoruyacağam. Ulu öndər Heydər Əliyevin ruhunu yaşadan bu müqəddəs bayrağı öpür və təhvil alıram.

*Sonra «Azərbaycan polisi» marşı ifa olundu.*

*Polis Akademiyasının məzunları və daxili işlər orqanlarında çalışan zabitlər mətin addımlarla Ali Baş Komandanın olduğu tribunanın qarşısından keçdilər.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BAKI ŞƏHƏR BAŞ DÖVLƏT YOL POLİSİ İDARƏSİNİN YENİ İNZİBATİ BİNASININ AÇILIŞ MƏRASİMİNDƏ İŞTİRAK ETMİŞDİR

*2 iyul 2007-ci il*

*İyulun 2-də paytaxtın Badamdar qəsəbəsi ərazisində Bakı Şəhər Baş Dövlət Yol Polisi İdarəsinin (BŞBDYP) yeni inzibati binası istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısını binanın önündə qarşılayan Daxili İşlər naziri general-polkovnik Ramil Usubov raport verdi.*

*Prezident İlham Əliyev paytaxt yol polisinin şəxsi heyəti ilə görüşdü və inzibati binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, bu ərazinin ümumi sahəsi 10 min kvadratmetrdir. Beşmərtəbəli inzibati binanın sahəsi isə 4512 kvadratmetr təşkil edir. Bunun 630 kvadratmetrini estakada və yeraltı qaraj tutur. Daxili İşlər Nazirliyinin Əsaslı tikinti idarəsi inşaat işlərinə keçən ilin may ayında başlamış, binanı bir il ərzində təhvil vermişdir. 55 xidməti otaqdan ibarət binanın tikintisinə 2 milyon manat vəsait xərclənmişdir. 8500 kvadratmetr ərazi abadlaşdırılaraq yaşıllaşdırılmışdır.*

*Binanın birinci mərtəbəsində müvafiq qurğu və cihazlarla təchiz edilmiş işıqforların operativ idarə edilməsi mərkəzi, zəruri xidməti otaqlar, növbətçi hissə, klub yerləşir.*

*İkinci mərtəbədə xalqımızın ümummilli lideri Heydər Əliyevin, üçüncü mərtəbədə dövlətimizin başçısı İlham Əliyevin fəaliyyətlərindən bəhs edən guşələr də yaradılmışdır.*

*Hərəkətin idarə edilməsi mərkəzi ilə tanış olan prezidentə məlumat verildi ki, burada quraşdırılan müasir qurğular vasitəsilə paytaxtın müxtəlif prospekt və küçələrində baş verən nəqliyyat*

*hadisələri, avtomobillərin hərəkət sürəti, yaranan tıxaclar, qəza vəziyyəti yaradan avtomobillərin nömrə nişanları barədə dərhal məlumat əldə etmək, bunları monitorlarda izləmək mümkündür. Bunlar avtomatik olaraq yaddaşa yazılır və uzun müddət saxlanılır ki, bu da araşdırmanın asanlaşması üçün çox lazımlıdır.*

*Prezident İlham Əliyev tıxacların çox olduğu Bakıxanov və Səməd Vurğun küçələrinin kəsişməsində və şəhərin digər yerlərində nəqliyyatın hərəkətini monitorlar vasitəsilə izlədi və dedi ki, biz gərək yol işıqforlarını tənzimləyən sistem də quraşdıraq. Çünki bu lazımdır və avtomatik rejimdə işləməlidir. Əvvəllər hər tində qırmızı işıq yanırdı və ona görə də maşınların hərəkəti çətinləşirdi.*

*Daxili İşlər naziri Ramil Usubov və Baş Dövlət Yol Polisi İdarəsinin rəisi Ramiz Zeynalov bildirdilər ki, işıqforların tənzimlənməsi sisteminin quraşdırılmasına başlanmışdır. Şəhərin mərkəzi hissəsində bundan istifadə edilir və beş dəqiqə ərzində hərəkəti tənzimləmək olur. Detektorların köməyi ilə küçələrdən keçən nəqliyyatın sayı, intensivliyi hesablandıqdan sonra məlumat nəzarətedici qurğudan mobil rabitə vasitəsilə bu mərkəzə ötürülür. Əgər hər hansı yerdə tıxac yaranırsa, buradan tənzimlənir. Həm də həmin yerlərin təsviri çəkilir, yol hərəkəti qaydası pozulursa, qeydə alınır. Bu, hadisənin səbəbini aydın bilmək baxımından vətəndaşlar və müstəntiqlər üçün çox gərəklidir.*

*Prezident İlham Əliyev bu texniki vasitələrlə qaydalara əməl etməyən sürücülərə qarşı tədbir görməyin mümkünlüyünü vurğuladı və dedi ki, sürücülər bilməlidirlər ki, artıq ölkəmizdə belə bir sistem var, nəzarət tam şəkildə təmin olunur.*

*Dövlətimizin başçısı Bakıda yol hərəkəti qaydalarına nəzarəti gücləndirmək məqsədi ilə xüsusi mərkəzin yaradılacağını da bildirdi, hərəkətin idarə edilməsi və işıqforları tənzimləyən qurğuların sayının artırılması barədə tapşırıqlar verdi, yol polisi əməkdaşları ilə xatirə şəkli çəkdirdi.*

## ABŞ KONQRESİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 iyul 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 3-də Prezident sarayında ABŞ Konqresinin Nümayəndələr Palatasının Nəzarət və hökumət islahatları komitəsinin Milli təhlükəsizlik və xarici əlaqələr üzrə alt komitəsinin sədri Con Tierninin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Ölkəmizə ilk dəfə səfər etdiyini deyən Con Tierni Azərbaycanda böyük quruculuq işlərinin aparılmasının şahidi olduğunu söylədi. Qonaq prezident İlham Əliyevin keçən il ABŞ-a rəsmi səfərinin iki ölkə arasında münasibətlərin daha da inkişaf etdirilməsinə mühüm töhfə verdiyini və əlaqələrimizin bundan sonra da genişlənəcəyinə ümidvar olduğunu vurğuladı.*

*Prezident İlham Əliyev Azərbaycan ilə ABŞ arasında müxtəlif sahələrdə münasibətlərin, o cümlədən parlamentlərarası əlaqələrin uğurla inkişaf etdiyini bildirdi. Dövlətimizin başçısı Azərbaycanın son dövrlərdə bütün istiqamətlərdə, o cümlədən iqtisadi sahədə böyük nailiyyətlər qazandığını və ölkəmizdə mühüm inkişaf proseslərinin getdiyini vurğuladı. Azərbaycan prezidenti ölkələrimiz arasında əməkdaşlığın daha da genişlənəcəyinə və möhkəmlənəcəyinə əminliyini söylədi.*

**FRANSA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB NİKOLA SARKOZİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Bastiliyanın alınması günü münasibətilə Sizi və Sizin simanızda bütün Fransa xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Fransa münasibətlərinin bu gün hərtərəfli və dinamik inkişafı böyük məmnunluq doğurur. Daim genişlənən əlaqələrimiz, mədəni, humanitar, siyasi və iqtisadi sahədə qarşılıqlı maraq doğuran faydalı əməkdaşlığımız münasibətlərimizin hazırkı vəziyyətinin səciyyəvi cəhətlərindəndir.

Fransa xalqımızın ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli sahəsində də ATƏT-in Minsk qrupunun həmsədri kimi fəal iştirak edir. Ümid edirik ki, Azərbaycana qarşı təcavüzün aradan qaldırılması, torpaqlarımızın işğaldan azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi və qaçqınlarımızın doğma yurd-yuvalarına qayıtması üçün Fransa bundan sonra da səylərini davam etdirəcəkdir.

Bu xoş məqamda bir daha Sizə öz təbriklərimizi yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Fransa xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 iyul 2007-ci il*

**MONQOLUSTANIN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB NAMBARIN ENXBAYARA**

Hörmətli cənab Prezident!

Monqolustanın milli bayramı – Xalq inqilabı günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı münasibətlər xalqlarımızın rifahı naminə daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Monqolustan xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 iyul 2007-ci il*

# AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN «AQO» MONİTORİNQ QRUPUNUN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 iyul 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 5-də Prezident sarayında Avropa Şurası Nazirlər Komitəsinin «Aqo» monitorinq qrupunun nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı bu səfərin ölkəmizdə gedən inkişaf prosesləri, həyata keçirilən islahatlar və Avropa Şurası ilə əməkdaşlığımızın gələcək istiqamətləri barədə müzakirələrin aparılması üçün yaxşı imkan yaratdığını qeyd etdi. Azərbaycanın artıq yeddi ilə yaxın bir müddətdə Avropa Şurasının üzvü olduğunu deyən prezident İlham Əliyev bu dövr ərzində ölkəmizdə iqtisadi və siyasi sahələrdə böyük nailiyyətlərin əldə olunduğunu bildirdi. O, keçən il Avropa İttifaqı ilə qonşuluğa dair beşillik proqramın imzalandığını xatırlatdı və bunun Azərbaycanın Avropaya daha sıx inteqrasiya etməsi baxımından mühüm addım olduğunu vurğuladı.*

*«Aqo» monitorinq qrupunun rəhbəri Per Syöqren dövlətimizin başçısı ilə Avropa Şurası–Azərbaycan əməkdaşlığına dair müzakirə aparmaqdan məmnunluqlarını ifadə etdi.*

*Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın hazırkı vəziyyətinə və gələcək perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Sizi və bütün Rusiya xalqını Soçi şəhərinin 2014-cü il Qış Olimpiya oyunlarının paytaxtı seçilməsi münasibətilə ürəkdən təbrik edirəm. Şadam ki, milyonlarla rusiyalının olimpiya arzusu həyata keçmişdir.

Rusiyanın seçkiqabağı marafondakı qələbəsi rusiyalıların böyük idman məqsədi naminə yekdilliyi və sıx birliyinin sübutu, Rusiya idmanının şəksiz xidmətlərinin, Beynəlxalq Olimpiya Komitəsi üzvlərinin Sizə, Rusiyanın dinamik surətdə artmaqda olan imkanlarına inamının təsdiqi olmuşdur.

Əminəm ki, Soçi olimpiadasi özünün təşkilati səviyyəsinə, miqyasına və baxımlılığına, əldə olunmuş idman nəticələrinə görə beynəlxalq Olimpiya oyunlarının tarixində yeni parlaq mərhələyə çevriləcək, beynəlxalq olimpiya hərəkatının inkişafına çox böyük töhfə verəcəkdir.

Olimpiya oyunlarının hazırlanması və keçirilməsində Sizə, olimpiadanin Təşkilat Komitəsinə, Rusiyanın bütün idman ictimaiyyətinə ürəkdən uğurlar, Rusiya olimpiyadaçılarına isə yeni nailiyyətlər, yeni idman zirvələri arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 iyul 2007-ci il*

**KOLUMBİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALVARO URİBE VELESƏ**

Hörmətli cənab Prezident!

Kolumbiyanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı münasibətlərin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 iyul 2007-ci il*

## BELÇİKA KRALI ƏLAHƏZRƏT II ALBERTƏ

Əlahəzrət!

Ölkənizin milli bayramı – Kralın andiçmə günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından təbrik etməkdən məmnunluq duyuram. Ümidvaram ki, Azərbaycan ilə Belçika arasındakı münasibətlər daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 iyul 2007-ci il*

**BELÇİKA KRALLIĞININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB Gİ VERHOFSTADTA**

Hörmətli cənab Baş nazir!

Belçikanın milli bayramı – Kralın andiçmə günü münasibətilə Sizə və xalqınıza təbriklərimi yetirirəm.

Əminəm ki, Azərbaycan–Belçika münasibətlərinin inkişafı, beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızın genişlənməsi xalqlarımız üçün daim faydalı olacaqdır.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 iyul 2007-ci il*

**MALDİV RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MƏMUN ƏBDÜL QƏYYUMA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün Maldiv xalqını təbrik edirəm. Ümidvaram ki, Azərbaycan ilə Maldiv arasındakı münasibətlərin inkişafı daim xalqlarımızın bir-birinə yaxınlaşmasına və əlaqələrimizin genişlənməsinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Maldiv xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı, 16 iyul 2007-ci il*

**MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD HÜSNÜ MÜBARƏKƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – İnqilab günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Misir arasında zəngin ənənələrə malik dostluq və əməkdaşlıq münasibətləri bu gün uğurla inkişaf etməkdədir. Ümidvaram ki, əlaqələrimizin daha da dərinləşdirilməsi, əməkdaşlığımızın bütün sahələrdə genişləndirilməsi istiqamətində addımlarımızı bundan sonra da davam etdirəcək, ardıcıl səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Misir xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı, 16 iyul 2007-ci il*

**BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LUİS İNASİU LULA DA SİLVAYA**

Hörmətli cənab Prezident!

San-Paulu şəhərinin hava limanında sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə, bütün Braziliya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 iyul 2007-ci il*

**MƏRAKEŞİN KRALI ƏLAHƏZRƏT
VI MƏHƏMMƏDƏ**

Əlahəzrət!

Milli bayramınız – Taxt-tac günü münasibətilə Sizə və Sizin simanızda bütün Mərakeş xalqına ən səmimi təbriklərimizi və xoş arzularımızı yetirməkdən məmnunluq duyuram.

Biz Azərbaycan–Mərakeş münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk. Ümidvaram ki, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızın dərinləşdirilməsi istiqamətində qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Mərakeş xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 iyul 2007-ci il*

**İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM MİŞELİN KALMİ-REYƏ**

Hörmətli xanım Prezident!

İsveçrənin milli bayramı – Konfederasiyanın yaranması günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Bu gün Azərbaycan–İsveçrə münasibətləri dostluq və əməkdaşlıq zəminində inkişaf etməkdədir. Əminəm ki, əlaqələrimizin daha da dərinləşdirilməsi, əməkdaşlığımızın əhatə dairəsinin genişləndirilməsi istiqamətində fəaliyyətimiz xalqlarımızın rifahına yeni-yeni töhfələr verəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İsveçrə xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 iyul 2007-ci il*

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Baş nazir!

Əziz dostum, qardaşım.

Əsasını qoyduğunuz və başçılıq etdiyiniz Ədalət və İnkişaf Partiyasının Türkiyə Böyük Millət Məclisinə seçkilərdə inamlı qələbəsi münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Son dərəcə demokratik və şəffaf şəraitdə keçirilmiş bu seçkilərdə partiyanızın qazandığı səslər qardaş Türkiyənin yüksəlişi yolunda həyata keçirdiyiniz uzaqgörən siyasətə, çoxşaxəli fəaliyyətinizə xalqınız tərəfindən verilən yüksək qiymətin, böyük dəstəyin ifadəsidir.

Bu zəfər günlərində sevincinizi bölüşür, qardaş Türkiyə xalqının rifahı naminə fədakar işinizdə Sizə, Ədalət və İnkişaf Partiyasının bütün üzvlərinə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı, 23 iyul 2007-ci il*

**HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM PRATİBHA PATİLƏ**

Hörmətli xanım Prezident!

Hindistan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm.

Biz Azərbaycan–Hindistan münasibətlərinə böyük əhəmiyyət veririk. Ümidvaram ki, ölkələrimiz və xalqlarımız arasındakı ənənəvi dostluq əlaqələrinin inkişafı və möhkəmləndirilməsi, əməkdaşlığımızın hərtərəfli genişləndirilməsi yolunda səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Hindistan xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 iyul 2007-ci il*

**POLŞA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB LEX KAÇİNSKİYƏ**

Hörmətli cənab Prezident!

Fransanın cənub-şərqində sərnişin avtobusunun qəzaya uğraması nəticəsində həmvətənlərinizin həlak olması xəbəri məni son dərəcə kədərləndirdi.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Polşa xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 iyul 2007-ci il*

**ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB BAMİR TOPİYƏ**

Hörmətli cənab Prezident!

Albaniya Respublikasının prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Albaniya arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Albaniya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 iyul 2007-ci il*

**VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NQUYEN MINH TRİETƏ**

Hörmətli cənab Prezident!

Vyetnam Sosialist Respublikasının prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Vyetnam arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Vyetnam xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 iyul 2007-ci il*

**ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ**

Hörmətli cənab Prezident!

Əfqanıstanın keçmiş kralı Məhəmməd Zahir şahin vəfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, mərhumun ailəsinə, bütün Əfqanıstan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *24 iyul 2007-ci il*

**KOT-D'IVUAR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LORAN QBAQBOYA**

Hörmətli cənab Prezident!

Kot-d'İvuarın milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və xalqınıza təbriklərimizi yetirirəm.

Ümidvaram ki, ölkələrimiz arasında münasibətlərin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 iyul 2007-ci il*

**SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB SELLAPAN RAMA NATANA**

Hörmətli cənab Prezident!

Sinqapurun milli bayramı – Milli gün münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Sinqapur arasındakı münasibətlərin inkişafı daim dostluq və əməkdaşlıq məcrasında cərəyan edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 iyul 2007-ci il*

## RUSİYA FEDERASİYASI XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ SERGEY KİSLYAKIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 iyul 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 26-da Prezident sarayında Rusiya Federasiyası Xarici İşlər nazirinin müavini Sergey Kislyakın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

Sergey Kislyak ölkəmizə səfərinin Rusiya ilə Azərbaycan arasında müxtəlif sahələrdə münasibətlər ətrafında müzakirələrin aparılması üçün yaxşı imkan yaratdığını qeyd etdi. Qonaq Rusiyanın Azərbaycana dost və strateji tərəfdaş kimi baxdığını bildirdi. O, iki ölkənin prezidentləri arasında keçirilən görüşlərin əlaqələrimizin daha da gücləndirilməsinə xüsusi təkan verdiyini vurğuladı.

Dövlətimizin başçısı bu yaxınlarda Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə keçirdiyi görüşü məmnuniyyətlə xatırlayaraq bu görüş zamanı ikitərəfli münasibətlər, regionda vəziyyət və digər məsələlər ətrafında geniş müzakirələrin aparıldığını qeyd etdi. Prezident İlham Əliyev ölkələrimiz arasında münasibətlərin səmimi, etibarlı və möhkəm xarakter daşıdığını bildirdi və əlaqələrimizin inkişafından məmnunluğunu ifadə etdi. O, Azərbaycan ilə Rusiya arasında bütün sahələrdə əməkdaşlığın bundan sonra da genişlənəcəyini vurğuladı.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV İORDANİYA KRALI DİVANININ SİYASİ XƏBƏRLƏR ÜZRƏ BAŞ MÜXBİRİ, İORDANİYA TELEVİZİYA VƏ RADİO KORPORASİYASININ BAŞ REDAKTORU VƏ PRODÜSERİ İMAN AKOURA MÜSAHİBƏ VERMİŞDİR

*Prezident sarayı*

*27 iyul 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 27-də Prezident sarayında İordaniya Kralı Divanının siyasi xəbərlər üzrə Baş müxbiri, İordaniya Televiziya və Radio Korporasiyasının Baş redaktoru və prodüseri İman Akoura müsahibə vermişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə İordaniya arasında siyasi, iqtisadi və digər sahələrdə münasibətlərin hazırkı vəziyyəti, ikitərəfli əlaqələrin gələcək inkişafı, regional təhlükəsizlik, İordaniyaya qarşıdakı rəsmi səfəri və bu səfərin əməkdaşlığımızın müxtəlif sahələrdə daha da genişlənməsinə töhfəsi və digər məsələlərlə bağlı suallara cavab vermişdir.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN İORDANİYAYA RƏSMİ SƏFƏRİ

*29 iyul 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da İordaniya Haşimilər Krallığına rəsmi səfərə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Baş nazir Artur Rasizadə, Prezidentin İcra Aparatının rəhbəri Ramiz Mehdiyev yola saldılar.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da İordaniya Haşimilər Krallığına rəsmi səfərə gəlmişdir.*

*Əmman şəhərinin Marka Beynəlxalq Hava Limanında dövlətimizin başçısını İordaniyanın Baş nazirinin müavini, Maliyyə naziri Ziyad Fariz, Xarici İşlər naziri Abdul İlah əl-Xətib və digər rəsmi şəxslər böyük hörmət və ehtiramla qarşıladılar.*

*Azərbaycan Respublikasının və İordaniya Krallığının dövlət bayraqlarının asıldığı hava limanında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

* * *

*İyulun 29-da Əmmanın Bəsman sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Burada dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi İordaniyanın kralı əlahəzrət II Abdullah böyük səmimiyyətlə qarşıladı.*

*İordaniya nümayəndə heyəti prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti isə Kral II Abdullaha təqdim olundu.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi. Azərbaycanın və İordaniyanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Prezident İlham Əliyev İordaniya əsgərlərini salamladı.*

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İordaniya Kralı II Abdullahın təkbətək görüşü

*İyulun 29-da Bəsman sarayında Azərbaycan prezidenti İlham Əliyevin və İordaniya Kralı II Abdullahın təkbətək görüşü olmuşdur.*

*Görüşdə ikitərəfli əlaqələrin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd olundu. Azərbaycan prezidentinin bu ölkəyə rəsmi səfərinin əlaqələrimizin daha da güclənməsi işinə xidmət edəcəyi bildirildi. Dövlət başçıları iki ölkə arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminliklərini ifadə etdilər.*

## Sənədlərin imzalanma mərasimi

*İyulun 29-da Bəsman sarayında Azərbaycan prezidenti İlham Əliyevin və İordaniya Kralı II Abdullahın iştirakı ilə sənədlərin imzalanma mərasimi olmuşdur.*

*«2007–2009-cu illər üçün Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında təhsil, elm, mədəniyyət və incəsənət, gənclər və idman, səhiyyə və media sahələrində əməkdaşlıq üzrə icraedici proqram»ı Azərbaycan tərəfindən Xarici İşlər naziri Elmar Məmmədyarov, İordaniya tərəfindən Planlaşdırma və Beynəlxalq Əməkdaşlıq naziri xanım Süheyr əl-Əli imzaladılar.*

*«Bakı Şəhər İcra Hakimiyyəti və Böyük Əmman Bələdiyyəsi arasında dostluq və əməkdaşlıq haqqında protokol»u Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov və Böyük Əmman Bələdiyyəsinin meri Ömər əl-Məani imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və İordaniya Haşimilər Krallığı Hökuməti arasında ticarət, iqtisadi və texniki əməkdaşlıq üzrə hökumətlərarası komissiya haqqında protokol»u Azərbaycan tərəfindən İqtisadi İnkişaf naziri Heydər Babayev, İordaniya tərəfindən Sənaye və Ticarət naziri Salim Xəzaaleh imzaladılar.*

*«Azərbaycan–İordaniya İşgüzar Şurasının təsis olunmasına dair saziş»i Azərbaycan tərəfindən İqtisadi İnkişaf naziri Heydər Babayev, İordaniya tərəfindən İordaniya İş Adamları Assosiasiyası sədrinin müavini Tabit əl-Tahir imzaladılar.*

*Sonra rəsmi fotoşəkil çəkdirildi.*

* * *

*İyulun 29-da Bəsman sarayında İordaniya Kralı əlahəzrət II Abdullahın adından Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə rəsmi nahar verilmişdir.*

*Rəsmi naharda söhbət zamanı Kral II Abdullah ölkələrimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini vurğuladı, Azərbaycan prezidenti İlham Əliyevin Əmmana rəsmi səfərinin qarşılıqlı əməkdaşlığın inkişafına yeni təkan verəcəyini söylədi. O dedi ki, bu səfərdən sonra əlaqələrimiz daha da genişlənəcək və bunun üçün böyük potensial vardır.*

*Prezident İlham Əliyev Azərbaycan və İordaniya arasında siyasi və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, iqtisadi münasibətlərin səviyyəsinin daha da yüksəldilməsi zəruridir. Bu səfər qarşılıqlı əlaqələrimizdə yeni sahələrin müəyyənləşdirilməsi və yeni perspektivlərin açılması üçün çox əhəmiyyətli olacaqdır.*

*Prezident İlham Əliyev ölkəmizdə gedən iqtisadi inkişaf proseslərindən danışdı və Azərbaycanın bölgədə rolunun getdikcə artdığını vurğuladı. Dövlətimizin başçısı dedi ki, Azərbaycan Asiya ilə Avropa arasında iqtisadi dəhliz rolunu oynayır və bu, İordaniya üçün də faydalı və əhəmiyyətlidir. İordaniya bu imkandan istifadə edə bilər.*

*Söhbət zamanı turizm, mədəniyyət və digər sahələrdə də əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanların olduğu qeyd edildi.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 29-da Əmman şəhərindəki «Kral» qəbiristanlığını ziyarət etmişdir.*

*Dövlətimizin başçısı burada dəfn olunmuş Kral Hüseyn bin Təlalın, Kral I Abdullahın və Kral Təlal bin Abdullahın məzarları önünə əklil qoydu.*

## Kral II Abdullah Dizayn və İnkişaf Bürosu ilə tanışlıq

*İyulun 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əmman şəhərinin mərkəzində yerləşən Kral II Abdullah Dizayn və İnkişaf Bürosu ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısını burada ehtiramla qarşıladılar. Büro əsasən İordaniya ordusunun müasir silah və texnika ilə təmin edilməsində mühüm rol oynayır. Burada zirehli texnika, səhra şəraitində istifadə olunan hərbi maşınlar istehsal edilir.*

* * *

*İyulun 29-da İordaniyanın kralı II Abdullah tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilmişdir.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVƏ İORDANİYA UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADI VERİLMƏSİ MƏRASİMİ

*Əmman*

*29 iyul 2007-ci il*

*İyulun 29-da Əmmanda Azərbaycan prezidenti İlham Əliyevə İordaniya Universitetinin siyasi elmlər üzrə Fəxri doktoru adı verilməsi münasibətilə mərasim keçirilmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə universitetin Elmi Şurasının üzvləri ilə görüşdü, burada ali məktəbin Fəxri doktoru mantiyasını geyindi.*

*Azərbaycan prezidentinin salona gəlişi hərarətli alqışlarla qarşılandı.*

*Azərbaycanın və İordaniyanın dövlət himnləri səsləndirildi.*

**Hani Dumor** (*Universitetin rektoru, professor*): Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyev!

Hörmətli mərasim iştirakçıları!

İordaniya Universiteti bu gün xoş bir hadisəni bayram təntənəsi ilə qeyd edir. Bu gün biz akademik bir şəxsiyyət və dövlət xadimi olan Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə Fəxri doktor adı verməkdən şərəf duyuruq. Fəxri doktor adının verilməsi ilə bu nüfuzlu şəxsiyyət, eyni zamanda, bizim universitetin pedaqoji kollektivinin üzvü olur.

Zati-aliləri cənab Prezident, İordaniya Universiteti bu gün Sizə siyasi elmlər sahəsində Fəxri doktor adı verməkdə sonsuz sevinc hissləri keçirir. Bu Sizin siyasət və xalqınıza xidmət sahəsində göstərdiyiniz fəaliyyətin nəticəsi də sayılmalıdır.

Mən indi Sizə bu dərəcənin verilməsi haqqında qərarın mətnini oxuyuram:

Zati-aliləri cənab İlham Əliyev beynəlxalq əlaqələr və onun tarixinin öyrənilməsində həm bakalavr, həm də magistr dərəcələrində yüksək nailiyyətlər əldə etmişdir. Sonradan o, tarix sahəsində elmi dərəcə alaraq ali məktəbdə kadr hazırlığı ilə məşğul olmuş və mühazirələr oxumuşdur. O həmçinin öz bilik və bacarığı ilə bir sıra sahələrə müvəffəqiyyətlə rəhbərlik etməklə orada istehsalın və keyfiyyətin yüksək dərəcədə artmasına nail olmuşdur.

Cənab İlham Əliyev sənaye, xüsusilə neft sənayesi siyasəti sahəsində apardığı uğurlu tədqiqatları işdə müvəffəqiyyətlə həyata keçirmiş və bu sahədə onun strategiyası xüsusi uğur qazanmışdır. O, parlamentin deputatı kimi fəaliyyət göstərdiyi illərdə ölkə üçün, öz seçiciləri üçün həyati əhəmiyyət kəsb edən məsələlərin həllinə, o cümlədən Avropa ilə və bizimlə olan əlaqələrə əvəzsiz töhfələr vermişdir.

Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti kimi fəaliyyəti dövründə cənab İlham Əliyev idmanın olimpiya növlərinin və bir çox başqa sahələrinin inkişafında da xüsusi xidmətlər göstərmişdir və ölkə idmanını beynəlxalq səviyyədə tanıtmağa nail olmuşdur.

Azərbaycan Respublikasının Baş naziri kimi, o, üzərinə qoyulmuş vəzifənin öhdəsindən yüksək diplomatik bacarığı və xüsusi idarəçilik qabiliyyəti ilə müvəffəqiyyətlə gəlmişdir.

Yeni Azərbaycan Partiyasına rəhbərliyi dövründə cənab İlham Əliyev yüksək təşkilatçılıq məharəti ilə partiyanın fəaliyyətinin daha da təkmilləşdirilməsi və onun Azərbaycanın siyasi həyatındakı rolunun möhkəmləndirilməsində müstəsna rol oynamışdır.

Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin başçısı kimi, o öz yüksək siyasi bacarığını bir daha nümayiş etdirmişdir.

Azərbaycan Respublikasının Baş naziri və sonradan ölkənin prezidenti kimi, cənab İlham Əliyev Azərbaycanın inkişafı və iqtisadi intibahında, ölkənin taleyüklü problemlərinin həllində, o cümlədən beynəlxalq və regional əlaqələrinin möhkəmləndirilməsində müstəsna rol oynamışdır. Bütün bunlarla yanaşı, xalqlar arasında qarşılıqlı anlaşmaya və sivilizasiyalararası dialoqa dərindən inanan, dünyada və

regionda sülhün bərqərar olmasına xüsusi önəm verən bir şəxsiyyət kimi, cənab İlham Əliyev bir çox milli və beynəlxalq komissiyalara inamla başçılıq etmişdir. O, ingilis, rus, fransız və türk dillərini mükəmməl bilir. Bir çox beynəlxalq təşkilatlar tərəfindən yüksək mükafatlar, orden və medallarla təltif edilmiş, dünyanın bir sıra tanınmış universitetlərinin, o cümlədən bizim universitetin Fəxri doktoru seçilmişdir.

Zati-aliləri İlham Heydər oğlu Əliyevin parlaq siyasi və akademik fəaliyyətini yüksək qiymətləndirərək İordaniya Universiteti onu siyasi elmlər sahəsində Fəxri doktor seçməkdən şərəf duyur.

Mənə verilmiş səlahiyyət çərçivəsində icazə verin, İlham Heydər oğlu Əliyevə Fəxri doktor diplomunu təqdim edim.

*Rektor Fəxri doktor diplomunu və digər nişanları dövlətimizin başçısına təqdim edir.*

Əziz mərasim iştirakçıları, sözü əlahəzrət Kral II Abdullah ibn Hüseynin və İordaniyanın ali qonağı zati-aliləri cənab İlham Əliyevə verirəm.

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.*

## İORDANİYA UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADININ VERİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

*Əmman*

*29 iyul 2007-ci il*

Əziz dostlar!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, bu gün həyatımda mühüm hadisə hesab etdiyim bu toplantıya gəldiyinizə görə hamınıza minnətdarlığımı bildirmək istəyirəm. Mən universitetinizin Fəxri doktoru dərəcəsini almaqdan çox məmnunam və böyük şərəf hissi duyuram.

Universitetiniz regionun aparıcı təhsil mərkəzlərindən biridir. Buna görə də bu cür yüksək dərəcəyə layiq görülmək böyük şərəfdir. Mən sizi əmin etmək istəyirəm ki, gələcəkdə İordaniya ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinin inkişafına verdiyim töhfəni davam etdirəcəyəm.

Bu gün mənim ölkənizə ilk rəsmi səfərimin birinci günüdür. Əminəm ki, bu səfər münasibətlərimizin inkişafında mühüm mərhələ olacaqdır. Ötən il əlahəzrət Kral II Abdullah Azərbaycana rəsmi səfər etmişdi. Bizim çox mühüm danışıqlarımız, fikir mübadiləmiz və müzakirələrimiz olmuşdu. Bu səfər olduqca intensiv dialoqun davamıdır. Səfər zamanı ikitərəfli əlaqələrimizin möhkəm bünövrəsini qoyan bir çox sənədlər imzalanmışdır. Həmin sənədlər birgə fəaliyyətimizin bütün sahələrini əhatə edir. Ümid edirik ki, əla siyasi münasibətlərlə yanaşı, bizim yaxın gələcəkdə gözəçarpan iqtisadi işlərimiz də olacaqdır. Müxtəlif iqtisadi sahələrdə birgə layihələrimiz həyata keçiriləcəkdir. Biz işbirliyini qurmaq məqsədi ilə özəl sektoru həvəsləndirəcəyik. Əlbəttə, bütün bu addımlar münasibətlərimizin gələcək inkişafına töhfə verəcəkdir.

Dövlət rəhbərlərinin qarşılıqlı rəsmi səfərləri ölkələrimiz arasında əlaqələrin inkişafına aydın şəkildə verdiyimiz əhəmiyyətdən xəbər verən çox vacib hadisələrdir. Bu əhəmiyyətin digər vacib elementi Azərbaycanın İordaniyada və İordaniyanın Azərbaycanda səfirliklərinin açılmasıdır. Bütün bunlar həm də ikitərəfli əlaqələrin mühüm elementləridir. Ölkələrimizdə nümayəndəliklərin tam həcmdə olması əməkdaşlıq üçün yeni imkanların araşdırılmasında bizə yardım edəcəkdir. Həmin əməkdaşlıq çox geniş ola bilər. Əminəm ki, bu gün imzalanmış sənədlər və apardığımız danışıqlar gələcək əməkdaşlıq üçün çox yaxşı zəmin yaradacaqdır. Bunlar siyasi, iqtisadi inkişaf, humanitar, təhsil, səhiyyə, informasiya texnologiyaları və bir çox digər sahələrə aiddir. Qarşımızda eyni gündəlik var: ölkələrimizin müasirləşdirilməsi, xalqın həyat səviyyəsinin yaxşılaşdırılması, mövcud olan sosial problemlərin həlli, iqtisadi inkişaf. Bütün bu məsələlər həm İordaniya, həm də Azərbaycan hökumətlərinin gündəlik diqqət mərkəzindədir.

Biz bir-birimizə kömək üçün qardaşlığın və dostluğun yaratdığı əlverişli imkanlardan istifadə etməliyik. Biz inkişaf sahəsində qarşılıqlı kömək göstəririk, dəstəyimizi davam etdiririk və xalqlarımız üçün daha yaxşı həyat səviyyəsi yaradırıq.

Biz İordaniyanın və əlahəzrət Kral II Abdullahın Orta Şərqdə sülh və sabitliyin qurulması istiqamətində göstərdiyi səyləri yüksək qiymətləndiririk. Bizim ölkəmizdə də bu cür problem var. Biz də regionumuzda sülh və təhlükəsizliyin bərqərar olunmasına çalışırıq.Əfsuslar olsun ki, uzun illər boyu biz buna nail ola bilməmişik. Azərbaycan müstəqilliyini qazandıqdan sonrakı ilk illərdə iqtisadi problemlər və sosial çətinliklərlə yanaşı, Ermənistan tərəfindən təcavüzə məruz qalmışdır. Hazırda ərazimizin 20 faizi Ermənistanın işğalı altındadır. Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti nəticəsində indi səkkiz milyon yarım əhalimizin bir milyonu qaçqın və məcburi köçkün vəziyyətində yaşayır.

Biz bu münaqişəni dinc yolla həll etməyə çalışırıq, lakin əfsuslar ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi səbəbindən buna nail ola bilməmişik. BMT-nin Təhlükəsizlik Şurası işğalçı qüvvələrin Azərbaycanın zəbt olunmuş torpaqlarından dərhal çıxarılmasını tələb

edən dörd qətnamə qəbul etmişdir. Onlar əməl olunmamış qalır. İslam Konfransı Təşkilatı eyni məzmunlu qətnamələri qəbul edibdir. Daha sonra Avropa Şurası və digər beynəlxalq təşkilatlar eyni addımı atıbdır. Lakin əfsuslar olsun ki, bunlar da yerinə yetirilməyibdir. Biz həmin təcavüzə və bu cür ədalətsiz vəziyyətə son qoymaq məqsədi ilə sülh danışıqlarını və bu sahədə səylərimizi davam etdiririk. Biz hər bir ölkənin ərazi bütövlüyünə hörmətlə yanaşırıq və Azərbaycanın da ərazi bütövlüyünə beynəlxalq ictimaiyyət, Birləşmiş Millətlər Təşkilatı və bütün ölkələr hörmətlə yanaşır. Buna görə də bizim ərazi bütövlüyümüz bərpa edilməlidir, qaçqın və məcburi köçkünlər öz doğma yurd-yuvalarına qayıtmaq hüququna malik olmalıdır. Bundan sonra isə Qafqazda sülh bərqərar ola bilər.

Bu əsas problemdən başqa, biz bu gün və gələcəkdə qarşımızda hər hansı ciddi maneə görmürük. İqtisadiyyatımız çox uğurla inkişaf edir. Artıq növbəti üçüncü ildir ki, Azərbaycan dünyada ən yüksək sürətlə inkişaf edən iqtisadiyyata malikdir. Son üç il ərzində biz ümumi daxili məhsul istehsalını iki dəfə artıra bildik. Əlbəttə, bu bizə ölkəni inkişaf etdirmək üçün əlavə imkanlar açır. Yəni, infrastrukturu, sənayeni və təbii ki, humanitar sahəni inkişaf etdirmək imkanı yaradır. Biz təhsilə çox böyük diqqət yetiririk. Azərbaycanda son illərdə mindən artıq yeni məktəb tikilmişdir. Eyni zamanda, İordaniyada olduğu kimi, informasiya texnologiyalarına olduqca böyük diqqət veririk və bu sahədə regional mərkəzə çevrilməyə çalışırıq. Səhiyyə və digər humanitar sahələr planlarımıza daxildir. Əlbəttə, regional inkişaf, Azərbaycan regionlarının inkişafı bizim üçün əsas prioritetdir.

Bunlara nail olmaq üçün daxildə sülh və sabitlik olmalıdır. Biz buna nail olmuşuq. Lakin həmin sülh və sabitlik hüdudlarımızdan kənarda da olmalıdır. Azərbaycan regional əməkdaşlığın və təhlükəsizliyin qurulması, o cümlədən regional proseslərin proqnozlaşdırılması sahəsində vacib rol oynayır. Biz Xəzər və Qafqazın sülh və sabitlik regionuna çevrilməsi üçün əlimizdən gələni edəcəyik. Ölkəmizdə bir çox mühüm, nəhəng enerji layihələrinin təşəbbüskarı olmuşuq və hazırda onlar region ölkələrini əhatə edir. Biz nəinki özümüz və regionumuz üçün, o cümlədən daha geniş miqyasda mühüm enerji daşıyıcıları hasilatçısına çevrilirik. Malların daşınması üçün münasib yolların

yaradılması məqsədi ilə regionumuzdakı qonşularımızla daşınma infrastrukturu üzərində işləyirik.

Bir sözlə, ölkə daxilində və xaricində apardığımız işlər daha yaxşı iqtisadi vəziyyətin təmin olunmasına yönəlib, çünki Azərbaycanda baş verən bütün mühüm hadisələr həmin xüsusi məqsədə xidmət edir. Biz yoxsulluğu aradan qaldırırıq. Yeri gəlmişkən, bu sahədə əldə etdiyimiz gözəçarpan uğur ondan ibarətdir ki, Azərbaycanda yoxsulluq həddindən aşağı yaşayan insanların sayı 20 faizə qədər azalmışdır. Halbuki üç il bundan əvvəl onların sayı 50 faiz təşkil edirdi. 20 faiz də çoxdur, biz bunu daha da azaltmalıyıq. Yoxsulluğu aradan qaldırmaq, insanların özünü xoşbəxt hiss etdiyi cəmiyyət qurmaq üçün biz iqtisadi məsələlərə diqqətimizi artırmalıyıq. İqtisadi potensial gücü təmin edir. Biz güclənməliyik. Bir müstəqil ölkə kimi, tariximizin cəmi 15 ilini yaşamışıq və həmin illər asan olmayıbdır. Biz yalnız indi bütün əsas iqtisadi və sosial çətinlikləri həll edə bilmişik və inkişaf, tərəqqi yoluna qədəm qoyuruq.

Beynəlxalq təşkilatların fəal üzvü olaraq, biz regional təhlükəsizlik və sabitlik işinə töhfəmizi davam etdiririk. Biz İordaniya ilə nəinki ikitərəfli çərçivədə, həm də beynəlxalq təşkilatlarda əməkdaşlıq edirik. Misal üçün, BMT-də biz hər zaman bir-birimizə dəstək veririk. İslam Konfransı Təşkilatı daxilində biz həmişə bir-birimizi dəstəkləyirik. İslam həmrəyliyi məsələsinə çox böyük önəm veririk. Ötən il İKT-nin nazirləri səviyyəsində iki mühüm tədbiri Bakıda keçirdik.

İndiki mərhələdə sivilizasiyalarası dialoq haqqında danışmaq çox vacibdir. Lakin bəzən biz müxtəlif hadisələri görürük. Təcridolunmanı müşahidə edirik, dinimizə, adət-ənənələrimizə və keçmişimizə olduqca ədalətsiz yanaşmanın şahidi oluruq. Biz bu məsələləri həll etməliyik. Keçmişimizə, ənənələrimizə hörmətlə yanaşaraq və milli mənsubiyyətimizi qoruyaraq, müvəffəqiyyətlər əldə etməliyik və insanlara cari inkişafdan faydalanmanı təmin edən müasir cəmiyyəti qurmalıyıq. Eyni zamanda, biz öz tarixi irsimizə, dini köklərimizə, milli özünəməxsusluğumuza çox bağlıyıq. Azərbaycan uzun illər, onilliklər və əsrlər boyu dövlətçiliyindən məhrum olmuşdur. Biz digər imperiyaların və ölkələrin bir hissəsi idik. Məhz nə

səbəbə görə biz milli özünəməxsusluğumuzu qoruyub saxlaya bildik? Azərbaycan bir hissəsi olduğu digər ölkələrin tərkibində niyə assimilyasiya olunmadı? Bu, yalnız tarixi irsimiz, tarixi köklərimiz, adət-ənənələrimiz, milli bayramlarımız, dilimiz və ədəbiyyatımız, poeziyamız sayəsində mümkün olmuşdur. Bütün bunlar özünəməxsusluğumuzu qorumağa imkan yaratdı və bu gün biz müstəqil ölkə kimi inkişaf edirik. Etnik, dini mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanın hər bir vətəndaşı eyni hüquqlara malikdir. Azərbaycandakı dözümlülük inkişafımızın əsas, vacib meyarlarından biridir.

15 illik müstəqilliyimiz dövründə biz tariximizin ən çətin anlarını da yaşadıq. Bəzən Azərbaycanın dövlətçiliyinin taleyi sual altında idi. Hazırda qarşımızda açıq üfüqlər var. Biz diqqətimizi inkişafa, iqtisadi potensiala, regional əməkdaşlığa, dostlarımız və qonşularımızla siyasi münasibətlərə yetiririk. Bu baxımdan, İordaniya ilə Azərbaycan arasında əlaqələr bizim üçün çox önəmlidir. Bizim aramızda bir çox oxşarlıqlar da var. Ölkələrimizin sahəsi, demək olar ki, eynidir. Eyni sözləri əhalinin sayı haqqında da demək mümkündür. Hər iki ölkə rəhbərlərinin yaşı da eynidir. Qardaşım Kral Abdullah ilə yaş fərqimiz yalnız bir aydır. Qarşımızda duran gündəlik də eynidir: xalqlarımızın rifahını necə yüksəltmək, iqtisadiyyatı necə möhkəmləndirmək və regionda sülhü necə bərqərar etmək. Bu bizi birləşdirir. Əminəm ki, ölkələrimiz arasında sıx tərəfdaşlıq Xəzər və Qafqaz, habelə Orta Şərq regionlarındakı işlərə də öz təsirini göstərəcəkdir.

Hörmətli dostlar!

Mənə universitetinizin Fəxri doktoru adının verilməsi kimi şərəfə görə sizə bir daha minnətdarlığımı bildirirəm. Əminəm ki, gələn illər ərzində daha çox əməkdaşlığımız, görüşlərimiz, nümayəndə heyətlərinin mübadiləsi olacaq və dövlətlərimiz, xalqlarımız bir-birinə daha yaxın olacaqdır.

Mən qədim İordaniya xalqına çiçəklənmə, uğurlar, sülh və xoşbəxtlik arzulayıram.

Çox sağ olun.

**Hani Dumor:** Zati-aliləri cənab Prezident, bu yüksək səviyyəli nitqinizə və İordaniya Haşimilər Krallığının ünvanına

söylədiyiniz səmimi qardaşlıq sözlərinə, əlahəzrət kralımız II Abdullah ibn Hüseyn ilə olan qardaşlıq və dostluğunuzla bağlı dediyiniz fikirlərə görə Sizə dərin təşəkkürümü bildirirəm.

İordaniya Universiteti özünün fakültələri və potensialı ilə Sizin ölkənizlə əməkdaşlıq etməyə və Azərbaycanın xidmətində durmağa hazırdır. Mən öz adımdan, Elmi Şuranın üzvləri və tədris heyətinin adından Sizə dərin məzmunlu nitqinizə görə bir daha təşəkkür edirəm. Bu görüş bizim xatirələrimizdə əbədi iz qoyacaqdır.

* * *

*Mərasim başa çatdıqdan sonra dövlətimizin başçısı universitetin professor-müəllim heyəti ilə, eləcə də Əmmanda yaşayan azərbaycanlılarla görüşüb söhbət etdi.*

*Azərbaycan prezidenti İlham Əliyev universitet binasının qarşısında Elmi Şuranın üzvləri ilə xatirə şəkli çəkdirdi.*

## ƏMMAN BƏLƏDİYYƏSİNDƏ GÖRÜŞ VƏ ŞƏHƏRİN KÜÇƏLƏRİNDƏN BİRİNƏ «HEYDƏR ƏLİYEV PROSPEKTİ» ADI VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ MƏRASİM

*Əmman*

*29 iyul 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 29-da İordaniyaya rəsmi səfərinin birinci günü Əmman şəhər bələdiyyəsinə gəlmişdir.*

*Dövlətimizin başçısını binanın önündə paytaxt bələdiyyəsinin başçısı Ömər əl-Məəni böyük hörmət və ehtiramla qarşıladı. Ömər əl-Məəni şəhərdə gedən tikinti, quruculuq və abadlıq işləri, eləcə də paytaxtın problemləri və digər məsələlər barədə Azərbaycan prezidentinə məlumat verdi.*

* * *

*Görüşdən sonra bələdiyyənin binasında paytaxıın əsas küçələrindən birinə «Heydər Əliyev prospekti» adının verilməsi münasibətilə mərasim keçirildi.*

*Əmmanın şərq hissəsində yeni salınmış Bədr rayonunda uzunluğu 6,5 kilometr olan əsas mərkəzi küçə bundan sonra xalqımızın ümummilli liderinin xatirəsinə «Heydər Əliyev prospekti» adlanacaqdır.*

*Mərasimi Əmman bələdiyyəsinin başçısı Ömər əl-Məəni açdı.*

## Əmman bələdiyyəsinin başçısı Ömər əl-Məaninin çıxışı

Zati-aliləri!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Mən bu gün hörmətli qonağımızı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi salamlamaqdan olduqca məmnunam. Ölkəmiz mədəniyyətlərin qovuşuğunda yerləşir və sərmayələr ilə biliklər sahəsində regional mərkəzə çevrilmişdir. Paytaxt şəhərimiz isə dünya xəritəsində çoxəsrlik tarixi, dini köklərə və ənənələrə malik bir şəhər kimi tanınır. Regionumuzun ən inkişaf edən ölkəsi olan İordaniya öz vətəndaşlarının rifahı üçün çalışır. Şəhərimizin bələdiyyəsi mədəni dəyərləri və tarixi irsini qoruyub saxlayaraq, əhaliyə keyfiyyətli xidmətlər göstərməkdədir. Qarşımızda qoyduğumuz ən əsas məqsəd şəhər sakinləri üçün münasib həyat şəraitini təmin etməkdən ibarətdir. Paytaxt əhalisinin rifahının yüksəlməsi bizim üçün ümdə məsələdir. Biz həyata keçirdiyimiz layihələrdə ictimaiyyətin iştirakını təmin etməyə çalışırıq. Bu işlərə, əsasən, gəncləri cəlb edirik, çünki onlar şəhərimizin gələcəyidir. Onlar Əmman şəhərinin gələcək inkişaf planlarının tərtibinə töhfə verirlər. Biz həmçinin ətraf mühit, mədəni irsin qorunması, nəqliyyat və infrastrukturun inkişafı, sərmayə qoyuluşu və şəhər əhalisinin artması ilə bağlı yaranan məsələləri həll edirik.

Bələdiyyəmiz hər kəsin iştirakına açıq olan şəffaf şəhərsalma planının formalaşması prosesinə sadiqdir. Dövlət sektorunun və özəl sektorun tələbatları şəffaf formada nəzərə alınır. «Əmman şəhəri inkişaf edən canlı orqanizm kimi» şüarını rəhbər tutaraq, şəhərin inkişafı və şəhərsalma planlarının həyata keçirilməsi qarşımızda duran mürəkkəb məsələlərdir. Əmman öz xüsusiyyəti ilə seçilən şəhərdir.

Ölkəmizi və paytaxtımızı xüsusi səciyyələndirən amil İordaniya xalqıdır. Ölkəmizə pənah gətirmiş ailələr, dostlarımız və qonşularımız müxtəlif dini və mədəni köklərə malik şəxslərdir. Məhz bu amil ölkəmizi və Əmmanı xüsusi məkana çevirir. Sivilizasiyanın qədim tarixi, paytaxt şəhərimizin formalaşması, çoxmədəniyyətlilik, müxtəliflik vətənimizə xas meyarlardır.

Ümid edirik ki, bugünkü tarixi səfər çərçivəsində Bakı ilə Əmman arasında imzalanmış sənəd nəticəsində təcrübə mübadiləsi edərək, xalqlarımızın rifahına daha yaxından xidmət göstərəcəyik.

Mən eyni zamanda, məmnunluqla məlumat verirəm ki, Əmman şəhərinin əsas küçələrindən birinə Azərbaycanın keçmiş prezidenti Heydər Əliyevin adı verilmişdir. Allah ona rəhmət eləsin!

Cənab Prezident!

Hörmətli qonaqlar!

Mən sizi bir daha Əmman bələdiyyəsində salamlayır, diqqətinizə görə minnətdarlığımı bildirirəm.

* * *

*Sonra Əmman şəhərinin tarixi və bu günü, eləcə də ulu öndərin adı verilmiş prospektlə bağlı film göstərildi.*

*Dövlətimizin başçısı mərasimdə çıxış etdi.*

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham Əliyevin çıxışı**

Əziz dostlar!

İlk növbədə, mənə və nümayəndə heyətimizin üzvlərinə göstərilmiş və gözəl ölkənizə səfərimizin lap əvvəlindən hiss etdiyimiz səmimi qonaqpərvərliyə görə Əmman bələdiyyəsinə minnətdarlığımı bildirmək istəyirəm.

Bu gün Böyük Əmman Şəhər Şurasında biz qədim Əmman şəhərinin tarixinə və hazırkı inkişafına həsr olunmuş maraqlı təqdimatla tanış olduq. Ölkənizin inkişafı və müasirləşdirilməsində İordaniya xalqının əldə etdiyi nailiyyətlər gözəl Əmman şəhərinin bugünkü inkişafında da əks olunmuşdur.

Bu gün Əmmanın küçələrinin birinə Heydər Əliyevin adının verilməsi bizim hamımız üçün çox böyük şərəfdir. Mən şəhər bələdiyyəsinin rəhbərliyinə, onun bütün üzvlərinə və cənab merə bu qərarın qəbul edilməsinə görə minnətdarlığımı bildirmək istəyirəm. Bu, ikitərəfli əlaqələrimizin olduqca

mühüm elementidir və ulu öndərimizin xatirəsinə ən böyük hörmət əlamətidir.

Heydər Əliyev müasir Azərbaycanın banisidir.

Azərbaycan müstəqilliyini qazandıqdan sonra ölkəmiz çox ağır vəziyyətdə idi. Ölkədə siyasi böhran, iqtisadi tənəzzül, vətəndaş müharibəsi baş verdi. Biz Ermənistanın təcavüzü və torpaqlarımızın işğalı ilə üzləşdik və gənc suveren ölkənin müstəqilliyi sual altında idi. Xalq ümummilli liderinə müraciət edərək, bu problemləri həll etmək məqsədi ilə onu dəvət etdi. Heydər Əliyev hələ sovet vaxtlarında, yəni 70-ci illərdə Azərbaycana rəhbərlik etmişdir. O vaxt Heydər Əliyev ölkənin sənayeləşdirilməsi prosesində çox mühüm rol oynamışdır. Daha sonra o, Sovet İttifaqında Siyasi Büronun aparıcı üzvlərindən biri olmuşdur. Heydər Əliyev Sovet İttifaqının Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışmışdır. Sonrakı bir neçə il təcrid şəraitində yaşamışdır. Azərbaycanın 1990-cı ildə Sovet Ordusunun təcavüzündən əziyyət çəkdiyi bir vaxt o, ictimaiyyət qarşısında bu təcavüzü pislədi. Sovet dövlətinin Azərbaycan xalqına qarşı yeritdiyi və günahsız insanların kütləvi qırğını ilə nəticələnmiş siyasətə etiraz əlaməti olaraq, uzun illər üzvü olduğu Kommunist Partiyasını tərk etdi.

Bu hadisələrdən sonra onun doğma şəhəri Naxçıvanda olan soydaşları onu oraya dəvət etdilər. O, 90-cı illərin əvvəlində, ən çətin illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilmiş və Naxçıvanın Ermənistanın təcavüzündən qorunmasında olduqca mühüm rol oynamışdır. Həmin vaxt Ermənistanın işğalçı qüvvələri tarixi torpaqlarımızı – Dağlıq Qarabağı və digər yeddi rayonu zəbt etməyə başlamışdı. Naxçıvan Azərbaycanın ərazisindən aralı yerləşən və Ermənistan tərəfindən əhatə olunan məkandır. Onun Azərbaycanla birbaşa əlaqəsi yoxdur. Ona görə Azərbaycanın həmin ərazisinin bir hissəsini işğaldan qorumaq o qədər də asan iş deyildi. Amma o, Naxçıvan camaatı ilə birlikdə bunun öhdəsindən gəldi. 1993-cü ildə, Azərbaycanın bir müstəqil ölkə kimi gələcək mövcudluğu sual altında olan bir vaxtda xalq onu ölkəyə rəhbərlik etməyə dəvət etdi.

1993-cü ildən 2003-cü ilə qədər çəkən dövr sabitlik, iqtisadi inkişaf, iqtisadi artım, beynəlxalq səviyyədə fəaliyyət dövrü

oldu. Bu gün isə ölkəmiz beynəlxalq birliyin çox vacib üzvüdür. Azərbaycan iqtisadiyyatı dalbadal üçüncü ildir dünyada ən sürətlə inkişaf edən iqtisadiyyatdır. Bu gün əldə etdiyimiz nailiyyətlər – iqtisadi inkişaf, sosial problemlərin həlli, beynəlxalq birliyə fəal inteqrasiya ümummilli liderimizin fəaliyyəti sayəsində mümkün olmuşdur. O, müasir Azərbaycanın əsasını qoydu və biz bu gün onun siyasətini bütün sahələrdə davam etdiririk. Biz çox fərəhlənirik ki, bu gün onun başladığı işləri həyata keçiririk və beləliklə, ölkənin müasirləşdirilməsi davam etdirilir.

Ölkələrimizin tarixində bir çox oxşarlıqlar var. Hər iki ölkənin liderləri – Kral Hüseyn bin Təlal və Heydər Əliyev ölkələrimizin və xalqlarımızın inkişafında müstəsna rol oynamışlar. Onların xatirəsi xalqlarımızın ürəyində yaşayır. Bu gün dostluğumuz davam edir. İordaniya və Azərbaycanın rəhbərləri dostluq, qardaşlıq ənənəsini davam etdirirlər.

Qardaşım Kral Abdullah ötən il Azərbaycana rəsmi səfər etmişdir. Bu gün mən İordaniyada səfərdəyəm. Biz ölkələrimiz arasında bir çox sənədlər imzaladıq. Onların digər hissəsi sabah imzalanacaq və əməkdaşlığımızın bir çox sahələrini əhatə edəcəkdir. Əminəm ki, gələcək inkişaf dövründə xalqlarımız arasında daha çox təmasların şahidi olacağıq. Onlar bir-birini daha yaxından tanıyacaqlar. İqtisadi layihələrimiz qarşılıqlı rifaha xidmət edəcəkdir və ölkələrimiz arasında siyasi əlaqələr daha da möhkəmlənəcəkdir.

Mən eyni zamanda, bəyan etmək istəyirəm ki, bu yaxınlarda Bakı şəhərinin mərkəzi küçələrindən birinə Kral Hüseyn bin Təlalın adı verilmişdir. Allah ona rəhmət eləsin! Bu həm də dostluq və qardaşlıq əlamətidir. Onun xatirəsinə və ölkənizin inkişafına, regionda sülh və sabitliyin bərqərar olmasına verdiyi töhfəsinə hörmət əlamətidir.

Mən bizə göstərilmiş səmimi qonaqpərvərliyə görə bir daha hamıya minnətdarlığımı bildirmək istəyirəm. Əmman şəhərinin küçəsinə Heydər Əliyevin adının verilməsinə görə Azərbaycan xalqı adından təşəkkürümü ifadə edirəm, bütün İordaniya xalqına sülh, çiçəklənmə və gələcəkdə uğurlar diləyirəm. Sağ olun.

* * *

*Mərasimdə prezident İlham Əliyevə bələdiyyənin adından xatirə hədiyyəsi təqdim edildi.*

## ARXEOLOGİYA MUZEYİ, TARİX-MEMARLIQ ABİDƏLƏRİ İLƏ TANIŞLIQ

*Əmman, Sitadel şəhərciyi*

*30 iyul 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev iyulun 30-da İordaniyanın paytaxtı Əmmanda tarixi məkan hesab olunan Sitadel şəhərciyinə gəldi.*

*Prezident İlham Əliyevi Arxeologiya muzeyinin önündə İordaniyanın Turizm naziri Usamə Ald Abbas qarşıladı.*

*Dövlətimizin başçısı burada yerləşən müzeylə, Herkules məbədi, Bizans kilsəsi ilə, qədim məscid və sarayla yaxından tanış oldu.*

*Muzeyin direktoru məlumat verdi ki, burada regionda mövcud olmuş bütün tarixi dövrlərə aid materiallar toplanmışdır.*

*Prezident İlham Əliyev eramızdan əvvəlki minilliklərə aid heykəllərə, daşdan, şüşədən hazırlanmış sənət nümunələrinə, müxtəlif növ geyim formalarına baxdı. Bildirildi ki, bu ərazidə Bizans imperiyasından qalmış kilsə, Əməvilər xilafətindən qalmış saray, su çənləri, məscid və dükanlar da vardır. Arxeoloji və geoloji qazıntılar zamanı tapılan və Paleolit, Neolit, Eneolit və Tunc dövrlərinə, habelə Roma imperiyası zamanına aid eksponatlar böyük maraq doğurur.*

*Azərbaycan prezidenti xüsusi bölmələrdə İslam dövrü mədəniyyətini əks etdirən yazılı sənədlərə, pul nişanlarına və bəzək əşyalarına baxdı, muzeyin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

*Sonra dövlətimizin başçısı Herkules məbədinə, Bizans kilsəsinə, saray və məscidə, qədim tarixi yaşadan amfiteatra tamaşa etdi.*

*Məlumat verildi ki, İordaniya paytaxtının adı ilk vaxtlar Rabat Ammon olub. Romalılar bu ölkəni zəbt edəndən sonra*

*Filadelfiya, Xilafət dövründə isə Əmman adlandırılmışdır. Bu ərazi qala divarları ilə əhatə olunmuşdur. Bütövlükdə il ərzində bu tarixi yerləri görməyə gələnlərin sayı 270 min nəfərdən çox olur. Bunun 70 mini ərəb ölkələrindən gələn turistlərdir.*

*İyulun 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İordaniya Haşimilər Krallığına rəsmi səfəri başa çatmışdır.*

*Dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycanın və İordaniyanın dövlət bayraqları ilə bəzədilmiş Əmman şəhərinin Marka Beynəlxalq Hava Limanında dövlətimizin başçısını İordaniyanın Baş nazirinin müavini, Maliyyə naziri Ziyad Fariz, Xarici İşlər naziri Abdul İlah əl-Xətib və digər rəsmi şəxslər böyük hörmət və ehtiramla yola saldılar.*

* * *

*Prezident İlham Əliyev həmin gün axşam Bakıya qayıtdı.*

*Azərbaycan prezidentini Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Baş nazir Artur Rasizadə qarşıladı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ NAZİRLƏR KABİNETİNİN 2007-ci ILIN BİRİNCİ YARISINDA SOSİAL-İQTİSADİ İNKİŞAFIN YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA NİTQ*

*Prezident sarayı*

*1 avqust 2007-ci il*

2007-ci ilin ilk yarısı arxada qaldı. Bu gün Nazirlər Kabinetinin növbəti iclasında biz ilin ilk yarısının yekunlarını müzakirə edəcəyik və eyni zamanda, gələcək planlar haqqında da danışacağıq.

İqtisadiyyatımızın əsas göstəriciləri bizi çox sevindirir. 2007-ci ildə də iqtisadiyyatımız uğurla inkişaf edir və dünyada analoqu olmayan sürətlə artır. İlin ilk yarısında ümumi daxili məhsulun artımı 35 faiz təşkil etmişdir. Bu, dünyada ən yüksək göstəricidir. İqtisadiyyatımızın 2005-ci ildə 26 faiz, 2006-cı ildə isə 35 faiz artması onu göstərir ki, Azərbaycanda son illər ərzində aparılan uğurlu iqtisadi islahatlar öz gözəl nəticələrini verməkdədir.

Faktiki olaraq üç il ərzində bizim iqtisadiyyatımız iki dəfə artıb və bu, dünyada analoqu olmayan nəticədir. Əlbəttə ki, bu bizim imkanlarımızı artırır, qarşıda duran vəzifələrin daha da

---

* Иъласда Малиййя назири Самир Шярифов, Тящсил назири Мисир Мярданов, Кянд Тясяррцфаты назири Исмят Абасов, Рабитя вя Информасийа Технолоэийалары назири Яли Аббасов, Дювлят Ямлакынын Идаря едилмяси цзря Дювлят Комитясинин сядри Кярям Щясянов чыхыш етдиляр.

uğurla həll olunmasına imkan yaradır. Mən şübhə etmirəm ki, uğurlu iqtisadi islahatların aparılması nəticəsində növbəti illərdə də bizim iqtisadiyyatımız dinamik şəkildə artacaqdır və Azərbaycan iqtisadi cəhətdən ən güclü dövlətlərdən birinə çevriləcəkdir.

Yarım ildə sənaye istehsalı 35 faiz artıbdır. Kənd təsərrüfatında artım təxminən 5 faiz səviyyəsində müşahidə olunur. Düzdür, bu bizi hələ qane edə bilməz. Amma əvvəlki illərə nisbətən artım mövcuddur. Əminəm ki, görülən tədbirlər, «Aqrolizinq» şirkətinin yaradılması və kənd təsərrüfatına dövlət tərəfindən böyük məbləğdə vəsaitin ayrılması kənd təsərrüfatına da böyük təkan verəcəkdir. Kənd təsərrüfatı bizim iqtisadiyyatımızın çox önəmli bir sahəsidir. Eyni zamanda, sosial sahədir. Əhalinin təxminən yarısı kənd şəraitində yaşayır və bu sahəyə biz daim böyük diqqət göstərməliyik. Əməli-praktik tədbirlərin də davam etdirilməsi, əlbəttə ki, bu sahəyə yeni imkanlar gətirəcəkdir.

Əhalinin gəlirləri 6 ay ərzində çox böyük dərəcədə artıbdır. Azərbaycanda əhalinin pul gəlirləri 37 faiz, əməkhaqqı 26 faiz artıbdır. Bu onu göstərir ki, insanlar daha da yaxşı yaşamağa başlayırlar. Bu onu göstərir ki, insanların həyat səviyyəsi dinamik şəkildə yüksəlir. Bizim isə əsas məqsədlərimizdən biri də məhz bundan ibarətdir ki, Azərbaycanda kasıb adam olmasın, yoxsul adam olmasın.

Bildiyiniz kimi, 2006-cı ilin yekunlarına görə Azərbaycanda yoxsulluğun səviyyəsi 20 faiz təşkil edirdi. Mən əminəm ki, 2007-ci ilin yekunlarına görə bu faiz aşağı düşəcək və gələcəkdə Azərbaycanda yoxsulluğu tamamilə aradan qaldıracağıq. O cümlədən işsizliyin də aradan qaldırılması üçün böyük tədbirlər görülür. Bizim qəbul edilmiş proqramlarımız uğurla icra edilir. 2003-cü ilin oktyabr ayından bu günə qədər Azərbaycanda 572 min yeni iş yeri açılmışdır. Bunlardan 405 mini daimi iş yerləridir. Bu iş yerlərinin açılması həm böyük sosial məsələlərin həlli, həm də ki, regionların inkişafı deməkdir. Çünki bu iş yerləri daha çox regionlarda, qeyri-neft sektoru sahəsində açılır və bizim də əsas prioritetlərimizdən biri ondan ibarətdir ki, qeyri-neft sektoru inkişaf etsin,

iqtisadiyyatımız şaxələndirilsin və Azərbaycanda bütün sahələrdə iqtisadi inkişaf güclənsin.

Bunlar, demək olar ki, iqtisadiyyatımızın əsas göstəriciləridir. Onu da əlavə edə bilərəm ki, əhalinin banklara qoyduğu əmanət 70 faiz artıbdır. Bir tərəfdən, bu onu göstərir ki, banklara inam artır və bu çox gözəl əlamətdir. Onu göstərir ki, dövlətə inam çox yüksək səviyyədədir. Bununla bərabər, onu da göstərir ki, insanlarda əlavə maliyyə imkanları yaranıb ki, onlar bu maliyyə resurslarını banklara etibar edirlər.

İqtisadi göstəricilərdən biri bizi narahat edir. Bu da inflyasiyanın qalxmasıdır. Altı ayın yekunlarına görə, Azərbaycanda inflyasiya 16 faiz təşkil edir. Düzdür, əhalinin gəlirlərinin 37 faiz, əməkhaqqının 26 faiz artmasını nəzərə alsaq görərik ki, bu rəqəmlər inflyasiyanı qat-qat üstələyir. Amma bununla bərabər, biz antiinflyasiya tədbirlərimizi daha da gücləndirməliyik. İnflyasiyanın qalxmasında müxtəlif səbəblər var, o cümlədən obyektiv səbəb də var. İlk növbədə, dünyada neftin bahalaşması və bunun nəticəsi olaraq istehlak mallarının bahalaşması. Azərbaycanda hələ ki, bizim istehlak bazarımız xeyli dərəcədə idxaldan asılıdır.

Ona görə idxal mallarının bahalaşması istər-istəməz Azərbaycanda qiymət artımına gətirib çıxarır. Digər obyektiv səbəblərdən biri də odur ki, Azərbaycanda çox böyük büdcə artımı mövcuddur. Bizim büdcəmiz son 3-4 il ərzində bir neçə dəfə artırılıbdır. Bu ilin ortalarında dürüstləşmə aparılmış, büdcəmiz yenə də artırılmışdır. İndi bizim büdcə xərclərimiz 7,5 milyard dollar səviyyəsindədir. İcmal büdcə isə təxminən 9 milyard dollara yaxındır. Yəni bu, iqtisadiyyata böyük bir yükdür və istər-istəməz, inflyasiyanın qalxmasına da imkan yaradır.

Minimum əməkhaqqının, pensiyaların, büdcədən maliyyələşən təşkilatlarda çalışan insanların əməkhaqlarının qaldırılması da inflyasiyanı gücləndirən amillərdən biridir. Onu da qeyd etmək istəyirəm ki, ilin altı ayına görə Azərbaycanda orta əməkhaqqı 196 dollar, avqustun 1-nə isə 215 dollar təşkil edir.

Yəni, qiymətlər çox kəskin şəkildə artır.

Ancaq bununla bərabər, subyektiv səbəblər də var. Biz gərək bütün diqqətimizi məhz bunlara, inflyasiyanı yaradan və onu

gücləndirən subyektiv səbəblərin aradan qaldırılmasına yönəldək, bütün tədbirlərimizi görək. Burada həm iqtisadi tədbirlər, həm də inzibati tədbirlər, nəzarət gücləndirilməlidir. Büdcə xərclərinin artması çox müsbət göstəricidir, müsbət əlamətdir. Amma eyni zamanda, büdcə xərclərinə nəzarət də gücləndirilməlidir. İndi böyük məbləğlərdən söhbət gedir. Bizim büdcəmiz 1 milyard dollar səviyyəsində olanda Azərbaycanda o qədər də böyük büdcə xərcləri yox idi. Büdcəmiz, sadəcə olaraq, sosialyönümlü büdcə idi. İnvestisiya xərcləri, demək olar ki, çox aşağı səviyyədə idi. Amma indi büdcəmiz həm sosialyönümlüdür, həm də investisiyayönümlüdür.

Böyük məbləğdə vəsait ayrılır, tikinti, infrastruktur layihələri, yollar, körpülər, elektrik stansiyaları, məktəb, xəstəxana tikintisi – haraya baxsaq, bu inkişafı görərik. Bu da ölkəmizin iqtisadi və siyasi potensialını göstərir, Azərbaycan dünyada ən dinamik inkişaf edən ölkədir. Amma bununla bərabər, əlbəttə, büdcə xərclərinə müxtəlif qurumlar tərəfindən, müxtəlif dövlət strukturları tərəfindən çox ciddi nəzarət olmalıdır və büdcə xərclərində şəffaflıq tam şəkildə təmin edilməlidir.

Bizim şəffaflıqla bağlı ilk təcrübəmiz Azərbaycanda Dövlət Neft Fondunun yaradılması idi. 6-7 ildir fəaliyyət göstərən Dövlət Neft Fondu Azərbaycanda, demək olar ki, şəffaflığın əsas nümunəsidir, meyarıdır. Təsadüfi deyil ki, bir ay bundan əvvəl Birləşmiş Millətlər Təşkilatı Azərbaycan Dövlət Neft Fondunu məhz şəffaflığın təmin edilməsinə görə yüksək mükafatla təltif edibdir. Biz artıq bir neçə ildir ki, hasilat sənayelərində şəffaflıq təşəbbüsünə qoşulmuş ölkəyik və bu təşəbbüsdə aparıcı rol oynayırıq. Bunu bütün böyük dövlətlərin rəhbərləri bildirir, mənə göndərilən məktublarda bu xüsusilə göstərilir. Beynəlxalq təşkilatlar da həmçinin. Biz bütün maliyyə sistemində şəffaflığı təmin etməliyik və belə olan halda, Azərbaycanda həm korrupsiyanın aradan qaldırılması məsələsi öz həllini tapa bilər, həm də xərclər Azərbaycanın iqtisadiyyatının inkişafına daha məqsədyönlü şəkildə xidmət göstərə bilər. Eyni zamanda, biz inflyasiyanın azaldılmasına da nail ola bilərik.

Beləliklə, mən hesab edirəm ki, biz növbəti mərhələdə əsas diqqətimizi makroiqtisadi sabitliyin qorunmasına, saxlanılmasına və antiinflyasiya tədbirlərinin güclənməsinə yönəltməliyik. Ancaq bununla bərabər, biz büdcə xərclərinin artmasını saxlaya bilmərik. Azərbaycanın hələ ki, böyük ehtiyacları var. Biz böyük, nəhəng infrastruktur layihələrini həyata keçirməliyik, insanların həyat səviyyəsini yaxşılaşdırmalıyıq. Maaşlar artmalıdır, pensiyalar artmalıdır. Düzdür, indi Azərbaycanda minimum əməkhaqqı və minimum pensiya təxminən 60 dollar səviyyəsindədir. Azərbaycanda orta pensiya 70 dollar səviyyəsindədir. Bu, əvvəlki illərə nisbətən çox böyük irəliləyişdir. Ancaq hamımız bunu bilirik və etiraf etməliyik ki, bu, insanın gündəlik tələbatını ödəyə bilməz. İnsanların normal fəaliyyəti üçün, yaşaması üçün bu, kifayət etməz.

Məhz buna görə Azərbaycanda əhalinin 20 faizi yoxsulluq səviyyəsində yaşayır. Biz bunu aradan qaldırmalıyıq. Ona görə sosial ödəmələr artacaqdır. Bu sahədə də böyük işlər görülübdür. Xüsusilə şəhid ailələrinin sosial məsələlərinə böyük diqqət göstərilir. Şəhid ailələrinin hər bir üzvünə hər ay 90 manat müavinət verilir. Bununla bərabər, hər bir şəhid ailəsinə 100 manat müavinət verilir. Əgər dörd nəfərdən ibarət şəhid ailəsini götürsək görərik ki, onlar ayda təxminən 460 manat müavinət alırlar. Bu çox yaxşı məbləğdir. Onlar buna layiqdirlər. Yəni, bütün bu sosialyönümlü məsələlərdə biz geri çəkilməyəcəyik. Əksinə, növbəti illərdə maaşlar da qaldırılacaq, minimum əməkhaqqı, minimum pensiya, dövlətdən maliyyələşən bütün kateqoriyalı insanların əməkhaqları qaldırılacaqdır. Yəni biz buna hazır olmalıyıq. Bizim iqtisadiyyatımız, bütün qurumlarımız, iqtisadi qurumlarımız buna hazır olmalıdır ki, öz növbəsində, bu artımlar qiymətlərin qalxmasına gətirib çıxara bilər.

Mən bir məsələni də qeyd etmək istəyirəm. Biz bütün bu işləri görürük, insanların həyat səviyyəsi yaxşılaşır, ancaq bununla bərabər, qiymətlər bəzi hallarda süni şəkildə artırılır. Yəni möhtəkirlər, qeyri-sağlam rəqabət aparan qurumlar, firmalar, şirkətlər bundan istifadə edirlər. Biz buna da çox ciddi sədd qoymalıyıq. Mən aidiyyəti nazirlərə müvafiq göstərişlər

verdim. İstehlak bazarına nəzarət edən qurumlar bununla çox ciddi məşğul olmalıdır. Heç bir qanun pozuntusuna yol verilməməlidir, əksinə, qanunu pozan, bizim iqtisadi uğurlardan, ümumi rifah halının yüksəlməsindən istifadə edərək, əlavə vəsait qazanmaq istəyənlər çox ciddi şəkildə cəzalandırılmalıdır.

Bizim başqa sahələrdə də yaxşı nəticələrimiz var. Azərbaycanın neft strategiyası uğurla inkişaf edir. Bu il «Şahdəniz» yatağından ilk qazın hasilatına nail ola bildik. Azərbaycan artıq böyük həcmdə qaz hasil və ixrac edən ölkəyə çevrilibdir. Bu çox böyük tarixi hadisədir. Azərbaycanın gələcək inkişafı üçün, Azərbaycanın müstəqil ölkə kimi yaşaması üçün bunun çox böyük əhəmiyyəti vardır.

Biz artıq Gürcüstan bazarını təxminən 70–75 faiz həcmində öz qazımızla təmin edirik. Həm «Şahdəniz» yatağından çıxarılan, həm də Dövlət Neft Şirkəti tərəfindən hasil edilən qaz, demək olar ki, Gürcüstanın əksər tələbatını ödəyir. Əminəm ki, Azərbaycan qazı bu yaxınlarda Türkiyə bazarına çatdırılacaqdır. Ondan sonra isə Avropa ölkələrinə çatdırılacaqdır.

Bu, Azərbaycan qazıdır. Azərbaycan bu qazın sahibidir. Bizim Avropa İttifaqı ilə bu barədə keçən il imzaladığımız strateji tərəfdaşlıq haqqında memorandum gözəl hüquqi çərçivə yaradır. Növbəti illərdə biz birbaşa Avropa istehlakçıları ilə müqavilələr bağlayacağıq. Bu yaxınlarda Türkiyə ilə Azərbaycan arasında tranzit anlaşması haqqında danışıqlar başlanacaq, artıq bu barədə siyasi qərar verilibdir. Bu tranzit anlaşması bizə imkan verəcək ki, Azərbaycan birbaşa Avropa ölkələrinə öz qazını satsın. Azərbaycanda çox böyük, bir trilyon kubmetrdən artıq qaz ehtiyatları var və uzun illər ərzində Azərbaycan regionun və Avropanın enerji təhlükəsizliyinə öz dəyərli, deyə bilərəm ki, əvəzolunmaz töhfəsini verəcəkdir.

Bakı–Tbilisi–Ceyhan neft kəməri uğurla fəaliyyət göstərir. Gələn il tam gücü ilə işləyəcəkdir. Azərbaycanda neft hasilatı artır və bununla bərabər, əlbəttə ki, bizim iqtisadi məsələlərimiz öz həllini tapır. Bir sözlə, Azərbaycanın ulu öndər Heydər Əliyev tərəfindən başlanmış və uğurla icra edilən neft strategiyası ölkəmizin hərtərəfli inkişafı üçün əvəzolunmaz rol

oynayır. Biz bütün layihələrimizi həyata keçirmişik. Biz bütün enerji sahəsində, neft-qaz hasilatı və nəqli sahəsində bütün vəzifələri yerinə yetirmişik, öz proqramımızı icra etmişik. Bundan sonra, sadəcə olaraq, xarici tərəfdaşlarla, bizə dost olan ölkələrlə, müxtəlif şirkətlərlə səmərəli əməkdaşlığımızı davam etdirəcəyik. Yəni bir sözlə, biz həm neftin, həm qazın hasil edilməsinə, həm də onların nəqlinə, çoxvariantlı nəqlinə nail olduq. İndi heç bir marşrutdan asılı deyilik, müxtəlif istiqamətlərdə bizim ixrac imkanlarımız, infrastrukturumuz var. Beləliklə, Azərbaycan bu sahədə öz maraqlarını tam şəkildə qorumaq şərti ilə dost və qonşu ölkələrlə səmərəli əməkdaşlığını davam etdirəcəkdir.

Əlbəttə ki, əsasən neft layihələrinin icrası nəticəsində valyuta ehtiyatlarımız da artır. Bu gün Azərbaycanda valyuta ehtiyatları 5 milyard 100 milyon dollar səviyyəsindədir. Bu çox böyük rəqəmdir. Növbəti illərdə bu artacaq və kəskin şəkildə artacaqdır. Bu həm gələcək nəsillərə, necə deyərlər, bizim əmanətimizdir, həm də, əlbəttə ki, cari işlərdə bu imkanlardan istifadə edəcəyik.

Bizim qarşımızda hələ çox məsələlər var. Biz ölkəmizi hərtərəfli inkişaf etdirməliyik, müasirləşdirməliyik, güclü infrastruktur yaradılmalıdır. Ən çətin vəziyyətdə olan soydaşlarımız – qaçqınlar, köçkünlər daha da yaxşı yaşamalıdır. Onlar üçün də böyük işlər görülür. Yeni şəhərciklər salınır. Söz verdiyimiz kimi, artıq bu il sonuncu çadır şəhərciyi ləğv ediləcək və insanlar müvəqqəti olaraq daha yaxşı şəraitdə yaşayacaqlar.

Bu, çadır şəhərciklərinin ləğvi məsələsi, demək olar ki, işin birinci mərhələsidir. Bilirsiniz ki, proqram qəbul edilmişdir və növbəti illər üçün yeni təkliflər hazırlanmalıdır. Hazır olan kimi biz onları müzakirə edəcəyik, Dövlətqaçqınkoma göstərişlər verilib və o təkliflər əsasında biz növbəti proqramı qəbul edəcəyik.

Bu günə qədər istənilən sahədə qəbul edilmiş bütün qərarlar, bütün proqramlar uğurla icra edilib və gələcəkdə də şübhə etmirəm ki, biz bunu davam etdirəcəyik. Demək olar ki, bütün sahələrdə Azərbaycanın inkişafı çox uğurludur. Həm nəqliyyat, həm infrastruktur, həm siyasi və iqtisadi təşəbbüslərimiz. Biz

yaxın zamanlarda Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisinə başlayacağıq. Artıq bütün razılaşmalar əldə edilib, siyasi dəstək var. Bu layihədə iştirak edən ölkələr çox sıx əməkdaşlıq edir. Bizə heç xaricdən maliyyə yardımı da lazım olmadı və beləliklə, özümüz bu layihəni həyata keçirəcəyik. Bunun da çox böyük həm iqtisadi, həm siyasi əhəmiyyəti olacaq, həm də bütün geosiyasi vəziyyətə çox güclü təsiri olacaqdır. Mən çox şadam ki, biz bu işlərdə təşəbbüs göstərmişik və üç ölkə birlikdə bu işləri uğurla irəliyə aparacaqdır.

Humanitar sahədə qəbul edilmiş qərarlar da öz bəhrəsini verir. Azərbaycanda çox yüksək sürətlə məktəb tikintisi aparılır, xəstəxanalar tikilir, insanları narahat edən əsas məsələlər öz həllini tapır. Ekologiya məsələlərinə xüsusi diqqət göstərməliyik. Əvvəllər maliyyə vəziyyətimiz bu sahəyə böyük investisiyalar qoymağa imkan yaratmırdı. Amma indi bizim maliyyə vəziyyətimiz yaxşılaşır, bu sahəyə mütləq böyük həcmdə investisiyalar qoymalıyıq.

Bildiyiniz kimi, ekoloji vəziyyətin yaxşılaşması üçün xüsusi proqram qəbul edilibdir. Bundan əlavə, təxirəsalınmaz tədbirlərin görülməsi üçün mən Prezident fondundan vəsait ayırmışam və Azərbaycanda 100 kənd içməli su ilə təmin ediləcəkdir. O kəndlər ki, orada içməli su çox keyfiyyətsizdir və insanlar bundan əziyyət çəkirlər. Bu, insanların sağlamlığına da çox mənfi təsir göstərir. Yəni, bu təxirəsalınmaz tədbirlər imkan verəcək ki, ekoloji cəhətdən ən çətin vəziyyətdə olan insanlar daha yaxşı yaşasınlar. Şübhəsiz ki, bütün Azərbaycanda ekoloji məsələlərə çox böyük diqqət göstərilməlidir.

Biz indi iqtisadi cəhətdən güclü ölkəyə çevrilirik, maliyyə çatışmazlığı artıq yoxdur və olmayacaq da. Biz siyasi cəhətdən bu bölgədə və geniş mənada qitədə öz yerimizi möhkəm tutmuşuq. Bir çox hallarda çox vacib məsələlərin həllində çox mühüm rol oynayırıq.

Çox böyük beynəlxalq məsələlərdə təşəbbüskarlığı da öz üzərimizə götürürük. Biz mütləq və mütləq elə etməliyik ki, Azərbaycanda ekoloji vəziyyət sağlamlaşsın, xüsusilə Abşeron yarımadasında. Burada neftlə çirklənmiş gölməçələr, məişət tullantılarının yandırılması və havanın çirklənməsi kimi məsələlərlə bağlı müxtəlif göstərişlər verilibdir. Sadəcə olaraq,

onlar vaxtlı-vaxtında yüksək səviyyədə icra olunmalıdır ki, Abşeron yarımadasında və bütövlükdə, Azərbaycanın hər bir yerində ekoloji vəziyyət yaxşılaşsın. Bu, insanların sağlamlığına çox yüksək dərəcədə təsir göstərir.

Mən əminəm ki, biz bu məsələni həll edəndən sonra Azərbaycanda xəstəliklər də azalacaq və insanlar daha da sağlam olacaqlar. Bu bizə lazımdır, bizim insanlarımız sağlam olmalıdırlar. Ekoloji təhlükəsizlik məsələlərinə də böyük diqqət yetirilməlidir. Bununla bərabər, xaricdən gətirilən və Azərbaycanda istehsal olunan qida məhsullarına da böyük diqqət verilməlidir. Azərbaycana keyfiyyətsiz məhsullar daxil olmamalı və ölkədə standartlara uyğun şəkildə məhsullar – istər sular, istərsə də müxtəlif növ içkilər və qida məhsulları buraxılmalıdır.

Yəni, gərək Azərbaycanda bütün humanitar, sosial məsələlər paralel şəkildə öz həllini tapsın. Biz bütün bu işləri görməklə ölkəmizi daha da gücləndirəcək, müasirləşdirəcəyik. Hər bir sahəyə böyük diqqət göstərilir. Hər bir sahənin öz proqramı var.

Bilirsiniz ki, Azərbaycanın hərbi potensialının möhkəmlənməsi çox sürətlə gedir. Biz hərbi xərclərə böyük diqqət göstəririk. Azərbaycanın hərbi xərcləri bu il 1 milyard dollar səviyyəsinə çatıbdır. Çox böyük sayda hərbi texnika, təyyarələr, silah-sursat alınır və bu siyasət davam etdiriləcəkdir. Biz müharibə şəraitində yaşayırıq. Biz iqtisadi cəhətdən güclənirik, hərbi cəhətdən güclənirik, siyasi cəhətdən güclənirik, diplomatik səylərimiz güclənir. Bizim artıq 50-dən çox ölkədə daimi nümayəndəliyimiz, səfirliyimiz var. Biz bunun bəhrəsini görürük. Biz Azərbaycan əleyhinə istənilən formada aparılan kampaniyanın qarşısını alırıq.

Bildiyiniz kimi, bu yaxınlarda Albaniyadan Ermənistana qanunsuz şəkildə göndərilən silahlar geri qaytarıldı. Burada, əlbəttə, bizim türk qardaşlarımızın böyük xidmətləri var. Bu fürsətdən istifadə edib, bizim bütün qardaş-bacılarımıza və xüsusilə Türkiyə hökumətinə, Baş nazirə öz minnətdarlığımı bildirmək istəyirəm ki, onlar bunu vaxtında aşkar ediblər, Ermənistana qanunsuz şəkildə göndərilən silahları geri qaytarıblar. Dünən Xarici İşlər naziri mənə məlumat verib ki, bizim Xarici İşlər Nazirliyimiz də buna çox operativ şəkildə

reaksiya verib, çox ciddi bəyanat veribdir. Bəyan edibdir ki, bu, Azərbaycana qarşı olan bir addımdır və bizimlə Albaniya arasında olan münasibətlərə çox ciddi şəkildə təsir göstərə bilər.

Nəzərə alaq ki, Albaniya tərəfi də Azərbaycanla əməkdaşlıq aparmağa çox meyillidir. Bu yaxınlarda İstanbulda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının zirvə görüşü çərçivəsində onların Baş naziri müraciət etmişdi ki, biz görüşək və görüşdük. Onların bizə bir neçə təklifləri, bir neçə xahişləri olubdur. Ancaq əgər onlar Ermənistanı silahlandıracaqsa, onda bizim onlarla heç bir əməkdaşlığımız olmayacaqdır. Bunu onlar da bilməlidirlər, bütün başqa separatistləri və təcavüzkar dövləti silahlandıran, onlara kömək göstərən bütün ölkələr də bilməlidir.

Dünən Xarici İşlər naziri mənə məlumat verib ki, albaniyalı həmkarı ona zəng edib, üzr istəyib və əmin edib ki, bundan sonra belə hərəkətlərə yol verilməyəcəkdir. Yenə də bu məsələdə Ermənistan özünü çox gülünc və biabırçı vəziyyətə salıbdır. Bildiyiniz kimi, Ermənistanın rəsmi nümayəndələri bu qanunsuz əməliyyatı inkar etmiş və bəyan etmişlər ki, biz müsəlman Albaniyadan silah almırıq. Biz başqa yerlərdən silah alırıq. Amma indi onların növbəti yalanı tam üzə çıxdı. Albaniya tərəfi özü bunu etiraf etdi. Xarici İşlər naziri mənə bildirmişdir ki, o öz həmkarı ilə söhbət əsnasında məsələ qoymuşdur ki, Albaniya tərəfi rəsmi bəyanat versin. Telefon söhbəti, əlbəttə, rəsmi iltifat əlamətidir. Amma bununla bərabər, rəsmi bəyanat verilməlidir.

Bu məsələ bir daha onu göstərir ki, Azərbaycanın imkanları artır, bizimlə hesablaşırlar. Azərbaycan önəmli ölkəyə çevrilir və bizim iştirakımız olmadan bu bölgədə heç bir beynəlxalq əməkdaşlıq təşəbbüsü reallaşa bilməz. Ona görə siyasi səylərimizi davam etdirməliyik, iqtisadiyyatımızı gücləndirməliyik, hərbi potensialımızı gücləndirməliyik. Belə olan halda Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsi öz müsbət həllini tapacaqdır. Bütün beynəlxalq ictimaiyyət Azərbaycanın ərazi bütövlüyü prinsipini müdafiə edir, bunu açıq şəkildə bəyan edir.

Bu yaxınlarda Dağlıq Qarabağda keçirilən «qondarma seçkiləri» heç kim tanımadı. Bütün beynəlxalq təşkilatlar,

aparıcı ölkələr bunu qınadılar. Separatist, qanunsuz, kriminal rejimə bütün beynəlxalq aləm öz etiraz səsini ifadə etdi. Dağlıq Qarabağ heç vaxt müstəqil ola bilməz. Azərbaycan buna imkan verməz. Heç bir ölkə, heç bir beynəlxalq təşkilat onların müstəqilliyini tanımayacaq və ilk növbədə, buna Azərbaycan heç vaxt razı olmayacaqdır. Bizim təklifimiz konstruktiv təklifdir. Ondan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyü qeyd-şərtsiz bərpa olunmalıdır. Bütün işğalçı qüvvələr zəbt olunmuş torpaqlardan çıxmalıdır. Azərbaycanlılar, bizim qaçqınlarımız, soydaşlarımız, köçkünlərimiz öz doğma torpaqlarına, o cümlədən Dağlıq Qarabağa qayıtmalıdırlar. Ondan sonra biz Dağlıq Qarabağın gələcək statusu haqqında danışa bilərik. Amma bu status mütləq Azərbaycanın tərkibində olmalıdır. Bunun kənarında heç bir razılaşma mümkün deyildir. Biz hələ ki, sülh danışıqlarına sadiqik. Hələ hesab edirik ki, bu danışıqlar davam etməlidir. Ancaq bununla bərabər, öz işimizi lazımi səviyyədə görürük.

Növbəti 6 ayda da biz gərək qarşıda duran bütün vəzifələri icra edək. Büdcənin icrası davam etməlidir. Bütün infrastruktur layihələri, tikintilər davam etməlidir. Vəsaitimiz var və əlbəttə ki, indidən biz artıq 2008-ci ilin büdcəsi haqqında fikirləşməliyik. Daha doğrusu, Maliyyə Nazirliyində işlər artıq başlanmışdır. Bir-iki aydan sonra büdcə layihəsi hazır olmalıdır. Əlbəttə, 2008-ci ilin büdcəsi həm keyfiyyət, həm də kəmiyyət baxımından 2007-ci ilin büdcəsindən daha da üstün olmalıdır.

## YEKUN NİTQİ

Növbəti altı ayda, ilin sonuna qədər bütün qəbul edilmiş proqramlar icra olunmalıdır. Biz əsas diqqəti infrastruktur layihələrinə yönəltməliyik. İndi Azərbaycanda bütün sahələrdə infrastrukturun yeniləşməsi çox sürətlə gedir. Keçən il 5 elektrik stansiyasının tikilməsi və 450 meqavata yaxın əlavə gücün yaradılması, əlbəttə ki, energetika sahəsində vəziyyəti xeyli dərəcədə yaxşılaşdırıbdır.

Bu il isə bu layihələr davam edir. Sumqayıtda böyük elektrik stansiyasının tikintisi davam edir. Növbəti planlarımızda «Şimal-2», Əli Bayramlı, Səngəçal elektrik stansiyalarının tikintisi durur və Azərbaycanda çox böyük enerji potensialı yaranacaqdır. Biz indi, demək olar ki, özümüzü elektrik enerjisi ilə tam şəkildə təmin edirik və gələcəkdə elektrik enerjisinin ixracı ilə də məşğul olacağıq. Bu həm böyük iqtisadi fayda gətirəcək və həm də, əlbəttə, siyasi baxımdan bizim üçün çox əlverişli olacaqdır.

Enerji sahəsində, xüsusilə ödəmələr məsələsində irəliləyiş, tərəqqi var. Mənə verilən məlumata görə, iyul ayında yığım 80 faizdən yuxarı olmuşdur. Nəzərə alsaq ki, uzun illər ərzində bizim ən ağrılı yerimiz kommunal ödənişlərin yığılmaması idi, bu, yaxşı göstəricidir. Bunun da müxtəlif səbəbləri var idi. Bəzi hallarda o vəsait insanlardan yığılırdı, sadəcə, kassaya mədaxil edilmirdi, ciblərə gedirdi. Bu sahədə əlbəttə ki, bizə çox böyük zərbə vuran «Barmek» şirkətinin fəaliyyəti olmuşdur. Faktiki olaraq, paytaxtın enerji təsərrüfatını dağıtmışdır. İndi biz məcburuq böyük həcmdə əlavə vəsait ayıraq ki, «Bakıelektrikşəbəkə» şirkəti öz fəaliyyətini bərpa etsin, gücləndirsin. Yeni xətlər çəkilir, yeni transformatorlar quraşdırılır, yardımçı stansiyalar tikilir. Yəni budur bizim gördüyümüz işlərin real nəticəsi.

Guya ki, bazar iqtisadiyyatına uyğun şəkildə fəaliyyət göstərən, amma əslində öz şəxsi maraqlarını və bəzi keçmiş rüşvətxor məmurların şəxsi maraqlarını güdən «Barmek» şirkəti Azərbaycanda bu sahədə yenilik gətirəcəkdi. Sadəcə olaraq, böyük zərbə vurmuşdur və biz o zərbənin acı nəticələrini hələ

ki, çəkməkdəyik. Amma bu sahədə vəziyyət xeyli dərəcədə yaxşılaşıbdır.

Bakı şəhərində elektrik təsərrüfatı dövlət nəzarətinə qayıtdıqdan sonra bu sahədə islahatlar da uğurla gedir. Həm dövlət tərəfindən əlavə vəsait ayrılır, həm də şirkət özü qazanır və beləliklə, enerji sahəsində vəziyyət sağlamlaşdırılır. Bu çox gözəl hadisədir. Görülən işlərin gözəl nəticəsidir. Elə etməliyik ki, Azərbaycanda bütün enerji təsərrüfatı ən yüksək səviyyədə olsun. İndi yeni elektrik stansiyalarının tikintisi imkan verir ki, mövcud güclər müasir səviyyəyə cavab versin. Paylayıcı şəbəkələr də gərək yeniləşsin, təzə xətlər çəkilməli və bütün lazımi avadanlıqlar quraşdırılmalıdır.

Qazlaşdırma sahəsində də işlər gedir. Bu vaxta qədər qazlaşdırılmayan rayonlara qaz xətləri çəkilir. Xüsusilə bu növbəti altı ayda biz Bakı kəndlərinin qazlaşdırılmasına daha da böyük fikir verməliyik. Nəzərə alsaq ki, bu, Bakının ətraf qəsəbələrinin sosial-iqtisadi inkişafı proqramında da öz əksini tapıb, gərək çalışaq ki, ilin sonuna qədər, yaxud da uzaqbaşı, gələn ilin birinci yarısında Bakının bütün qəsəbələrinin qaz problemləri həll edilsin.

İndi sayğaclar quraşdırılır və bu sahədə, enerji və qaz təsərrüfatında qayda-qanun yaradılır. İnsanlar da bilməlidirlər ki, onlar enerji və qaz pulunu vaxtlı-vaxtında ödəməlidirlər. Sayğaclara müdaxilə etməməli, onları sındırmamalıdırlar. Yəni burada heç bir qanun pozuntusuna yol verməl olmaz. Məndə olan məlumata görə, görülən tədbirlər nəticəsində istehlak da, xüsusilə enerji istehlakı da xeyli dərəcədə aşağı düşübdür. Nə qədər aşağı düşübdür?

**Etibar Pirverdiyev** (*«Azərenerji» Səhmdar Cəmiyyətinin prezidenti*): 1,6 milyard kilovat-saat.

**İlham Əliyev:** Faizlə nə qədər?

**Etibar Pirverdiyev:** 12,5 faiz.

**İlham Əliyev:** 12,5 faiz aşağı düşübdür. Bu onu göstərir ki, artıq israfçılığa yol verilmir və insanlar qənaətlə istifadə edirlər. Eyni zamanda, ölkədə enerji ilə bağlı problem yoxdur. Biz indiki qiymətlə 300 milyon dollar qənaət etmişik.

Digər infrastruktur layihələri də icra edilir və olunmalıdır. Xüsusilə yol tikintisi – həm magistral, həm də şəhərlərarası, şəhərdaxili yollar, körpülər. Biz hamımız bu gözəl inkişafı görürük. Bu işlər davam etməlidir. Kifayət qədər vəsait ayrılır. Ciddi maliyyə nəzarəti olmalıdır və növbəti mərhələ haqqında artıq təkliflər hazırlanıb təqdim edilməlidir.

Bakı şəhərində tıxaclar probleminin aradan qaldırılması çox böyük əhəmiyyət kəsb edən məsələdir. Bu sahədə kifayət qədər işlər görülür. Yollar, körpülər salınır, yeni avadanlığın alınması nəzərdə tutulubdur ki, yol hərəkətinin tənzimlənməsi daha da səmərəli olsun və insanlar bu tıxaclar problemindən əziyyət çəkməsinlər. Bir sözlə, bu, əsas infrastruktur layihələrimizdir və bundan başqa, əlbəttə, digər sahələrə də investisiyalar olacaqdır.

Gələn ilin büdcəsi haqqında mən artıq giriş sözümdə qeyd etdim ki, ciddi işləməliyik, büdcə çox sanballı olmalıdır. Artıq bizim dövlət büdcəmiz kifayət qədər böyükdür. Şübhəsiz ki, iqtisadi artım bizə imkan verir ki, gələn ilin büdcəsi həcm baxımından daha da böyük olsun. Orada investisiya layihələri mütləq öz əksini tapmalıdır. Əlbəttə ki, insanların sosial problemlərinin həlli, o cümlədən pensiyaların, maaşların, minimum pensiyanın və əməkhaqqının artırılması mütləq öz əksini tapmalıdır.

İnvestisiya layihələrində həm sənaye sahəsinə, eyni zamanda, humanitar sahəyə sərmayə qoyulmalıdır. Məktəb tikintisi, xəstəxanaların tikintisi – bütün bunlar lazımdır. Biz bunu edirik və son illər ərzində Azərbaycanda misli görünməmiş tikinti gedir.

Nazir Misir Mərdanov dedi ki, yalnız bu il 200-dən çox məktəb istifadəyə veriləcək, əlavə korpuslar tikiləcək, təmir işləri gedəcəkdir. Son üç ildə Azərbaycanda 1200 məktəb tikilib istifadəyə verilibdir. Bu, böyük nailiyyətdir və davam etməlidir. Çünki hələ yararsız vəziyyətdə olan məktəblərin sayı kifayət qədərdir. Uşaqlar yaxşı məktəblərdə oxumalı, müəllimlər də yaxşı məktəblərdə işləməlidirlər.

Rayonlarda müasir xəstəxanaların tikintisi davam edir. Həm Səhiyyə Nazirliyi xətti ilə, həm də Dövlət Neft Şirkəti tərəfindən. Bilirsiniz ki, bir müddət bundan əvvəl şirkətə

göstəriş verilmişdir, onlar öz vəsaiti hesabına müasir xəstə-xanalar tiksinlər. Artıq bu il bir neçə rayonda böyük tikinti gedir.

Bir sözlə, həm bu ilin sonuna qədər, həm bütövlükdə bütün fəaliyyətimizdə sosial məsələlərə çox böyük diqqət verilməlidir.

Bununla bərabər, abadlıq işləri də gedir. Bu gözəl şəhərimiz, paytaxtımız daha da gözəlləşir, abadlaşır. Bildiyiniz kimi, bir müddət bundan əvvəl mən bu məsələyə dair xüsusi sərəncam imzalamışam. O sərəncamda Bakının tarixi binalarının bərpası, təmizlənməzi, qorunması, işıqlandırılması məsələləri öz həllini tapmışdır və bu gün də biz bunu əyani şəkildə görürük. Biz hələ işin ilkin mərhələsindəyik. Planlarımızda, əlbəttə ki, Bakının bütün tarixi binalarının bərpası durur. Eyni zamanda, şəhərin mərkəzində yerləşən, lakin heç bir gözəl memarlığı ilə fərqlənməyən, köhnə, sovet tipli standart binaların gözəlləşdirilməsi məsələsi də gündəlikdə var. Bu sahədə artıq müəyyən işlər görülüb. Şəhərimizin mərkəzi Bakıya xas olan üslubda gözəlləşməlidir. Buna kifayət qədər vəsait də ayrılıb və bu işlər davam etməlidir.

Bunlarla yanaşı, şəhər təsərrüfatına da əlavə investisiyalar qoyulmalıdır. Bu sahə də çox vacibdir. Yeni tikintilərə gəldikdə, onların hamısının çox gözəl memarlıq əlamətləri olmalıdır və standart tipli, «qutu» adlandırdığımız binalar artıq tikilmir, onlar qadağan edilibdir, dayandırmışıq. Bütövlükdə, bu sahəyə biz gərək fərdi qaydada yanaşaq ki, həm memarlıq baxımından gözəl binalar tikilsin, həm də onların yerləşməsi də şəhərin planına, bütün müasir şəhərsalma normalarına uyğun şəkildə təmin olunsun.

Qanunsuz tikililərə artıq son qoyulmalıdır, qanunsuz tikililər sökülməlidir. Azərbaycanda hüquqi dövlət qurulur, bu hüquqi dövlət bütün sahələri ehtiva edir və heç bir qanunsuz hərəkət olmamalıdır, o cümlədən torpaqların qanunsuz zəbt edilməsi, qanunsuz sərəncamların verilməsi, yaxud da ki, heç bir sənədi olmayan şirkətlər tərəfindən qanunsuz binaların tikintisi. Bu baxımdan həm şəhər icra hakimiyyəti, həm də rayon icra hakimiyyəti başçıları fərdi məsuliyyət daşıyırlar. Çünki bir çox hallarda onların şifahi razılığı ilə bu işlər görülür. Buna son qoyulmalıdır. Bu mənim axırıncı xəbərdarlığımdır. Nə Bakıda,

nə də ölkəmizin başqa yerlərində heç bir qanunsuz bina tikilməməlidir və tikilməyəcəkdir. Kim bunu edəcəksə, o öz cəzasını alacaqdır!

Bakı ilə bərabər, bizim başqa şəhərlərimiz də gözəlləşir, abadlaşır. Mən tez-tez rayonlarda oluram, bu yenilikləri görürəm. Çox sevinirəm ki, rayonlarımızın da siması dəyişir. Onu da demək istəyirəm ki, rayonlarda binaların və ümumiyyətlə, şəhər təsərrüfatının müasir səviyyədə olması üçün mənim təşəbbüsümlə rayon icra hakimiyyəti başçıları Avropanın aparıcı ölkələrinə, şəhərlərinə ezam edilir və orada ən müasir təcrübə ilə tanış olurlar.

Zeynal, bu günə qədər onlar hansı ölkələrə ezam olunmuşlar?

**Z e y n a l N a ğ d ə l i y e v** (*Prezidentin İcra Aparatının Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri*): İsveçrə, Belçika, Yunanıstan, Rusiya, Almaniya və Avstriyaya.

**İ l h a m Ə l i y e v:** Artıq bütün icra hakimiyyəti başçıları olublar?

**Z e y n a l N a ğ d ə l i y e v:** İndiyə qədər üç rayonun icra hakimiyyətinin başçısı xaricdə olub və bu istiqamətdə işlər davam etdirilir.

**İ l h a m Ə l i y e v:** Bəli, bu proses davam etməlidir. Yəni bir dəfə ilə kifayətlənilməməlidir. Həm icra hakimiyyəti başçıları üçün maraqlı olar, həm də əsas odur ki, onlar orada o gözəl təcrübəni, necə deyərlər, götürsünlər və tətbiq etsinlər.

Digər infrastruktur layihələrinin icra olunması da davam edir. Oğuz–Qəbələ–Bakı su xəttinin tikintisi gedir, bu çox böyük layihədir. Bakını gözəl, təmiz içməli su ilə təmin edəcəkdir. Samur–Abşeron kanalının tikintisi də davam edir, bu da böyük infrastruktur layihəsidir. Bu məsələlərə böyük diqqət göstərilməlidir və bütövlükdə su təsərrüfatına, onun inkişafına biz daha da böyük həcmdə vəsait qoymalıyıq.

İndi enerji sahəsində vəziyyət normallaşır, yeni xətlər çəkilir, elektrik stansiyaları kifayət qədər tikilibdir. Qaz təsərrüfatında işlər gedir və Azərbaycanda qazın hasilatı

artdıqca, yeni kəndlərə, məntəqələrə qazın verilməsi mümkün olacaqdır. Düzdür, bizdən qat-qat çox qaz hasil edən ölkələrdə qazlaşdırma bizdən aşağı səviyyədədir. Bizdə isə bu rəqəm çox yüksəkdir. Qazlaşdırma nə qədərdir?

**Ə l i x a n M ə l i k o v** *(«Azəriqaz» Səhmdar Cəmiyyətinin sədri*): Cənab Prezident, 92 faizdir.

**İ l h a m Ə l i y e v:** 92 faiz, deməli, ölkəmizin, demək olar ki, əksər hissəsi qazlaşdırılıbdır.

Vaxtilə, məhz 70-ci illərdə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə qazlaşdırmanın əsas hissəsi öz həllini tapıbdır. Əlbəttə ki, indi bu xətləri biz yeniləşdiririk, onların bəziləri sıradan çıxıbdır. Ancaq qaz hasilatı artdıqca, əlbəttə ki, Azərbaycanda qazlaşdırma prosesi davam etməlidir.

Yəni elektrik enerjisi sahəsində, qaz təsərrüfatında irəliləyiş var. Biz indi diqqəti daha çox içməli su, meliorasiya, kanalizasiya məsələlərinə yönəltməliyik. Bu, ölkəmizin hərtərəfli inkişafı üçün, kənd təsərrüfatının inkişafı üçün, ekoloji vəziyyətin sabitləşməsi üçün, insanların sağlamlığı üçün prioritet məsələdir.

Qeyri-neft sektorunun inkişafında yaxşı nəticələr var. Deyə bilərəm ki, bu ilin 6 ayında Azərbaycanın iqtisadiyyatına 2,7 milyard manat investisiya qoyulmuşdur. Onlardan 1,6 milyard manatı neft sektoruna, 1,1 milyard manatı qeyri-neft sektorunadır. Bu çox gözəl göstəricidir. Yəni onu göstərir ki, Azərbaycanın iqtisadiyyatı çoxşaxəli şəkildə inkişaf edir. Bizim iqtisadiyyatımız, sadəcə, neftin əsasında qurulmur. Bizim məqsədimiz məhz bundadır ki, neft amilindən asılılığımız maksimum dərəcədə azalsın və qeyri-neft iqtisadiyyatı Azərbaycanın bütün əsas iqtisadi tələbatını ödəyə bilsin.

Onu da deyə bilərəm ki, 2,7 milyard manat investisiyadan 1,4 milyard manatı daxili investisiyadır. Bu da çox gözəl göstəricidir. Əvvəlki illərdə xarici investisiyalar bizdə 90 faiz təşkil edirdi. İndi əksəri daxili investisiyadır. Əlbəttə, dövlət xətti ilə görülən işlər də bunun içindədir, həm də özəl sektor tərəfindən kifayət qədər vəsait qoyulur.

Özəl sektora bizim dəstəyimiz davam etməlidir. Bütün dövlət qurumları sahibkarlığın inkişafında fəal iştirak etməlidir. Sahibkarlara verilən güzəştli kreditlər davam edəcəkdir. Artıq

bir neçə ildir ki, bu kreditlər verilir, yəqin vaxt gəlib çatıb ki, o kreditlər qaytarılsın.

Bu günə qədər sahibkarlığın inkişafı istiqamətində verilən kreditlərin həcmi 200 milyon manatdan çox olubdur. Əlbəttə, bu, dövlət tərəfindən sahibkarlara göstərilən böyük diqqətdir. Gələn illərdə, yəqin ki, 2008-ci ildə yenə də biz o kreditləri verəcəyik. Amma bir ildən, iki ildən sonra artıq o kreditlər qayıtmağa başlayacaq və onun hesabına yeni kreditlər veriləcəkdir. Yəni kreditlərin qaytarılması ona görə lazımdır ki, başqa sahibkarlara yeni kreditlər verilsin. Biz dövlət tərəfindən olan bu dəstəyin əyani nəticələrini rayonlarda gedən işlərdə görürük. İri müəssisələr, fabriklər, zavodlar tikilir, iş yerləri açılır – bütün bunlar bizə də, sahibkarlara da lazımdır.

Dövlət İnvestisiya Şirkətinin fəaliyyəti çox vacibdir və bilirəm ki, onun artıq bir neçə hazır layihəsi var. Onların icrasına başlanmalıdır. Bu bizim üçün yeni bir sahədir. Dövlət İnvestisiya Şirkəti bu yaxınlarda yaradılıbdır. Onun əsas məqsədi ondan ibarətdir ki, xarici investorları stimullaşdırsın, təşviq etsin və Azərbaycana lazım olan, ölkəmizin iqtisadiyyatına lazım olan sahələrə investisiyalar daha böyük həcmdə gəlsin.

Yarmarkalar öz müsbət nəticələrini verir, insanlar bundan faydalanırlar. Bu, davam etməlidir. Bilirəm ki, yarmarkalara çıxarılan məhsulların miqdarı da, növləri də artır. Bu çox müsbət təşəbbüsdür və bunun çox gözəl nəticələri vardır.

Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları (İKT) sürətlə inkişaf edir. Mən çox şadam, görürəm ki, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin çox böyük proqramları var. Mən bu il dünyanın aparıcı İKT şirkətlərinin başçıları ilə görüşlər keçirmişəm.

Azərbaycana çox böyük maraq var, Azərbaycan çox perspektivli yer kimi qəbul olunur. Bir tərəfdən, bizim ümumi iqtisadi inkişafımız, ümumi daxili məhsulun yüksək səviyyədə olması Azərbaycanda iş görmək istəyən bütün şirkətləri, əlbəttə, təəccübləndirir və eyni zamanda, onları Azərbaycana gəlməyə sövq edir. Digər tərəfdən, bu sahədə görülən işlər, qəbul edilmiş proqramlar və bizim praktik uğurlarımız, əlbəttə, böyük İKT şirkətlərinin Azərbaycana gəlməsini təmin edəcəkdir. Bu

müasirlikdir, iqtisadi cəhətdən çox əlverişli sektordur. Nazir Əli Abbasov bu barədə məlumat verdi, Azərbaycan gələcəkdə bu sahənin inkişafından milyardlarla dollar pul qazanacaqdır. Eyni zamanda, bu müasirlikdir, inkişafdır, savaddır, bilikdir.

Azərbaycan müasir ölkədir və iqtisadi, siyasi – bütün başqa sahələrdə müasirlik prinsipləri əsas olmalıdır. Öz doğma tarixinə, mədəniyyətinə, milli köklərinə bağlı olan, eyni zamanda, müasir Azərbaycan. Müasir Azərbaycan kimi, ölkəmiz artıq dünyada tanınır. İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı məhz ölkənin müasirliyini göstərir. Bizim bütün imkanlarımız var ki, Azərbaycan İKT sahəsində bölgənin mərkəzinə çevrilsin.

Daha doğrusu, bu bizim istəyimizdir, niyyətimizdir. Yeni texnoparkların yaradılması, İKT-nin bütün əlamətlərinin Azərbaycanda tətbiq olunması həm bu sahədə böyük sıçrayışa gətirib çıxaracaq, həm də başqa sektorlara öz müsbət təsirini göstərəcəkdir. Necə ki, vaxtilə uğurlu neft strategiyamız bütün başqa sektorlara öz təsirini göstərmişdir, mən tam əminəm ki, İKT-nin inkişafı bütün başqa sektorlara, xüsusilə xidmət sektorlarının inkişafına çox böyük təsir göstərəcəkdir.

Beləliklə, demək istəyirəm ki, bütövlükdə ilin 6 ayının yekunları çox müsbətdir, çox qənaətbəxşdir. Qəbul edilmiş bütün qərarlar, büdcənin icrası növbəti altı ayda təmin olunmalıdır, bütün infrastruktur layihələri təmin edilməlidir. Artıq indidən 2008-ci ilin büdcəsinə və ümumiyyətlə, 2008-ci ildə görüləcək işlərə diqqət yetirməliyik. Bütün nazirliklər, bütün dövlət qurumları öz təkliflərini verməlidir, özü də son anda yox, vaxtında verməlidir.

Bəzi hallarda – mən bunu da qeyd etmək istəyirəm – bəzi dövlət qurumları son anda təklifini verir və deyir ki, bu qədər vəsait lazımdır və onu heç cür əsaslandırmır. Bilirsiniz, bu da çox ciddi məsələdir. Mən istəyirəm xüsusilə bu barədə deyim. İndi bizim maddi imkanlarımız, büdcəmiz artır. Ancaq bu o demək deyil ki, qeyri-real sifarişlər verilsin, görüləcək işlərin xərcləri süni şəkildə artırılsın. Bizim maddi imkanlarımız sadəcə olaraq, imkan verir ki, qarşıda duran bütün vəzifələr icra edilsin. Amma bütün təkliflər, bütün sifarişlər vaxtlı-vaxtında verilməlidir. İndidən dövlət qurumları tərəfindən Maliyyə

Nazirliyinə, Nazirlər Kabinetinə təkliflər verilməlidir ki, 2008-ci ildə hansı işlər görüləcəkdir və bu, real təkliflər olmalıdır, onsuz da onlar təftiş ediləcəkdir. Amma indidən deyirəm, şişirtmələrə yol verməк olmaz, burada əsassız iddialar olmamalıdır. Hər şey reallıq əsasında olmalıdır və görüləcək bütün işlər maksimum səmərə verməlidir.

Bununla iclasımız başa çatır. Sizə uğurlar arzulayıram.

Sağ olun.

**HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
XANIM PRATİBHA PATİLƏ**

Hörmətli xanım Prezident!

Hindistan Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ölkələrimiz arasında dərin tarixi kökləri olan dostluq və əməkdaşlıq münasibətlərinin xoş ənənələri mövcuddur. Əminəm ki, xalqlarımızın mənafelərinə uyğun olaraq bu ənənələri daim yaşadacaq və daha da inkişaf etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Hindistan xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 avqust 2007-ci il*

**HİNDİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB MANMOHAN SİNQHƏ**

Hörmətli cənab Baş nazir!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Hindistan arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 avqust 2007-ci il*

**KOREYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RO MU HYUNA**

Hörmətli cənab Prezident!

Koreya Respublikasının milli bayramı – Azadlıq günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimizi və arzularımızı yetirirəm.

Bu gün Azərbaycan–Koreya münasibətləri dinamik inkişaf yolundadır. Qarşılıqlı səfərlərimiz, ikitərəfli qaydada imzalanmış sənədlər əməkdaşlığımız üçün geniş imkanlar açmaqdadır. Ümidvaram ki, bu imkanlardan səmərəli istifadə olunması üçün bundan sonra da səylərimizi davam etdirəcəyik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 avqust 2007-ci il*

**ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ**

Hörmətli cənab Prezident!

Əfqanıstanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Əfqanıstan xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 avqust 2007-ci il*

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə İndoneziya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı, əlaqələrimizin bütün sahələrdə genişlənməsi xalqlarımız üçün daim faydalı olacaqdır.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 avqust 2007-ci il*

# YUNANISTANIN İNKİŞAF NAZİRİ DİMİTRİS SİUFASIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 avqust 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 2-də Prezident sarayında Yunanıstanın İnkişaf naziri Dimitris Siufasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Azərbaycan–Yunanıstan ikitərəfli münasibətlərinin siyasi və iqtisadi sahələrdə genişləndirilməsinin zəruriliyini vurğuladı. Dövlətimizin başçısı Yunanıstanın İnkişaf nazirinin Azərbaycana səfərinin ikitərəfli, eləcə də regional əməkdaşlığın inkişafına öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Dimitris Siufas Azərbaycan prezidentinə Yunanıstanın dövlət başçısı Karolos Papulyasın və Baş nazir Konstantinos Karamanlisin salamlarını çatdırdı. Yunanıstanın İnkişaf naziri Dimitris Siufas Bakıya səfəri zamanı ölkələrimiz arasında enerji sahəsində çox mühüm, tarixi razılaşmanın imzalandığını bildirərək qeyd etdi ki, bu saziş Azərbaycan–Yunanıstan münasibətlərində yeni imkanlar açacaqdır.*

*Prezident İlham Əliyev Yunanıstan prezidenti Karolos Papulyasın və Baş nazir Konstantinos Karamanlisin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Yunanıstanın dövlət başçısına və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ MƏRKƏZİ ASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ MƏTYU BRAYZƏ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 avqust 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 2-də Prezident sarayında ABŞ Dövlət katibinin Avropa və Mərkəzi Asiya məsələləri üzrə müşaviri Mətyu Brayzəni qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında enerji sahəsində əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər müzakirə olunmuşdur.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV QAZAXISTANLI JURNALİSTLƏRƏ MÜSAHİBƏ VERMİŞDİR

*Prezident sarayı*

*2 avqust 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 2-də Prezident sarayında Qazaxıstanın «Ekspress-K» qəzetinin şef redaktoru Mark Kabdıqali və Kazinform agentliyinin müxbiri Arnur Muxamedkarimə müsahibə vermişdir.*

*Dövlətimizin başçısı Azərbaycan–Qazaxıstan ikitərəfli münasibətləri, ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş qlobal enerji layihələrinin perspektivləri, regional və digər məsələlərlə bağlı suallara cavab vermişdir.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAXISTANA RƏSMİ SƏFƏRİ

*7 avqust 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Qazaxıstan Respublikasına ikigünlük rəsmi səfərə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Baş nazir Artur Rasizadə və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Qazaxıstan paytaxtına gəlmişdir

*Azərbaycanın və Qazaxıstanın dövlət bayraqları ilə bəzədilmiş Astana Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi təyyarənin pilləkəni yanında Qazaxıstanın Xarici İşlər naziri Marat Tajin, Nəqliyyat və Kommunikasiyalar naziri Serik Axmetov, Astana şəhəri hakiminin müavini Yermek Amanşayev və digər rəsmi şəxslər səmimiyyətlə qarşıladılar. Milli geyimli qız dövlətimizin başçısına gül dəstəsi təqdim etdi.*

*Azərbaycan prezidenti hava limanından onun üçün ayrılmış iqamətgaha – «Rixos President-Astana» mehmanxanasına yola düşdü.*

* * *

*Avqustun 7-də Qazaxıstan prezidentinin sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Burada dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyevi Qazaxıstan prezidenti Nursultan Nazarbayev sarayda böyük hörmət və ehtiramla qarşıladı.*

*Qazaxıstan nümayəndə heyəti və xarici ölkələrin Qazaxıstanda akkreditə olunmuş səfirləri Azərbaycan prezidenti İlham Əliyevə, Azərbaycan nümayəndə heyəti isə Qazaxıstan prezidenti Nursultan Nazarbayevə təqdim olundu. Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi. Azərbaycanın və Qazaxıstanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Prezident İlham Əliyev Qazaxıstan əsgərlərini salamladı.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN TƏKBƏTƏK GÖRÜŞÜ

*Qazaxıstan prezidentinin sarayı*

*7 avqust 2007-ci il*

*Avqustun 7-də Qazaxıstan prezidentinin sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Qazaxıstan prezidenti Nursultan Nazarbayevin təkbətək görüşü olmuşdur.*

*Dövlət başçıları ölkələrimiz arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişafından, strateji əməkdaşlığın səviyyəsindən məmnunluqlarını bildirdilər.*

*Görüşdə prezidentlərin qarşılıqlı səfərlərinin Azərbaycan–Qazaxıstan əlaqələrinin daha da genişlənməsi işinə xidmət edəcəyinə əminlik vurğulandı və qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Qazaxıstan prezidentinin iqamətgahı*

*7 avqust 2007-ci il*

*Avqustun 7-də Qazaxıstan prezidentinin iqamətgahında Azərbaycan prezidenti İlham Əliyevin və Qazaxıstan prezidenti Nursultan Nazarbayevin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.*

**N u r s u l t a n   N a z a r b a y e v:** Hörmətli İlham Heydər oğlu!

Əziz azərbaycanlı dostlar!

Mən Azərbaycan nümayəndə heyətini Qazaxıstanda, bizim yeni paytaxtımız Astanada salamlamağa şadam. Biz Azərbaycan prezidenti ilə indi çox ətraflı danışıqlar apardıq, nəqliyyat, ticarət sahələri, ilk növbədə, hər iki tərəfi maraqlandıran sahələrlə, o cümlədən enerji ehtiyatlarının Xəzər vasitəsilə nəqli istiqamətində ikitərəfli münasibətlərimizə dair bütün məsələlərlə bağlı fikir mübadiləsi apardıq. Azərbaycan bizim üçün tranzit ərazi kimi çox maraqlıdır, əvvəllər razılaşdığımız kimi, Bakı–Tbilisi–Ceyhan layihəsində iştirak edirik, gələcəkdə isə qaz layihələri, Azərbaycandan və Gürcüstandan keçəcək dəmir yolu marşrutu var. Hər iki ölkə bütün istiqamətlərdə əməkdaşlığa – birgə müəssisələr yaratmağa, hər iki tərəfin aktivlərinin alınmasında iştirak etməyə, ticarət əlaqələrini inkişaf etdirməyə hazırdır. Biz siyasi, regional, beynəlxalq məsələləri müzakirə etdik.

Qazaxıstan ilə Azərbaycan arasında nə iqtisadi, nə də siyasi sahələrdə heç bir problem yoxdur. İki qardaş xalqın

münasibətləri həmişə etimada, bir-birinə hörmətə əsaslanır. Düşünürəm ki, hazırkı səfər, nümayəndə heyətlərinin dünən və bu gün apardıqları danışıqlar, imzalanmış sənədlər ölkələrimiz arasında əmtəə dövriyyəsinin artırılması, ən əsası isə xalqlarımızın və dövlətlərimizin yaxınlaşması üçün yeni əlverişli şərait yaradacaqdır.

**İ l h a m  Ə l i y e v:** Bu, son 3 ildə mənim sizin ölkənizə ikinci rəsmi səfərimdir və bunun özü münasibətlərimizin dostluq və qardaşlıq xarakteri daşıdığını göstərir. Ölkələrimiz arasında ənənəvi olaraq çox sıx qarşılıqlı əlaqə var. Hazırkı mərhələdə bu münasibətlər məhz Sizin dediyiniz istiqamətlərdə yeni forma alır. Biz fəal qarşılıqlı fəaliyyətə, iqtisadi inteqrasiyaya meyilliyik. Birgə hökumətlərarası komissiyanın fəaliyyəti də bu məqsədə xidmət edir ki, diqqəti bizi birləşdirən qlobal layihələrə cəmləşdirək, habelə qarşılıqlı maraq doğuran yeni sahələr axtaraq.

Bizi birləşdirən nəqliyyat, enerji layihələri, əlbəttə ki, münasibətlərimizin gündəliyinin birinci sırasındadır və Azərbaycan öz tərəfindən Qazaxıstanın enerji ehtiyatlarının və yüklərinin bizim ərazimizdən sərbəst və maneəsiz daşınması üçün hər şey etməyə hazırdır. Bizdə neftin və qazın Avropa və dünya bazarlarına nəqli üçün müasir infrastruktur yaradılmışdır. Eyni zamanda, müasir dəmir yolu infrastrukturu yaradılır və bütün bunlar Qazaxıstanın maraqlarına da xidmət edə bilər.

Ölkələrimiz iqtisadi yüksəliş, dinamizm, regional inteqrasiya ilə fərqlənir və əlbəttə ki, Qazaxıstanın son illər, Sizin rəhbərliyiniz illərində qazandığı uğurlar bizi çox sevindirir. Bu, Astananın dəyişən simasından da görünür. Mən burada sonuncu dəfə iki il əvvəl olmuşam və deyə bilərəm ki, olduqca çoxlu dəyişikliklər vardır, müasir şəhər tikilir. Mən həm də bilirəm ki, bütün vilayət mərkəzlərində oxşar proseslər gedir. Bizim çox sıx siyasi əlaqələrimiz vardır. Sizin dediyiniz kimi, ölkələrimiz arasında heç bir problem yoxdur. Əksinə, tam qarşılıqlı anlaşma, siyasi dəstək mövcuddur və əlbəttə ki, bütün bunlar birlikdə münasibətlərimiz üçün nadir format yaradır. Bu həm birgə tarix, həm birgə köklər, həm də iki ölkənin müstəqil inkişaf dövründə tamdəyərli və çox səmərəli dövlətə çevrilməsidir. Bu həm də neft-qaz, enerji, nəqliyyat və digər

layihələrdir ki, onlar Qazaxıstanın və Azərbaycanın regional miqyasda əhəmiyyətini artırır və ölkələrimizin inkişafı üçün əlavə şərait yaradır.

Qonaqpərvərliyə görə bir daha öz adımdan və bütün nümayəndə heyəti adından Sizə təşəkkür etmək istəyirəm, yenidən qardaş Qazaxıstan torpağında olmaq bizim üçün çox xoşdur. Mən həm də fürsətdən istifadə edərək, Sizin üçün istənilən münasib vaxtda Sizi Azərbaycana daha bir rəsmi səfərə dəvət etmək istərdim.

## Sənədlərin imzalanma mərasimi

*Avqustun 7-də Qazaxıstan prezidentinin sarayında Azərbaycan ilə Qazaxıstan arasında sənədlərin imzalanma mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında azadlıqdan məhrum edilmiş şəxslərin cəzalarının qalan hissəsini çəkmək üçün verilməsi haqqında müqaviləyə dəyişikliklər edilməsi barədə protokol»u Azərbaycan tərəfindən Baş prokuror Zakir Qaralov, Qazaxıstan tərəfindən Baş prokuror Rəşid Tusupbekov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında müdafiə sənayesi müəssisələrinin istehsalat və elmi-texniki kooperasiyası sahəsində əməkdaşlıq haqqında saziş»i Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri Heydər Babayev, Qazaxıstan Respublikasının Sənaye və Ticarət naziri Qalım Orazbakov imzaladılar.*

*«Azərbaycan Respublikasının Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi və Qazaxıstan Respublikasının Maliyyə Bazarının və Maliyyə Təşkilatlarının Tənzimlənməsi və Nəzarəti üzrə Agentliyi arasında anlaşma memorandumu»nu Azərbaycan tərəfindən komitənin sədri Gündüz Məmmədov və Qazaxıstan tərəfindən agentliyin sədr müavini Qani Uzbekov imzaladılar.*

*«Azərbaycan Televiziya və Radio Verilişləri» Qapalı Səhmdar Cəmiyyəti və «Qazaxıstan Televiziya və Radio Korporasiyası» Səhmdar Cəmiyyəti arasında əməkdaşlıq haqqında saziş»i Azərbaycan tərəfindən AzTV-nin sədri Arif Alışanov və*

*Qazaxıstan tərəfindən korporasiya sədrinin müavini Dauren Abduxamitov imzaladılar.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN MƏTBUAT ÜÇÜN BƏYANATLARI

*Qazaxıstan prezidentinin sarayı*

*7 avqust 2007-ci il*

### Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Bu gün mənim dəvətimlə rəsmi səfərə gələn Azərbaycan prezidenti İlham Əliyevi böyük məmnuniyyətlə salamladım. Ölkələrimiz arasındakı münasibətlər yüksələn xətlə, dinamik şəkildə inkişaf edir. Hökumətlərarası komissiya yaradılmışdır, nazirlərimizin, müxtəlif strukturların rəhbərlərinin səfərləri, əslində mütəmadi xarakter almışdır. Qazaxıstanın Baş naziri Karim Masimov bu ilin aprelində Bakıda olmuşdur. Azərbaycanın müvafiq nazirlik və idarələrinin rəhbərləri daim Qazaxıstana gəlir və biz ölkələrimiz arasında bir çox mühüm, qarşılıqlı surətdə faydalı məsələləri həll edirik.

Biz Xəzər dənizi vasitəsilə qonşuyuq, qardaş ölkələrik və qarşılıqlı münasibətlərimizdə həll olunmamış heç bir problem yoxdur. Bir-birimizə qarşı marağımız çox böyükdür. Qazaxıstan istəyir ki, Xəzər və Qafqaz dəhlizi vasitəsilə Qara dənizə və Avropaya təkcə neft və qaz deyil, həm də quru yüklər çıxarsın. Bu il Bakıda taxıl terminalı tikmişik. Bu, Qazaxıstan taxılını dünya bazarlarına çıxarmağa imkan verəcəkdir.

Biz razılığa gəlmişik ki, nazirlik və idarələrimiz, müvafiq şirkətlərimiz, əlbəttə, energetika sahəsində, habelə Qazaxıstanın qərb bölgələrinə meyvə-tərəvəz göndərilməsi, iritonnajlı neft

tankerlərinin tikintisi – Bakıda bu sahədə mütəxəssislər var – istiqamətində birgə qarşılıqlı faydalı işə qoşulsunlar. Azərbaycanın neft, qaz maşınqayırması sahəsində böyük təcrübəsi var. Yəni bütün istiqamətlərdə, o cümlədən qarşılıqlı mədəni münasibətlər sahəsində mövcud məsələləri müzakirə etdik.

Bu gün nazirlik və idarələrimiz münasibətlərimizi yeni zirvəyə qaldıran 5 sənəd imzaladılar. Ticarətin 300 milyon dollar həcmi bizi təmin etmir və mən əminəm ki, hökumətlərarası komissiyanın nəzərdə tutulan planları həyata keçirməsi yaxın vaxtlarda ticarəti genişləndirəcəkdir. Biz onun həcmini ilk vaxtlarda 1 milyard ABŞ dollarına çatdırmaq vəzifəsini qarşıya qoymuşuq. Əminəm ki, gələcəkdə bu rəqəm dəfələrlə çox olacaqdır, çünki bu nəqliyyat dəhlizi Qazaxıstan üçün olduqca vacibdir. Lakin Qazaxıstan da Orta Asiya, Çin, Rusiyanın şərq hissəsi, Ural və Sibir istiqamətində Azərbaycan üçün tranzit ərazidir.

Danışıqlarımız tam qarşılıqlı anlaşma, etimad şəraitində keçmişdir və əminəm ki, ölkələrimiz arasında dostluq, qardaşlıq və əməkdaşlıq münasibətləri möhkəmlənəcəkdir.

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli mətbuat nümayəndələri!

İlk növbədə, mən prezident Nursultan Nazarbayevə məni Qazaxıstana rəsmi səfərə dəvət etdiyinə görə öz minnətdarlığımı bildirmək istəyirəm. Bu, son üç ildə mənim Qazaxıstana ikinci rəsmi səfərimdir. Bu özlüyündə onu göstərir ki, bizim aramızda mövcud olan münasibətlər çox yüksək səviyyədədir. Bunun üçün çox ciddi baza – ümumi tariximiz, xalqlarımızın birliyi və yaxınlığı vardır. Çox vacibdir ki, ölkələrimizin müstəqil dövlətlər kimi təşəkkülü dövründə bizi bağlayan cəhətləri nəinki itirmədik, əksinə, artırdıq. Həm siyasi, həm iqtisadi, həm də humanitar sahələrdə biz çox işgüzar şəraitdə əməkdaşlıq edirik və qarşımızda duran bütün vəzifələr öz həllini tapır.

Xüsusilə bu gün biz energetika, iqtisadiyyat, nəqliyyat məsələləri üzərində dayandıq, geniş fikir mübadiləsi aparıldı. Eyni zamanda, ikitərəfli siyasi əlaqələr, regional məsələlər müzakirə olundu. Bizim baxışlarımızda çox böyük oxşarlıq vardır. Biz çox istəyirik ki, iki dost, qardaş ölkə ikitərəfli münasibətləri tam şəkildə, böyük səmərə ilə daha da irəliyə aparsın və həm ölkələrimiz, həm də region üçün əhəmiyyətli olan layihələr tezliklə öz həllini tapsın.

Mən öz növbəmdə, prezident Nursultan Nazarbayevi Azərbaycana rəsmi səfərə dəvət etmişəm və əminəm ki, o səfər çərçivəsində ikitərəfli münasibətlər daha yüksək pilləyə qalxacaqdır.

Hazırda Qazaxıstan və Azərbaycan regionun daha dinamik inkişaf edən iki dövlətidir, ölkələrimiz qarşısında duran vəzifələri uğurla həyata keçirir, habelə regional miqyasda öz aralarında aktiv qarşılıqlı fəaliyyət göstərirlər. Bu gün biz Nursultan Abişeviç ilə bir çox məsələlərə dair danışıqlar apardıq. Bütün məsələlər üzrə fikirlərimiz tam uyğun gəlir, qarşılıqlı surətdə faydalı iqtisadi, enerji və nəqliyyat layihələrini fəal irəlilətməyə hazırlıq vardır. Mən bu gün bildirdim ki, Azərbaycan Qazaxıstan tərəfinə öz nəqliyyat və enerji infrastrukturundan tam istifadə etmək imkanı verir və biz Qazaxıstanın karbohidrogen ehtiyatlarının Azərbaycan ərazisi ilə Avropa və dünya bazarlarına nəqli sahəsində birgə işləməyə, habelə yüklərin daşınması baxımından əməkdaşlıq etməyə hazırıq. İndi ölkəmiz Azərbaycanın neftini və qazını Avropa və dünya bazarlarına çatdıran ən müasir nəqliyyat infrastrukturuna malikdir. Azərbaycan, Gürcüstan və Türkiyə arasında dəmir yolunun istifadəyə verilməsi yüklərimizin Avropaya daşınmasına imkan verəcəkdir. Əlbəttə, iqtisadiyyatı, sənayesi sürətlə inkişaf edən Qazaxıstan da bu nəqliyyat yolundan istifadə edə bilər. Başqa sözlə, biz bütün istiqamətlərdə çox səmərəli, məhsuldar əməkdaşlığa hazırıq.

Bu gün imzalanan sənədlər çox geniş sahəni, o cümlədən neft-qaz sahəsini əhatə edir. Nursultan Abişeviç ilə ötən il Almatıda keçirilən görüşümüz zamanı Qazaxıstanın Bakı–Tbilisi–Ceyhan boru kəmərinə qoşulması barədə hökumətlərarası müqavilə imzalandı. İndi Qazaxıstanda da, Azərbay-

canda da həmin tarixi müqavilənin həyata keçirilməsinə dair fəal əməli iş aparılır. Biz birgə fəaliyyətə qətiyyətlə hazırıq və əminik ki, bu səfərin nəticələri müzakirə olunan məsələlərin əməli tərəfində çox tezliklə özünü göstərəcəkdir. Gözəl ölkənizdə nümayəndə heyətimizə göstərilən qonaqpərvərliyə görə prezidentə və bütün qazaxıstanlı qardaşlarımıza bir daha təşəkkürümü bildirmək istəyirəm.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

*Sonra Azərbaycan və Qazaxıstan prezidentləri jurnalistlərin suallarına cavab verdilər.*

**J u r n a l i s t: Mənim sualım cənab Nazarbayevədir. Cənab Prezident, Azərbaycan və Qazaxıstan beynəlxalq təşkilatlarda çox fəal iştirak edirlər. Bu baxımdan səylərin əlaqələndirilməsinin perspektivi necədir?**

**N u r s u l t a n N a z a r b a y e v:** Bu həm iqtisadi, həm də siyasi baxımdan çox mühüm məsələdir. Çünki regional və beynəlxalq siyasətə vahid baxışlarımız var, təbii ki, biz Birləşmiş Millətlər Təşkilatında, ATƏT-də fəal əməkdaşlıq edirik. Biz Qazaxıstanın təşəbbüsü ilə yaradılan Asiyada etimad tədbirlərinə dair müşavirəni dəstəklədiyinə görə Azərbaycana minnətdarıq. Düşünürəm ki, beynəlxalq baxımdan bizim xarici siyasət idarələrimiz həmişə vahid mövqedən çıxış edirlər. Əgər siz konkret nəyi isə nəzərdə tuturdunuzsa?..

**J u r n a l i s t: Xeyr, ümumiyyətlə.**

**N u r s u l t a n N a z a r b a y e v:** Bizim heç bir beynəlxalq məsələdə fikir ayrılığımız yoxdur. 2009-cu ildə ATƏT-in sədrliyinə namizədliyimizi dəstəklədiyinə görə Azərbaycana çox minnətdarıq. Biz də Azərbaycanın hər hansı məsələsinə və təşəbbüsünə heç vaxt mane olmamışıq. Zənnimcə, Bakıda Xəzəryanı dövlətlər üzrə komitənin yaradılması barədə təklif vardır. Biz bunu da dəstəkləyirik.

**J u r n a l i s t: Mənim sualım cənab Əliyevədir. Lütfən deyin, bu gün bildirildi ki, yaxın vaxtlarda siz iki dövlət arasında əmtəə dövriyyəsini 1 milyard dollara çatdıracaqsınız. İlk növbədə hansı sahələr hesabına? Yaxın**

**vaxtlarda Qazaxıstan yüklərinin, neft və qazının Azərbaycandan nəqlinin genişləndirilməsinə dair hansı razılaşmalar var?**

**İ l h a m Ə l i y e v:** Bu gün biz Nursultan Abişeviç ilə söhbətimiz zamanı bir tərəfdən, məmnuniyyətlə vurğuladıq ki, ölkələrimiz arasında əmtəə dövriyyəsi iki dəfə artmışdır, lakin digər tərəfdən, təəssüflə bildirdik ki, o, cəmi 300 milyon dollar civarındadır. Bu isə, əlbəttə, ölkələrimizin potensialına cavab vermir. Həm Qazaxıstan, həm də Azərbaycan keçmiş sovet məkanında ən dinamik inkişaf edən iqtisadiyyata malikdir. Bu həm makroiqtisadi göstəricilərdən, həm də zahirən görünür. Şəhərlərimizin simasına baxmaq kifayətdir. Əlbəttə, bizə toxunur ki, belə güclü iqtisadi potensialımız, prezidentlərin bir-birinə olduqca etibarlı şəxsi münasibəti, yüksək səviyyəli siyasi qarşılıqlı fəaliyyət olduğu halda, ölkələrimiz arasında əmtəə dövriyyəsi cəmi 300 milyon dollar təşkil edir. Buna görə də belə bir fikir ifadə olunmuşdur ki, bu göstəricini 1 milyard dollara çatdırmaq lazımdır. Mən Nursultan Abişeviçə təşəkkür edirəm ki, o bu rəqəmi dedi. Adətən, biz sadəcə olaraq deyəndə ki, artırmaq lazımdır, işlər çox sürətlə getmir. Konkret məqsəd qoyulanda biz bu məqsədə doğru daha sürətlə gedəcəyik. Əlbəttə, burada çox şey bizim hələlik uğurla işləyən hökumətlərarası komissiyanın fəaliyyətindən asılıdır. O yəqin ki, yeni fəaliyyət sahələri axtaracaqdır. Biznes qurumlarının fəallığından da çox şey asılıdır. Həm Qazaxıstanda, həm də Azərbaycanda iqtisadiyyatın böyük bir hissəsi, mütləq əksəriyyəti özəl sektorda formalaşır. Bizdə bu, 80 faizdən çoxdur. Buna görə də biz öz tərəfimizdən kömək edəcəyik ki, özəl qurumlar həm Qazaxıstanda, həm də Azərbaycanda daha fəal şəkildə və inamla sərmayə qoysunlar. Əlbəttə ki, Qazaxıstanın enerji ehtiyatlarının Azərbaycan ərazisi ilə nəqli, quru yüklərinin daşınması, habelə kənd təsərrüfatı sahəsində, informasiya texnologiyaları sahəsində əməkdaşlığa dair hökumətlər və dövlətlər səviyyəsində həyata keçirilən qlobal layihələr – bildiyiniz kimi, Bakıda taxıl terminalı artıq uğurla fəaliyyət göstərir, Qazaxıstanın qərbində tərəvəz terminalı yaradılmasına dair işlər gedir – başqa sözlə, bütün bunlar əmtəə dövriyyəsini bir milyard dollara çatdırmağa real əsas verir.

Lakin düşünürəm ki, bu, son hədd deyildir, gələcəkdə biz onu artıracağıq.

Neft-qaz əməliyyatlarına gəldikdə isə bir daha vurğulamaq istərdim ki, regional əməkdaşlığa, habelə – bunun da əhəmiyyəti az deyil – Xəzər dənizinin delimitasiyası prosesinin başa çatdırılmasının zəruriliyinə dair baxışlarımız tam uyğun gəlir. Qazaxıstan və Azərbaycan müvafiq sazişi bir neçə il əvvəl imzalamışlar. Ölkələrimiz Rusiya ilə də saziş bağlamışlar. Bu ikitərəfli sazişlər delimitasiya məsələlərinin beştərəfli həlli üçün yaxşı zəmin ola bilər. Bir daha təkrar edirəm ki, energetika sahəsində də biz tam açığıq. Biz bu gün bunu ətraflı müzakirə etdik. Çox əhəmiyyətlidir ki, biz həm xaricdə aktivlərin alınması, habelə mövcud terminallardan birgə istifadə ilə bağlı fəaliyyətimizi əlaqələndirəcək, gələcəkdə isə regionumuzda yeni istehsal obyektlərinin, neft-qaz sahəsində fəaliyyətin gücləndirilməsinə yönəldilən istehsal obyektlərinin yaradılması sahəsində əməkdaşlıq edəcəyik.

## QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN ADINDAN AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ RƏSMİ QƏBULDA NİTQ

*7 avqust 2007-ci il*

### Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin nitqi

Hörmətli İlham Heydər oğlu!

Xanımlar və cənablar!

Sizi qonaqpərvər Qazaxıstan torpağında ürəkdən salamlamağıma şadam.

Mən bu gün bir daha təəssüf edirəm ki, böyük dostum Heydər Əliyev bizimlə birlikdə deyil. Mən Azərbaycan xalqının öz həyatını müstəqil və firavan Azərbaycan qurulmasına həsr etmiş böyük oğluna həmişə dərin hörmət və səmimi rəğbət hissləri bəsləmişəm. Qazaxıstan xalqı onun ölkələrimiz arasında qardaşlıq münasibətlərinin inkişafına verdiyi töhfəni yüksək qiymətləndirir.

Bizim dostluq və etibarlı tərəfdaşlığın parlaq nümunələri ilə dolu olan ümumi tariximiz var. İnsanlarımızın mənşəcə və mənəvi baxımdan yaxınlığı müstəqillik əldə edildikdən sonra nəinki qorunub saxlanılmış, həm də möhkəmlənmişdir.

Bu gün keçirilən və məsələlərin geniş dairəsini müzakirə etdiyimiz görüşün səmərəliliyini vurğulamaq istəyirəm. Danışıqlarımız etimad ruhunda keçdi və Qazaxıstan ilə Azərbaycan arasında müxtəlif sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsinə yönəlmişdi.

Regional və beynəlxalq siyasətə dair bir çox məsələlərdə mövqelərimizin oxşarlığını vurğulamaq xoşdur. Bu, Müstəqil Dövlətlər Birliyi ilə bağlı məsələlərə, çoxtərəfli inteqrasiya,

dünyada sabitlik və təhlükəsizliyin möhkəmləndirilməsi proseslərinə aiddir.

Ölkələrimizin öz inkişafının dinamik mərhələsini yaşamasının Qazaxıstan–Azərbaycan münasibətlərini möhkəmləndirmək üçün böyük əhəmiyyəti var. Qazaxıstanda da, Azərbaycanda da əsas sosial-iqtisadi göstəricilərin sürətli artımı müşahidə olunur. Bu, əməkdaşlığımızın bir çox sahələrdə möhkəmləndirilməsinə, iqtisadiyyatda və sosial sahədə aparılan islahatlara dair təcrübə mübadiləsinə olan qarşılıqlı marağı əhəmiyyətli dərəcədə genişləndirir.

Bizim qarşımızda kooperasiyanın səmərəli modellərini işləyib hazırlamaq, əməkdaşlığın, o cümlədən energetika və nəqliyyat sektorlarında işbirliyinin yeni imkanlarını müəyyən etmək, mal dövriyyəsinin strukturunu şaxələndirmək vəzifəsi durur. Əminəm ki, bu gün ikitərəfli sənədlərin imzalanması, habelə İlham Heydər oğlu ilə görüşümüzdə əldə olunmuş razılaşmaların həyata keçirilməsi buna kömək edəcəkdir.

Azərbaycan məsəlində deyilir: «Söz danışıqdan keçər». Əminəm ki, ölkələrimiz arasında olan qarşılıqlı anlaşmanın yüksək səviyyəsi, xalqlarımız arasındakı qardaşlıq və mənəvi yaxınlıq hissləri qarşılıqlı surətdə faydalı ticarət-iqtisadi və mədəni-humanitar əməkdaşlığın daha da möhkəmlənməsinə təkan verəcəkdir.

Xanımlar və cənablar!

Mən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə badə qaldırıram!

Xalqlarımız arasındakı əbədi və sarsılmaz dostluğun şərəfinə!

Qazaxıstanın və Azərbaycanın daha da tərəqqisi, firavanlığı və mehriban qonşuluğu şərəfinə!

Əlavə etmək istərdim ki, Azərbaycan iqtisadiyyatının çox böyük yüksəlişini, təkcə regionda deyil, həm də dünyada mühüm dövlətə çevrilən Azərbaycanın tərəqqisini biz Qazaxıstanda çox böyük fərəhlə müşahidə edirik.

Astananın qurulmasında lap əvvəldən Heydər Əlirza oğlunun əhəmiyyətli rolu olmuşdur. O burada dəfələrlə olmuşdur və biz dəvət edəndə, tədbirlər keçirəndə heç vaxt imtina etməmişdir. Azərbaycanın bugünkü gününün arzusunda olan bu

insan belə idi. Düşünürəm ki, İlham Heydər oğlu bu gün atasının işini davam etdirməklə yanaşı, özü də Azərbaycanı inkişaf və tərəqqi yolu ilə irəliyə aparan prezident və rəhbərdir. Bu, dost və qardaş ölkə kimi, Qazaxıstanı çox sevindirir. Biz ölkələrimizin və xalqlarımızın gələcəyini birgə qurmağa hazırıq.

İcazə verin badələri Azərbaycan prezidentinin, habelə qardaş Azərbaycan xalqının sağlığına, xalqlarımızın və dövlətlərimizin dostluğu şərəfinə qaldırım!

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham Əliyevin nitqi**

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, Qazaxıstan torpağında mənə və nümayəndə heyətinə göstərdiyiniz səmimi qonaqpərvərliyə görə dərin minnətdarlığımı bildirmək istəyirəm.

Bu gün biz ikitərəfli əməkdaşlıqla, bir sıra regional və beynəlxalq məsələlərlə bağlı geniş və səmərəli fikir mübadiləsi, danışıqlar apardıq. Əminəm ki, bütün bunlar, həmçinin imzalanmış sənədlər əməkdaşlığımızın gələcək inkişafına öz töhfəsini verəcəkdir.

Bu səfər mənim üç il ərzində Qazaxıstana ikinci rəsmi səfərimdir. Bu onu göstərir ki, bizim aramızdakı çox intensiv və səmərəli dialoq daha da genişlənir.

Qazaxıstanla Azərbaycan arasındakı münasibətlərin dərin tarixi kökləri vardır. Xalqlarımızı bir-birinə uzun əsrlər ərzində təşəkkül tapmış münasibətlər bağlayır. Humanitar sahədə əməkdaşlığımız mühüm əhəmiyyət kəsb edir. Ölkələrimiz müstəqillik əldə etdikdən sonra təməli ümummilli lider Heydər Əliyev tərəfindən və cənab Prezident, Sizin tərəfinizdən qoyulmuş dostluq və əməkdaşlıq son illər ərzində daha da möhkəmlənibdir.

Birgə səylərimiz, qarşılıqlı səfərlər, hökumətlərarası birgə komissiyanın fəaliyyəti əməkdaşlığımızın genişlənməsinə və əmtəə dövriyyəsinin 2 dəfə artmasına şərait yaratmışdır.

Beynəlxalq və regional təşkilatlar çərçivəsində sıx əlaqələrimiz var. Bu əməkdaşlıq münasibətlərimizin daha da möhkəmlənməsi, ümumi problemlərimizin birgə səylərlə aradan qaldırılması baxımından xüsusilə əhəmiyyətlidir.

Azərbaycanın ən ağrılı problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hələ də həll olunmamış qalmaqdadır. Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal olunmuş, ölkədə bir milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır. Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində etnik təmizləmə siyasəti aparılmış, qədim mədəniyyət abidələri məhv edilmiş, məktəblər, muzeylər, məscidlər dağıdılmış, müsəlman məzarlıqları təhqir olunmuş, dünya və İslam sivilizasiyasının nadir inciləri yer üzündən silinmişdir.

Eyni zamanda, Dağlıq Qarabağ bölgəsinin və işğal edilmiş digər ərazilərin nəzarətsiz silahlarla doldurulması, radioaktiv tullantıların basdırılması, təbii sərvətlərin talanması, narkotik vasitələrin istehsalı, terrorçu dəstələrin və qanunsuz silahlı birləşmələrin hazırlanması ciddi narahatlıq doğurur.

Dünya birliyi və beynəlxalq təşkilatlar Dağlıq Qarabağda bir qədər əvvəl keçirilmiş qondarma seçkiləri qətiyyətlə pisləyərək, münaqişənin beynəlxalq hüquq normalarına uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində ədalətli həllinin vacibliyini bir daha vurğulayırlar.

Azərbaycan öz növbəsində, regionda sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə, iqtisadi inkişafa və inteqrasiyaya təkan verəcək böyük beynəlxalq layihələr həyata keçirir. Bakı–Tbilisi–Ceyhan neft kəməri, Bakı–Tbilisi–Ərzurum qaz kəməri, Bakı–Tbilisi–Qars dəmir yolu layihələri bütün regionun yeni inkişaf mərhələsini formalaşdırır.

Neft-qaz və nəqliyyat sektorlarında əməkdaşdığımız ölkələrimiz arasında və regional işbirliyi üçün böyük əhəmiyyət kəsb edir. Neftin Qazaxıstan Respublikasından Xəzər dənizi və Bakı–Tbilisi–Ceyhan vasitəsilə beynəlxalq bazarlara nəql edilməsi haqqında keçən il Almatı şəhərində Azərbaycan ilə Qazaxıstan arasında imzalanmış müqavilə enerji sahəsində möhkəm tərəfdaşlığımızın yeni mərhələsini açdı. Biz bu sahədə səylərimizi birləşdirib, siyasətimizi əlaqələndirməklə

ölkələrimizin iqtisadi maraqlarını daha da dolğun şəkildə təmin edə bilərik.

Qazaxıstanın Bakı–Tbilisi–Ceyhan neft kəmərinə qoşulması, tərəfdaşlığımızın parlaq nümunəsi kimi, tarixi əhəmiyyət daşıyaraq, həm qarşılıqlı mənafelərimizin təmin edilməsi, həm də beynəlxalq aləmdə mövqelərimizin güclənməsi baxımından çox önəmlidir.

Mən Qazaxıstan ilə Azərbaycan arasında münasibətlərin bütün sahələrdə inkişaf etməsinin, genişlənməsinin tərəfdarıyam və inanıram ki, dost və qardaş ölkənizə səfərim, Sizinlə görüşümüz, apardığımız fikir mübadiləsi bu münasibətləri daha yüksək səviyyəyə qaldıracaqdır.

Hörmətli Nursultan Abişeviç!

Mən ilk növbədə, Azərbaycanın böyük oğlu Heydər Əliyevin xatirəsinə ehtirama görə Sizə təşəkkürümü bildirmək istərdim. Bu gün söhbətimiz zamanı Siz görüşlərinizi xatırladınız, öz çıxışınızda bu barədə danışdınız. Azərbaycanda bu bizim üçün çox xoşdur. Bu bizim qəlblərimizi riqqətə gətirir. Sizin Heydər Əliyev ilə şəxsi dostluğunuz ölkələrimizin bugünkü münasibətlərinin əsasını qoymuşdur. Sizin nüfuzunuz, münasibətləriniz, islahatlara meyilliliyiniz, sizin milli mənafeləri qorumağınız – bütün bunlar bizi birləşdirir, yaxınlaşdırırdı. Yəqin buna görə də bu gün keçmiş sovet məkanında Qazaxıstan və Azərbaycan daha dinamik, sakit, sabit inkişaf edən, islahatların aparıldığı, hakimiyyətin böyük nüfuza malik olduğu, xalq üçün işlədiyi və ölkələrimizin inkişaf etməsi, dünyada layiqli yer tutması, suverenliyini möhkəmləndirməsi, müstəqil siyasət yeritməyə qadir olması üçün hər şeyin edildiyi dövlətlərdir.

Azərbaycan xalqının Heydər Əliyevlə vidalaşdığı, Azərbaycan üçün hüznlü günlərdə Sizin dostunuzla vidalaşmaq üçün Bakıya gəlməyinizi, dostunuza, Azərbaycan xalqına ehtiramınızı bildirməyinizi, qəlbinizin dərinliyindən gələn hisslərinizi, insana xas hissləri nümayiş etdirməyinizi biz hamımız xatırlayırıq və heç zaman unutmayacağıq.

Bu gün Qazaxıstanın necə inkişaf etdiyini, necə uğurlar qazandığını, dünya səhnəsində hansı yeri tutduğunu, ən əsası isə, ölkənizdə necə böyük nüfuza malik olduğunuzu, Qaza-

xıstanda necə sevildiyinizi görəndə bir daha seçdiyiniz yolun düzgünlüyünə əmin olursan. Bütün bunlar göz qabağındadır və hər hansı sözdən yaxşıdır. Sadəcə olaraq, Qazaxıstana gəlmək və buradakı həyatı görmək lazımdır.

Türk dünyasının görkəmli xadimlərindən biri, nüfuzlu dövlət xadimi kimi, Sizə Azərbaycanda böyük hörmət bəsləyir, Sizi ölkəmizin dostu kimi sevirlər.

Mən Qazaxıstana rəsmi səfərə dəvətə görə, qonaqpərvərliyə görə Sizə bir daha təşəkkürümü bildirmək, şəxsən Sizə uzun ömür və əla iş arzulayıram. Arzulayıram ki, planlarınızın hamısını şəxsən özünüz həyata keçirəsiniz – mən bilirəm ki, Siz planları onilliklər üçün nəzərdə tutursunuz – 20–30 ildən sonra özünüz Qazaxıstanın necə çiçəklənən dövlətə çevrildiyinin şahidi olasınız.

Sizin sağlığınıza!

* * *

*Sonra prezidentlər Qazaxıstan paytaxtını gəzdilər. Azərbaycan prezidenti İlham Əliyev Astananın mərkəzi ilə tanış oldu, nadir memarlıq üslubunda tikilmiş binalara tamaşa etdi.*

*Şəhərlə tanışlıq zamanı prezidentlər paytaxt sakinləri ilə də görüşüb söhbət etdilər.*

## QAZAXISTANIN BAŞ NAZİRİ KARİM MASİMOV İLƏ GÖRÜŞ

*Astana, «Rixos President-Astana» mehmanxanası*

*8 avqust 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 8-də onun üçün ayrılmış iqamətgahda – «Rixos President-Astana» mehmanxanasında Qazaxıstanın Baş naziri Karim Masimov ilə görüşmüşdür.*

*Baş nazir Azərbaycan prezidentinin Qazaxıstana rəsmi səfərini yüksək qiymətləndirdi, demək olar ki, proqramda nəzərdə tutulan bütün məsələlərin öz həllini tapdığını bildirdi.*

*Prezident İlham Əliyev avqustun 7-də keçirilən görüşdə və danışıqlarda ölkələrimiz arasında ikitərəfli münasibətlərə, birgə enerji planlarına dair aparılmış geniş müzakirələri xatırlatdı. Dövlətimizin başçısı dedi ki, biz iqtisadi inteqrasiyaya üstünlük veririk və bu çox vacibdir. Regional əməkdaşlıq dinamik inkişaf edir. Görüləcək işlərlə bağlı müvafiq strukturların rəhbərlərinə konkret tapşırıqlar verilmişdir. Azərbaycan prezidenti vurğuladı ki, ümumən keçirilən görüşlər nikbin əhval-ruhiyyə yaradır.*

## QAZAXISTAN SENATININ SƏDRİ QASIMCOMƏRD TOKAYEV İLƏ GÖRÜŞ

*Astana, «Rixos President-Astana» mehmanxanası*

*8 avqust 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 8-də onun üçün ayrılmış iqamətgahda Qazaxıstan Respublikası Senatının sədri Qasımcomərd Tokayev ilə görüşmüşdür.*

*Görüşdə parlamentlərarası əlaqələr, Azərbaycan və Qazaxıstanda gedən demokratik inkişaf prosesləri və aparılan islahatlar barədə fikir mübadiləsi edildi. Ölkələrimizdə iqtisadi inkişafın təmin edilməsi üçün möhkəm qanunvericilik bazası olmasının böyük rolu vurğulandı. Görüşdə deputat qruplarının qarşılıqlı səfərlərinin əhəmiyyətinə də toxunuldu.*

*Prezident İlham Əliyev ölkəmizin Milli Məclisində Azərbaycan–Qazaxıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun fəaliyyət göstərdiyini bildirdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAXISTANA RƏSMİ SƏFƏRİ DAVAM EDİR

*Astana*

*8 avqust 2007-ci il*

### «Vətənin müdafiəçisi» abidə kompleksini ziyarət

*Avqustun 8-də Azərbaycan prezidenti İlham Əliyev Astana şəhərində ucaldılmış «Vətənin müdafiəçisi» abidə kompleksini ziyarət etmişdir. Burada dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü. Fəxri qarovulun rəisi Azərbaycan prezidentinə raport verdi.*

*Prezident İlham Əliyev abidənin önünə əklil qoydu, vətən uğrunda canlarından keçmiş Qazaxıstan oğullarının xatirəsini ehtiramla andı.*

*Azərbaycanın və Qazaxıstanın dövlət himnləri ifa olundu.*

*Prezident İlham Əliyevə müharibə qəhrəmanlarının xatirəsinin əbədiləşdirilməsi üçün dövlət səviyyəsində görülən tədbirlər barədə məlumat verildi.*

*Fəxri qarovul dəstəsi hərbi marşla Azərbaycan prezidentinin qarşısından keçdi.*

*Dövlətimizin başçısı kompleksin ərazisindəki fəxri qonaqlar xiyabanında ağac əkdi.*

*Sonra prezident İlham Əliyev Sülh və Həmrəylik sarayına gəldi. Prezidentə məlumat verildi ki, buranın inşası 2006-cı il, iyulun 1-də başa çatdırılmışdır. İngiltərə və Türkiyə memarlarının birgə layihəsi əsasında tikilmişdir. Tolerantlıq rəmzi daşıyan bu sarayda dünyəvi və ənənəvi dinlərin nümayəndələrinin tədbirləri keçirilir.*

*Azərbaycan prezidentinə saray və Qazaxıstan paytaxtının inkişaf planı barədə geniş məlumat verildi.*

*Dövlətimizin başçısı sarayın Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı:*

«Sülh və Həmrəylik sarayi ilə böyük maraqla tanış oldum. Nadir arxitekturası ilə yanaşı, sarayın funksional əhəmiyyəti də böyük təəssürat bağışlayır. Bu bina Qazaxıstanda hökm sürən sülh və tərəqqinin simvoludur.

Astananın inkişafının baş planı özünün miqyası və ətraflı düşünülməsi ilə heyranlıq doğurur.

Arzu edirəm ki, qardaş qazax xalqının bütün planları həyata keçsin.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

08.08.2007».

* * *

*Prezident İlham Əliyev Qazaxıstana rəsmi səfərinin sonunda ölkəmizin Astanadakı səfirliyinin yeni binası ilə də tanış oldu. Burada səfirliyin əməkdaşları ilə görüşən dövlətimizin başçısı diplomatik korpusun iş şəraiti ilə maraqlandı, iki ölkə arasında əlaqələrin daha da möhkəmlənməsi üçün onlara səmərəli fəaliyyət göstərmələri ilə bağlı tapşırıqlar verdi.*

* * *

*Avqustun 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstana rəsmi səfəri başa çatmışdır.*

*Azərbaycanın və Qazaxıstanın dövlət bayraqları ilə bəzədilmiş Astana Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi təyyarənin pilləkəni yanında Qazaxıstanın Xarici İşlər naziri Marat Tajin, Nəqliyyat və Kommunikasiyalar naziri Serik Axmetov, Astana şəhər hakiminin müavini Yermek Amanşayev və digər rəsmi şəxslər səmimiyyətlə yola saldılar.*

* * *

*Dövlətimizin başçısı həmin gün Bakıya qayıtdı.*

*Azərbaycan prezidentini Heydər Əliyev adına Beynəlxalq Hava Limanında Baş nazir Artur Rasizadə və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMONUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*13 avqust 2007-ci il*

*Avqustun 13-də Tacikistan prezidenti Emoməli Rəhmon Azərbaycana ikigünlük rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Tacikistanın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Tacikistan dövlətinin başçısını təyyarənin pilləkəni yanında Azərbaycanın Baş naziri Artur Rasizadə, Xarici İşlər naziri Elmar Məmmədyarov və digər rəsmi şəxslər qarşıladılar.*

*Milli geyimli uşaqlar Tacikistan prezidentinə gül dəstəsi təqdim etdilər.*

*Mərasimdən sonra hava limanının ali qonaqlar üçün salonunda prezident Emoməli Rəhmon və Baş nazir Artur Rasizadə arasında qısa protokol söhbəti oldu.*

*Tacikistan prezidenti hava limanından Fəxri motosikletçilər dəstəsinin müşayiəti ilə şəhərə yola düşmüşdür.*

* * *

*Avqustun 13-də Prezident sarayında Tacikistan prezidenti Emoməli Rəhmonun rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Sarayın qarşısındakı rəsmi qarşılanma mərasimlərinin keçirildiyi və hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan dövlətinin başçısı İlham Əliyev Tacikistan prezidenti Emoməli Rəhmonu səmimiyyətlə qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Tacikistan prezidentinə raport verdi.*

*Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Tacikistanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Tacikistan prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycan dövləti və hökumətinin rəsmi şəxsləri Tacikistan prezidenti Emoməli Rəhmona, Tacikistan nümayəndə heyətinin üzvləri Azərbaycan prezidenti İlham Əliyevə təqdim edildi.*

*Dövlət başçıları Prezident sarayında xatirə şəkli çəkdirdilər.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMONUN TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*13 avqust 2007-ci il*

*Avqustun 13-də Prezident sarayında rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun təkbətək görüşü oldu.*

*Görüşdə ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı, qarşılıqlı rəsmi səfərlərin mühüm əhəmiyyət daşıdığı diqqətə çatdırıldı. Ölkələrimiz arasında iqtisadi əlaqələrin genişləndirilməsi üçün potensial imkanlardan tam istifadə edilməsinin zəruriliyi bildirildi. Bu baxımdan müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin intensivləşdirilməsinin vacibliyi qeyd edildi.*

*Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olundu.*

## AZƏRBAYCAN VƏ TACİKİSTAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*13 avqust 2007-ci il*

*Avqustun 13-də Prezident sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Tacikistan prezidenti Emoməli Rəhmonun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İlham Əliyev:** Hörmətli Emoməli Şərifoviç!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda ürəkdən salamlamaq istəyirəm. Biz çox şadıq ki, Tacikistan prezidenti Azərbaycana rəsmi səfərə gəlmişdir. Bu bizim ölkəyə Sizin ilk rəsmi səfərinizdir və mənim bildiyimə görə, ilk dəfədir ki, Azərbaycana gəlmisiniz. Ümidvaram ki, bu səfər həm məzmunca, həm də forma etibarilə çox uğurlu olacaqdır.

Biz ölkələrimizin ikitərəfli əlaqələrinə böyük əhəmiyyət veririk. Bu ilin baharında mən sizin ölkədə rəsmi səfərdə olmuşam. Bu gün siz Azərbaycandasınız. Bu, ölkələrimiz arasında fəal siyasi münasibətlərin nümayişidir.

Bu gün biz təkbətək görüşdə qarşılıqlı siyasi və iqtisadi əlaqələrin çox mühüm məsələlərini müzakirə etdik və müvafiq qurumlara artıq konkret tapşırıqlar verdik ki, ən qısa müddətdə inteqrasiya xarakterli ciddi iqtisadi layihələrə başlayaq. Əlbəttə, bu həm əmtəə dövriyyəsinin artmasına, həm də ölkələrimiz arasında daha sıx inteqrasiyaya kömək edəcəkdir.

Biz yaxın vaxtlarda, ən qısa müddətdə sizin ölkədə Azərbaycanın səfirliyini açacağıq, bu da bizim əlaqələrə nə dərəcədə əhəmiyyət verməyimizin ciddi indikatorudur.

Ümidvaram ki, ölkəmizdə olmağınız sizin yadınızda qalacaq, faydalı və xoş olacaqdır. Biz həm də regional xarakterli

bütün məsələlər üzrə gələcək səmərəli qarşılıqlı əlaqələrə, ikitərəfli siyasi və iqtisadi münasibətlərə, regionda təhlükəsizlik sisteminin möhkəmlənəcəyinə ümid edirik. Bizdə bütün sahələrdə tam qarşılıqlı anlaşma var.

Bir daha xoş gəlmisiniz.

**E m o m ə l i R ə h m o n:** Hörmətli İlham Heydər oğlu!

Dost Azərbaycana səfərə dəvət etdiyinizə və bizi hərarətlə və səmimi qəbul etdiyinizə görə Sizə təşəkkür edirəm. Biz Tacikistan dövlətinin başçısının Azərbaycan Respublikasına ilk rəsmi səfərinə böyük əhəmiyyət veririk və əminik ki, bu səfər Tacikistan–Azərbaycan əməkdaşlığının bütün kompleksinin inkişafına güclü təkan verəcəkdir. Tacikistan bunu əsas götürür ki, qloballaşma proseslərinin, müxtəlif ölkələrin qarşılıqlı əlaqələrinin intensivləşdiyi dövrdə bizim birgə səylərimiz həyatın bütün sahələrində əlaqələrin hərtərəfli inkişafına yönəldilməlidir. Hörmətli İlham Heydər oğlu, Sizin ölkəmizə səfərinizdən sonra çoxəsrlik zəngin ənənələri olan iki dövlət arasında münasibətlər keyfiyyətcə yeni səviyyəyə çatdırılmışdır.

*Daha sonra görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə ətraflı fikir mübadiləsi aparıldı.*

## Sənədlərin imzalanma mərasimi

*Avqustun 13-də Prezident sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Tacikistan prezidenti Emoməli Rəhmonun geniş tərkibdə görüşündən sonra Azərbaycan–Tacikistan sənədlərinin imzalanma mərasimi olmuşdur.*

*Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında birgə bəyannaməni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon imzaladılar.*

*«Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi və Tacikistan Respublikası Dövlət Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında saziş»i Azərbaycan tərəfindən Dövlət Statistika Komitəsinin sədri Arif Vəliyev, Tacikistan tərəfindən Dövlət Statistika Komitəsinin sədri Mirqand Şabozov imzaladılar.*

*«Det.Al Metal DMCC» və «TALCO management Ltd» şirkətləri arasında çoxtərəfli əməkdaşlıq proqramı haqqında çərçivə saziş»i Azərbaycan tərəfindən Dövlət Əmlakının İdarə edilməsi üzrə Dövlət Komitəsinin sədri Kərəm Həsənov, Tacikistan tərəfindən İqtisadi İnkişaf və Ticarət naziri Qulomjon Bobozadə imzaladılar.*

*«Azərbaycan Respublikası Ədliyyə Nazirliyi ilə Tacikistan Respublikası Ədliyyə Nazirliyi arasında əməkdaşlıq haqqında saziş»i Azərbaycan tərəfindən Xarici İşlər naziri Elmar Məmmədyarov, Tacikistan tərəfindən Ədliyyə naziri Baxtiyer Xudoyarov imzaladılar.*

*«Azərbaycan Respublikasının Hökuməti ilə Tacikistan Respublikasının Hökuməti arasında elm, texnika və texnologiya sahəsində əməkdaşlıq haqqında saziş»i Azərbaycan tərəfindən Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimov, Tacikistan tərəfindən Tacikistan Respublikası Elmlər Akademiyasının prezidenti Mamadşo İlolov imzaladılar.*

*«Azərbaycan Respublikasının Hökuməti ilə Tacikistan Respublikasının Hökuməti arasında rabitə və informasiyalaşdırma sahəsində əməkdaşlıq haqqında saziş»i Azərbaycan tərəfindən Rabitə və İnformasiya Texnologiyaları naziri Əli Abbasov, Tacikistan tərəfindən Nəqliyyat və Kommunikasiyalar naziri Əbdürəhim Aşur imzaladılar.*

*«Azərbaycan Respublikasının Hökuməti ilə Tacikistan Respublikasının Hökuməti arasında təhsil sahəsində əməkdaşlıq haqqında saziş»i Azərbaycan tərəfindən Təhsil naziri Misir Mərdanov, Tacikistan tərəfindən Xarici İşlər naziri Xamroxon Zaripi imzaladılar.*

*«Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında ikiqat vergitutmanın aradan qaldırılması, gəlir və kapitala görə vergilərin ödənilməsindən yayınma hallarının qarşısının alınması barədə saziş»i Azərbaycan tərəfindən Xarici İşlər naziri Elmar Məmmədyarov, Tacikistan tərəfindən Maliyyə naziri Səfərəli Nacmuddinov imzaladılar.*

*«Azərbaycan Respublikasının Hökuməti ilə Tacikistan Respublikasının Hökuməti arasında azad ticarət haqqında saziş»i Azərbaycan tərəfindən İqtisadi İnkişaf naziri Heydər Babayev, Tacikistan tərəfindən İqtisadi İnkişaf və Ticarət naziri Qulomjon Bobozadə imzaladılar.*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMONUN MƏTBUAT ÜÇÜN BƏYANATLARI

*Prezident sarayı*

*13 avqust 2007-ci il*

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli Emoməli Şərifoviç!

Hörmətli qonaqlar!

Prezident Emoməli Şərifoviç başda olmaqla, qardaş Tacikistanın nümayəndə heyətini bir daha ürəkdən salamlamaq istəyirəm.

Bu gün biz qarşılıqlı maraq doğuran məsələlər barədə çox ətraflı fikir mübadiləsi apardıq. İqtisadi inteqrasiya çərçivəsində öz fəaliyyətimizi razılaşdırdıq, regional əməkdaşlıq, regional təhlükəsizlik məsələlərini, təbii ki, ikitərəfli münasibətləri, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli problemini müzakirə etdik. Böyük məmnunluqla deməliyəm ki, müzakirə etdiyimiz bütün məsələlər barədə bizim baxışlarımız və münasibətlərimiz üst-üstə düşür.

Ölkələrimiz arasında səmərəli, dinamik əməkdaşlıq mərhələsi başlanır. Xalqlarımız ta qədimdən bir-birinə böyük rəğbət bəsləmiş, bir-birinə can atmışlar. Bizdə ümumi cəhətlər, bizi birləşdirən cəhətlər çoxdur. Ölkələrimizin müstəqil dövlətlər kimi təşəkkül tapdığı illər ərzində həm Tacikistan, həm də Azərbaycan çox böyük tərəqqiyə nail olmuşdur. Biz müstəqilliyimizi möhkəmlətmişik, çox təsirli idarəetmə mexanizmi yaratmışıq, iqtisadi proseslərin inkişafına çox diqqət yetiririk. Əlbəttə, biz belə hesab edirik ki, müştərək iqtisadi layihələrlə bir-birimizi gücləndirmək üçün böyük potensial vardır.

Bu gün biz ikitərəfli iqtisadi münasibətlərin inkişafına ciddi təkan verəcək bir neçə konkret layihəni müzakirə etdik.

Ümidvaram ki, bu gün razılığa gəldiyimiz məsələlərin əməli nəticələrini ən yaxın vaxtda görəcəyik.

Bu il baharda mən Tacikistana ilk rəsmi səfər etdim, yayda isə Emoməli Şərifoviç Azərbaycana ilk rəsmi səfərə gəlib. Bu bizim münasibətlərimizin dinamizmini əyani şəkildə nümayiş etdirir. Ümidvarıq ki, Tacikistanın və Azərbaycanın bütün strukturları iqtisadi inteqrasiya, qarşılıqlı əlaqələr istiqamətində səmərəli iş aparacaqlar ki, işimizin əməli nəticələrini mümkün qədər tezliklə görək.

Biz beynəlxalq təşkilatlarda da fəal əməkdaşlıq edirik, bütün məsələlərdə daim bir-birimizi dəstəkləyirik, bizim çox möhkəm siyasi münasibətlərimiz vardır. Bu gün bizim görüşümüzdə demişəm, bir daha demək istəyirəm ki, Tacikistanda Azərbaycanın səfirliyinin açılması barədə qərar bizim ikitərəfli əməkdaşlığa verdiyimiz əhəmiyyətin mühüm indikatorudur. Ümidvaram ki, yaxın vaxtlarda bizim səfirlik öz işinə başlayacaqdır.

Əminəm ki, yaradılması barədə bu gün razılığa gəldiyimiz birgə hökumətlərarası komissiya iqtisadi inteqrasiyanın yeni prioritetlərini müəyyən etmək üçün yaxşı bir forma olacaqdır. Ölkələrimizin iqtisadiyyatı dinamik inkişaf edir, potensial artır, müştərək nəqliyyat infrastrukturundan istifadə edilməsi imkanları çox ümidvericidir. Buna görə də komissiya iqtisadi əməkdaşlığın praktiki aspektləri üzərində, konkret layihələr üzərində işləməli, hər iki dövlətin biznes strukturları üçün əlverişli şərait yaratmalıdır.

Biz qəti əminik ki, razılığa gəldiyimiz bütün məsələlər həyata keçiriləcəkdir. İqtisadi inteqrasiya, ölkələrimiz arasında qarşılıqlı siyasi əlaqələr, qlobal təhlükələrə çevrilmiş terrorizmə, narkotrafikə qarşı birgə mübarizə, regionda təhlükəsizlik sisteminin möhkəmləndirilməsi – bütün bunlar müasir həyatın elə aspektləridir ki, orada həm Tacikistan, həm də Azərbaycan mühüm rol oynayır və bizim regionda sülhün möhkəmlənməsinə, təhlükənin azalmasına layiqli töhfə verirlər.

Mən çox şadam ki, bu gün Emoməli Şərifoviç bizim ölkəmizə təşrif gətirmişdir. Bu onun Azərbaycana ilk səfəridir. Biz hər ikimiz bu ünsiyyəti eyni dərəcədə səmərəli şəkildə davam etdirmək arzusundayıq. Biz beynəlxalq forumlarda tez-tez

görüşmüşük və görüşürük, ikitərəfli səfərlər ikitərəfli münasibətlərin ən mühüm elementidir. Biz bu sıx əməkdaşlığı davam etdirəcəyik, xüsusən ona görə ki, bizim aramızda çox yaxın və etimadlı dostluq münasibətləri yaranmışdır.

Mən bu səfərin həyata keçirilməsi faktının özündən də, səfərin necə keçməsindən, məsələləri necə operativ həll etməyimizdən də məmnun olduğumu bildirmək istəyirəm. Emoməli Şərifoviçi bizim ölkədə salamlamaq bir insan kimi, mənə çox xoşdur.

Diqqətinizə görə təşəkkür edirəm.

## Tacikistan Respublikasının Prezidenti
## Emoməli Rəhmonun bəyanatı

Hörmətli kütləvi informasiya vasitələrinin nümayəndələri!

Bu gün Tacikistan Respublikası dövlət nümayəndə heyətinin Azərbaycana ilk rəsmi səfəri çərçivəsində həm ikitərəfli, həm də regional və beynəlxalq xarakterli məsələlərin geniş spektri üzrə konstruktiv və maraqlı fikir mübadiləsi oldu. Biz ölkələrimiz arasında əməkdaşlıq sahələrinin axtarışına və daha da inkişaf etdirilməsinə yönəlmiş daimi siyasi dialoqumuzu davam etdirdik.

Heç şübhəsiz, bizim müntəzəm siyasi əlaqələrimiz gələcəkdə də davam edəcəkdir. Bu gün biz razılığa gəldik ki, təkcə rəsmi səviyyədə deyil, zəruri hesab etdiyimiz hallarda qeyri-rəsmi, işgüzar şəraitdə də görüşəcəyik. 10–12 sənəd, saziş və ya bəyanat qəbul etmək vacib deyil. Sadəcə olaraq, əyləşib söhbət etməyə, xüsusən ticari-iqtisadi əməkdaşlıq sahəsində inteqrasiya məsələlərini həll etmək üçün vaxt tapmaq olar. Axı məsafə o qədər də böyük deyil – təyyarə ilə cəmi iki saat uçmaq lazımdır.

Ölkələrimizin ikitərəfli münasibətlərinin inkişafı bütövlükdə müsbət dinamikaya malikdir. Mart ayında Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin Tacikistana səfərindən sonra bu münasibətlər zəruri təkan almışdır. Tərəflər əmtəə dövriyyəsini artırmaq, müştərək iqtisadi layihələri həyata keçirmək, bütün istiqamətlərdə sıx əməkdaşlığı tənzimləmək üçün mövcud imkanlardan daha dolğun istifadə etməyi qərara almışlar. Mən deyərdim ki, bu ilin birinci yarısında əmtəə dövriyyəsinin bir

neçə faiz azalmasına baxmayaraq, o artacaqdır. Bu gün biz xüsusən əlvan metallurgiya, neftin və qazın hasilatı və emalı, başqa istiqamətlər üzrə uzunmüddətli iqtisadi əməkdaşlıq barədə razılığa gəldik. Buna görə də proqnozlaşdırırıq ki, yaxın 5 ildə ticari-iqtisadi əməkdaşlıq səviyyəsini 700 milyon dollardan artıq səviyyəyə çatdıra bilərik.

Biz humanitar sahədə əməkdaşlığı inkişaf etdirməyin tərəfdarı olduğumuzu bildirdik. Bütün bu məsələlər yaxın vaxtlarda işə başlayacaq hökumətlərarası komissiyanın əməli fəaliyyətinin predmeti olacaqdır. Bu gün müqavilə-hüquqi bazanın təkmilləşdirilməsinə və möhkəmlənməsinə yönəlmiş bir sıra sənədlər imzalandı. Bu bazanın əsasını Düşənbədə imzalanmış dostluq və əməkdaşlıq haqqında müqavilə təşkil edir.

Tacikistan–Azərbaycan danışıqlarının gedişində biz başqa məsələlərə də toxunduq. Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi və digər beynəlxalq və regional birliklər çərçivəsində qarşılıqlı fəaliyyətin problemlərini və perspektivlərini müzakirə etdik.

Biz öz regionlarımızdakı vəziyyəti də müzakirə etdik və demək istəyirəm ki, həm Cənubi Qafqazda, həm də Mərkəzi Asiyada və onların ətrafında regional sabitliyə təhlükə və meydan oxunmasının hələ də davam etməsi barədə fikirlərimiz üst-üstə düşür. Tacikistan müharibənin bütün dəhşətlərindən keçmiş bir ölkə kimi, bütün mövcud münaqişələrin, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin də sülh yolu ilə tənzimlənməsi prinsiplərinə sadiqdir.

Sevindirici haldır ki, aşkar çətinliklərə baxmayaraq, münaqişə tərəfləri də dialoqu davam etdirmək əzmindədirlər. ATƏT-in Minsk qrupunun həmsədrlərinin xüsusi nümayəndələri təsisatının yaradılması, heç şübhəsiz, danışıqlar prosesinin intensivləşdirilməsinə şərait yaradacaqdır. Minsk qrupunun sonuncu bəyanatı da nikbinliyə əsas verir. Bununla belə, son söz iki ölkənin və onların liderlərinindir.

Onların hər ikisinə bələd olduğuma görə əminəm ki, Cənubi Qafqazda sülhün və sabitliyin qorunub saxlanması üçün nə lazımdırsa edəcəklər. Bu, planetimizin bu mühüm regionunda yaşayan bütün xalqların mənafeyinə uyğundur.

İran ətrafında gərginlik barəsində onu demək istəyirəm ki, dili və mədəniyyəti bizimlə bağlı olan bu ölkənin taleyinə biganə qala bilmərik. Biz əminik ki, yalnız siyasi-diplomatik vasitələrdən istifadə etməklə bütün ağrılı məsələləri həll etmək mümkündür.

Bütövlükdə demək istəyirəm ki, biz səfərin gedişindən, baş tutmuş dialoqdan razıyıq. Bu dialoqla iki dost ölkə – Tacikistan və Azərbaycan bizim münasibətləri keyfiyyətcə daha yüksək səviyyəyə çatdırmaq üçün bütün mövcud potensialdan istifadə etmək əzmində olduqlarını təsdiqlədi.

Mən möhtərəm İlham Heydər oğlunu bu il oktyabrın əvvəlində MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün Düşənbəyə işgüzar səfərə dəvət etdim. Fikrimcə bu, qısa müddətdə bir daha görüşmək, iki qardaş ölkə arasında iqtisadi əməkdaşlığı inkişaf etdirməyə imkan verən bu gün imzalanmış sanballı sazişlərin – hüquqi bazanın həyata keçirilməsinin gedişini müzakirə etmək üçün yaxşı fürsətdir.

Sağ olun.

* * *

*Sonra dövlət başçıları jurnalistlərin suallarına cavab verdilər.*

**J u r n a l i s t: Mənim sualım Azərbaycan Respublikasının Prezidentinədir. Bu gün Tacikistan həm yaxın, həm də uzaq xaricdəki sərmayədarların çox böyük marağına səbəb olan investisiya layihələrinin geniş spektrini təklif edir. İqtisadi baxımdan Azərbaycanın çox böyük potensialını nəzərə alaraq, Siz hidroenergetika, filizçıxarma, neft-qaz və başqa sahələrdə bu cür layihələrin həyata keçirilməsində iştirak etmək niyyətindəsinizmi?**

**İ l h a m Ə l i y e v:** Biz bu məsələni bu gün Emoməli Şərifoviçlə söhbətimiz zamanı müzakirə etdik. Biz qəti qərara almışıq ki, Tacikistandakı investisiya layihələrində fəal iştirak edək. Bu gün biz qərara aldıq ki, Azərbaycan Neft Şirkətinin bir qrup mütəxəssisi sizin ölkədə neft-qaz əməliyyatları aparmağın mümkünlüyünü öyrənmək üçün lap yaxın vaxtlarda Tacikistana səfər etsin.

Azərbaycanın bu sahədə xarici şirkətlərlə əməkdaşlıq təcrübəsi zəngindir. Onun öz təcrübəsi də var, axı Azərbaycan neftin vətənidir. Sənaye üsulu ilə neftçıxarma, eləcə də dənizdəki yataqlardan neft hasil edilməsi ilk dəfə bizim ölkədə başlanmışdır. Bu gün biz neft-qaz hasilatını artırırıq, neft və qaz çıxaran iri ölkəyə çevrilirik. Sizin ölkənizdə investisiya layihələri həyata keçirmək üçün bizim maliyyə imkanlarımız da var, xalis texniki imkanlarımız da, ən başlıcası – kommersiya marağımız da.

İqtisadiyyatın başqa sahələrinə gəldikdə isə, biz bilirik ki, Tacikistanda cəlbedici layihələr çoxdur və əminəm ki, məhz yaradılacaq müştərək iqtisadi əməkdaşlıq komissiyası çərçivəsində hansı konkret sahələrə sərmayə qoymaq məsələləri ətraflı işlənib hazırlanacaq və müzakirə ediləcəkdir. Bir daha demək istəyirəm ki, məsələnin maliyyə tərəfi bizim üçün problem deyil. Bizim kifayət qədər maliyyə vəsaitimiz var. Biz beynəlxalq maliyyə təsisatları ilə də çox fəal iş aparırıq. Azərbaycanın kredit reytinqi artmaqdadır. Buna görə də biz prinsip etibarilə investisiya layihələri üçün sanballı vəsait cəlb edə bilərik.

Fikrimcə, bu sahədə fəaliyyətin ilk nəticələri yaxın vaxtlarda görünəcəkdir.

**J u r n a l i s t: Mənim sualım Tacikistan prezidentinədir. Hörmətli cənab Prezident, Sizin fikrinizcə, bu səfəriniz Azərbaycan ilə Tacikistan arasında siyasi əlaqələrin inkişafında nə kimi rol oynayacaqdır?**

**E m o m ə l i R ə h m o n:** Bizim ölkələrimiz bir sıra beynəlxalq və regional təşkilatların – BMT, ATƏT, İKT, MDB, İƏT təşkilatlarının, eləcə də beynəlxalq maliyyə təsisatlarının üzvüdür. İqtisadi inkişafın yenicə sürətləndiyi vaxtları yaxşı xatırlayıram, o vaxt Azərbaycanla biz praktiki olaraq eyni vəziyyətdə idik. Burada çoxsaylı layihələr həyata keçirilirdi, biz onları öyrənirdik, həmin layihələr beynəlxalq maliyyə təsisatları tərəfindən də öyrənilir, sonra Tacikis-tanda həyata keçirilirdi.

İndi vəziyyət tamam başqadır. Azərbaycanın iqtisadi inkişaf səviyyəsi bizi sevindirir. ÜDM-in hər il 36 faiz artması çox yaxşı göstəricidir. Mən bu ilin birinci yarısında Azərbaycanın

iqtisadi inkişafının yekunlarını diqqətlə öyrənmişəm. Bu, gələcəkdə ölkəmizə investisiyalar cəlb edilməsi üçün yaxşı imkanlar yaradır. Tacikistanda layihələrin həyata keçirilməsi perspektivləri barədə sual verdilər. Hörmətli İlham Heydər oğlu ilə biz elə indicə razılaşdıq ki, sabah bizim tapşırıqlar üzrə konkret sazişlər imzalansın. Bizim razılaşmalar yaxın 5 ildə əmtəə dövriyyəsinin həcmini artıraraq, təxminən 500 milyon dollara çatdırmağa imkan verir. Əlvan metallurgiyanın inkişafı sahəsində sirr deyildir ki, Gəncə gil-torpaq kombinatından Tacikistana, Tacik Alüminium Şirkətinə hər il 300 min tondan çox gil-torpaq göndərilir. Perspektivdə biz gil-torpaqdan əlavə, Tacikistan iqtisadiyyatının ehtiyacı olan başqa malları da idxal edəcəyik. Tacikistandan Azərbaycana alüminium istehsalı üçün 50 min tondan çox komponent göndəriləcəkdir.

Neft-qaz sənayesi üzrə bizim xahişimizlə yaxın vaxtlarda sizin mütəxəssislərin bizə gəlməsi barədə tapşırıq verilmişdir. Hələ Sovet İttifaqı dövründə dərin neft və qaz yataqlarında geoloji kəşfiyyat işləri aparılmışdır. Azərbaycanlı mütəxəssislərin təcrübəsi barədə İlham Heydər oğlunun indicə dedikləri bizim üçün, bu məhsula kəskin ehtiyacı olan bir ölkə üçün həmin sahənin inkişaf perspektivlərini öyrənmək baxımından yaxşı imkanlar yaradacaqdır.

Siyasi əlaqələrin bizə nə verməsi məsələsinə gəldikdə isə qeyd etmək istəyirəm ki, qısa müddətdə iki rəsmi səfər baş tutmuşdur. Bu mənim suveren dövlətin başçısı kimi, bir vətəndaş kimi, Azərbaycana ilk rəsmi səfərimdir. Bu mənim çoxdankı arzum idi. Mən biz taciklərə çox yaxın olan bu qədim xalqın tarixi və mədəniyyəti barədə çox oxumuşam. Nizamini təkcə Azərbaycanda deyil, Tacikistanda da sevirlər, bəlkə də Azərbaycandakından daha çox sevirlər. Bu bizim mədəniyyətlərimizin, ənənələrimizin, adətlərimizin yaxınlığıdır. Ölkələrimiz arasında məsafə də çox böyük deyil, təyyarə ilə iki saatlıq yoldur. Müasir dünyada məsafələrin heç bir rolu yoxdur.

Əlaqələrə gəldikdə, biz dəfələrlə görüşmüşük. Mən İlham Heydər oğluna böyük hörmət bəsləyirəm. Nə üçün? Rəhmətlik Heydər Əliyevlə bizim yaxşı münasibətlərimiz var idi. Axı Heydər Əlirza oğlu Siyasi Büronun üzvü olduğu dövrdə Tacikistanın hidroenergetikasının inkişafı üçün çox iş görmüş,

Tacikistan Respublikasının inkişafına çox kömək etmişdir. Mənim fikrimcə, indi biz ölkələrimiz və xalqlarımız arasında bu səmimi dostluq münasibətlərini bərpa edəcəyik. Bizim heç bir siyasi problem və ya siyasi ambisiyalarımız yoxdur. Biz insanların, əmtəələrin, xidmətlərin, kapitalın sərbəst hərəkəti üçün şərait yaratmalıyıq. Əgər bizə investisiyalar hansısa uzaq bir dövlətdən deyil, Azərbaycandan daxil olsa, bunun nəyi pisdir? Üstəlik, bizim ümumi cə-hətlərimiz çoxdur. Bu, müzakirələr, məsləhətləşmələr aparmaq, qlobal və regional məsələlər və problemlər barədə öz milli mənafelərimizə uyğun olaraq bir-birimizi məlumatlandırmaq üçün imkan verir. Problemlər isə çoxdur. Ekstremizmə, beynəlxalq terrorizmə, transmilli mütəşəkkil cinayətkarlığa, narkotrafikə qarşı mübarizə hamını – böyük və kiçik, qonşu və ya uzaq ölkələri narahat edən qlobal problemlərdir.

Beynəlxalq münasibətlər barədə biz hər birimizi maraqlandıran, narahat edən məsələlərə dair beynəlxalq təşkilatlar və forumlar çərçivəsində məsləhətləşəcəyik. Bir-birimizin təşəbbüslərini dəstəkləyəcəyik. Bunu nə üçün də etməyək? Azərbaycan Tacikistanın 1993-cü ilin «İçməli su ili» elan edilməsi barədə təşəbbüsünü, sonra isə «Həyat üçün su dekadası» barədə təşəbbüsünü Birləşmiş Millətlər Təşkilatında dəstəklədi. Məgər bu pisdir?

Mənim fikrimcə, bu səfər bütün istiqamətlərdə ikitərəfli əməkdaşlığın inkişafına güclü təkan verəcəkdir.

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN TACİKİSTAN PREZİDENTİ EMOMƏLİ RƏHMONUN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ QƏBULDA NİTQ

*Prezident sarayı*

*13 avqust 2007-ci il*

*Avqustun 13-də «Gülüstan» sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun şərəfinə rəsmi qəbul təşkil edilmişdir.*

*Dövlət başçıları qəbulda nitq söylədilər.*

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi

Hörmətli Emoməli Şərifoviç!

Hörmətli qonaqlar!

Əziz dostlar!

Tacikistan prezidentinin Azərbaycana rəsmi səfərinin ilk günü başa çatır. Artıq bu gün demək olar ki, bu səfər çox uğurlu olmuşdur. Biz bu səfəri ölkələrimiz arasında bir qədər əvvəl başlanmış fəal dialoqun davamı hesab edirik.

Məlum olduğu kimi, bu ilin mart ayında mən Tacikistana ilk rəsmi səfər etmişəm və indi Tacikistan prezidenti bizim ölkəmizə təşrif gətirmişdir. Bu gün biz geniş fikir mübadiləsi etdik, iqtisadi sahədə gələcək inteqrasiya işində böyük əhəmiyyət daşıyan məsələlərə dair danışıqlar apardıq, qarşılıqlı siyasi əlaqələr məsələlərini, təbii ki, ikitərəfli münasibətlərin geniş spektrini, regional problemləri müzakirə etdik və bu nəticəyə gəldik ki, bu gün bizim münasibətlərə xas olan dinamizm çox qısa müddətdə bütün sahələrdə qarşılıqlı faydalı əməkdaşlıqda xeyli irəliləməyə imkan verəcəkdir.

Biz bu il Tacikistanda Azərbaycan mədəniyyəti günləri keçirməyi planlaşdırırıq, həmçinin Tacikistanın incəsənət ustalarını bizim ölkədə məmnuniyyətlə qəbul edəcəyik. Əminəm ki, yaxın vaxtlarda ikitərəfli əlaqələr məsələlərinin bütün spektrini nəzərdən keçirəcək birgə hökumətlərarası komissiya yaradılacaqdır. Yaxın vaxtlarda Azərbaycanın Tacikistanda səfirliyi işə başlayacaqdır. Bütün bu elementlər əməkdaşlığımızı çox səmərəli və çox geniş kontekstdə həyata keçirməyə imkan verəcəkdir.

Biz Tacikistanı özümüzə dost, qardaş dövlət hesab edirik. Xalqlarımız arasında çoxəsrlik dostluq və qardaşlıq münasibətləri ənənələri mövcuddur və biz bu ənənələri qoruyub saxlayır, artırırıq, davam etdirmək əzmindəyik.

Biz beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin qarşılıqlı əlaqələrindən çox razıyıq, biz həmişə bir-birimizi dəstəkləyirik, bir-birimizin səsinə səs verir, onun tərəfində çıxış edirik. Bu da bizim münasibətlərin dostluq xarakterini vurğulayır.

Biz əminik ki, əlaqələrimizin gələcək yüksələn inkişafı dövlətlərimizin inkişafına da, regionda təhlükəsizlik sisteminin möhkəmlənməsinə də şərait yaradacaqdır. Həm Tacikistan, həm də Azərbaycan beynəlxalq terrorizmə, narkotrafikə qarşı mübarizədə çox mühüm ölkələrdir. Biz öz regionumuzda risklərin azaldılmasına yönəlmiş müxtəlif layihələrdə fəal iştirak edirik.

Hər iki ölkə müstəqil dövlət kimi, təşəkkül dövründə vətəndaş müharibəsinin çox ağır nəticələri ilə üzləşmişdir. Təəssüf ki, bizdə müharibə hələ başa çatmamışdır. Azərbaycan torpaqları – ölkəmizin ərazisinin 20 faizi hələ də Ermənistanın işğalı altında qalmaqdadır. Ermənistan rəhbərliyi tərəfindən azərbaycanlılara qarşı aparılmış etnik təmizləmə siyasəti nəticəsində bir milyondan çox azərbaycanlı hələ də qaçqın və məcburi köçkün vəziyyətində yaşayır. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının erməni işğalçı qüvvələrinin bizim ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsi təəssüf ki, hələ də yerinə yetirilməmiş qalır. Azərbaycana qarşı işğala və təcavüzə son qoyulmasını tələb edən Avropa Şurasının, İslam Konfransı Təşkilatının və

digər nüfuzlu beynəlxalq təşkilatların qətnamələri də təəssüf ki, kağız üzərində qalır.

Biz hələ ki, danışıqlar prosesini davam etdirmək niyyətindəyik. Hesab edirik ki, danışıqlar prosesinin potensialı tükənməmişdir, lakin bununla yanaşı, iqtisadiyyatımızın möhkəmləndirilməsi üzərində fəal iş aparırıq. Son illərdə Azərbaycanda iqtisadiyyatın coşğun inkişafı bizə iqtisadi və siyasi xarakterli məsələləri həll etməyə, ölkəmizin müdafiə qabiliyyətini möhkəmlətməyə imkan verir. Son dövrlərdə bundan ötrü çox işlər görülmüşdür.

Beləliklə, hesab edirəm ki, biz Azərbaycan torpaqlarının işğaldan azad ediləcəyi günü yaxınlaşdıra bilərik, o gün isə hökmən gələcəkdir. Tarixi həqiqət və ədalət, həmçinin beynəlxalq hüquq zəfər çalacaqdır. Bunun üçün biz güclü olmalıyıq, bunun üçün biz öz dostlarımız və tərəfdaşlarımızla uzunmüddətli qarşılıqlı siyasi və iqtisadi əlaqələrə inteqrasiya etməliyik. Bunun üçün biz irimiqyaslı enerji və nəqliyyat layihələrində iştirak edirik və bu layihələrin təşəbbüsçüsüyük.

Bu gün Emoməli Şərifoviçlə biz neft-qaz sahəsində, alüminium sənayesində əməkdaşlıq məsələlərini müzakirə etdik. Biz Tacikistana Bakı–Tbilisi–Qars dəmir yolunun layihəsi barədə də məlumat verdik. Bu yol da tacik xalqının, tacik dövlətinin mənafeləri naminə xidmət edə bilər. Biz bütün layihələrimizdə açığıq, tacik qardaşlarımızla mükəmməl qarşılıqlı əlaqələr üçün öz infrastrukturumuzu, bütün imkanlarımızı təqdim etməyə hazırıq.

Bu mühüm, deyərdim ki, dövlətlərimiz arasındakı münasibətlərdə tarixi gündə onu da söyləmək istəyirəm ki, mən Emoməli Şərifoviçi şəxsən salamlamağa çox şadam. Bu onun Azərbaycana ilk səfəridir. Mart ayında mənim Tacikistana səfərim də ilk səfər idi. Biz razılığa gəldik ki, münasibətlərimizin dinamizmi zəifləməməlidir. Biz qarşılıqlı səfərləri müxtəlif formatda davam etdirmək barədə razılığa gəldik. Əlbəttə, ölkələrimiz arasında, ölkələrimizin rəhbərləri arasında və bu gün burada iştirak edən nazirlik və idarə rəhbərləri arasında ünsiyyət daha fəal olmalıdır. Biz buna çalışırıq və bugünkü səfər çox böyük nikbinlik hissi oyadır.

Mən bu badəni Tacikistan prezidenti, mənim dostum Emoməli Şərifoviç Rəhmonun sağlığına, Tacikistan nümayəndə heyətinin bütün üzvlərinin sağlığına, tacik və Azərbaycan xalqları arasında dostluq şərəfinə qaldırmaq istəyirəm!

**Tacikistan Respublikasının Prezidenti**
**Emoməli Rəhmonun nitqi**

Hörmətli İlham Heydər oğlu!

Əziz dostlar!

İcazə verin, Tacikistan Respublikası nümayəndə heyəti adından bizim mehriban ev sahiblərinə səmimi, həqiqətən qardaşcasına qonaqpərvərliyə görə bir daha minnətdarlığımı bildirim.

Biz bir-birinə rəğbət hissləri bəsləyən ölkələrimizin və xalqlarımızın qarşılıqlı münasibətləri sahəsində toplanmış təcrübəni çox qiymətli hesab edirik və bu münasibətləri bizim gələcək nəsillər üçün qoruyub saxlamaq və genişləndirmək əzmindəyik.

Sevindirici haldır ki, bu gün ölkələrimizin müstəqil inkişaf etdiyi yeni şəraitdə xalqlarımız arasında qarşılıqlı dostluq, rəğbət və etimad ənənələri öz əhəmiyyətini itirməmişdir və keyfiyyətcə yeni əsasda məntiqi davamını tapmışdır.

Fürsətdən istifadə edib bildirmək istəyirəm ki, Tacikistan iki ölkə xalqlarının rifahı naminə əməkdaşlıq sahələrinin genişləndirilməsi və dərinləşdirilməsi üçün bundan sonra da bütün zəruri səylərini sərf edəcəkdir.

Bizim münasibətlər kompleksinin bugünkü müzakirəsi hər iki tərəfin qarşılıqlı etimadının yüksək səviyyəsinə və praktiki olaraq bütün istiqamətlərdə əməkdaşlığı keyfiyyətcə yaxşılaşdırmağa hazır olmasına dəlalət edir. Biz əminik ki, bu birgə səylər ikitərəfli münasibətlərə güclü təkan verəcək və dövlətlərimizin əsas mənafelərinə uyğun olan qarşılıqlı faydalı əməkdaşlıq üçün geniş üfüqlər açacaqdır.

Əziz dostlar, böyük məmnuniyyətlə mənim dostum, Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Heydər oğlunun və bütün azərbaycanlı dostlarımızın sağlığına və onların uğurları şərəfinə badə qaldırmaq istəyirəm.

Bərəkətli Azərbaycan torpağında sülh və firavanlıq şərəfinə!

Tacikistan və Azərbaycan arasında dostluq münasibətlərinin, qarşılıqlı faydalı əməkdaşlığın və tərəfdaşlığın inkişafı və dərinləşməsi şərəfinə!

Xalqlarımızın xoşbəxtliyi və əmin-amanlığı şərəfinə!

## TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMONUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*13 avqust 2007-ci il*

### Heydər Əliyev Fondu ilə tanışlıq

*Tacikistan prezidenti Emoməli Rəhmon avqustun 13-də Heydər Əliyev Fondunda olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev Tacikistan dövlətinin başçısını burada səmimiyyətlə qarşıladı. Qonaqlar əvvəlcə kinozalda fondun fəaliyyətindən, həyata keçirdiyi layihələrdən söhbət açan sənədli filmə baxdılar.*

*Sonra Tacikistan prezidentinə Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə ehtiram əlaməti olaraq yaradılmış fondun fəaliyyəti barədə məlumat verildi. Bildirildi ki, fondun əsas məqsədi prezident Heydər Əliyevin zəngin irsini öyrənmək və təbliğ etməkdən, onun Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönəlmiş genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə, ölkəmizin qonaqlarında əyani təsəvvür yaratmaqdan, dahi şəxsiyyətin müəllifi olduğu regional layihələrin həyata keçirilməsini dəstəkləməkdən, Azərbaycan mədəniyyəti və tarixinin geniş təbliği ilə əlaqədar aparılan işlərə kömək göstərməkdən ibarətdir.*

*Prezident İlham Əliyev Tacikistan rəhbərinə ümummilli liderimizin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərini əhatə edən eksponatlar barədə ətraflı məlumat verdi.*

*Tacikistan prezidenti Emoməli Rəhmon fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, ulu öndərimiz haqqında kitablarla, dünyanın nüfuzlu siyasi, elm, mədəniyyət və incəsənət xadimlərinin, dövlət və hökumət rəhbərlərinin müstəqil*

*Azərbaycan dövlətinin memarı və qurucusu haqqında fikirləri ilə tanış oldu, onların ümummilli liderimizlə müxtəlif görüşlərdə birgə çəkdirdikləri fotoşəkillərə böyük maraqla baxdı.*

*Prezidentlər Bakı–Tbilisi–Ceyhan neft kəmərinin maketinə də baxdılar. Tacikistan prezidenti fondun Xatirə kitabına ürək sözlərini yazdı, ümummilli lider Heydər Əliyevin şəxsiyyətinə dərin hörmətini, ulu öndərin tacik xalqına göstərdiyi qayğını, onun Tacikistanda daim xatırlandığını bildirdi, Azərbaycan dövlətinin tərəqqisi naminə dəyərli fəaliyyətində fonda uğurlar arzuladı.*

*Tacikistan dövlətinin başçısına xatirə hədiyyələri təqdim edildi.*

*Prezident Emoməli Rəhmon da fonda hədiyyə bağışladı.*

*Azərbaycan və Tacikistan prezidentləri fondun eyvanından Bakının mənzərəsini seyr etdilər.*

*Ali qonaq fonddan zəngin təəssüratla ayrıldığını söylədi.*

## «Caspian Fish Co. Azerbaijan» korporasiyası ilə tanışlıq

*Tacikistan prezidenti Emoməli Rəhmon ölkəmizə rəsmi səfəri çərçivəsində avqustun 13-də «Caspian Fish Co. Azerbaijan» şirkətində olmuşdur. Burada ayrı-ayrı istehsal sexləri ilə yaxından tanış olan ali qonağa məlumat verildi ki, şirkət müxtəlif çeşiddə yüksək keyfiyyətli, ekoloji cəhətdən təmiz məhsullar istehsal edir. Müəssisə 2001-ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin xeyir-duası ilə fəaliyyətə başlamış və region əhalisinin yüksək keyfiyyətli balıq məhsullarına tələbatını ödəməyə qadirdir.*

*Burada Xəzər hövzəsindən, Rusiya, Norveç, Atlantik və Sakit okean ölkələrindən idxal edilən xammaldan keyfiyyətli məhsul istehsal olunur. Şirkət yüksək ixtisaslı kadrlara, keyfiyyətli xammala və müasir avadanlığa malikdir. Bütün bunlar məhsulun ekoloji təmizliyini və keyfiyyətini təmin edir. Burada 750 nəfəri dənizdə olmaqla, minə yaxın işçi çalışır. Gündə 300 tona qədər balıq emal etmək imkanına malik olan bu müəssisənin Xəzər regionunda bənzəri yoxdur. İstehsalat kompleksi balıq və kürü emalı, balıq unu və balıq yağı sexlərindən ibarətdir. 30 növ balıqdan 80 adda məhsul istehsal*

*edən bu özəl müəssisənin yaradılması üçün 56 milyon ABŞ dolları məbləğində sərmayə qoyulmuşdur. Məhsullar daxili və xarici bazara göndərilir.*

*Prezident Emoməli Rəhmon qara kürünün istehsal edildiyi sexlə də tanış oldu. Bildirildi ki, kürü ixracı üçün bu il Azərbaycana 6 ton 660 kiloqram kvota ayrılmışdır. Yaz mövsümündə kvotanın 50 faizindən istifadə edilmişdir. Məlumat verildi ki, burada istehsal olunan kürü bütün dünya ölkələrinə ixrac olunur.*

*Korporasiyada Azərbaycanın dövlət müəssisələri ilə əlaqələr üzrə ixtisaslaşmış elmi mərkəz fəaliyyət göstərir. Mərkəzin başlıca məqsədi balıqçılıq sənayesinin monitorinqini keçirmək və ekoloji tələblərə riayət olunmasına nəzarət etməkdir. Şirkət mövcud balıqyetişdirmə təsərrüfatlarının bərpasını və yenilərinin yaradılmasını planlaşdırır.*

*Tacikistan prezidenti konfrans zalında şirkətdə istehsal olunan hazır məhsullara baxdı.*

*Müəssisə ilə tanış olduqdan sonra ali qonağa xatirə hədiyyəsi verildi.*

## Ümummilli lider Heydər Əliyevin məzarını ziyarət

*Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon avqustun 14-də Fəxri xiyabana gəlmişdir.*

*Burada ali qonağı və nümayəndə heyətinin üzvlərini Azərbaycan Xarici İşlər nazirinin müavini Vaqif Sadıqov, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov və digər rəsmi şəxslər qarşıladılar.*

*Tacikistan dövlətinin başçısı türk dünyasının görkəmli oğlu, ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla anaraq məzarı önünə əklil qoydu.*

*Tacikistanın prezidenti görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üstünə də tər gül dəstəsi qoydu.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov ali qonağa Fəxri xiyabanın tarixi barədə məlumat verdi.*

## Şəhidlərin xatirəsinə ehtiram

*Tacikistan prezidenti Emoməli Rəhmon avqustun 14-də Şəhidlər xiyabanını ziyarət etmişdir.*

*Tacikistanın dövlət başçısını və nümayəndə heyətinin üzvlərini Azərbaycan Xarici İşlər nazirinin müavini Vaqif Sadıqov, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov və digər rəsmi şəxslər qarşıladılar. Burada ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Tacikistan dövlətinin başçısı Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman övladlarımızın xatirəsinə ucaldılmış «Əbədi məşəl» abidəsinin önünə əklil qoydu.*

*Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında Tacikistanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov ali qonağa Şəhidlər xiyabanının tarixi və paytaxtımızda görülən abadlıq-quruculuq işləri barədə məlumat verdi.*

*Prezident Emoməli Rəhmon Azərbaycan paytaxtının mənzərəsini maraqla seyr etdi.*

## ABŞ DÖVLƏT KATİBİNİN MÜŞAVİRİ, İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ ABŞ–AZƏRBAYCAN HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ HƏMSƏDRİ DENİEL SALLİVANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 avqust 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 15-də Prezident sarayında ABŞ Dövlət katibinin İqtisadi və Biznes məsələlərinə dair müşaviri, İqtisadi əməkdaşlıq üzrə ABŞ–Azərbaycan hökumətlərarası komissiyasının həmsədri Deniel Sallivanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə ABŞ arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadiyyat və enerji sektorunda əlaqələrin uğurla inkişaf etdiyini bildirdi. ABŞ–Azərbaycan formatında həyata keçirilməyə başlanmış enerji sahəsində əməkdaşlığın hazırda bütün region üçün böyük əhəmiyyət kəsb etdiyini vurğulayan prezident İlham Əliyev indi ölkəmizin enerji layihələrinin inkişafının çox mühüm mərhələsində olduğunu qeyd etdi. Dövlətimizin başçısı bu səfərin ölkələrimiz arasında iqtisadi əlaqələrin bundan sonra da inkişaf etdirilməsi işinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Azərbaycana əvvəlki səfərlərini və prezident İlham Əliyev ilə keçirdiyi görüşləri məmnuniyyətlə xatırlayan Deniel Sallivan dedi ki, bu səfərindən məqsəd ölkələrimiz arasında iqtisadiyyat və enerji sahəsində əməkdaşlığa dair müxtəlif məsələləri müzakirə etməkdir. Cari ilin fevral ayında təsis edilmiş ABŞ–Azərbaycan hökumətlərarası komissiyanın fəaliyyətinə toxunan qonaq iqtisadiyyat sahəsində gələcək əməkdaşlığın*

*istiqamətlərinin müəyyənləşdirilməsi baxımından mühüm nailiyyətlərin əldə edildiyini söylədi. Deniel Sallivan ABŞ ilə Azərbaycan arasında imzalanmış enerji təhlükəsizliyi sahəsində tərəfdaşlığa dair anlaşma memorandumunun ölkələrimizin bu sahədə əməkdaşlığının daha da inkişaf etdirilməsi üçün əhəmiyyətini vurğuladı.*

## İNCƏSƏNƏT MUZEYİNİN VƏ GƏNC TAMAŞAÇILAR TEATRININ BİNALARINDA TƏMİR-TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*15 avqust 2007-ci il*

*Avqustun 15-də Azərbaycan prezidenti İlham Əliyev Dövlət İncəsənət muzeyində və Dövlət Gənc Tamaşaçılar Teatrında olmuşdur. Dövlətimizin başçısı hər iki mədəniyyət mərkəzində aparılan əsaslı təmir-tikinti və yenidənqurma işləri ilə maraqlanmışdır.*

*Rüstəm Mustafayev adına Dövlət İncəsənət muzeyində aparılan əsaslı təmir işləri ilə tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, 120 yaşlı bu binada müxtəlif dövrlərdə ayrı-ayrı idarə və təşkilatlar yerləşmişdir. 1936-cı ildə Azərbaycan Dövlət muzeyinin incəsənət şöbəsi əsasında yaradılmış muzeydə çoxlu qiymətli sənət əsərlərinin yerləşdirilməsi, ekspozisiyanın ildən-ilə zənginləşdirilməsi bu sənət məbədinə marağı xeyli artırmışdır. Lakin zaman keçdikcə təbii aşınmalar nadir sənət nümunələrinin saxlandığı bu binanın əsaslı təmirini zərurətə çevirmişdir. Tarixi dəyərlərimizin və mədəni sərvətlərimizin qorunmasına xüsusi diqqət və qayğı göstərən prezident İlham Əliyev digər mədəniyyət ocaqları ilə yanaşı, bu muzeyin də bərpası barədə göstəriş vermişdir.*

*Binada təmir-bərpa işlərini Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə «Azəraqrartikinti» Səhmdar Cəmiyyəti aparır. «RA architect Ltd» müəssisəsində hazırlanmış layihəyə əsasən binanın bütün mühəndis-texniki qurğuları əsaslı surətdə yenidən qurulmuşdur. Birinci və ikinci korpuslar arasında yeni bina tikilir. İnşaatçılar ilk növbədə özülləri, həmçinin daxili və xarici divarları metal konstruksiyalar və beton məmulatı ilə bərkidirlər. Binanın fasadı isə 1987 kvadratmetr sahəsi olan əvvəlki görünüşünü saxlamaqla, üzlük daşlarla üzlənir. Layihəçilər bərpa zamanı fasadın tərtibatına xüsusi diqqət*

*yetirmişlər. Mərtəbələrin köhnə döşəməsi sökülərək, monolit dəmir-beton plitələrlə əvəz olunmuşdur. Otaqların arakəsmələri əvvəlki formada saxlanılmaqla, yenidən qurulmuşdur.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, muzeyin ekspozisiyasının daha cəlbedici görünməsi üçün milli arxitektura nümunələrindən istifadə olunacaqdır.*

*Həmin gün prezident İlham Əliyev Dövlət Gənc Tamaşaçılar Teatrının binasında aparılan əsaslı təmir və yenidənqurma işləri ilə də tanış olmuşdur.*

*Qeyd edək ki, dövlətimizin başçısının sərəncamına əsasən əsaslı təmir olunan çoxsaylı tarixi abidələr, monomental binalar, maddi mədəniyyət ocaqları sırasında bu teatrın binası da vardır.*

*Ölkəmizin rəhbərinin «Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında» 2007-ci il 19 fevral tarixli sərəncamı ilə digər mədəniyyət ocaqları kimi, bu teatrın binası da yüksək səviyyədə təmir olunur.*

*Teatr binasında aparılan əsaslı təmir və bərpa işləri ilə tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, inzibati bina, tamaşa salonu və səhnə tamamilə yenidən qurulacaqdır. Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə Nəqliyyat Nazirliyinin «Yolnəqliyyatservis» Departamenti tərəfindən əsaslı təmir olunan binanın bütün sanitariya qovşaqları, elektrik və su xətləri, isitmə və soyutma sistemləri tamamilə yeniləşdirilmişdir. Dekorasiya və qrim otaqları müasir üslubda tərtib olunmuşdur. Binada quraşdırılmış müasir elektrik avadanlığı Avropanın tanınmış şirkətlərindən alınıb gətirilmişdir. Teatrda ayrıca avtomat telefon stansiyası da olacaqdır. Altı kameradan ibarət videoçəkiliş sistemi tamaşaların lentə alınmasına, həmçinin canlı yayımına əlverişli imkan yaradacaqdır. Bu yenilik Bakının teatr və konsert salonlarında ilk dəfə Dövlət Gənc Tamaşaçılar Teatrında tətbiq olunur.*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ MUĞAM MƏRKƏZİNDƏ TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR**

*Beynəlxalq Muğam Mərkəzi*

*15 avqust 2007-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 15-də Beynəlxalq Muğam Mərkəzinin tikildiyi əraziyə gələrək burada inşaat işlərinin gedişi ilə maraqlanmışdır.*

*Heydər Əliyev Fondunun milli mənavi dəyərlərimizin qorunması və dünyada geniş təbliği ilə bağlı reallaşdırılan möhtəşəm layihələri sırasında xüsusi əhəmiyyətə malik olan bu mədəniyyət mərkəzinin inşası fondun prezidenti, YUNESKO VƏ İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilir. Belə bir mədəniyyət ocağının tikilməsi, muğamın inkişaf və təbliğ edilməsi üçün görkəmli xanəndələr, muğam bilicilərinin iştirakı ilə «dəyirmi masa» keçirilmiş və Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması qərara alınmışdır. Prezident İlham Əliyev 2005-ci il aprelin 6-da Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması haqqında sərəncam imzalamışdır.*

*Beləliklə, xalqımızın qədim mədəni irsinin ölməz nümunəsi, Azərbaycan musiqisinin zəngin fəlsəfi təməl üzərində təşəkkül tapmasında əvəzsiz rol oynayan muğama möhtəşəm abidə ucaldılması istiqamətində ciddi addım atılmışdır. Azərbaycan muğamının bəşər mədəniyyətinin nadir inciləri ilə bir sırada YUNESKO-nun Dünya irs siyahısına daxil edilməsi isə bütövlükdə onun nə dərəcədə bənzərsiz sənət növü olduğunu bir daha təsdiqləyir.*

*Bakının möhtəşəm sənət ocaqlarından biri olacaq mərkəzin inşasına başlamazdan əvvəl muğam ustadları ilə mütəmadi görüşlər, məsləhətləşmələr aparılmış, nəhayət, Beynəlxalq*

*Muğam Mərkəzinin layihəsi tərtib edilmiş və Heydər Əliyev Fondunda təqdimatı keçirilmişdir.*

*Azərbaycan* prezidenti *İlham Əliyev və YUNESKO*-nun *Baş* direktoru *Koişiro Mtsuuranın iştirakı ilə 2005-ci il* avqustun *24-də Dənizkənarı* Milli Parkda *Beynəlxalq Muğam Mərkəzinin təməli qoyulmuşdur.* Bu *mərkəzin də inşası əsaslı təmir* olunan *və yenidən* qurulan *digər* tarixi *abidələr və* monumental binalar kimi, *dövlətimizin başçısının* daim *diqqətindədir. «*Aikon*» şirkətinin inşa* etdiyi *və Azərbaycan–YUNESKO əməkdaşlığının bəhrəsi* olan bu *mədəniyyət mərkəzinin dizaynında* milli musiqi *sənətimizin rəmzləri əks olunmuşdur.*

*Tikintinin gedişi və binanın* maketi *ilə tanış* olan prezident *İlham Əliyev* bu *mərkəzin memarlıq ansamblının* muğamın *ənənələrinə uyğun yaradılması, inşaat işlərinin ən yüksək səviyyədə aparılması ilə bağlı tövsiyələrini vermişdir.*

**MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR VORONİNƏ**

Hörmətli Vladimir Nikolayeviç!

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizi və dost Moldova xalqını milli bayramınız – Müstəqillik günü münasibətilə ürəkdən təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında ikitərəfli qarşılıqlı faydalı əlaqələrin daha da inkişaf etməsi və möhkəmlənməsi, beynəlxalq və regional təşkilatlarda sıx qarşılıqlı əlaqə və qarşılıqlı dəstək bundan sonra da xalqlarımızın mənafeyinə, regionda sülh, sabitlik və tərəqqi işinə xidmət edəcəkdir.

Hörmətli Vladimir Nikolayeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dövləti fəaliyyətinizdə uğurlar, dost Moldova xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 avqust 2007-ci il*

**UKRAYNA PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VİKTOR YUŞŞENKOYA**

Hörmətli Viktor Andreyeviç!

Ukraynanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizi Azərbaycan xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan ilə Ukraynanın dövlətlərarası münasibətləri uğurla və dinamik inkişaf edir. Əminəm ki, ölkələrimiz arasında dostluq, qarşılıqlı etimad və qarşılıqlı dəstək ab-havası bundan sonra da xalqlarımızın mənafeyi naminə, regionda sülh, sabitlik və tərəqqi naminə əməkdaşlığımızın və qarşılıqlı əlaqələrimizin daha da genişlənməsinə şərait yaradacaqdır.

Hörmətli Viktor Andreyeviç, fürsətdən istifadə edib Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, bütün dost Ukrayna xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 avqust 2007-ci il*

## MALAYZİYANIN ALİ BAŞÇISI, ƏLAHƏZRƏT TUANKU MİZAN ZEYNAL ABİDİN İBN ƏL-MƏRHUM SULTAN MAHMUD ƏL-MÜKTƏFİ BİLLAH ŞAHA

Əlahəzrət!

Malayziyanın milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan–Malayziya münasibətlərinin, dostluq və əməkdaşlığımızın inkişafı bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 avqust 2007-ci il*

**MALAYZİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ABDULLAH ƏHMƏD BƏDƏVİYƏ**

Hörmətli cənab Baş nazir!

Ölkənizin milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizi və bütün Malayziya xalqını təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımızı yetirir, xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 avqust 2007-ci il*

**QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KURMANBEK BAKİYEVƏ**

Hörmətli Kurmanbek Saliyeviç!

Milli bayram – Dövlət müstəqilliyi günü münasibətilə Sizi və dost Qırğızıstan xalqını Azərbaycan xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Qırğızıstan arasında dostluq və qarşılıqlı surətdə faydalı əməkdaşlıq xalqlarımızın və dövlətlərimizin mənafeyi naminə, regionda sülh, sabitlik və tərəqqi naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Hörmətli Kurmanbek Saliyeviç, Sizə möhkəm cansağlığı, səadət və uğurlar, bütün Qırğızıstan xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 avqust 2007-ci il*

## AZƏRBAYCANIN XALQ ARTİSTİ MÜSLÜM MAQOMAYEVƏ

Əziz Müslüm Maqomayev!

Sizi, müasir dövrün görkəmli musiqi xadimini yubileyiniz münasibətilə təbrik edir, Sizə xoşbəxtlik, cansağlığı və uğurlar arzulayıram.

Milyonlarla insana Sizi sevdirən parlaq istedadınız səhnədəki ilk addımlarınızdan etibarən özünü büruzə vermiş və Sizə ifaçılıq sənətinin nadir incilərini yaratmaq imkanı bəxş etmişdir. Yüksək zövqünüz, fitri musiqi mədəniyyətiniz və çoxşaxəli yaradıcılıq qabiliyyətiniz sayəsində Siz böyük bir dövrün əsl rəmzinə çevrilə bilmisiniz.

Qısa müddət ərzində Siz təkrarolunmaz səhnə görkəmi və olduqca populyar repertuar formalaşdırmış, sovet mahnı ifaçıları arasında öz sözünüzü deyərək unikal bir mövqe qazanmısınız. Sizin sənətinizə həm stadionlarda toplaşan çoxminli dinləyiciləriniz, həm də həmkarlarınız məftun olmuşlar.

Bəstəkarlıq fəaliyyətiniz şöhrətinizi daha da artırmış və az bir müddətdə pərəstişkarlarınızın məhəbbətini qazanmış bir çox əsərlər yazmağınıza, onları özünəməxsus tərzdə ifa etməyinizə imkan vermişdir. Azərbaycanı vəsf edən məşhur mahnınızda isə doğma diyara olan hədsiz məhəbbətiniz öz əksini tarmışdır.

Zahirən bir-biri ilə uzlaşmayan xüsusiyyətlər heyrətamiz şəkildə Sizin şəxsiyyətinizdə cəmləşərək eyni zamanda klassik və estrada musiqisinin ifaçısı, kinoaktyor və opera teatrının solisti, estrada-simfonik orkestrinin təşkilatçısı və ictimai xadim kimi fəaliyyət göstərməyinizə zəmin yaratmışdır. İfaçılıq və bəstəkarlıq fəaliyyəti ilə yanaşı, incəsənətin hər bir sahəsində qüvvənizi sınamaq həvəsinizi «Mənim məhəbbətim melodiya» kitabınız və rəsm əsərləriniz bir daha əyani surətdə nümayiş etdirir.

Biz hamımız haqlı olaraq Sizinlə fəxr edirik. Siz artıq bizim canlı tariximizsiniz. İstedadınızın misilsiz yüksəlişinin şahidləri,

eləcə də yeni nəslə mənsub azərbaycanlılar Sizi həmişə həqiqi sənətin böyük ustadı kimi dəyərləndirəcəklər.

*Ən xoş arzularla,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 avqust 2007-ci il*

# İSRAİLİN BAŞ NAZİRİNİN MÜAVİNİ, STRATEJİ PLANLAŞDIRMA NAZİRİ AVİQDOR LİBERMANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 avqust 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 16-da Prezident sarayında İsrailin Baş nazirinin müavini, Strateji Planlaşdırma naziri Aviqdor Libermanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı nümayəndə heyətinin Bakıdakı və Azərbaycanın digər bölgələrindəki görüşlərinin səmərəli keçəcəyinə ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev Azərbaycanda siyasi, iqtisadi və digər sahələrdə əldə edilən uğurlar barədə danışdı.*

*Aviqdor Liberman Azərbaycana ilk səfərini və bu səfər zamanı ümummilli lider Heydər Əliyev ilə keçirdiyi görüşü məmnuniyyətlə xatırladı. O, səfərindən keçən on il ərzində ölkəmizdə çox böyük dəyişikliklərin və inkişafın şahidi olduğunu bildirdi və aparılan quruculuq işlərinin onda böyük təəssürat yaratdığını vurğuladı.*

# YAPONİYANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MİDORİ MATSUŞİMANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 avqust 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 16-da Prezident sarayında Yaponiyanın Xarici İşlər nazirinin müavini Midori Matsuşimanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Midori Matsuşima səfəri çərçivəsində Azərbaycanın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etdiyini və ölkəmizdə ümummilli liderin xatirəsinə dərin ehtiramın şahidi olduğunu bildirdi. Qonaq prezident İlham Əliyevin keçən ilin mart ayında Yaponiyaya rəsmi səfərinin ölkələrimiz arasında əlaqələrin daha da inkişaf etdirilməsində mühüm rol oynadığını vurğuladı.*

*Dövlətimizin başçısı Azərbaycanın bugünkü inkişafında xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəsna rolu olduğunu bildirdi və məhz onun rəhbərliyi altında 90-cı illərin ortalarında həyata keçirilməyə başlamış siyasi və iqtisadi islahatların ölkəmizin sürətli inkişafını təmin etdiyini vurğuladı. Azərbaycan–Yaponiya münasibətlərində də yeni inkişaf mərhələsinin ümummilli lider Heydər Əliyevin Yaponiyaya rəsmi səfəri ilə başlandığını deyən prezident İlham Əliyev bu siyasətin bu gün də uğurla davam etdirildiyini bildirdi.*

**PERU RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALAN QARSİA PERESƏ**

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizə şərik sıxır, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Peru xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, zəlzələnin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 avqust 2007-ci il*

## ŞRİ-LANKANIN İXRACATIN İNKİŞAFI VƏ BEYNƏLXALQ TİCARƏT NAZİRİ CORC PEİRİSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 avqust 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 17-də Prezident sarayında Şri-Lankanın İxracatın İnkişafı və Beynəlxalq Ticarət naziri Corc Peirisin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Corc Peiris ölkəmizə ilk dəfə səfər etdiyini bildirdi və səfər zamanı onlara göstərilən qonaqpərvərliyə görə Azərbaycan hökumətinə təşəkkürünü çatdırdı. Qonaq artıq Azərbaycanın bir sıra hökumət qurumlarında səmərəli görüşlər keçirdiyini dedi və ölkəsinin Azərbaycan ilə iqtisadiyyat, o cümlədən energetika sahəsində əlaqələrin inkişaf etdirilməsində maraqlı olduğunu qeyd etdi.*

*Dövlətimizin başçısı bu səfərin Azərbaycan ilə Şri-Lanka arasında iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsinə töhfə verəcəyinə əminliyini vurğuladı.*

## DÖVLƏT SƏRHƏD XİDMƏTİNİN «SƏRHƏDÇİ» İSTİRAHƏT MƏRKƏZİNİN AÇILIŞ MƏRASİMİNDƏ

*«Sərhədçi» istirahət mərkəzi*

*17 avqust 2007-ci il*

*Avqustun 17-də Abşeron rayonunun Goradil qəsəbəsində Dövlət Sərhəd Xidmətinin «Sərhədçi» istirahət mərkəzinin açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlət Sərhəd Xidmətinin rəisi, general-leytenant Elçin Quliyev dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi:*

Cənab Ali Baş Komandan, «Sərhədçi» istirahət mərkəzi açılışa hazırdır.

*Prezident İlham Əliyev istirahət mərkəzinin Baş planı, ərazinin əvvəlki və indiki görünüşünü əks etdirən fotoşəkillərə baxdı.*

*General-leytenant Elçin Quliyev dövlət sərhədlərinin təhlükəsizliyinin təmin edilməsinə və Dövlət Sərhəd Xidməti əməkdaşlarının sosial-məişət şəraitlərinin yaxşılaşdırılmasına göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısına Azərbaycan sərhədçilərinin minnətdarlığını çatdırdı. Xidmətin rəisi dedi ki, bu mərkəzin istifadəyə verilməsi sərhədçilərə diqqət və qayğının növbəti əyani təzahürüdür.*

*Ali Baş Komandana görülən işlər barədə məlumat verən general-leytenant bildirdi ki, Sərhəd Qoşunlarının Yaradılmasının 88-ci ildönümü ərəfəsində açılan bu mərkəz qısa müddətdə inşa edilmişdir. Təməli bu ilin mayında qoyulan istirahət mərkəzi kompleksinin tikintisini yerli «Qlobal Konstrakşn» Məhdud Məsuliyyətli Cəmiyyətin inşaatçıları avqustun 15-də başa çatdırmışlar.*

*Azərbaycan prezidentinin 2005-ci il 27 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi sisteminin 2006–2010-cu illərdə texniki inkişafına dair Dövlət Proqramı» çərçivəsində inşa olunmuş bu mərkəz 14 hissədən ibarətdir, onun 33 otağı və yeməkxanası olmaqla, beşmərtəbəli binası və kotteclər müasir tələblərə cavab verir. Burada mədəni tədbirlərin keçirilməsi üçün musiqili teatr, boulinq zalı, örtülü və açıq hovuzlar, uşaqlar və böyüklər üçün əyləncə mərkəzləri, iri qayıqların yanalma körpüsü, müxtəlif idman, o cümlədən futbol və voleybol meydançaları, çimərlik və sahilyanı kafe fəaliyyət göstərir. Ümumilikdə, mərkəzdə 250 nəfərin mənalı istirahəti üçün hər cür şərait yaradılmışdır.*

*Prezident İlham Əliyev beşmərtəbəli istirahət körpüsü, lüks səviyyəli 11 kottec, müasir idman və boulinq zalları, açıq və örtülü üzgüçülük hovuzları, musiqili teatr, iri katerlərin yanalma körpüsü, uşaq əyləncə mərkəzi, futbol və voleybol meydançaları, çimərlik sahəsi, sahilyanı istirahət obyektləri, skuter və kvadrasikl nəqliyyat vasitələri ilə tanış oldu.*

*Dövlətimizin başçısı müasir boulinq və bilyard zallarına baxdı, idmanın hər iki növü üzrə məharətini nümayiş etdirdi.*

*Mərkəzlə tanışlıqdan sonra prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev xidmətdə fərqlənmiş 25 zabitə yeni mənzillərin orderlərini təqdim etdi.*

*Sonra Sərhəd Qoşunlarının peşə bayramı münasibətilə mərasim keçirildi.*

**Elçin Quliyev** (*Dövlət Sərhəd Xidmətinin rəisi, general-leytenant*): Möhtərəm cənab Prezident!

Cənab Ali Baş Komandan!

İcazənizlə, ürək sözlərimizi Sizə çatdırmaq istərdik. Bu gün hər bir Azərbaycan sərhədçisinin ürəyi fərəh və qürur hissi ilə vurur. Siz bu gəlişinizlə, bu şəraiti yaratmağınızla bizi şərəfləndirdiniz.

Son illər ərzində Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti özünün xidməti fəaliyyətində çox önəmli nəticələr əldə etmişdir. Biz bu önəmli nəticələri yalnız ona görə əldə edə bilirik ki, cənab Prezident, Ali Baş Komandan, bizə bu şəraiti

Siz yaratmısınız. Bu diqqətinizə, qayğınıza arxalanaraq xidmətimizin daha yüksək səviyyədə qurulmasına çalışırıq.

Cənab Ali Baş Komandan, bu gün sevincimizi bölüşdüyünüzə görə minnətdarlığımızı bildirir və Sizdən xahiş edirik ki, ürək sözlərinizi deyəsiniz.

*Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev mərasimdə çıxış etdi.*

**İlham Əliyev:** Əziz zabitlər!

Mən ilk növbədə, sizi qarşıdan gələn Sərhəd Qoşunlarının Peşə bayramı günü münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Hər birinizə cansağlığı, uğurlar arzulayıram.

Bu gün eyni zamanda, sərhədçilərin gözəl istirahət mərkəzinin açılışı günüdür. Bu mərkəz də sərhədçilərə xidmət edəcəkdir. Burada çox gözəl şərait var. Mənə verilən məlumata görə, qısa müddət ərzində, təxminən 3-4 ay ərzində bu gözəl mərkəz inşa edilibdir. Dincəlmək, istirahət etmək üçün bütün şərait var. Bu onu göstərir ki, Azərbaycan indi sözün əsl mənasında inkişaf dövrünü yaşayır. Bütün quruculuq, abadlıq işləri, ölkəmizə böyük həcmdə qoyulan investisiyalar, artan iqtisadi imkanlarımız, əlbəttə ki, hər sahədə öz əksini tapır. O cümlədən sərhəd xidmətinin möhkəmlənməsində, onun maddi-texniki bazasının yaradılmasında, müasir sərhəd infrastrukturunun yaranmasında çox böyük işlər görülübdür.

Bildiyiniz kimi, ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş müasir Azərbaycanın inkişaf dövrü bütün sahələrdə görünməkdədir. Heydər Əliyevin qərarı ilə Sərhəd Xidməti ayrıca müstəqil xidmət kimi formalaşdı və o gündən bu günə qədər çox böyük və şərəfli yol keçdi. İndi yeni sərhəd zastavaları tikilir, müasir infrastruktur yaradılır, sərhədçilərin peşəkarlığı artır, onların hazırlanması üçün böyük tədbirlər görülür.

Bildiyiniz kimi, bu yaxınlarda sərhədçilərin akademiyasının yaradılması üçün müvafiq sərəncamlar verilmişdir. Bütün bunlar onu göstərir ki, Azərbaycan iqtisadi imkanlarından istifadə edib öz sərhədlərini daha da möhkəmləndirir.

Biz 1991-ci ildə müstəqilliyə qovuşanda faktiki olaraq, bizdə sərhəd infrastrukturu yox dərəcəsində idi. Qonşu ölkələrlə sərhədimiz, ümumiyyətlə, yox idi. Çünki biz vahid ölkədə

yaşayırdıq. Mövcud olan sərhəd isə yararsız vəziyyətə düşmüşdü və əlbəttə ki, Azərbaycana qarşı təxribat törədən qruplar, dəstələr, Ermənistanın terrorçu təşkilatları bundan istifadə etmişlər. Məhz o illərdə Azərbaycana qarşı terror aktları həyata keçirilmişdir. 30-dan yuxarı terror aktının nəticəsində 2 mindən çox Azərbaycan vətəndaşı həlak olmuşdur, minlərlə insan xəsarət almışdır. Nəyə görə? Çünki biz o vaxt öz sərhədlərimizi kifayət qədər müdafiə edə bilmirdik. Amma indi Azərbaycanın sərhədləri lazımi səviyyədə qorunur. Azərbaycan sərhədlərində infrastruktur yaradılır, müasir texnika alınır, Sərhəd Xidmətinin maddi-texniki bazası möhkəmlənir və əminliklə deyə bilərik ki, Azərbaycana qarşı təxribat planlarını hazırlayan qüvvələr artıq bilirlər ki, bu planların baş tutması mümkün deyil.

Azərbaycanda daxildə sabitlik var, ictimai-siyasi asayiş hökm sürür. Xalqla iqtidar arasında birlik var. Bizim bütün gördüyümüz işlər xalqın rifah halının yaxşılaşmasına yönəldilibdir. Yəni onu demək istəyirəm ki, ölkə daxilində təhlükəsizliklə bağlı bizim heç bir problemimiz yoxdur. İnsanlar rahat yaşayırlar, gecələr küçələrdə rahat dincəlirlər, gəzirlər. Təhlükəsizlik tam təmin olunubdur. Əsas məsələ kənardan Azərbaycana təxribat məqsədilə gəlmək istəyən qüvvələrin qarşısını almaqdır. Onların da planları bizə bəllidir. Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüz, işğal siyasəti, etnik təmizləmə siyasəti, eyni zamanda, bayaq qeyd etdiyim kimi, terror aktları ilə də müşahidə olunurdu. Biz bunun qarşısını aldıq və bundan sonra da qarşısını alacağıq.

Sərhəd hər bir dövlətin rəmzidir, hər bir müstəqil dövlətin mühüm əlamətlərindən biridir və biz öz sərhədlərimizi qoruyuruq. Sərhədçilərin məişət problemlərinin həlli də çox vacibdir və bu gün 25 zabitə yeni mənzillərin orderləri verilibdir. Ona görə verilib ki, sizin yaşayış səviyyəniz yaxşılaşsın. Mütəmadi qaydada maaşlar qaldırılır, bundan sonra da qaldırılacaqdır. İndi gözəl istirahət mərkəzləri tikilir. Bir müddət bundan əvvəl Elçin Quliyev mənə məlumat vermişdi ki, böyük idman kompleksi – sərhədçilərin idman kompleksi tikilir. Yəni bütün bunlar ona görə edilir ki, sizin həyat şəraitiniz, məişət şəraitiniz daha da yaxşılaşsın. Sərhədçilər ağır şəraitdə, çətin şəraitdə, dağlarda,

şaxtada dövlətimizin hüdudlarını qoruyurlar. Ona görə onların bütün təchizatı yüksək səviyyədə olmalıdır. Bu gün bu gözəl istirahət mərkəzinin timsalında biz bunu görürük. O, qısa müddət ərzində tikilibdir. Eyni zamanda, çox böyük keyfiyyətlə tikilibdir. İstirahət etmək, dincəlmək, yaşamaq üçün burada ən gözəl avadanlıq vardır.

Mən bu gün çox şadam ki, bu gözəl tədbirdə sizinlə bərabərəm. Bildiyiniz kimi, mən sərhədçilərlə mütəmadi qaydada görüşürəm. Hərbi hissələrdə oluram, sərhədlərdə oluram, şəraitlə tanış oluram və deyə bilərəm ki, Azərbaycanın Sərhəd Xidməti öz vəzifə borcunu şərəflə yerinə yetirir. Bu işdə, Vətən uğrunda fəaliyyətinizdə, sərhədlərimizin qorunmasında sizə yeni-yeni uğurlar arzulayıram.

Bir daha bayramınız mübarək olsun!

Sağ olun.

## ALMANİYANIN KEÇMİŞ DÖVLƏT KATİBİ, ALMANİYA–AZƏRBAYCAN FORUMUNUN SƏDRİ OTTO HAUZERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 avqust 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 20-də Prezident sarayında Almaniya Federativ Respublikasının keçmiş Dövlət katibi, Almaniya–Azərbaycan Forumunun sədri Otto Hauzerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Otto Hauzer ilə Almaniyaya səfəri çərçivəsində görüşünü və onunla apardığı fikir mübadiləsini məmnuniyyətlə xatırladı. Prezident İlham Əliyev, ümumiyyətlə, Almaniyaya rəsmi səfərindən və bu səfər zamanı keçirdiyi danışıqlardan razı qaldığını bildirdi. Azərbaycan ilə Almaniya arasında münasibətlərin uğurla inkişaf etdiyini qeyd edən dövlətimizin başçısı Almaniya nümayəndə heyətinin ölkəmizə bu səfərinin əməkdaşlığımızın daha da genişləndirilməsinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Otto Hauzer dövlət başçımızın Almaniyaya rəsmi səfərinin uğurla keçdiyini və səfər zamanı prezident İlham Əliyevin Azərbaycanın regionda oynadığı liderlik rolu barədə verdiyi məlumatların onlarda böyük maraq yaratdığını vurğuladı. O, Almaniyanın Azərbaycan ilə müxtəlif sahələrdə, o cümlədən iqtisadiyyat və energetika sahəsində əlaqələrin daha da genişləndirilməsində maraqlı olduğunu qeyd etdi. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan qonaq bu münaqişənin sülh yolu ilə ədalətli və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunacağına ümidvar olduğunu bildirdi.*

**ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB İSLAM KƏRİMOVA**

Hörmətli İslam Abduqəniyeviç!

Milli bayram – Müstəqillik günü münasibətilə Sizə və dost Özbəkistan xalqına Azərbaycan xalqı adından və şəxsən mənim adımdan səmimi təbriklərimizi qəbul edin.

Əminəm ki, Azərbaycan ilə Özbəkistan arasında dostluq və hərtərəfli əməkdaşlıq bundan sonra da inkişaf edəcək və möhkəmlənəcək, dövlətlərimiz arasında münasibətlərin yüksələn xətlə daha da inkişafına, regionda sülh, sabitlik və tərəqqi işinə kömək edəcəkdir.

Hörmətli İslam Abduqəniyeviç, Sizə möhkəm cansağlığı və dövləti fəaliyyətinizdə uğurlar, dost Özbəkistan xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 avqust 2007-ci il*

**SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB İVAN QAŞPAROVİÇƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Konstitusiya günü münasibətilə Sizi və bütün Slovakiya xalqını öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Əminəm ki, gündən-günə genişlənən Azərbaycan–Slovakiya münasibətləri, dostluq və əməkdaşlığımız bundan sonra da xalqlarımızın rifahına xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Slovakiya xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 avqust 2007-ci il*

**LİVİYA İNQİLABININ RƏHBƏRİ, LİVİYA ƏRƏB SOSİALİST XALQ CƏMAHİRİYYƏSİNİN BAŞÇISI ZATİ-ALİLƏRİ CƏNAB MÜƏMMƏR ƏL-QƏDDAFİYƏ**

Zati-alilәri!

Milli bayramınız – Böyük inqilab günü münasibәtilә Sizә vә bütün xalqınıza әn sәmimi tәbriklәrimizi yetirirәm.

Əminәm ki, Azәrbaycan ilә Liviya arasındakı münasibәtlәr xalqlarımızın mәnafelәrinә uyğun olaraq daim dostluq vә әmәkdaşlıq zәminindә inkişaf edәcәkdir.

Sizә möhkәm cansağlığı, işlәrinizdә uğurlar, dost ölkәnizә әmin-amanlıq vә tәrәqqi arzulayıram.

*Hörmәtlә,*

**İLHAM ƏLİYEV**
**Azәrbaycan Respublikasının Prezidenti**

Bakı, *20 avqust 2007-ci il*

**MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB BRANKO SRVENKOVSKİYƏ**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Makedoniya arasındakı münasibətlər daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Makedoniya xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 avqust 2007-ci il*

**KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI**
**DÖVLƏT MÜDAFİƏ KOMİTƏSİNİN**
**SƏDRİ ZATİ-ALİLƏRİ**
**CƏNAB KİM ÇEN İRƏ**

Hörmətli cənab Sədr!

Ölkənizin milli bayramı – Koreya Xalq Demokratik Respublikasının yaranması günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı ikitərəfli münasibətlər daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *20 avqust 2007-ci il*

**TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMOMƏLİ RƏHMONA**

Hörmətli Emoməli Şərifoviç!

Milli bayram – Müstəqillik günü münasibətilə Sizi və dost Tacikistan xalqını Azərbaycan xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan və Tacikistan arasında ənənəvi dostluq və əməkdaşlıq münasibətləri ölkələrimizin və xalqlarımızın mənafeyi naminə, bütövlükdə regionda sülh və tərəqqi naminə bundan sonra da dinamik şəkildə inkişaf edəcək və möhkəmlənəcəkdir.

Fürsətdən istifadə edərək, bir daha qəti əmin olduğumu bildirmək istəyirəm ki, Sizin bu yaxınlarda ölkəmizə rəsmi səfərinizin gedişində görüşlərimiz və söhbətlərimiz, əldə edilmiş razılaşmalar və imzalanmış sənədlər dövlətlərarası münasibətlərimizin daha da inkişaf etməsinə əlavə təkan verəcəkdir.

Hörmətli Emoməli Şərifoviç! Sizə möhkəm cansağlığı və uğurlar, dost Tacikistan xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 avqust 2007-ci il*

**SAN-MARİNO RESPUBLİKASININ RECENT KAPİTANLARI ZATİ-ALİLƏRİ ALESSANDRO ROSSİYƏ VƏ ALESSANDRO MANÇİNİYƏ**

Zati-aliləri!

San-Marinonun milli bayramı – Respublika günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə San-Marino arasında təşəkkül tapmaqda olan münasibətlər daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 avqust 2007-ci il*

**VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NQUYEN MİNH TRİETƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Vyetnam arasında dostluq və əməkdaşlığın xoş ənənələri bundan sonra da davam edərək, qarşılıqlı münasibətlərimizin məzmununu zənginləşdirəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Vyetnam xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 avqust 2007-ci il*

**BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LUİS İNASİU LULA DA SİLVAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik elan edilməsi günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Braziliya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin, əlaqələrimizin genişlənməsi daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Braziliya xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 avqust 2007-ci il*

# İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*21 avqust 2007-ci il*

*Avqustun 21-də Prezident sarayında İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Sarayın qarşısındakı rəsmi qarşılanma mərasimlərinin keçirildiyi və hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*Azərbaycan dövlətinin başçısı İlham Əliyev İran prezidenti Mahmud Əhmədinejadı səmimiyyətlə qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi İran prezidentinə raport verdi.*

*Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında İranın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər. İran prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycan dövləti və hökumətinin rəsmi şəxsləri İran prezidenti Mahmud Əhmədinejada, İran nümayəndə heyətinin üzvləri Azərbaycan prezidenti İlham Əliyevə təqdim edildi.*

*Dövlət başçıları Prezident sarayında xatirə şəkli çəkdirdilər.*

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN TƏKBƏTƏK GÖRÜŞÜ**

*Prezident sarayı*

*21 avqust 2007-ci il*

*Avqustun 21-də Prezident sarayında rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın təkbətək görüşü oldu.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və mədəni sahələrdə uğurla inkişaf etdiyi vurğulandı.*

*Dövlət başçıları indiki səfərin əhəmiyyətinə toxunaraq bildirdilər ki, bu, əlaqələrimizin daha da genişlənməsi işinə xidmət edəcəkdir.*

*Görüşdə Azərbaycan–İran əməkdaşlığının gələcəkdə də genişlənəcəyinə əminlik vurğulandı.*

## AZƏRBAYCAN VƏ İRAN PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*21 avqust 2007-ci il*

*Avqustun 21-də Prezident sarayında Azərbaycan prezidenti İlham Əliyevin və İran prezidenti Mahmud Əhmədinejadın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İlham Əliyev:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən sizi Azərbaycanda ürəkdən salamlayıram, xoş gəlmisiniz!

Biz sizin Azərbaycana səfərinizə çox böyük əhəmiyyət veririk. Əminik ki, bu səfərdən sonra ikitərəfli münasibətlər daha da yüksək pilləyə qalxacaqdır və iki dost, qardaş xalqlar bir-birinə daha da yaxın olacaqlar.

Bizim münasibətlərimiz çox sahələri əhatə edir. Bu əlaqələr bütün sahələrdə – siyasi, iqtisadi, mədəni sahələrdə güclənir, genişlənir, yeni imkanlar açılır və beləliklə, İran ilə Azərbaycan bir-birinə daha yaxın olurlar.

Biz indi təkbətək görüşdə çox geniş fikir mübadiləsi apardıq, çox səmərəli işlədik və bir daha gördük ki, bizim aramızda dostluq, mehribanlıq münasibətləri çox güclüdür, bütün məsələlərə biz vahid mövqedən yanaşırıq. Ümid edirəm ki, bugünkü görüşlər, imzalanacaq sənədlər və aparılacaq danışıqlar əlbəttə, mövcud məsələlərin həlli üçün çox gözəl imkan yaradacaqdır.

Siz İran İslam Respublikasının Prezidenti kimi, bu günə qədər Azərbaycanda iki dəfə işgüzar səfərdə olmusunuz. Amma bu, birinci rəsmi səfərdir. Bunun xüsusi əhəmiyyəti var. Mən bir daha sizi Azərbaycanda ürəkdən salamlayıram. Xoş gəlmisiniz!

**M a h m u d Ə h m ə d i n e j a d**: Bismillahir-rəhmanir-rəhim!

Mən də çox sevinirəm, xoşhalam və İlahiyə şükür edirəm ki, Sizi, dost və qardaş Azərbaycan xalqını ziyarət etmək fürsətinə nail olmuşam. Sizin də qeyd etdiyiniz kimi, biz eyni mədəniyyətə, dinə və müştərək tarixə əsaslanan iki qardaş ölkələrik. Allahın lütfi ilə bizim çox dərin qardaşlıq əlaqələrimiz vardır. Azərbaycan Respublikasının müstəqilliyinin əvvəlindən indiyədək bu əlaqələr get-gedə dərinləşməkdədir. Bu əlaqələrin inkişafı Azərbaycan Respublikasının və İran İslam Respublikasının inkişafıdır. İranın inkişafı Azərbaycanın inkişafı sayıla bilər. Onun üçün biz həm Azərbaycanın müstəqilliyindən, inkişafından və həm də təhlükəsizliyindən çox məmnunuq.

Biz həm regionda, həm də beynəlxalq səviyyədə qarşılıqlı əlaqələrimizin inkişafı istiqamətində müştərək mənafelərimizə uyğun əməkdaşlıq edirik. Çox şükürlər olsun ki, bütün sahələrdə əlaqələrimizin inkişafı yaxşı səviyyədədir. Amma bizim potensial imkanlarımız da çoxdur. Bu potensial imkanlardan səmərəli istifadə edilməsi hər iki ölkənin mənafeyinə uyğundur. Mən bir daha təkidlə qeyd etmək istəyirəm ki, dost və qardaş Azərbaycan Respublikası ilə bizim əlaqələrimizə heç bir məhdudiyyət yaratmaq haqqında düşünmürük.

*Daha sonra görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## Sənədlərin imzalanma mərasimi

*Avqustun 21-də Prezident sarayında Azərbaycan prezidenti İlham Əliyevin və İran prezidenti Mahmud Əhmədinejadın geniş tərkibdə görüşündən sonra Azərbaycan–İran sənədlərinin imzalanma mərasimi olmuşdur.*

*Azərbaycan Respublikası və İran İslam Respublikası arasında birgə bəyanatı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad imzaladılar.*

*Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi və İran İslam Respublikasının Yol və Nəqliyyat Nazirliyi arasında «Ba-*

*kı–Naxçıvan–Bakı» müntəzəm avtobus marşrutunun açılması haqqında anlaşma memorandumunu Azərbaycan tərəfindən Nəqliyyat naziri Ziya Məmmədov, İran tərəfindən Xarici İşlər naziri Məniçehr Mottəki imzaladılar.*

*Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Culfa (Azərbaycan)–Culfa (İran) avtomobil körpüsünün inşa edilməsi haqqında memorandumu Azərbaycan tərəfindən Nəqliyyat naziri Ziya Məmmədov, İran tərəfindən Xarici İşlər naziri Məniçehr Mottəki imzaladılar.*

*Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Ordubad və Marazad su elektrik stansiyalarının tikintisinə dair anlaşma memorandumunu Azərbaycan tərəfindən Sənaye və Energetika naziri Natiq Əliyev, İran tərəfindən Energetika nazirinin müavini Musa Zərgər imzaladılar.*

*Azərbaycan Respublikası Hökuməti və İran İslam Respublikası Hökuməti arasında Şahtaxtı və Poldəşt sərhəd keçid məntəqələrinə beynəlxalq status verilməsi haqqında memorandumu Azərbaycan tərəfindən Xarici İşlər naziri Elmar Məmmədyarov, İran tərəfindən Xarici İşlər naziri Məniçehr Mottəki imzaladılar.*

# AZƏRBAYCAN VƏ İRAN PREZİDENTLƏRİNİN MƏTBUAT ÜÇÜN BƏYANATLARI

*Prezident sarayı*

*21 avqust 2007-ci il*

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən sizi Azərbaycanda bir daha ürəkdən salamlayıram, xoş gəlmisiniz!

Bu gün İran İslam Respublikasının Prezidenti cənab Mahmud Əhmədinejad Azərbaycana ilk rəsmi səfərini edir. Bundan əvvəl hörmətli prezident Azərbaycanda işgüzar səfərlərdə olmuşdur. Amma ilk rəsmi səfər, əlbəttə ki, xüsusi əhəmiyyət daşıyır. Biz bu səfərə çox böyük əhəmiyyət veririk. Mən əminəm ki, səfər və onun nəticələri iki dost və qardaş ölkənin gələcək birgə fəaliyyətində çox böyük rol oynayacaqdır. Bizim aramızda münasibətlər çox yüksək səviyyədədir, çox səmimidir.

Biz bu gün söhbət əsnasında həm təkbətək görüşdə, eyni zamanda, nümayəndə heyətlərinin iştirakı ilə görüşdə çox geniş fikir mübadiləsi aparmışıq. İkitərəfli münasibətlər təhlil olundu, biz birgə layihələrimiz haqqında söhbət apardıq. Bölgədə vəziyyət, regional əməkdaşlıq məsələləri, bölgədə təhlükəsizlik tədbirlərinin güclənməsi məsələləri geniş müzakirə olundu.

Bu müzakirələr və aparılan danışıqlar bir daha göstərir ki, bizim ölkələrimiz bir-birinə çox yaxındır. Biz çox səmərəli əməkdaşlıq edirik və bu günə qədər aramızda imzalanmış bütün sənədlər həyatda öz əksini tapır. Bu da çox vacibdir ki, imzalanmış sənədlər kağız üzərində qalmır, onlar həyatda öz əksini tapır, reallığa çevrilir. Bu onu göstərir ki, doğrudan da

qarşılıqlı ticarətin inkişafı, qarşılıqlı əlaqələrin möhkəmlənməsi üçün çox böyük imkanlar və qarşılıqlı maraq var.

Bu gün isə imzalanmış sənədlər bizim müştərək inkişafımızın yeni mərhələsini müəyyən edəcəkdir. Konkret layihələr icra olunacaqdır. Bununla bərabər, prezidentlər tərəfindən imzalanmış birgə bəyanat çox geniş və müfəssəl bir sənəddir. Orada ikitərəfli münasibətləri ehtiva edən bütün prinsiplər öz həllini tapmışdır və əminəm ki, gələcək əməkdaşlıq üçün çox böyük zəmin olacaqdır.

Xüsusilə demək istəyirəm ki, birgə bəyanatda Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsinə dair bənd mövcuddur və İran İslam Respublikası Azərbaycanın mövqeyini birmənalı şəkildə bir daha dəstəklədi, münaqişənin beynəlxalq hüquq normaları əsasında həll olunmasının vacibliyi və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunması vurğulandı.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ilk günlərdən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair İranın mövqeyi birmənalı olubdur və biz bu dəstəyi daim hiss etmişik, bu gün də bunu hiss edirik. Şübhəsiz ki, məsələnin həlli üçün bu mövqe xüsusi rola malikdir.

Bütün başqa sahələrdə qarşılıqlı maraqların təmin olunması üçün lazımi tədbirlər görülür. Biz beynəlxalq təşkilatlarda çox səmərəli fəaliyyət göstəririk, istər Birləşmiş Millətlər Təşkilatı, istər İslam Konfransı Təşkilatı və digər təşkilatlarda bir-birimizi dəstəkləyirik. Eyni zamanda, regional məsələlərdə çox fəal iştirak edirik. Bütün sahələrdə – energetika, nəqliyyat, humanitar sahələrdə bizim əməkdaşlığımız çox uğurludur və bizi qane edir. Şübhə etmirəm ki, hörmətli cənab prezidentin Azərbaycana rəsmi səfərindən sonra bu münasibətlər yeni pilləyə qalxacaq, bizim aramızda çox dərin tarixi köklərə əsaslanan münasibətlər daha da inkişaf edəcəkdir.

Mən hesab edirəm ki, həm ikitərəfli münasibətlərin inkişafı üçün, həm də regional əməkdaşlığın inkişafı üçün bu səfərin çox böyük əhəmiyyəti var.

İstəyirəm cənab prezidenti və ölkəmizə gəlmiş İran nümayəndə heyətini Azərbaycanda bir daha salamlayım, «Xoş gəlmisiniz» deyim və sizə fəaliyyətinizdə uğurlar diləyim.

Təşəkkür edirəm.

## İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadin bəyanatı

Bismillahir–rəhmanir–rəhim!

Mən çox xoşhalam və təşəkkür edirəm ki, bizə belə bir fürsəti yaratdılar. Mən Azərbaycan Respublikasının möhtərəm prezidenti, yaxın dostum cənab İlham Əliyevin dəvəti əsasında qardaş və dost ölkəni ziyarət edirəm.

Azərbaycan və İran xalqları müştərək tarix, din və sivilizasiyaya sahibdirlər. Azərbaycanın istiqlaliyyətinin əvvəlindən bizim davamlı və günbəgün genişlənən əlaqələrimiz olubdur. İran İslam Respublikasının dost Azərbaycan ilə əlaqələrini genişləndirməsi üçün qəti siyasəti və möhkəm iradəsi vardır. Allaha şükürlər olsun ki, bizim əlaqələrimiz çox yaxşı səviyyədədir. Amma hər iki tərəf etiraf edir ki, əlaqələrimizin genişlənməsi, indiki vəziyyətdən daha yüksək səviyyəyə çatması üçün bizim potensialımız və gücümüz vardır. Bu günə qədər bizim aramızda müxtəlif sazişlər, sənədlər imzalanıb və icra olunubdur.

Bu gün də mühüm sazişlər və sənədlər imzalandı. Bunların hər biri qardaşlıq əlaqələrinin genişləndirilməsi üçün mühüm addımdır. Biz müzakirələrimizdə regional və beynəlxalq məsələlər barədə danışıqlar apardıq. Müzakirələr göstərdi ki, bizim düşüncələrimiz, mövqelərimiz bir-birinə çox yaxındır və müştərəkdir. Biz istəyirik ki, siyasi, iqtisadi və bütün sahələrdə əlaqələrimiz genişlənsin və güclənsin.

Bundan əlavə, neft, qaz, energetika, neft kimyası, ticarət, nəqliyyat, mühəndis mübadiləsi sahələrində və ixracatda əlaqələrin inkişafı üçün potensial imkanlar çoxdur. Ekspertlər bu barədə araşdırmalar aparırlar və bunların həyata keçirilməsi üçün səylə çalışırlar.

Bizim mövqeyimiz belədir ki, ölkələr arasında münaqişələr və problemlər gərək ədalət, qanun çərçivəsində və danışıqlar əsasında həll olunsun. Bəziləri çalışırlar ki, münaqişə yaratsınlar. Münaqişələrin həllində zorakılıq və kobud metodlardan istifadə edirlər. Onlar sülh, sabitlik və əmin-amanlıq istiqamətində hərəkət etmirlər. Biz Azərbaycanın

mövqeyini ədalət məntiqi və prinsipi əsasında dəstəkləyirik və deyirik ki, bu münaqişə danışıqlar yolu ilə və ədalət prinsipi çərçivəsində həll olunmalıdır.

Biz regional və beynəlxalq məsələlər barəsində danışıqlar apardıq. Bizim çox məsələlərdə mövqeyimiz oxşardır. Mən cənab prezident İlham Əliyevi Xəzəryanı ölkələrin zirvə toplantısında iştirak etmək üçün İran İslam Respublikasına dəvət etdim. Ümid edirik ki, bu zirvə toplantısı Xəzəryanı ölkələrin müştərək maraqlarının təmin olunmasında böyük rol oynayacaq, məsələlərin həllinə və Xəzəryanı ölkələrin potensialından düzgün istifadə olunmasına təkan verəcəkdir.

Mən bəyan edirəm ki, İran İslam Respublikası Azərbaycan Respublikasının inkişafını qətiyyətlə dəstəkləyir. Biz istəyirik ki, qonşu ölkə – Azərbaycan daha sürətlə inkişaf etsin. Biz buna çox maraqlıyıq. Əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsində hər iki tərəfin iradəsi ciddidir.

Mən cənab İlham Əliyevə təşəkkür edirəm ki, bizi dəvət etdi və çox mehribanlıqla qarşıladılar. Bir daha bəyan edirəm ki, biz yaxın dostuq, xalqlarımızın dostluğunun rəmzi və nümayəndəsiyik. Biz gərək fəaliyyətimizi və gücümüzü xalqlarımızın yaxınlığına yönəldək.

Bizi mehribanlıqla qarşılamağınıza və göstərilən qonaqpərvərliyə görə təşəkkür edirəm. Qeyd edirəm ki, cənab İlham Əliyevin Tehrana və mənim Bakıya səfərim iki ölkə arasındakı dostluğun inkişafına təkan verəcək və regionda sülhə, sabitliyə və təhlükəsizliyə xidmət edəcəkdir.

* * *

*Sonra Azərbaycan və İran prezidentləri jurnalistlərin suallarına cavab verdilər.*

**J u r n a l i s t: Mənim sualım Azərbaycan prezidentinədir. Cənab Prezident, iki ölkə arasında indiki əlaqələrin və münasibətlərin səviyyəsi necədir və Siz xüsusilə neft və enerji sahəsində münasibətlərin daha da genişləndirilməsi üçün nə təklif edirsiniz?**

**İ l h a m Ə l i y e v:** Biz ikitərəfli münasibətlərdən çox razıyıq. Bu münasibətlər bayaq qeyd olunduğu kimi, dərin,

tarixi, mədəni, dini köklər əsasında qurulur. Bugünkü münasibətlərin səviyyəsi çox yüksək qiymətləndirilir. Halbuki, iqtisadi sahədə potensialdan tam şəkildə istifadə edilmir. Biz hesab edirik ki, qarşılıqlı ticarəti kəskin şəkildə artıra bilərik. Düzdür, 2007-ci ildə qarşılıqlı ticarətin həcmi təxminən 60–70 faiz artmışdır. Bu çox böyük irəliləyişdir. Amma potensial bundan da böyükdür və bu gün konkret layihələr geniş şəkildə müzakirə olunmuşdur.

Bu gün imzalanmış sənədlər icra olunduqda əlavə imkanlar yaradacaq və əlbəttə ki, biznes aləminin fəaliyyəti, müştərək komissiyanın fəaliyyəti və investisiya şirkətlərinin öz aralarında yaranan münasibətləri ikitərəfli iqtisadi əlaqələrin inkişafı üçün çox gözəl imkan yaradacaqdır.

Siyasi əlaqələrə gəldikdə, bu əlaqələr də çox yüksək səviyyədədir.

Bizim aramızda bütün məsələlərdə tam anlaşma var. Biz bir-birimizi dəstəkləyirik, bir-birimizin mövqeyini müdafiə edirik. Belə də olmalıdır. İki qonşu, dost, qardaş xalqlar, əsrlər boyu bir yerdə yaşamış xalqlar, əlbəttə, indiki şəraitdə də bir-birinə daim dəstək olmalı, bir-birinə daim diqqət göstərməlidirlər.

Energetika sahəsində artıq kifayət qədər böyük həcmdə işlər görülür. İmişli–Parsabad elektrik xətlərinin birləşməsi bizə imkan verəcək ki, il ərzində 700 meqavat gücündə elektrik enerjisi mübadiləsi aparılsın.

Hörmətli prezident Mahmud Əhmədinejad təxminən iki il bundan əvvəl Naxçıvana gəlmişdi və biz orada İrandan Naxçıvana təbii qazın verilməsini bərabər qeyd etdik, qaz məşəlini birlikdə yandırdıq. Beləliklə, Ermənistan Naxçıvanı mühasirəyə aldığına görə, 13 il fasilədən sonra naxçıvanlılar təbii qazla təmin olundular. İndi o layihənin ikinci mərhələsi icra olunur və belə olan halda Naxçıvan tam şəkildə qazla təmin oluna bilər.

Digər layihələr mövcuddur, o cümlədən neft-qaz sahəsində qarşılıqlı ticarətin təşviq olunması və müştərək layihələrin həyata keçirilməsi, xarici bazarlara birgə çıxış və bu sahədə əməkdaşlığın dərinləşməsi – bütün bunlar həm ölkələrimiz üçün lazımdır, həm də regional əməkdaşlığa çox güclü təkan verəcək və regional təhlükəsizliyə də öz töhfəsini verəcəkdir.

Biz əməkdaşlıq edirik. Biz bir-birimizi dəstəkləyirik. Biz istəyirik ki, bölgədə sülh olsun, əmin-amanlıq olsun, xalqlarımız yaxşı yaşasınlar, rifah olsun və insanlar normal şəraitdə yaşasınlar. Bunu etmək üçün, əlbəttə ki, biz səylərimizi birləşdirməliyik. Bunu etmək üçün bütün sahələrdə – siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə daha da fəal işləməliyik və belə bir niyyət var. Bu gün aparılan danışıqlar zamanı bir daha hiss olundu ki, bu qarşılıqlı niyyət çox güclüdür və bizə imkan verəcək ki, istənilən məsələni tezliklə həll edək.

**J u r n a l i s t: Mənim sualım İran prezidentinədir. Cənab Prezident, iki ölkə arasında, xalqlarımız arasında möhkəm bağlılıq var. Məhz bu baxımdan iki ölkə arasında humanitar sahədə əməkdaşlığın konkret perspektivlərini nədə görürsünüz?**

**M a h m u d Ə h m ə d i n e j a d:** Mən Sizə təşəkkür edirəm. Cənab prezident iki ölkənin müştərək mövqeyini bəyan etdi. Bu gün bizim əlaqələrimiz, xüsusilə siyasi sahədə əlaqələrimiz çox yaxşı səviyyədədir və çalışırıq ki, həm siyasi sahədə, həm də iqtisadi sahədə əlaqələrimizi və əməkdaşlığımızı daha da yüksək səviyyəyə qaldıraq. Bizim nöqteyi-nəzərlərimiz çox oxşardır və müştərəkdir. Bizim hər ikimiz müstəqilliyə, insanların izzətinə, kəramətinə və şərafətinə, eləcə də sülh, əmin-amanlıq və təhlükəsizliyə, bütün xalqlara ehtiram və hörmətlə yanaşırıq. Biz qanunun adil və bərabər şəkildə icrasını istəyirik. Biz düşünürük ki, bütün xalqların rifah, azadlıq, əmin-amanlıq şəraitində yaşamasına və bərabər hüquqlara malik olmasına haqları vardır. Biz bu ideyalara qarşı zorakılıq metodundan istifadə edilməsini pisləyirik və onlarla müxalifətdəyik. Biz hesab edirik ki, gərək bütün xalqlar, dövlətlər qanun və ədalət əsasında bir-biriləri ilə dostluq əlaqələri qursunlar.

Bizim ölkələr arasındakı mədəniyyət, insani, humanitar, elm və təhsil sahələrində əlaqələrimiz çoxdan başlanıbdır. Bizim ciddi iradəmiz vardır ki, bu əməkdaşlığımızı yüksək səviyyəyə qaldıraq. Elmi, mədəni təcrübələrimizi bir-birimizlə mübadilə edək. Bizim təcrübə mübadiləmiz xalqlarımızın xeyrinədir. Biz bütün xalqların hüquqlarını, bütün insanların hüquqlarını bütün sahələrdə ehtiva edirik. Beynəlxalq təşkilatlarda bizim

mövqeyimiz çox aydın və müştərək mövqedir. Bizim xalqların mədəniyyətinin və hüquqlarının qorunması sahəsində mövqeyimiz çox aydındır. Düşünürəm ki, bizim tutduğumuz mövqe çox yaxşıdır.

Uzunmüddətli əlaqələrimiz möhkəm əsaslar üzərində qurulubdur və inşallah, bu əsasların üzərində yeni binalar tikiləcəkdir. Mən yaxın dostum cənab İlham Əliyevə və onun əməkdaşlarına bir daha təşəkkür edirəm və buradan əziz, hörmətli, imanlı, vəfalı və qonaqpərvər Azərbaycan xalqına səmimi salamlarımı çatdırıram. Onlara cansağlığı, Azərbaycan dövlətinə inkişaf, günbəgün artan izzət, şərafət və başucalığı diləyirəm.

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ

*«Gülüstan» sarayı*

*21 avqust 2007-ci il*

*Avqustun 21-də «Gülüstan» sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın şərəfinə rəsmi ziyafət təşkil edilmişdir.*

*Dövlət başçıları ziyafətdə nitq söylədilər.*

### Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Əziz dostlar!

Mən sizi bir daha ürəkdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Bu gün İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın Azərbaycana ilk rəsmi səfəridir. Bu səfərin çox böyük əhəmiyyəti var. Baxmayaraq ki, hörmətli prezident, mənim dostum Azərbaycanda dəfələrlə olubdur, rəsmi səfər xüsusi əhəmiyyətə malikdir. Əminəm ki, bu səfər və onun nəticələri ikitərəfli münasibətlərin inkişafı üçün çox mühüm rol oynayacaqdır.

Bu gün biz maraq doğuran bütün məsələləri çox səmimi, işgüzar şəraitdə müzakirə etdik. İkitərəfli münasibətlər geniş təhlil edildi və gələcək inkişaf perspektivləri müəyyən olundu. Regional əməkdaşlığa dair geniş fikir mübadiləsi aparılmışdır.

Bölgədə təhlükəsizlik tədbirlərinin gücləndirilməsi məsələləri müzakirə olunmuşdur. Deyə bilərəm ki, bütün məsələlərdə bizim mövqeyimiz üst-üstə düşür, çox yaxındır. Biz bundan sonra da çalışacağıq ki, birgə səylərimizlə həm regional əməkdaşlığı inkişaf etdirək, həm ikitərəfli münasibətləri yeni elementlərlə zənginləşdirək, həm də bölgədə təhlükəsizlik tədbirlərinin güclənməsi üçün əlimizdən gələni edək. Buna böyük ehtiyac var.

Bizim aramızda olan münasibətlər çox dərin tarixi köklərə əsaslanır. Bizim birgə tariximiz, milli-mənəvi dəyərlərimiz, dinimiz əsrlər boyu bizim xalqlarımızı birləşdirib. Bizim xalqlarımız həmişə, əsrlər boyu birgə yaşamış, bir yerdə olmuşlar. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra, əlbəttə ki, bu münasibətlər yeni mərhələyə qalxdı. Bu gün 15 illik tarixə nəzər salaraq deyə bilərik ki, İranla Azərbaycan bütün dövrlərdə bir-birini müdafiə etmiş, mövqelərini dəstəkləmiş, beynəlxalq təşkilatlarda vahid mövqedən çıxış etmiş, bir-birinin mövqeyini müdafiə etmişdir. Bu səmimi dostluq, qardaşlıq münasibətləri bu gün də davam edir və güclənir. Səfərin isə bu münasibətlərin gələcək inkişafında çox böyük rolu vardır.

Bizim siyasi əlaqələrimiz çox yüksək səviyyədədir və əminəm ki, səfər və onun nəticələri bu münasibətləri yeni pilləyə qaldıracaqdır. İqtisadi sahədə çox gözəl imkanlar var və artıq əməli, praktiki işlər də öz həllini tapır. Bizim münasibətlərimizi fərqləndirən cəhət ondan ibarətdir ki, qəbul edilmiş qərarlar, imzalanmış sənədlər həyatda öz əksini tapır. Uzun illər ərzində, on ildən artıq müddət ərzində təbii qaza həsrət qalmış naxçıvanlılar məhz İran tərəfindən mübadilə yolu ilə verilən qazın imkanlarından istifadə edirlər. Bu, Naxçıvanın iqtisadi potensialına böyük dəstəkdir. İnsanların həyat səviyyəsini yaxşılaşdıran çox önəmli amildir.

Elektrik xətlərinin birləşməsi nəticəsində elektrik xətlərimiz vahid tənzimləmə sistemində fəaliyyət göstərir. Bizim aramızda çox fəal ticarət əlaqələri vardır. Son bir il ərzində iqtisadi əlaqələrin inkişafı nəticəsində ticarət dövriyyəsi təxminən 60–70 faiz artmışdır. Biz bilirik ki, imkanlar daha da böyükdür. Bu imkanları aşkarlamaq, onlardan istifadə etmək gələcək illər

üçün əsas prioritet məsələlər olacaqdır. Hökumətlərarası birgə komissiyanın uğurlu fəaliyyəti və bu fəaliyyət nəticəsində əlavə imkanların üzə çıxması bizim münasibətlərimizi yüksək dərəcədə zənginləşdirir.

İqtisadi, energetika, mədəni, humanitar, siyasi əlaqələr sahəsində bizim aramızda çox gözəl münasibətlər vardır. Bu səfərin önəmliyi məhz ondadır ki, həmin münasibətlərə bir daha qiymət verildi, keçilən tarixi yol təhlil olundu və ən önəmlisi, gələcək inkişaf haqqında fikir mübadiləsi aparıldı və əməkdaşlığın perspektivləri müəyyən edildi. Əminəm ki, bu gün imzalanmış sənədlər yaxın zamanlarda həyatda öz əksini tapacaqdır.

Bu gün imzalanmış birgə bəyanat çox əsaslı sənəddir. Orada bütün məsələlər öz həllini tapır. Azərbaycanı narahat edən, bölgə üçün ən böyük təhlükə mənbəyi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətləri də orada müəyyən olunubdur. İran dövləti bütün dövrlərdə Azərbaycanın haqq işini dəstəkləmiş, həmişə bizim mövqeyimizi müdafiə etmişdir və məsələnin, Ermənistan–Azərbaycan münaqişəsinin yalnız və yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq və normalar əsasında, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının dörd qətnaməsi əsasında həll olunmasını vurğulamışdır. Bu mövqe birgə bəyanatda bir daha öz əksini tapıbdır. Mən buna görə şəxsən dostum cənab prezidentə öz minnətdarlığımı bildirmək istəyirəm.

Mən ümid edirəm ki, bizim aramızda güclənən, genişlənən əməkdaşlıq gələcək illərdə daha da inkişaf edəcək, bizim xalqlarımız hələ çox işlər görəcək və birgə səylərlə həm ikitərəfli münasibətlərin inkşafına, həm də bölgədə sülhün, əmin-amanlığın bərqərar olunmasına öz töhfələrini verəcəklər.

Mən bu gün əziz dostum cənab prezidenti Bakıda səmimi-qəlbdən bir daha salamlayıram və qardaş İran xalqına sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

Sağ olun.

**İran İslam Respublikasının Prezidenti**
**Mahmud Əhmədinejadın nitqi**

Bismillahir-rəhmanir-rəhim!

Ey Allah, imam Zaman ağanın zühurunu tezliklə yetir. Böyük Allaha şükür edirəm, belə bir fürsəti bizə qismət etdi ki, gəlib Azərbaycan Respublikasında öz qardaşlarımızı bir daha ziyarət etdik, keçmiş, yaxın və zəngin tarixi əlaqələrimizə bir daha nəzər yetirdik.

Qardaşım və dostum cənab prezident İlham Əliyevin dediyi kimi, xalqlarımızın qardaşlıq, dostluq kökləri tarixən çox dərin və uzunmüddətlidir. Min illərdir xalqlarımız öz mədəniyyətləri, etiqadları və müştərək dinləri ilə bir yerdə yaşayıblar, həmişə sülh, qardaşlıq və dostluq carçısı olublar və bəşəriyyətə belə mesaj veriblər. Bu gün də dostluq əlaqələri, davamlı əlaqələr, xüsusilə Azərbaycan Respublikasının istiqlaliyyətindən sonra xalqlarımızın əlaqələri günbəgün genişlənir. Mənim Azərbaycanda olmağım qardaşlıq əsasında qurulan əlaqələrimizin daha bir göstəricisidir, ölkələrimizin müxtəlif sahələrdə geniş əlaqələr qurmasına olan istəkdir.

Azərbaycanın sürətli inkişafı İran xalqını şad edən məsələdir və bizim xalqımız həmişə özünü Azərbaycan xalqının sevincinə şərik bilir. Biz inanırıq ki, Azərbaycan xalqı da İran xalqının inkişafından həmişə xoşhaldır. Xalqlarımızın inkişafı, gücü, qüdrəti ölkələrimizin marağına, mənafeyinə, regional təhlükəsizliyə və sabitliyə xidmət edir. Mənim qardaşım cənab prezident İlham Əliyevlə çox səmərəli danışıqlar apardıq və ikitərəfli əlaqələrin genişlənməsi potensialını, neft, müştərək investisiya, neft kimyası, ticarət sahələrinə dair məsələləri müzakirə etdik. Bütün potensial imkanlar araşdırıldı. Müştərək, regional və beynəlxalq səviyyəli məsələlərə baxışlarımız üst-üstə düşür və biz bu əməkdaşlığı daha da genişləndirmək əzmindəyik.

Əvvəllər də ölkələrimiz arasında mühüm sazişlər və sənədlər imzalanmışdır və bunların çoxu icra olunmuşdur. Bu gün imzalanan sənədlər də, sazişlər də Allahın köməyi ilə həyata keçiriləcəkdir.

Mən İran xalqının dostluq salamlarını sizə gətirmişəm. Bizim fikrimiz və amalımız budur ki, ölkələrimizin əlaqələri və əməkdaşlığı başqa xalqlara, regionda olan digər xalqlara

nümunə olsun. Xalqlarımızın və dövlətlərimizin regionda sülhün və sabitliyin təmin olunmasında böyük rolu vardır. Biz Azərbaycan xalqına hörmət edərək, Azərbaycan xalqının izzətindən, mədəniyyətindən məmnunluq duyuruq, Azərbaycanın haqq işini müdafiə edirik. Biz inkişaf istiqamətində həmişə Azərbaycan xalqının yanında olacağıq.

Qardaşım cənab prezident İlham Əliyev ilə mənim dostluq münasibətlərim əməkdaşlığımız üçün böyük imkanlar açır. Sərmayədarlar və sahibkarlar, ölkələrimizin xeyrini və yaxşılığını istəyənlər üçün potensial imkanlar mövcuddur. İkitərəfli əlaqələrimizin genişlənməsi üçün geniş imkanlar, potensiallar və zəminlər vardır. Mən uğurlu danışıqlara, səmərəli müzakirələrə görə təşəkkür edirəm. Mühüm sazişlərin imzalanmasına görə də cənab İlham Əliyevə və istəkli Azərbaycan dövlətinə və xalqına təşəkkür edirəm.

Əminəm ki, mənim bu səfərim və yaxın zamanda qardaşım cənab prezident İlham Əliyevin Tehrana səfəri xalqlarımızın əlaqələrinin daha da genişlənməsinə, onların inkişafına xidmət edəcəkdir.

Böyük və müqəddəs Allahdan əziz Azərbaycan xalqına cansağlığı, şadlıq, inkişaf, izzət, başucalığı diləyirəm. İnanıram ki, Allahın köməyi ilə gələcək bizimdir, insani baxışlarındır. Gələcək həmişə bizim qardaşlıq və dostluq əsasında qurulan əlaqələrindir. Ümid edirəm ki, inşallah, qardaşım cənab prezident İlham Əliyevi tezliklə Tehranda görəcəyəm.

## İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ DAVAM EDİR

*21 avqust 2007-ci il*

### Heydər Əliyev Fondu ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad avqustun 21-də Heydər Əliyev Fondunda olmuşlar.*

*İran prezidentinə ulu öndər Heydər Əliyevin xatirəsinə ehtiram əlaməti olaraq yaradılan fondun fəaliyyəti barədə ətraflı məlumat verildi. Qeyd edildi ki, Fondun əsas məqsədi ümummilli liderin zəngin irsinin öyrənilməsi, təbliğ edilməsi, ulu öndərin Azərbaycanın sosial-iqtisadi, mədəni tərəqqisinə yönələn genişmiqyaslı fəaliyyəti barədə gələcək nəsillərdə əyani təsəvvür yaratmaqdır.*

*Qonaqları fonddakı eksponatlarla tanış edən prezident İlham Əliyev, ulu öndər Heydər Əliyevin fəaliyyətinin müxtəlif dövrləri haqda ətraflı məlumat verdi.*

*İran prezidenti ümummilli lider Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan sənədlərlə tanış oldu. Ekspozisiyada milli liderin beynəlxalq miqyaslı tədbirlərdəki çıxışları, kənd əməkçiləri ilə görüşləri, neft strategiyası əks olunmuşdur.*

*Ulu öndərin hərbi kadrların yetişdirilməsinə diqqətindən, mədəniyyət, incəsənət, idmana göstərdiyi qayğıdan danışıldı. Qonaqlar ulu öndərin müxtəlif ölkələrin liderləri ilə görüşlərini əks etdirən fotoşəkillərə böyük maraqla baxdılar.*

*President Mahmud Əhmədinejad Heydər Əliyev Fondunun Xatirə kitabına ürək sözlərini yazdı.*

*İranın dövlət başçısına xatirə hədiyyəsi təqdim edildi.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyev və İran prezidenti Mahmud Əhmədinejad piyada Dənizkənarı Milli Parka*

*gəldilər. Azərbaycanın dövlət başçısı dost ölkənin prezidentinə ənənəvi üslubu saxlamaqla, Bakının ən müasir standartlar səviyyəsində inkişafı üçün həyata keçirilən kompleks tədbirlərdən söhbət açdı.*

*İran Prezidenti Azərbaycan paytaxtının qısa müddətdə tanınmaz dərəcədə dəyişdiyini, Bakının böyük tikinti, quruculuq meydanına çevrildiyini söylədi. Paytaxt sakinləri dövlət başçılarını böyük səmimiyyətlə qarşıladılar.*

*Prezident İlham Əliyev və prezident Mahmud Əhmədinejad Bakının yaraşığı olan musiqili fəvvarəni seyr etdilər.*

*Dənizkənarı Milli Parkla tanışlıq İran prezidenti Mahmud Əhmədinejadda zəngin təəssürat doğurdu.*

## Ümummilli lider Heydər Əliyevin məzarını ziyarət

*İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad avqustun 22-də Fəxri xiyabana gəlmişdir.*

*Burada ali qonağı və nümayəndə heyətinin üzvlərini Azərbaycan Xarici İşlər nazirinin müavini Xələf Xələfov, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov və digər rəsmi şəxslər qarşıladılar.*

*İran dövlətinin başçısı türk dünyasının görkəmli oğlu, ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla anaraq məzarı önünə əklil qoydu.*

*İran prezidenti görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üstünə də tər gül dəstəsi qoydu.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov ali qonağa Fəxri xiyabanın tarixi barədə məlumat verdi.*

## Şəhidlərin xatirəsinə ehtiram

*İran prezidenti Mahmud Əhmədinejad avqustun 22-də Şəhidlər xiyabanını ziyarət etmişdir.*

*İran dövlətinin başçısını və nümayəndə heyətinin üzvlərini Azərbaycan Xarici İşlər nazirinin müavini Xələf Xələfov, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov və digər rəsmi şəxslər qarşıladılar. Burada ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*İran dövlətinin başçısı Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman övladlarımızın xatirəsinə ucaldılmış «Əbədi məşəl» abidəsinin önünə əklil qoydu.*

*Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında İranın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov ali qonağa Şəhidlər xiyabanının tarixi və paytaxtımızda görülən abadlıq-quruculuq işləri barədə məlumat verdi.*

*Prezident Mahmud Əhmədinejad Azərbaycan paytaxtının mənzərəsini maraqla seyr etdi.*

* * *

*Avqustun 22-də İran İslam Respublikasının prezidenti Mahmud Əhmədinejadın Azərbaycan Respublikasına rəsmi səfəri başa çatmışdır.*

*Azərbaycanın və İranın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Təyyarənin pilləkəni yanında milli geyimli üşaqlar İran dövlətinin başçısına gül dəstəsi verdilər. İran prezidenti Mahmud Əhmədinejadı Azərbaycanın Baş naziri Artur Rasizadə, Xarici İşlər naziri Elmar Məmmədyarov və digər rəsmi şəxslər yola saldılar.*

**BUNDESTAQIN DEPUTATI, AŞPA-nın MONİTORİNQ KOMİTƏSİNİN SƏDRİ EDUARD LİNTNER İLƏ GÖRÜŞ**

*Prezident sarayı*

*22 avqust 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 22-də Prezident sarayında Bundestaqın deputatı, Avropa Şurası Parlament Assambleyasının Monitorinq Komitəsinin sədri Eduard Lintneri qəbul etmişdir.*

*Görüşdə Azərbaycan–Almaniya ikitərəfli münasibətlərinə, parlamentlərarası və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığa dair fikir mübadiləsi aparılmışdır.*

## *bp* QRUPUNUN KƏŞFİYYAT VƏ HASİLAT İŞLƏRİ ÜZRƏ BAŞ İCRAÇI DİREKTORU ENDİ İNQLİS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*22 avqust 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 22-də Prezident sarayında bp qrupunun kəşfiyyat və hasilat işləri üzrə Baş icraçı direktoru Endi İnqlisi qəbul etmişdir.*

*Endi İnqlis cari ilin iyulunda «Şahdəniz» yatağından hasil edilən qazın ixracına başlanmasının çox önəmli hadisə olduğunu qeyd etdi. O, bu mühüm nailiyyət nəticəsində Azərbaycanın beynəlxalq qaz təchizatçılarından birinə çevrildiyini vurğuladı. Qonaq bp şirkətinin ölkəmizdə həyata keçirdiyi layihələrin hazırkı vəziyyəti barədə prezident İlham Əliyevə məlumat verdi.*

*Dövlətimizin başçısı «Şahdəniz» yatağı qazının ixracının böyük hadisə olduğunu vurğuladı. O, Azərbaycanın təşəbbüsü və birbaşa iştirakı ilə həyata keçirilən qlobal enerji layihələrinin region və dünya üçün mühüm əhəmiyyət kəsb etdiyini bildirdi. Prezident İlham Əliyev Azərbaycan ilə bp arasında uğurlu əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə əminliyini vurğuladı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NEFTÇALA RAYONUNA SƏFƏRİ

*23 avqust 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 23-də Neftçala rayonuna gəlmişdir.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı rayon sakinləri böyük hörmət və ehtiramla, hərarətli alqışlarla qarşıladılar. Onların əllərində ulu öndər Heydər Əliyevin, prezident İlham Əliyevin portretləri, Azərbaycanın dövlət bayraqları, ümummilli liderin müdrik kəlamları yazılmış transparantlar var idi.*

*Dövlətimizin başçısı və xanımı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Neftçala şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək gül qoydular.*

*Məlumat verildi ki, ümummilli lider Heydər Əliyevin adını daşıyan bu abad və müasir park cari ilin əvvəlində salınmışdır. Parkın ərazisi 7 min kvadratmetrdir. Burada sakinlərin istirahəti üçün hər cür şərait yaradılmışdır. Bu parkın yanında isə daha bir istirahət guşəsi – Neftçilər parkı salınmışdır. Ulu öndərin heykəlinin hündürlüyü postamentlə birlikdə 6,4 metrdir.*

*Sonra prezident İlham Əliyev Neftçalada Heydər Əliyev muzeyi ilə tanış oldu. Dövlətimizin başçısı muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Bildirildi ki, tikintisinə 2006-cı ilin oktyabrında başlanmış muzey bu ilin fevralında istifadəyə verilmişdir. Ancaq rəsmi açılışı bu gün keçirilir. Muzey bir ekspozisiya zalından, 14 fotostenddən, 10 vitrindən ibarətdir. Fotostendlərdə ulu öndərin həyat və fəailiyyətinin müxtəlif dövrlərinə aid şəkillər, vitrinlərdə isə kitablar və sənədlər nümayiş etdirilir. Ümummilli lider Heydər Əliyevin 1979-cu il mayın 30-da ilk dəfə Neftçalaya*

*gəlişini və burada keçirdiyi görüşləri əks etdirən materiallar iki xüsusi ekspozisiyada nümayiş etdirilir.*

*Muzeydə, həmçinin prezident İlham Əliyevin fəaliyyətini, ölkəmizin, o cümlədən Neftçalanın sosial-iqtisadi inkişafını əks etdirən kitablar və digər materiallar da toplanmışdır.*

*Prezident İlham Əliyev muzeyin Xatirə kitabına öz ürək sözlərini yazdı.*

# NEFTÇALA RAYONU İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*23 avqust 2007-ci il*

Əziz neftçalalılar!

Əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün Heydər Əliyev muzeyinin açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm. Muzeydə əks olunan eksponatlar ulu öndərin həyat və fəaliyyətini göstərir. Həm 70-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrdə, həm də müstəqillik dövründə ulu öndər Heydər Əliyev həmişə öz xalqına sədaqətlə xidmət etmişdir. O illərdə və 90-cı illərdə Azərbaycanın hərtərəfli inkişafı üçün, iqtisadi və siyasi potensialının qaldırılması üçün əlindən gələni əsirgəmirdi. 1979-cu ildə Heydər Əliyevin Neftçalaya səfəri də bu muzeydə xüsusi yer tutur. Rayonun o vaxtkı inkişafına çox böyük diqqət göstərilirdi. Burada böyük quruculuq-abadlıq işləri aparılırdı, sənaye müəssisələri, kənd təsərrüfatı inkişaf edirdi.

Əfsuslar olsun ki, 90-cı illərin əvvəllərində baş vermiş xoşagəlməz proseslər ölkəmizə, o cümlədən Neftçalaya da böyük ziyan vurmuşdur. O vaxt Azərbaycan faktiki olaraq öz iqtisadi gücünü itirmişdi. Müəssisələr dayanmışdı, kənd təsərrüfatı tənəzzül edirdi, insanların həyat səviyyəsi gündən-günə pisləşirdi. Ölkəmizin, ümumiyyətlə, müstəqil ölkə kimi yaşaması sual altında idi. Biz o illəri çox yaxşı xatırlayırıq.

Müstəqilliyimizin ilk illəri əfsuslar olsun ki, Azərbaycanda çox ağır şəraitdə keçdi. Bunun nəticəsində də ölkəmizin torpaqları işğal olundu, vətəndaş qarşıdurması baş verdi. Bütövlükdə Azərbaycanın iqtisadi və siyasi potensialı olduqca aşağı düşdü. Amma baxın, bu gün Azərbaycan dünyanın ən sürətlə inkişaf edən ölkələrindən biridir. Bu gün ulu öndərin

zəhməti və fəaliyyəti nəticəsində Azərbaycan çox sürətlə inkişaf edir.

Bu inkişafın təməli 90-cı illərin ortalarında qoyulmuşdur. 1993-cü ildən başlayaraq 2003-cü ilə qədər 10 il ərzində Heydər Əliyevin yorulmaz fəaliyyəti nəticəsində ölkəmiz o ağır, çətin şəraitdən şərəflə çıxa bilmişdir, öz siyasi potensialını gücləndirmişdir. İqtisadiyyatda başlanmış islahatlar insanların həyat şəraitinə yüksək dərəcədə müsbət təsir göstərmişdir. Bu gün Azərbaycan beynəlxalq miqyasda çox önəmli bir ölkəyə çevrilmişdir.

Bizim təşəbbüslərimiz, irəli sürdüyümüz təkliflər nəinki Azərbaycana yeni imkanlar yaradır, həm də beynəlxalq münasibətlərə öz təsirini göstərir. Biz bölgədə aparıcı dövlətə çevrilmişik. Bu, artıq reallıqdır. Reallıq hamı tərəfindən qəbul olunub. Bizim qərarlarımız, bizim işlərimiz bütün bölgəyə öz təsirini göstərir. Biz də istəyirik ki, Azərbaycan daha da qüdrətli dövlətə çevrilsin. Bizim imkanlarımız daha da artsın, siyasi çəkimiz artsın, beynəlxalq müstəvidə istədiyimizə nail ola bilək, öz doğma torpaqlarımızı işğalçılardan azad edə bilək və Azərbaycan xalqının normal, yaxşı yaşamasını təmin edə bilək. Bunu etmək üçün Azərbaycan güclənməlidir. Bu proses artıq baş verir.

Mən bayaq qeyd etdim ki, dünyada ən sürətlə inkişaf edən iqtisadiyyat məhz Azərbaycandadır. Üç il ərzində Azərbaycan iqtisadiyyatı dünyada analoqu olmayan sürətlə artıb. Bu bizə imkan verir ki, bizim büdcəmiz də artsın. Əgər bir neçə ilin statistikasına nəzər salsaq görərik ki, cəmi 3-4 il ərzində bizim büdcəmiz 1 milyard dollardan indi 8 milyard dollara qalxıbdır. Bu o deməkdir ki, xərclər artıb, sosial infrastrukturun inkişafına daha da böyük diqqət göstərilir, böyük infrastruktur layihələri həyata keçirilir. Maaşlar və pensiyalar vaxtaşırı qaldırılır. Məktəblər, xəstəxanalar tikilir. Yəni, bütün bunları etmək üçün iqtisadi güc lazımdır, iqtisadi potensial lazımdır.

Bizi ən çox gücləndirən yenə də ulu öndərin neft strategiyası olmuşdur. Onun təşəbbüsü ilə başlanmış və uğurla icra edilən Azərbaycanın neft strategiyası bizim iqtisadi gücümüzü yüksək dərəcədə artırdı, eyni zamanda, siyasi gücümüzü də artırdı.

Bu gün Azərbaycan bölgədə gedən proseslərdə çox fəal iştirak edir, öz neft strategiyasını Azərbaycan xalqının milli maraqlarına yönəldir. Bizim milli maraqlarımız hər şeydən üstün olmalıdır. Bu belə də var.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası ölkəmizin hərtərəfli inkişafına şərait yaradır. Neft bizim əsas sərvətimizdir və bu, uzun illər bundan sonra da belə olacaqdır. Əvvəllər, ölkəmiz müstəqil olmayan dövrdə bizim milli sərvətimiz ümumi Sovet İttifaqının inkişafına xidmət edirdi. İndi isə biz bu sərvətin sahibləriyik. Biz bu sərvətdən istifadə edib öz ölkəmizi inkişaf etdiririk, öz xalqımızın rifah halını yaxşılaşdırırıq. Bundan sonra da uzun illər bu belə olacaq. Bu bizim iqtisadiyyatımızın aparıcı sahəsidir. Amma bizim istəyimiz odur ki, iqtisadiyyatın başqa sahələri də inkişaf etsin. Kənd təsərrüfatı inkişaf etsin, Azərbaycanda güclü sənaye potensialı yaradılsın, yeni müəssisələr tikilsin, insanlar işlə təmin olunsunlar. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının əsas vəzifəsi bundan ibarətdir.

Mən çox şadam ki, keçən təxminən 4 il ərzində nəzərdə tutulmuş bütün proqramlar həyatda öz əksini tapır. Azərbaycanda 570 mindən çox yeni iş yeri açılmışdır. Mən xatırlayıram, 2003-cü ilin prezident seçkiləri ərəfəsində bəyan edirdim ki, növbəti 5 ildə Azərbaycanda 600 min yeni iş yeri açılacaqdır. Bu gün biz bunun nəticələrini görürük. Mən xatırlayıram, o vaxt, 2003-cü ildə Neftçala rayonuna da səfər etmişdim. Burada, Xıllı qəsəbəsində balıqartırma zavodunun açılışında iştirak etmişdim, insanlarla görüşmüşdüm. Mənə verilən o dəstək, o cümlədən Neftçalada hiss etdiyim o dəstək mənə əlavə güc verir. Mən də bundan istifadə edirəm ki, doğma xalqıma ləyaqətlə xidmət edim, Azərbaycanın hər bir rayonunun, hər bir qəsəbəsinin, hər bir kəndinin problemi öz həllini tapsın.

İcra hakimiyyətinin başçısı bu gün qeyd etdi ki, Neftçala magistral yollardan kənarda yerləşir. Amma bu o demək deyil ki, buraya diqqət az olmalıdır, əksinə, buraya diqqət daha da çox olmalıdır. Burada gedən proseslərə daha da böyük dəstək verilməlidir. Neftçalada gedən abadlıq-quruculuq işləri, rayonun inkişafındakı müsbət dəyişikliklər məni sevindirir.

Bildiyiniz kimi, bu yaxınlarda Neftçalanın inkişafına vəsait ayrılmışdır. O vəsaitdən istifadə olundu, yeni parklar salındı, yeni yollar çəkildi. Bundan sonra da bu vəsaitin ayrılmasında problem olmayacaq. İndi Azərbaycanın iqtisadi gücü bizə imkan verir ki, istədiyimiz məsələni həll edək. Əsas məsələ problemləri düzgün təhlil etmək, onların həlli yollarını müəyyən etmək, bunun maddi təminatını təşkil etməkdir. Yerlərdə yerli icra orqanları, fəal insanlar bunu icra etməlidirlər. Belə olan halda Azərbaycanın, ölkəmizin qarşısında duran problemlər öz həllini tapacaqdır.

Düzdür, işsizliklə bağlı mübarizədə böyük uğurlar əldə etmişik, amma işsizlik tam şəkildə aradan qaldırılmayıb. Yoxsulluq 3 il ərzində 49 faizdən 20 faizə düşübdür. Çox böyük göstəricidir. Amma bizi tam qane edə bilməz. Halbuki, hətta inkişaf etmiş ölkələrdə əhalinin müəyyən hissəsi yoxsulluq şəraitində yaşayır. Amma mən istəyirəm ki, Azərbaycanda yoxsul təbəqə olmasın, mən istəyirəm ki, işsiz olmasın, işləmək istəyən işlə təmin olunsun, maaşlar yüksək olsun, pensiyalar imkan versin ki, insanlar normal yaşasınlar. Mən bunu istəyirəm və biz bu istiqamətdə gedirik. Hələ ki, bugünkü sosial məsələlərin həlli məni tam şəkildə qane edə bilməz. Amma dinamikaya baxsaq, onda görərik ki, son 3-4 il ərzində böyük bir yol keçmişik. Növbəti illərdə, ildən-ilə minimum əməkhaqları qaldırılacaq, pensiyalar qaldırılacaq, büdcədən maliyyələşən bütün təşkilatlarda çalışan insanların əməkhaqları qaldırılacaq ki, büdcə təşkilatlarında işləyənlər tam şəkildə təmin olunsunlar.

O ki qaldı özəl sektora, burada da biz lazımi imkanlar yaradırıq. Hər il Azərbaycan büdcəsindən sahibkarlara 100 milyon dollar dəyərində kreditlər verilir. Artıq bir neçə ildir ki, bu kreditlər verilir və bu öz növbəsində yeni iş yerlərinin, müəssisələrin yaradılmasına gətirib çıxarır. Mən mütəmadi qaydada sahibkarlarla görüşürəm, onlara öz siyasi dəstəyimi verirəm. Yerli icra orqanlarına tapşırıq verirəm ki, onlara kömək olsunlar, onları dəstəkləsinlər.

Bu gün verilən məlumata görə, Neftçalada uzun illər fəaliyyətsiz qalmış yod-brom zavodu da fəaliyyətə başlamışdır. Bu, böyük bir müəssisədir, orada yüzlərlə insan çalışır və

bundan sonra da çalışacaqdır. Orada istehsal olunan məhsul dünya bazarlarına çıxarılacaq və Neftçala da bundan xeyir götürəcək. Bununla bərabər, mərkəzləşmiş büdcədən ayrılan xərclər ildən-ilə artacaqdır ki, bütün məsələlər öz həllini tapsın.

Ona görə sahibkarlığın inkişafı bundan sonra da sürətlə getməlidir, kənd təsərrüfatının inkişafı üçün lazımi tədbirlər görülür, texnika alınır, aqrotexservislər yaradılır, «Aqrolizinq» fəaliyyət göstərir, fermerlərə maddi yardım göstərilir. Yəni biz çalışırıq ki, bütün sahələrdə qeyri-neft sektorunun inkişafına müxtəlif yollarla böyük təkan verək.

Mən əminəm ki, növbəti illərdə bu ardıcıl siyasətin, iqtisadi islahatların dərinləşməsi nəticəsində biz istədiyimizə nail olacağıq. Mən Azərbaycanın gələcəyini çox parlaq görürəm. Mən istəyirəm ki, Azərbaycan sözün əsl mənasında inkişaf etmiş ölkələrin sırasına daxil olsun. İstəyirəm insanlar yaxşı yaşasınlar, yaxşı maaş alsınlar, uşaqlar yaxşı məktəblərdə oxusunlar, xəstələr yaxşı tibbi xidmətə malik olsunlar, yollar abadlaşsın, şəhərlər gözəlləşsin, insanların üzü gülsün və Azərbaycan irəliyə getsin. Budur mənim arzularım!

Əminəm ki, siz bu arzuları bölüşürsünüz. Biz doğma Azərbaycanımızın inkişafı üçün bundan sonra da birlikdə işləyəcəyik, əlimizdən gələni edəcəyik və Azərbaycanı qüdrətli dövlətə çevirəcəyik. Sağ olun.

* * *

*Sonra prezident İlham Əliyev sakinlərlə səmimiyyətlə görüşüb söhbət etdi. Neftçalalılar dövlətimizin başçısına təşəkkürlərini bildirdilər, ölkəmizin sosial-iqtisadi inkişafı sahəsində qazanılan uğurlardan məmnunluqlarını ifadə etdilər. Onlar xalqımızın ümummilli lideri Heydər Əliyevin tarixi xidmətlərini xatırlayaraq, ulu öndərin müasir Azərbaycanın inkişafı üçün gördüyü işləri yüksək dəyərləndirdilər, onun apardığı siyasətin bu gün də uğurla davam etdirildiyini diqqətə çatdırdılar. Neftçalalılar prezident İlham Əliyevin bütün fəaliyyətini ürəkdən dəstəklədiklərini bildirdilər.*

## «Xalq Bank»ın Neftçala filialı ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 23-də Neftçala şəhərində «Xalq Bank»ın filialı ilə tanış olmuşdur. Prezident İlham Əliyev buradakı iş şəraiti ilə maraqlanmış, istifadə olunan müasir avadanlığa baxmışdır.*

*Prezidentə «Xalq Bank»ın Sumqayıt, Zaqatala və Neftçalada filiallarının, Naxçıvanda isə şöbəsinin olması barədə məlumat verilmişdir. Bildirilmişdir ki, filialda həm hüquqi, həm də fiziki şəxslərə müxtəlif bank xidmətləri göstərilir. Qeyd edilmişdir ki, müştərilər bankın köməyi ilə dünyanın yüzə yaxın ölkəsinə, o cümlədən MDB dövlətlərinə və əksinə qısa müddətə pul köçürmələri göndərə və qəbul edə bilərlər. Burada əmanətin müxtəlif növlərindən, depozit, bankomat, valyuta mübadiləsi və digər bank xidmətlərindən istifadə etmək üçün hər cür imkan vardır.*

## Neftçala şəhər 2 nömrəli orta məktəbi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev Neftçala rayonuna səfərinin sonunda şəhərdəki 1176 şagird yeri olan 2 nömrəli orta məktəbdə aparılan əsaslı təmir işləri ilə maraqlandı.*

*Dövlətimizin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva bərpa işlərinin layihəsi ilə tanış oldular, məktəbin təmirəqədərki vəziyyətini əks etdirən fotoşəkillərə baxdılar.*

*Məlumat verildi ki, Təhsil Nazirliyinin sifarişi ilə həyata keçirilən təmir işləri yüksək səviyyədə aparılır. Bu təhsil ocağı dörd korpusdan ibarət olacaqdır. Birinci korpus yeni dərs ilinədək hazır olacaq, burada hər cür şərait yaradılacaqdır. Məktəb dərsliklərlə də təmin olunacaqdır.*

## Neftçala şəhər şahmat məktəbi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 23-də Neftçala şəhər şahmat məktəbi ilə tanış olmuşdur.*

*Məktəbin direktoru İmanbaxış Şirəliyev dövlətimizin başçısına məlumat verdi ki, bu məktəb 1987-ci ildə istifadəyə verilmişdir və uzun müddət heç bir təmir işi aparılmadığına*

*görə bina yararsız vəziyyətə düşmüşdü. Hazırda bina yüksək səviyyədə əsaslı təmir olunmuşdur, burada respublika səviyyəli şahmat turnirlərinin keçirilməsi üçün hər cür şərait yaradılmışdır. Məktəbdə 12 məşqçi müəllim çalışır, 13 müəllim isə kəndlərdə idmanın bu növünü uşaqlara öyrədir. 587 uşağın məşğul olduğu bu məktəbin yetirmələri 10 dəfə respublika çempionu adını qazanmışlar. Onlar həmçinin Kanada, Braziliya və Avropanın bir sıra ölkələrində keçirilən beynəlxalq yarışlarda iştirak etmişlər. Neftçala şahmat məktəbinin yetirmələri olan Fidan və Fizzə Şirəliyeva bacıları Braziliyada keçirilən yarışda respublikamızı təmsil etmişlər.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva məktəblə yaxından tanış oldular, uşaqların şahmat oyunlarına tamaşa etdilər. Dövlətimizin başçısı əsas və iclas zallarına, kompyuterlə təmin olunmuş şahmat otaqlarına baxdı və bildirdi ki, yeni nəslə diqqət və qayğı bundan sonra da artırılacaqdır. Uşaqların intellektual cəhətdən hərtərəfli inkişaf etmələri üçün şahmatın böyük rolu vardır.*

## Şəhid Mehman Səfərov adına Neftçala şəhər internat məktəbi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 23-də şəhid Mehman Səfərov adına Neftçala şəhər internat məktəbi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, bu məktəbin əsası 1960-cı ildə qoyulmuşdur və indiyədək burada heç bir təmir işi aparılmamışdır. Əsaslı təmirə ehtiyac duyulduğu bu təhsil ocağı 280 yerlik olsa da, hazırda burada 313 şagird təhsil alır. Onların təlim və tərbiyəsi ilə 75 müəllim məşğul olur. İnternat məktəbində əsasən imkansız ailələrin uşaqları təhsil alırlar.*

*Prezident İlham Əliyev xanımı Mehriban Əliyeva ilə birlikdə internat məktəbinin sinif otaqlarını, yeməkxanasını, yataqxanasını gəzdi. Bildirildi ki, bu məktəbin əsaslı təmirini Heydər Əliyev Fondu öz öhdəsinə götürmüşdür. Təmirdən sonra burada şagirdlərin təhsili və yaşaması üçün müasir şərait yaradılacaq və məktəb kompyuterlə təmin olunacaqdır.*

**«Azər-Yod» Məhdud Məsuliyyətli müəssisə ilə tanışlıq**

*Azərbaycan prezidenti İlham Əliyev Neftçala rayonunda «Azər-Yod» Məhdud Məsuliyyətli Cəmiyyətin eyniadlı müəssisəsində olmuşdur.*

*Müəssisənin kollektivi dövlətimizin başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı alqışlarla qarşıladılar.*

*Prezident İlham Əliyev müəssisənin baş planı, Xıllı və Neftçala yataqlarının əsas göstəriciləri ilə tanış oldu, istehsal prosesinə, müxtəlif markalı hazır məhsulların nümunələrinə, fəaliyyət sertifikatlarına baxdı.*

*Məlumat verildi ki, Neftçala rayonunda yod istehsalına 1931-ci ildə başlanmışdır. Köhnə sahə Həsənabad qəsəbəsinin yaxınlığında yerləşir. Əvvəllər yodu kömür desorbsiyası üsulu ilə alırdılar. Lakin kükürd turşusunun tətbiqindən sonra radioaktiv duzlar əmələ gəldiyi üçün bu texnologiya ötən əsrin 70-ci illərində qadağan edilmişdir. Yeni zavodun tikintisi haqqında qərar qəbul ediləndən 1994-cü ilə, yəni müəssisə fəaliyyətini dayandırana qədər yod ion mübadiləsi texnologiyası ilə istehsal olunurdu.*

*Bildirildi ki, müəssisənin ərazisi 17 hektardır. Yataqların işlənilməsi üçün ayrılmış ərazi 850 hektardır. Neftçala və Xıllı yataqlarında kəşfiyyat işləri aparılmış, dərinliyi 2200 metr olan təxminən 200 quyu qazılmışdır. İstehsal gücü ildə 500 ton olan zavoda gündə 40 min kubmetr su vermək üçün 140-dək quyunun işə salınması planlaşdırılır. Hazırda 200 nəfərin çalışdığı müəssisə tam gücü ilə işə düşəndən sonra işçilərin sayı 500-ə çatdırılacaqdır.*

*Müqayisə üçün xüsusi vurğulandı ki, hava desorbsiyası üsulunun Neftçala sahəsində tətbiqi nadir hadisədir. Çünki həmin üsul ilk dəfə soyuq suda, turşusuz tətbiq edilmiş və bu zaman xammaldan 94 faizdən çox yod ayrılmışdır. Krasnodar zavodunda bu göstərici 85 faizdir, lakin suyun temperaturu selsi ilə 70 dərəcəyə çatır. Yaponiya zavodlarında isə xammaldan 90 faizədək yod ayrılır, burada termal sudan və turşudan istifadə olunur. Bundan əlavə, zavodda tullantıların təkrar emalı qurğusunun işə salınması atmosferin çirklənməsinin qarşısını almaqla yanaşı, yod ayrılmasını artırmağa imkan verir.*

*Dövlətimizin başçısı yataqların bərpası ilə də maraqlandı. Məlumat verildi ki, artıq buraxılış-sazlama işləri başa çatdırılmışdır. İlin sonunadək birinci növbə layihə gücünə çatdırılacaqdır. Avropa Yenidənqurma və İnkişaf Bankı istehsalatın 3-4 xəttinin tikilməsi və yataqların işlənilməsi üçün 8,5 milyon dollar kredit ayırmağa razılıq vermişdir. Cəmiyyətin nizamnamə kapitalının məbləği 12 milyon dollardır. Bura bütün infrastruktur və alınmış avadanlığın dəyəri daxildir. Bundan əlavə, «Nikoyl» bankından 3,5 milyon dollar kredit alınmış və artıq xərclənmişdir. Zavod dünya ekoloji standartlarına cavab verir, yod turşusuz üsulla istehsal olunur və burada 94 faiz yüksək səviyyəli yod alınır. Zavodu elektrik enerjisi ilə təmin etmək üçün 8 meqavat gücündə qaz generatoru quraşdırılacaqdır.*

*Yod tərkibli su ehtiyatlarını nəzərə alaraq, müəssisənin istehsal gücü 1500 tona çatdırıldıqdan sonra Azərbaycan dünya üzrə Çili (12,5 min ton), Yaponiya (7-8 min ton) və ABŞ (1,5 min ton) kimi yod istehsalçılarından sonra dördüncü yerə çıxacaqdır.*

*Sonra prezident İlham Əliyev bu cür müəssisələrin əhəmiyyətini vurğuladı, «Azər-Yod» MMC-nin Xatirə kitabına ürək sözlərini yazdı.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN HACIQABUL RAYONUNA VƏ QARADAĞ RAYONUNUN ƏLƏT QƏSƏBƏSİNƏ SƏFƏRİ

*23 avqust 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 23-də Neftçala rayonuna səfərini başa çatdırdıqdan sonra Hacıqabul rayonunda və Qaradağ rayonunun Ələt qəsəbəsində olmuşdur.*

*Prezident İlham Əliyevi rayon sakinləri böyük hörmət və ehtiramla, hərarətli alqışlarla qarşıladılar.*

*Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Hacıqabul Rayon İcra Hakimiyyətinin binası qarşısında ucaldılmış abidəsi önünə gül dəstəsi qoydu.*

*Məlumat verildi ki, ətraf ərazilər tezliklə abadlaşdırılacaq, şəhərin mərkəzi prospekt və küçələrində səliqə-sahman yaradılacaq, sakinlərin mədəni istirahəti üçün parklar və yaşıllıqlar salınacaqdır.*

### Hacıqabul Rayon Uşaq Tibb Mərkəzinin təməlqoyma mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 23-də Hacıqabul Rayon Uşaq Tibb Mərkəzinin təməlqoyma mərasimində iştirak etdi.*

*Dövlətimizin başçısını buraya toplaşan səhiyyə işçiləri, ictimaiyyətin nümayəndələri böyük hörmət və ehtiramla, hərarətli alqışlarla qarşıladılar.*

*Uşaq xəstəliklərinin qarşısının alınması, profilaktikası məqsədi ilə tikilən mərkəzin baş planı ilə tanış olan prezidentə məlumat verildi ki, rayonun 63 min nəfər əhalisinin 23 mini 14 yaşadək uşaqlardır. Bu gün təməli qoyulan ikimərtəbəli tibb müəssisəsi əsas korpusdan, yardımçı binadan, qazanxanadan ibarət olacaq və müasir avadanlıqla təchiz ediləcəkdir. Mərkəz*

*üçün 4800 kvadratmetr torpaq sahəsi ayrılmışdır və onun 1200 kvadratmetrində tikinti işləri həyata keçiriləcəkdir. İnşaat işləri bir il müddətinə başa çatdırılacaqdır. Burada 17 həkim, 33 orta tibb işçisi çalışacaqdır. Uşaq Tibb Mərkəzində müalicə və yardımçı işlər üzrə 26 kabinet və otaqlar olacaqdır. Ümumiyyətlə, MDB məkanında belə mərkəz ilk dəfə respublikamızda fəaliyyət göstərəcəkdir.*

*Azərbaycan prezidenti İlham Əliyev gilizi binanın təməlinə qoydu və beton qarışığı tökdü, inşaatçılara uğurlar arzuladı.*

*Sonra bu münasibətlə təntənəli mərasim keçirildi.*

*Mərasimdə Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Əhməd Muxtarov çıxış etdi.*

## HACIQABUL RAYON UŞAQ TİBB MƏRKƏZİNİN TƏMƏLQOYMA MƏRASİMİNDƏ NİTQ

*23 avqust 2007-ci il*

Əziz hacıqabullular!

Əziz dostlar!

Əziz həkimlər!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün doğrudan da Hacıqabul rayonunun həyatında çox əlamətdar bir gündür. Bu gün yeni Uşaq Tibb Mərkəzinin təməl daşını qoyduq və əminəm ki, qısa müddət ərzində gözəl bir tibb ocağı yaradılacaqdır.

Hacıqabul rayonunun əhalisinin üçdəbir hissəsi uşaqlardır. Uşaqlar bizim gələcəyimizdir. Biz gənc nəsli vətənpərvərlik ruhunda tərbiyə etməliyik, eyni zamanda, onlar fiziki cəhətdən güclü olmalıdırlar, xəstələnməməlidirlər, onların sağlamlığı üçün əlimizdən gələni etməliyik. Ona görə Hacıqabulda Uşaq Tibb Mərkəzinin yüksək, dünya standartlarına uyğun şəkildə tikilib istifadəyə verilməsi həm rayonun sosial infrastrukturuna böyük dəstək olacaqdır, həm də ki, insanlara, uşaqlara böyük töhfə olacaqdır.

Azərbaycanda bütün istiqamətlərdə, o cümlədən sosial sahədə işlər sürətlə gedir. Bu ərazidə uzun illər inşası yarımçıq qalmış xəstəxananın da tikintisi, bərpası başa çatıb və istifadəyə verilibdir. Burada yeni məktəb tikilir. Azərbaycanda son illər ərzində 1000-dən çox yeni məktəb tikilibdir və bu proses davam edir. Yeni məktəblər, yeni əlavə korpuslar tikiləcəkdir, qəza vəziyyətində olan məktəblər təmir olunacaqdır və Hacıqabulda da bu işlər öz əksini tapır.

Mən çox istəyirəm ki, rayon daha da sürətlə inkişaf etsin. Bir il bundan əvvəl rayonun rəhbərliyi gücləndirildi, Hacıqabula 300 min manat dəyərində maddi dəstək göstərildi. Düzdür, bu o qədər də böyük məbləğ olmadı, amma mən hesab edirəm, bir

halda ki, biz Hacıqabulun potensialını inkişaf etdirmək istəyirik, burada gedən quruculuq-abadlıq işlərini sürətləndirmək istəyirik – istəyirik ki, burada küçələr, binalar abadlaşsın, yeni parklar salınsın – mən Bakıya qayıdan kimi, göstəriş verəcəyəm ki, Hacıqabulun inkişafına, xüsusilə onun abadlaşmasına əlavə vəsait ayrılsın və əlavə 1 milyon Azərbaycan manatı rayonun inkişafına sərf olunsun.

Azərbaycanın indiki iqtisadi inkişafı bizə imkan verir ki, qarşıda duran bütün vəzifələri icra edək. Azərbaycanın artan iqtisadi gücü, artan iqtisadi potensial və ölkənin valyuta ehtiyatları bizə bu imkanları yaradır. Biz də bundan səmərəli istifadə etməliyik və ölkəmizin bütün ehtiyaclarını təmin etməliyik. İlk növbədə, güclü iqtisadiyyat yaradılmalıdır. Bu məqsədlə məhz bölgələrdə, rayonlarda icra olunan inkişaf proqramı xüsusi əhəmiyyət daşıyır. Güclü neft sənayesi yaradılmalıdır, o da yaradılır və Azərbaycan bu istiqamətdə dünya əhəmiyyətli uğurlar əldə edibdir.

Əlbəttə ki, güclü sosial infrastruktur yaradılmalıdır. Məktəblər, xəstəxanalar və digər sosial obyektlərin tikilməsi, insanların həyat səviyyəsinin yaxşılaşması, maaşların, pensiyaların artırılması – bütün bu istiqamətlərdə ardıcıl şəkildə işlər görülür. Növbəti illərdə Azərbaycan tam şəkildə güclü ölkəyə çevriləndən sonra, əlbəttə, bütün bu məsələlər öz həllini tapacaqdır. İndiki mərhələdə isə ölkənin hərtərəfli inkişafı üçün – həm iqtisadi imkan baxımından, həm sosial proqramların icrası baxımından, ölkəmizin beynəlxalq mövqelərinin güclənməsi baxımından və Azərbaycanın hərtərəfli imkanı baxımından nə lazımdırsa, biz onu da edirik.

Özəl sektor inkişaf edir. Bu həm rayonların inkişafında, həm də statistik göstəricilərdə əyani şəkildə özünü göstərir. Bu gün Azərbaycanın bütün iqtisadiyyatının 80 faizi özəl sektorda formalaşıbdır. Biz müstəqil dövlət kimi yaşamağa başlayanda, özəl sektor faktiki olaraq yox idi. Dövlət sektoru da faktiki olaraq yox idi. Çünki o vaxt, 90-cı illərin əvvəllərində işləyən müəssisələr yararsız vəziyyətə düşmüşdü. Sovet İttifaqı dağılandan sonra Azərbaycanın iqtisadiyyatı və sənayesi tamamilə iflic vəziyyətinə düşmüşdü. İndi isə Azərbaycanda

həm dövlət xətti ilə çox nəhəng layihələr həyata keçirilir, həm də özəl sektor inkişaf etdirilir.

Müstəqillik əldə olunandan sonra ilk dəfədir ki, 2007-ci ildə Azərbaycana qoyulan sərmayələrin həcmi daxili sərmayələrin xeyrinə dəyişibdir. Yəni daxili sərmayələr xarici sərmayələrdən daha da böyük həcmdə qoyulubdur. İlk dəfədir. Bu onu göstərir ki, artıq daxildə imkanlar kifayət qədərdir. 90-cı illərin ortalarında və sonunda biz daha çox xarici investisiyalardan asılı idik, istəyirdik ki, daha çox xarici şirkətləri cəlb etməklə iqtisadiyyatımız inkişaf etsin. Bu gün də bu siyasət davam edir, hətta ən inkişaf etmiş ölkələrdə də xarici sərmayələr qorunur və buna böyük diqqət göstərilir. Ancaq bununla bərabər, Azərbaycanda yaranan imkanlar, dövlətin güclənməsi, iqtisadi potensialın möhkəmlənməsi, özəl sektorun fəaliyyət göstərməsi ona gətirib çıxarır ki, Azərbaycan şirkətləri Azərbaycanda artıq ən böyük investisiya qoyan şirkətlərdir.

Azərbaycan şirkətləri indi başqa ölkələrə də investisiya qoymağa başlayıblar. Bu həm iqtisadi cəhətdən bizə lazımdır, həm də siyasi cəhətdən Azərbaycanı gücləndirir. Azərbaycan regionun mərkəzinə çevrilibdir. Biz bunu həm coğrafi-siyasi vəziyyətimiz, həm zəngin təbii ehtiyatlarımız, həm də artıq mövcud olan nəqliyyat infrastrukturu, insanlarımızın istedadı, siyasi iradəsinin mövcudluğu və xalq ilə iqtidar arasında birliyin nəticəsində əldə etmişik. Bu gün Azərbaycanın qarşısında bütün üfüqlər açıqdır. Heç bir maneə yoxdur. Biz bütün sahələr üzrə proqramları, dəqiq, konkret, real əsaslara söykənən və maddi resurslarla dəstəklənən proqramları icra edirik.

Əgər bizim maddi imkanlarımız olmasaydı və səhiyyənin inkişafı üçün proqramımız olmasaydı, bax, bu gün bu gözəl tibb ocağının təməl daşının qoyulması da olmayacaqdı. Həm maddi imkanlar var, həm də düşünülmüş siyasət var: istər səhiyyə sahəsində, istər təhsil sahəsində, istər sənayenin inkişafı sahəsində, istər neft strategiyamızın inkişafı sahəsində – bütün istiqamətlərdə. Azərbaycanın iqtisadiyyatı hərtərəfli inkişaf edir, şaxələndirilir və iqtisadiyyatın bütün sektorları, o cümlədən kənd təsərrüfatı sürətlə inkişaf etməlidir. Azərbaycan əhalisinin yarısı kəndlərdə yaşayır. Ona görə də kənd təsərrüfatının təşviqi, dəstəyi üçün dövlət lazımi tədbirləri görür

və görəcəkdir. «Aqrolizinq» şirkətinin, aqrotexservislərin yaradılması bu istiqamətdə çox önəmli addımdır. Çünki kəndli bir çox hallarda gedib özü o texnikanı ala bilmir. Dövlət o texnikanı öz pulu ilə alır, onu gətirir və kəndlilərə icarəyə verir. Özü də o icarə haqqı çox aşağı olmalıdır ki, kəndlinin imkanı buna çatsın. Dövlət tərəfindən kəndlilərə maddi yardımlar da göstərilir. Bundan sonra dövlət gəlirləri artdıqca bu sahəyə daha da böyük diqqət göstəriləcəkdir. Sahibkarlara böyük məbləğdə kreditlər ayrılır.

Dövlət İnvestisiya Şirkəti yaradılıbdır. Azərbaycanın qeyri-neft sektorunun inkişafında Dövlət İnvestisiya Şirkətinin çox böyük rolu olacaqdır: xarici sərmayəni gətirməklə və daxili investorları stimullaşdırmaqla. Belə olan halda iqtisadi potensial daha da sürətlə artacaqdır. Bu gün biz bunu görürük.

Bu gün regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrası nəticəsində yüz minlərlə yeni iş yerləri, minlərlə yeni müəssisələr açılıbdır və insanların həyat səviyyəsi yaxşılaşır. Bu bizə imkan verir ki, xüsusilə büdcədən maliyyələşən təşkilatlarda maaşları qaldıraq və bunu edirik. Çünki özəl sektorda işləyənlərin əməkhaqqı, yaxud da onun gəliri onun iqtisadi imkanlarından asılıdır. Amma büdcə hesabına fəaliyyət göstərən, çalışan insanlar – onlar maaş alırlar və elə maaş almalıdırlar ki, o maaş onların bütün tələbatını ödəyə bilsin. Hələ ki, biz buna nail ola bilməmişik.

Düzdür, Azərbaycanda orta əməkhaqqı sürətlə qalxır. Əgər postsovet məkanını götürsək, Azərbaycanda orta əməkhaqqı bu gün kifayət qədər yüksək – 215 dollar səviyyəsindədir. Amma hamı bu maaşı almır. Aztəminatlı təbəqə aldığı maaşla dolanmağa çətinlik çəkir. Ona görə, minimum əməkhaqqının qaldırılması bizim prioritet məsələmizdir və biz bunu edirik. Orta əməkhaqqının qaldırılması və büdcə təşkilatlarında fəaliyyət göstərən insanların əməkhaqlarının qaldırılması növbəti illər üçün prioritet məsələ olacaqdır.

Ümumiyyətlə, bizim siyasətimiz sosialyönümlü siyasətdir. Həm güclü bazar iqtisadiyyatının yaradılması, həm də bazar iqtisadiyyatına sadiqliyimiz əsas şərtdir, çünki başqa yol yoxdur. Biz 70 il Sovet İttifaqında yaşamışıq və görmüşük ki, 90-cı illərin ərəfəsində o sistemin inkişaf etmək qabiliyyəti

tükənmişdi. Yalnız və yalnız bazar iqtisadiyyatı prinsipləri ölkələri inkişafa, tərəqqiyə doğru aparır. Biz bu yolu seçmişik, amma o demək deyil ki, biz sosial məsələləri kənara qoymalıyıq. Yox. İlk növbədə, güclü iqtisadiyyat və bununla bərabər, güclü sosial siyasət olan halda Azərbaycanın qarşısında duran bütün problemlər öz həllini tapacaqdır.

Mən ümid edirəm ki, Azərbaycanda gedən bu müsbət proseslər qısa müddət ərzində ölkəmizi qabaqcıl ölkələrin sırasına daxil edəcəkdir. Bizim iqtisadi inkişafımız indi çox sürətlidir. Üç ildir ki, dünya miqyasında Azərbaycan iqtisadiyyatı ən sürətlə inkişaf edən iqtisadiyyatdır. Biz üçüncü ildir ki, bu göstəriciyə görə dünyada birinciliyi saxlayırıq. Bu temp çox yüksəkdir. Bu işlərimizin dinamikası çox müsbətdir, çox güclü təkan verilibdir ki, hər bir sahə inkişaf etsin. Ancaq onu da bilməliyik ki, biz hələ inkişafımızın birinci mərhələsindəyik. Bu gün görülən bu işlər, qoyulan möhkəm zəmin, başlanan proqramlar öz xeyrini artıq verir və növbəti illərdə daha çox verəcəkdir.

Bakı–Tbilisi–Ceyhan neft kəməri artıq bir ildən çoxdur fəaliyyət göstərir. Azərbaycanın valyuta ehtiyatları böyüyür. Biz də bundan hər bir sahədə istifadə edirik, onu investisiya şəklində qoyuruq, yeni yollar salınır, su kəmərləri, qaz xətləri, məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları tikilir. Növbəti illərdə maddi imkanlarımız daha da böyük olacaqdır. Biz bunu bilirik. Biz bilirik bizi nələr gözləyir. Bilirik ki, bu gözəl imkanlardan necə istifadə etmək lazımdır. Əlbəttə ki, iqtisadi potensialın möhkəmlənməsi, sosial məsələlərin həlli, sabitliyin qorunub saxlanılması – bütün bu əsas şərtlər Azərbaycanda mövcuddur. O ölkədə ki, sabitlik pozulur, o ölkə heç vaxt inkişaf edə bilməz. Bunu biz uzaq və yaxın tarixdən bilirik.

Bölgədə, bəzi yerlərdə gedən prosesləri izləyirik. Harada ki, sabitlik pozulur, ölkə tamamilə idarəolunmaz vəziyyətə düşür. Azərbaycanda isə siyasi sabitlik, düşünülmüş siyasət var, xarici siyasət milli maraqlar üzərində qurulubdur. Daxili siyasət insanların həyat səviyyəsinin yaxşılaşmasına yönəldilibdir, ictimai asayiş qorunub saxlanılır. Azərbaycanda insanlar normal, təhlükəsizlik şəraitində yaşayırlar. Bu çox önəmlidir. Çünki başqa ölkələrə baxanda – indi ad çəkmək istəmirəm – biz

görürük ki, çox böyük problemlər, çox böyük daxili qarşıdurmalar var və onlar heç də ölkənin inkişafına xidmət etmir, əksinə, ölkəni geriyə atır.

Biz də 80-ci illərin sonunda, 90-cı illərin əvvəllərində o acı tarixi yaşamışıq. O dövrə daha dönüş olmayacaqdır. Hərc-mərclik, xaos, anarxiya, quldurluq, özbaşınalıq, talançılıq, soyğunçuluq – Azərbaycan xalqı 80-ci illərin sonunda və 90-cı illərin əvvəllərində böyük zərbələr alıbdır. Məhz bunun, o yarıtmaz siyasətin nəticəsində Azərbaycanın torpaqları işğal altına düşübdür. Təsəvvür etmək mümkündürmü ki, indiki zəmanədə Azərbaycanın hər hansı bir bölgəsi işğal altına düşsün?! Azərbaycanın güclü ordusu var. Bizim hərbi xərclərimiz 1 milyard dollara gəlib çatıbdır. O, bütün Ermənistanın dövlət büdcəsinə bərabərdir. İndi bizə hücum edə biləcək qüvvə yoxdur.

Ancaq o illərdə Azərbaycanın rəhbərliyində xəyanətkar, qorxaq və yerində olmayan səriştəsiz rəhbərlər ölkəmizi bu bəlaya saldılar. Biz də indi çalışırıq ki, məsələni sülh yolu ilə həll edək. Çalışırıq, danışıqlarda çox fəalıq, mövqeyimiz möhkəmlənir, eyni zamanda, ordumuzu da gücləndiririk ki, hər an, istənilən anda hərb yolu ilə torpaqlarımızı işğalçı qüvvələrdən azad edək.

Ona görə bir daha demək istəyirəm ki, o illərdə yaşanan acı tarix bizim yadımızdadır və onu biz unutmamalıyıq. Bilirik ki, o daxili çəkişmələr, hərc-mərclik, özbaşınalıq nəyə gətirib çıxarır – vətəndaş müharibəsinə və torpaqların itirilməsinə. Bu gün isə Azərbaycanın inamlı siyasəti, bizim çox güclü xarici və daxili siyasətimiz var. Güclü iqtisadi potensial, güclü ordu, xalqla iqtidar arasında birlik – budur Azərbaycanı gələcəyə aparan amillər!

Ölkəmiz müasirləşir, zənginləşir, gənc nəsil vətənpərvərlik ruhunda tərbiyə olunur. Fiziki sağlamlıq lazımdır. Bilirsiniz ki, biz bütün ölkədə idman qurğuları tikirik. Sağlamlıq olmalıdır, xəstəxanalar tikilir, ekoloji vəziyyət düzəlməlidir. Ona görə indi böyük sayda tədbirlər planı tərtib olunub, vəsait ayrılıb ki, Azərbaycanda ekoloji vəziyyət yaxşılaşsın. Nə üçün? İnsanlar sağlam olsunlar, Azərbaycan xalqı, Azərbaycan milləti güclü olsun, sağlam olsun. Biz istədiyimizə nail olaq, biz qüdrətlənək,

zəngin dövlət yaradaq və bizim insanlarımız yaxşı yaşasınlar. Budur mənim əsas istəklərim. Əminəm ki, siz də bu fikirdəsiz və biz hamımız birlikdə doğma Vətənimizi gücləndirməliyik, bunu edirik və gələcəkdə də edəcəyik.

Əziz dostlar, mən sizi bu gözəl hadisə münasibətilə, bu gözəl Uşaq Tibb Mərkəzinin təməlqoyma mərasimi münasibətilə bir daha təbrik edirəm. Ümid edirəm ki, qısa müddət ərzində gözəl bir tibb ocağı yaradılacaq, burada gözəl tibbi xidmət olacaq, həkimlər yaxşı şəraitdə işləyəcəklər və hamı da razı qalacaqdır.

Sizi bir daha salamlayıram, sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

## Hacıqabul Mərkəzi Rayon Xəstəxanası ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev Uşaq Tibb Mərkəzinin təməlqoyma mərasimi başa çatdıqdan sonra Hacıqabul Mərkəzi Rayon Xəstəxanası ilə tanış olmuşdur.*

*Uzun müddət tikintisi yarımçıq qalmış, tamamilə yararsız hala düşmüş bu xəstəxana binası məhz prezident İlham Əliyevin tapşırığı və qayğısı ilə yenidən qurulmuş, ən müasir avadanlıq və tibbi ləvazimatla təchiz edilmişdir.*

*Dövlətimizin başçısına burada aparılan yenidənqurma işləri və əhaliyə göstərilən yüksək tibbi xidmət barədə məlumat verildi. Bildirildi ki, iki mərtəbədən ibarət xəstəxana 50 çarpayılıqdır və bunun 35-i cərrahiyyə şöbəsinə, 15-i isə doğum şöbəsinə aiddir. Burada 150 həkim və tibb bacısı işləyir. Bu səhiyyə ocağı əsaslı təmirdən sonra 2007-ci ilin aprelindən fəaliyyətə başlamışdır. Burada poliklinika da fəaliyyət göstərir, İtaliya və digər ölkələrin istehsalı olan stomatoloji, ultrasəs müayinəsi, kardioqraf, süni tənəffüs və digər müasir aparatlar quraşdırılmışdır.*

*Prezident İlham Əliyev ayrı-ayrı şöbələrə, kabinet və otaqlara baxdı, avadanlıqla tanış oldu, görülən işlərdən, yaradılan şəraitdən razılığını bildirdi, tövsiyə və tapşırıqlarını verdi.*

## Hacıqabul rayon Qızılburun kənd orta məktəbi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 23-də Hacıqabul rayonunun Qızılburun kənd orta məktəbində olmuşdur.*

*Dövlətimizin başçısı İlham Əliyevi və xanımı Mehriban Əliyevanı məktəbin veteran müəllimləri hörmətlə qarşıladılar.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, 1932-ci ildə 7 illik məktəb kimi fəaliyyətə başlayan bu təhsil ocağı 1932–68-ci illərdə kərpicdən tikilmiş binada, 1968–2006-cı illərdə isə neft kəşfiyyatçıları üçün yataqxana məqsədi ilə inşa olunmuş taxta binada fəaliyyət göstərmişdir. 2006-cı ildə Heydər Əliyev Fondunun «Yeniləşən Azərbaycana yeni məktəb» Proqramı çərçivəsində 240 şagird yeri olan müasir məktəb binası tikilmişdir. Məktəb zəruri avadanlıqla və kompyuterlə təchiz edilmişdir.*

*Bildirildi ki, Qızılburun kənd məktəbi 1991-ci ilə qədər əsas məktəb kimi fəaliyyət göstərmiş, 1992-ci ildən orta məktəbə çevrilmişdir. Hazırda məktəbdə 216 şagird oxuyur və onların təlim-tərbiyəsi ilə 19 müəllim məşğul olur. Məktəbin yetirmələri arasında 4 elmlər doktoru, 6 elmlər namizədi vardır.*

*Prezident İlham Əliyev ayrı-ayrı sinif otaqlarına, kompyuter zalına baxdı və görülən işlərin müasir standartlara cavab verdiyini diqqətə çatdırdı. Dövlətimizin başçısı gənc nəslin yüksək səviyyədə təhsil alması üçün bundan sonra da lazımi şəraitin yaradılacağını bildirdi və kollektivə uğurlar arzuladı.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev həmin gün Hacıqabul rayon Mədəniyyət evinin yenidən qurulması layihəsi ilə də tanış oldu. Qeyd edildi ki, bu mədəniyyət evi əsaslı təmirdən sonra ən müasir standartlara cavab verəcək və burada mədəni tədbirlərin keçirilməsi üçün hər cür müasir şərait yaradılacaqdır.*

*Dövlətimizin başçısı binada aparılacaq yenidənqurma işləri ilə bağlı müvafiq tapşırıqlarını verdi.*

## Təhlükəsizlik sədləri və qalvanikləşdirmə zavodu ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 23-də Hacıqabul rayonuna səfərindən sonra Qaradağ rayonunun Ələt qəsəbəsinə gəlmişdir. Dövlətimizin başçısı burada «3A» Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus Təhlükəsizlik sədləri və qalvanikləşdirmə zavodu ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ulu öndər Heydər Əliyevin zavodun həyatində ucaldılmış büstünün önünə gül dəstələri qoydular.*

*Dövlətimizin başçısını və xanımını müəssisənin kollektivi yüksək ehtiramla qarşıladı.*

*Azərbaycan prezidenti müəssisədə istehsal olunan məhsullara baxdı. Məlumat verildi ki, Məhdud Məsuliyyətli Cəmiyyət respublikamızda reflektiv yol nişanlarının və informativ lövhələrin istehsalına, reflektiv yol xətlərinin çəkilməsi işlərinə 2004-cü ildən başlamış və bu işi uğurla davam etdirir. Yol hərəkətində böyük əhəmiyyət kəsb edən təhlükəsizlik sədləri isə ölkəmizə xaricdən alınıb gətirilirdi.*

*Zavodun inşasına 2005-ci ildə başlanmış və 2006-cı ilin sonunda yekunlaşdırılmışdır. Ümumi dəyəri 3,5 milyon manat olan zavod 2 sexdən ibarətdir. Qalvanikləşdirmə və təhlükəsizlik sədləri sexlərinin ümumi sahəsi 756 kvadratmetrdir. Sexlərdə İsveçdən alınıb gətirilmiş avadanlıq quraşdırılmışdır. Zavod il ərzində 120 kilometrdən artıq təhlükəsizlik səddi istehsal etmək gücünə malikdir. Təhlükəsizlik sədlərinin uzunmüddətli istifadəsini təmin etmək məqsədi ilə korroziyadan qorunmaq üçün xüsusi sink örtüyü ilə üzlənməsi qalvanikləşdirmə sexində həyata keçirilir. Bu sex nəinki təhlükəsizlik sədləri üçün, ümumiyyətlə, Azərbaycanın neft, energetika və tikinti sektoru üçün mühüm əhəmiyyət kəsb etməkdədir. Regionda analoqu olmayan üsulla qalvanikləşdirmə, başda neft şirkətləri olmaqla, Azərbaycanda və Xəzər dənizi hövzəsində fəaliyyət göstərən şirkətlərin maraq dairəsindədir.*

*Bildirildi ki, qalvanikləşdirmə sexinin avadanlığı Türkiyədən gətirilmişdir. Sexin fəaliyyəti beynəlxalq standartlara uyğun qurulmuşdur. Ekoloji təmizliyə və işçilərin təhlükəsizliyinə xüsusi diqqət yetirilir.*

*Qalvanikləşdirmə sexində yalnız sınaq xarakterli məhsullar hazırlanmasına baxmayaraq, artıq Azərbaycanın aparıcı neft*

*şirkətlərindən, Qazaxıstan müəssisələrindən sifarişlər daxil olmağa başlamışdır.*

*Prezident İlham Əliyev zavodun istehsal prosesi ilə maraqlandı, təhlükəsizlik sədləri və qalvanikləşdirmə sexlərini gəzdi.*

*Məlumat verildi ki, müəssisədə 62 nəfər daimi işlə təmin olunmuşdur. Quraşdırma işlərini nəzərə alsaq, bu zavodun açılışı ilə 130-dan çox işçi daimi işlə təmin olunacaqdır. Qalvanikləşdirmə sexinin gündəlik istehsal həcmi 30–40 ton təşkil edir. Mövcud standartlara uyğun olaraq metal konstruksiyasının üz qatı 80–120 mikron qalınlığında sink təbəqəsi ilə örtülür və bu da açıq hava şəraitində həmin məhsulların 35–40 il korroziyaya uğramasının qarşısını alır.*

**«Azərinşaatservis» MMC-nin şpal zavodu ilə tanışlıq**

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 23-də Qaradağ rayonunun Ələt qəsəbəsində «Azərinşaatservis» MMC-nin şpal zavodu ilə də tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, dəmir yollarının tikintisində və təmirində istifadə edilən əsas materiallardan biri də dəmir-beton şpallardır. İndiyədək bu məhsula ölkəmizin tələbatı idxal yolu ilə təmin edilirdi. Bu isə vaxt itkisinə və artıq xərclərə səbəb olurdu. Artıq respublikanın şpala olan tələbatını bu zavod ödəyir. Bakı–Axalkalaki–Qars dəmiryolu layihəsinin reallığa çevrilməsi müəssisənin vacibliyini əhəmiyyətli dərəcədə artırmışdır.*

*Qeyd olundu ki, şpal zavodunun tikintisinə 2005-ci ildə başlanmış və keçən ilin sonunda başa çatdırılmışdır. Ümumi dəyəri 4,2 milyon manat olan bu zavod Qafqaz və Xəzər dənizi hövzəsi ölkələrində müasir standartlara cavab verən yeganə müəssisədir. Zavodun bütün avadanlığı Almaniyanın «Walter Beton GMBH» şirkətindən alınmışdır. İstehsal prosesi inkişaf etmiş ölkələrdə ən geniş yayılmış Vaslov sisteminə uyğun olaraq həyata keçirilir. Zavod ildə 240 min ədəd şpal istehsal etmək gücünə malikdir.*

*Bu isə il ərzində 75–80 kilometr yeni dəmir yolu xəttinin tikintisinə kifayət edir. Tikinti-quraşdırma işləri başa çatdıqdan*

*sonra zavodda sınaq məqsədi ilə 2 min ədəd şpal istehsal edilmişdir. Məhsulun nümunələri Avropanın tanınmış laboratoriyalarında sınaqdan uğurla çıxmışdır.*

*Hazırda bu zavodda 72 nəfər daimi işlə təmin olunmuşdur. Yeni dəmir yolunun tikintisində çalışacaq işçilər də nəzərə alınsa, zavod ümumilikdə 1000 nəfərdən çox adamı işlə təmin edəcəkdir. Məhsul istehsalında əsasən yerli xammaldan istifadə olunur. Yalnız xüsusi gərginliyə malik olan və şpalın daxilində elastiklik yaradan metal məmulat İtaliyadan gətirilir.*

*Prezident İlham Əliyev müəssisə ilə tanışlıqdan sonra istehsalın həcmini artırmaqla bağlı tövsiyələrini vermişdir.*

# AVROPA VOLEYBOL KONFEDERASİYASININ PREZİDENTİ ANDRE MEYERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 avqust 2007-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 24-də Prezident sarayında Avropa Voleybol Konfederasiyasının prezidenti Andre Meyerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycanda idmanın sürətlə inkişaf etdiyini, ölkəmizdə yeni müasir standartlara cavab verən çoxlu sayda idman komplekslərinin istifadəyə verildiyini məmnunluqla vurğuladı. Ölkəmizin mötəbər beynəlxalq idman yarışlarının keçirilməsində artıq kifayət qədər təcrübəyə malik olduğunu qeyd edən prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş birinci beynəlxalq voleybol turnirinin bu baxımdan əhəmiyyətini vurğuladı.*

*Prezident İlham Əliyev ilə 2005-ci ildə Quba şəhərində Qran-pri yarışları çərçivəsində keçirilən görüşünü xatırlayan Avropa Voleybol Konfederasiyasının prezidenti Andre Meyer ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş birinci beynəlxalq voleybol turnirində də iştirak etməsindən məmnunluğunu ifadə etdi və Azərbaycanda beynəlxalq yarışların keçirilməsi üçün yaxşı imkanların olduğunu qeyd etdi.*

## QEYDLƏR

**1. Rusiya,** R u s i y a  F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17.075.4 km$^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 5–8,10,12,18,22,24,25,68,94,95,99,116,119,120–123,141,158, 217,221,253.

**2. Sankt-Peterburq** – əsası 1703-cü ildə I Pyotr tərəfindən qoyulmuşdur. 1918-ci ilə kimi Rusiyanın paytaxtı idi. Rusiya Federasiyasının ən böyük sənaye, mədəniyyət və elm mərkəzidir. – 5–8.

**3. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parla-

mentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 5–8,96,127,222,242,243,244,317,322.

**4. Artur Rasizadə,** A r t u r T a h i r o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 5,8,84,89,111,120,123,160,180,209,232, 233,307.

**5. Ramiz Mehdiyev,** R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin 1-ci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. – 5,8,84,89,111,120,123,160.

**6. Hacıbala Abutalıbov,** H a c ı b a l a İ b r a h i m o ğ- l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. – 5,8,14,89,111,120,123, 209,232,254,255,301,306,307.

**7. Mehriban Əliyeva,** Mehriban Arif qızı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–93-cü illərdə Krassnov adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci idə Bakıda keçirilən ilk Avropa oyunlarının təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 5,260,310,317, 318,319,330,331.

**8. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 6,64,77,94,116,219,242, 244.

**9. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 6,28,79, 115,138, 242.

**10. Elmar Məmmədyarov,** E l m a r M ə h ə r r ə m o ğ-l u (d.1960) – tarix üzrə fəlsəfə doktoru, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində beynəlxalq təşkilatlar idarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 6,161,233, 238,292,302.

**11. Putin Vladimir** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın

direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında yenidən Rusiya Federasiyasının prezidenti seçilmişdir. – 7,94,120—123,141,158.

**12. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı – Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2.724,9 km$^2$, əhalisi 16,7 milyon nəfərdir. Paytaxtı Astana şəhəridir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. – 7,8,21,22,208,209–232.

**13. Nursultan Nazarbayev,** N u r s u l t a n A b i ş o ğ -l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi. 1990-cı ildə həm də Ali Sovetin sədri, 1991-cı ildə Qazaxıstan SSR-nin prezidenti və 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının prezidentidir. – 7,210,211–227.

**14. Vladimir Ruşaylo** (d.1953) – 1972-ci ildən SSRİ Daxili İşlər Nazirliyində müxtəlif məsul vəzifələrdə işləmişdir. 1998-ci ildə Rusiya Daxili İşlər nazirinin müavini, 1999-cu ildə nazir, 2001-ci ildə MDB ölkələri üzrə Kollektiv Təhlükəsizlik Şurasının sədri, 2003-cü ildə isə Rusiya Təhlükəsizlik Şurasının katibi olmuşdur. – 8.

**15. Türkmənistan,** T ü r k m ə n i s t a n R e s p u b l i -k a s ı – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 488,1 min km$^2$, əhalisi 4,5 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabaddır. – 8,22.

**16. Qurbanqulu Berdimühəmmədov** (d.1957) – Türkmənistan dövlət xadimi. 2007-ci ildən Türkmənistan Respublikasının prezidentidir. – 8.

**17. Sumqayıt** – Azərbaycanda şəhər. Bakıdan 35 km şimal-qərbdə, Xəzər dənizinin qərb sahilində yerləşir. Sahəsi 83 $km^2$, əhalisi 329,3 min nəfərdir. Əvvəllər kiçik yaşayış məntəqəsi olan Sumqayıt 1938-ci ildə Bakı neft sənayesini elektrik enerjisi ilə təmin edəcək İstilik Elektrik Stansiyasının tikintisi ilə şəhər tipli qəsəbəyə çevrildi və get-gedə Bakıdan sonra ölkəmizin ikinci sənaye şəhərinə çevrildi. Sənayesində kimya və metallurgiya sahələri əsas yet tutur. – 9–13, 317.

**18. Gəncə –** Azərbaycan Respublikasında şəhər. Sahəsi 107 $km^2$, əhalisi 324,7 min nəfərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir, salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–323) salındığını qeyd etmişlər. – 9,10,32,34.

**19. Daşkəsən** (1956-cı ilədək Dəstəfur rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 1019 $km^2$, əhalisi 33,7 min nəfərdir. – 9.

**20. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərq kənarında dövlət. Sahəsi 780,6 min $km^2$, əhalisi 78 mln. nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 10,12,18,19, 21,52,89–111,121,150,186,218,230.

**21. Ukrayna,** U k r a y n a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,7 min $km^2$, əhalisi 46,5 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı – RADA-dır. – 10,40,49,63–64,67,94,95,102,109,263.

**22. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon $km^2$, əhalisi 400 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansiz), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszın) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının sədridir. Paytaxtı Pekindir. – 11,12, 217.

**23. «Dizayn – Genay Azərbaycan»** – polietilen və polipzopilen boru zavodu. Sumqayıt şəhərində 2003-cü ildən inşasına başlanılan zavod 2006-cı ildən işə başlamışdır. – 12–13.

**24. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min $km^2$, əhalisi 58,8 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 12,102,118,230.

**25. Almaniya,** Almaniya Federativ Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min $km^2$, əhalisi 81,9 milyon nəfərdir. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundersatdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 12,278,308.

**26. Avstraliya,** Avstraliya İttifaqı – Avstraliya qitəsində dövlət. Millətlər Birliyinin tərkibindədir. Sahəsi 7,7 milyon $km^2$, əhalisi 18,3 milyon nəfərdir. Avstraliya İttifaqı inzibati cəhətdən 6 ştata və iki əraziyə bölünür. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır. Ölkədə kraliçanı general-qubernator təmsil edir. Qanunverici orqanı ikipalatalı (Senat və Nümayəndələr Palatası) parlamentdir. Paytaxtı Kanberra şəhəridir. –12.

**27. Şəhidlər xiyabanı –** Azərbaycanın azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş mərd oğul və qızların uyuduğu müqəddəs ziyarətgah. 1990-cı il yanvarın 20-də sovet ordusunun hücumu zamanı həlak olmuş onlarla adam «Dağüstü park»ın qərb hissəsində dəfn edilmişdir. Bura o vaxtdan «Şəhidlər xiyabanı» adlanır. Xiyabanda eyni zamanda, Ermənistan işğalçılarına qarşı Azərbaycan torpaqlarının müdafiəsi uğrunda qəhrəmancasına həlak olanlar da dəfn

edilmişdir. 1998-ci ildə burada hündürlüyü 22 metr olan əbədi məşəl – abidə qoyulmuşdur. – 14,255,301–302.

**28. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanları Azərbaycanın dünyaya və Avropaya

inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu Fəxri adlara layiq görülmüşdür. – 15,16–17,68,72,81,83,84,105,124,125,127, 128,134,175,176,177,178,187,224,226,246,252–253,254,269,275, 306,310,312,313,317,334.

**29. Yunanıstan,** Yunanıstan Respublikası – Cənubi Avropada dövlət. Sahəsi 132 min km$^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı prezident, Ali qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afinadır. –16,52,94,206.

**30. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 372 min km$^2$, əhalisi 126 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 18–30,46,55,270.

**31. «Azəri», «Çıraq», «Günəşli» –** Xəzərin Azərbaycan sektorunda ən iri neft yataqları. Bakıdan təxminən 120 km şərqdə yerləşən bu yataqlar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) adından *bp* şirkəti tərəfindən işlənir. – 18,51,62,108.

**32. «Şahdəniz» –**Xəzər dənizinin Azərbaycan sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 18,19,51,103, 108,186.

**33. Novorossiysk** – Rusiya Federasiyasının Krasnodar diyarında liman. Bakıdan Novorossiyskə neft kəməri çəkilmiş və 1997-ci ildə istifadəyə verilmişdir. – 18.

**34. Gürcüstan,** Gürcüstan Respublikası – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 18,21,22,39,52,53,54,57,62,65–66,70,94,95, 99,102,103,106,108,109,186,212,218.

**35. Bakı–Supsa neft kəməri** – 1994-cü ilin sentyabrında Azərbaycan hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir vəsiləsi Bakı–Supsa neft kəməridir. Kəmərin uzunluğu 830 km, gündəlik maksimum ötürmə gücü 115 min barreldir. Supsada hər birinin tutumu 250 min barrel olan dörd terminal tikilmişdir.

1999-cu il aprelin 17-də Supsada ilkin Xəzər neftinin qərb istiqamətində nəqli üçün Bakı–Supsa ixrac boru kəmərinin və Supsa yerüstü terminalının təntənəli rəsmi açılış mərasimi olmuşdur. – 19,51.

**36. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 19,21,51,61,75,78,91,103, 107,110,130,186,212,219,225,226,253,327.

**37. Nabukko** – Türkmənistan və Azərbaycan qazının Avropa Birliyi ölkələrinə, əsasən Avstriya və Almaniyaya ötürülməsi üçün 3300 km uzunluğunda magistral qaz kəmərinin reallaşmayan layihəsi. Layihənin qiyməti *bp* şirkətinin hesablamasına görə 14 milyard avro olmalıdır. – 19,67.

**38. Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına bir çox dövlətlər daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildən vahid valyuta–avro işlənir, vahid pul-kredit siyasəti aparılır. – 19,23,26,27,42,51,52,55,56,57,59,65,76, 94,96,131,140,186.

**39. Rumıniya,** R u m ı n i y a R e s p u b l i k a s ı – Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 237,5 min km$^2$, əhalisi 22,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunvericilik orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 19,27,50,59,94,95,

**40. Bolqarıstan,** B o l q a r ı s t a n R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 7,4 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 19,27, 44,50,94.

**41. Ceyhan –** Aralıq dənizi sahilində liman. 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 19,13.

**42. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,14 milyon km$^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr

Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 24,25,50, 55,69,85,94,102,114–115,137,207,256–257,320.

**43. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ) – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 20,102.

**44. İran,** İran İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 25,288–302.

**45. GUAM** – Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan qurumu tərk etdi. – 26,27,28,39,40, 41,42,44,45,46,47–48,49–58,60–67,76.

**46. NATO** (*Şimali Atlantika Müqaviləsi Təşkilatı*) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına

qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 26,51.

**47. NATO-nun «Fərdi tərəfdaşlığın fəaliyyət planı»** – 2008-ci ildən Azərbaycan Respublikası bu planın həyata keçirilməsində iştirak edir. – 26.

**48. «Yeni qonşuluq siyasəti»** (YQS) – Avropa İttifaqının qonşu ölkələrlə əməkdaşlığının möhkəmləndirilməsinə, Avropa İttifaqı və qonşu ölkələr arasında təhlükəsiz və firavan zonalar, Avropa İttifaqı sərhədlərində «dost ölkələr dairəsi» yaratmaga, həmçinin Aİ ilə qonşu ölkələr arasında siyasi, təhlükəsiz, iqtisadi və mədəni sahələrdə daha sıx əməkdaşlıq etməyə şərait yaradır. YQS-nin əsas məqsədi Avropa İttifaqının qonşu ölkələrində stabilliyin, təhlükəsizliyin qorunması, maraqlı ölkələrdə rifah halının yaxşılaşdırılmasıdır. – 26,55,57.

**49. «Sülh naminə tərəfdaşlıq» proqramı** – NATO ilə Şərqi Avropa və keçmiş SSRİ ölkələri arasında siyasi və hərbi sahələrdə əməkdaşlıq sənədi, 1994-cü il yanvarın 10–11-də NATO Şurasının dövlət və hökumət başçıları səviyyəsində Brüsseldə keçirilən görüşdə ABŞ tərəfindən təklif edilmişdir.

Azərbaycan prezidenti Heydər Əliyev 1994-cü il mayın 4-də NATO-nun Brüsseldəki mənzil-qərargahında Azərbaycanın «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulması haqqında sənədi imzalamışdır. 1996-cı ilin aprelində Heydər Əliyev NATO-nun Brüsseldəki mənzil-qərargahında NATO-nun Baş katibi Xavyer Solana ilə görüşündə Azərbaycan Respublikasının təqdimat sənədini ona vermişdir. Həmin sənəd əsasında Azərbaycanın NATO ilə tərəfdaşlığının fərdi proqramı hazırlanmışdır. – 26.

**50. Əfqanıstan,** Ə f q a n ı s t a n İ s l a m D ö v l ə t i – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,2 min km$^2$, əhalisi 22,7 milyon nəfərdir. İnzibati ərazisi 29 vilayətə və mərkəzə tabeli 2 mahala bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 26,155,204.

**51. Kosovo problemi** – 80-ci illərdən başlayaraq Yuqoslaviya (Yuqoslaviya Federativ Sosialist Respublikası) ciddi iqtisadi və

siyasi çətinliklərlə qarşılaşdı. 1991-ci ildə millətlərarası qarşıdurma nəticəsində YFSR parçalandı. Federasiyanın tərkibindən Sloveniya, Xorvatiya, Bosniya və Herseqovina, Makedoniya çıxdı və müstəqil dövlət oldular. 1992-ci ildə Serbiya və Çernoqoriya Yuqoslaviya Respublikası yaradıldı. 1999-cu ildə serb hökuməti tərəfindən Kosovoda (Serbiyanın tərkibində) yaşayan albanlara qarşı zorakılıq başlandı və nəticədə etnik qarşıdurma yarandı. Buna görə də NATO aviasiyası tərəfindən bombardman edildi. Məhz bundan sonra Yuqoslaviya öz ordusunu Kosovodan çıxartdı və NATO-nun sülhməramlı ordusu albanları serblərdən qorumaq üçün Kosovoya girdi. 1999-cu ildən sonra Serbiya hökuməti Kosovo ərazisinə de-fakto nəzarətini itirdi. 2008-ci ildə Kosovo özünü birtərəfli şəkildə müstəqil dövlət elan etdi. Hazırda BMT üzv-ölkələrinin 99-u, o cümlədən NATO ölkələri Kosovonun müstəqilliyini tanıyır. – 26.

**52. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 27,96,140.

**53. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT-nin Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 27,28,53,62,64, 65,76,94,95,109,169,170,184,186,219,242,244,246,294.

**54. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 28,29,57,63,77,78,79,95,96,100,114, 117,138,191,225,242,294.

**55. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 $km^2$, əhalisi 73,1 min nəfərdir. 1992-ci ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 29.

**56. Cahangir Əsgərov,** Cahangir Cəlal oğlu (d.1950) – təyyarəçi. 1991–93-cü illərdə Aviasiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, 1996-cı ildən «Azərbaycan Hava Yolları» QSC-nin Baş direktorudur. – 31.

**57. «Atəşgah», Suraxanı atəşgədəsi** – Suraxanı qəsəbəsində atəşpərəst məbəd. Beşguşəli daxili həyəti əhatə edən hücrələrdən və həyətin ortasında tikilmiş üstü günbəzlə örtülən dördbucaqlı «od məbədindən» ibarətdir. Atəşgahın əsası, şübhəsiz ki, qədim zamanlarda qoyulmuşdur. Lakin indiki binanı XVIII əsrdə Hindistanın Multan vilayətindən gələn

atəşpərəst tacir və zəvvarlar tikdirmişlər. Hücrələrin üzərindəki hind dilində yazılmış kitabələrdə atəşgədənin 1713-cü ildə tikildiyi göstərilir. – 32.

**58. Lənkəran** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 661 km$^2$, əhalisi 218,2 min nəfərdir. – 32,34.

**59. Zaqatala –** Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Şimal-şərqdə Dağıstanla, cənub-qərbdə Gürcüstanla həmsərhəddir. Sahəsi 1348 km$^2$, əhalisi 123,4 min nəfərdir. – 32,34,317.

**60. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 0,013 min km$^2$, əhalisi 89,5 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtı oldu. – 32,34,176,297,317.

**61. «Boinq – 787»** – drimlayner. Boinq şirkəti tərəfindən dizayn edilmiş orta uzunluqlu, geniş gövdəli və iki reaktiv mühərrikə malik təyyarə modeli. Bu modelin istehsalına 1995-ci ildə başlanmışdır. Modelin ilk uçuşu 2009-cu ildə olmuşdur. «Boinq–787» dünyada ən çox satılan geniş füzelyajlı təyyarədir. – 34.

**62. Əzizə Mustafazadə,** Ə z i z ə V a q i f q ı z ı (d.1969) – pianoçu, bəstəkar və müğənni. O, əsərlərini fusion və caz,

bəzilərini isə muğam və avanqard üslubunda bəstələyir. Əzizə Almaniyada tanınan müğənnidir. – 36.

**63. Yelena Obraztsova** (1939–2015) – rus müğənnisi (messo-soprano), SSRİ Xalq artisti. Lenin mükafatı laureatı. Güclü, dolğun, bütün registrlərdə rəvan səsə, fərdi ifaçılıq tərzinə malik sənətkar olmuşdur. – 37.

**64. Fidan Qasımova,** F i d a n Ə k r ə m q ı z ı (1947) – Azərbaycan müğənnisi. SSRİ və Azərbaycan Respublikasının Xalq artisti. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 38.

**65. Bakı Musiqi Akademiyası** – 1921-ci ildə yaradılıb. Bakı Musiqi Akademiyası Azərbaycanda ilk musiqi tədris müəssisəsidir. 4 fakültəsi vardır. Təhsil ikipilləlidir – bakalavr və magistratura. Bakı Musiqi Akademiyasının tərkibində opera studiyası və musiqi məktəbi studiyası fəaliyyət göstərir. – 38.

**66. Mixeil Nikolozoviç Saakaşvili** (d.1967) – hüquqşünas. 2003–2013-cü illər Gürcüstan Respublikasının prezidenti. 2000–2001-ci illərdə Gürcüstanda Ədliyyə naziri olmuşdur. Vahid Milli Hərəkat Partiyasının sədri, «məxməri inqilab»ın liderlərindən biri olmuşdur. Hazırda Odessa şəhərinin qubernatorudur. – 39,65–66,94,102,103.

**67. Viktor Yuşşenko** (d.1954) – Ukrayna dövlət və siyasi xadimi. 2005–2010-cu illərdə Ukraynanın prezidenti olmuşdur. – 40,49,63–64,67,94,102,103,263.

**68. Polşa,** P o l ş a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 41–42,47,48,50,55,61,152.

**69. Lex Kaçinski** (1949–2010) – 2002–2005-ci illərdə Varşavanın meri, 2005–2010-cu illərdə Polşa Respublikasının prezidenti. 2010-cu il aprelin 10-da Smolensk yaxınlığında təyyarə qəzasında həlak olmuşdur. Haqq və Ədalət Partiyasının liderlərindən biri idi. – 41–42,47–48,152.

**70. Litva,** L i t v a R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 65,2 min km$^2$, əhalisi 3,5 milyon nəfərdir. İnzibati ərazisi 44 rayona bölünür və respublika tabeçiliyinə 11 şəhər daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Seymdir. Paytaxtı Vilnüsdür. – 43, 50,61.

**71. Valdas Adamkus** (d.1955) – 1998–2003 və 2004–2009-cu illərdə Litva Respublikasının prezidenti olmuşdur. – 43.

**72. Moldova,** M o l d o v a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 33,7 min km$^2$, əhalisi 4,18 milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişinyov şəhəridir. – 45,53,54,57,62,64–65,66–67,94,95,120,262.

**73. Vasile Tarlev** (d.1963) – Moldova dövlət və siyasi xadimi 2001–2005, 2005–2008-ci illərdə Moldovanın Baş naziri olmuşdur . – 45,64–65,66–67.

**74. Krakov** – Polşanın cənubunda, Visla çayının yuxarı axınında şəhər və liman. Krakov şəhər voyevodalığının inzibati mərkəzi. Əhalisi 713 min nəfər.

Şəhər VIII–X əsrlərdə salınmış, XI–XVI əsrlərdə Polşa dövlətinin paytaxtı olmuşdur. – 47,51,61,108.

**75. Bakı–Novorossiysk neft kəməri –** 1994-cü ilin sentyabrında Azərbaycan Respublikası hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir hissəsi Bakı–Novorossiysk neft kəməridir. Bu kəmər 1997-ci ilin noyabrında istifadəyə verilmişdir. – 51.

**76. Odessa–Brodi–Qdansk** – Odessa, Brodi və Qdansk şəhərləri arasında çəkilən və «Drujba» kəməri ilə birləşdirilən neft kəməri. Kəmərin uzunluğu 667 km-dir. 2001-ci ildə axıdılan neftin miqdarı 14,5 milyon ton olmuşdur. Bu kəmərlə Xəzər və Qazaxıstan neftinin Türkiyə boğazlarından ötürülməklə Şərqi, Mərkəzi və Şimali Avropaya çatdırılması da nəzərdə tutulurdu. – 51,61,62,67.

**77. Bakı–Tbilisi–Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin diametri 420 mm, uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Gürcüstan–Türkiyə sərhədindən Ərzuruma qədərdir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 51,75, 91,130,225.

**78. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun tikintisinə 2007-ci ildə başlanılmışdır. Yolun Gürcüstanın Axalkalaki stansiyasından Türkiyənin Qars şəhərinə qədər olacaq hissəsinin uzunluğu 105 km-dir. Yolun çəkilişi cari ildə başa çatmalıdır. – 52,67,75,91,99,130,225,249.

**79. Abxaziya** – Gürcüstan Respublikasının tərkibində muxtar respublika. 1921-ci ildə təşkil olunmuşdur. Sahəsi 8,6 min $km^2$, əhalisi 501 min nəfərdir. Paytaxtı Suxumi şəhəridir. – 57.

**80. Cənubi Osetiya** – Gürcüstan Respublikasının tərkibində Cənubi Osetiya Muxtar Vilayəti. 1922-ci ildə yaradılmışdır. Sahəsi 3,9 min $km^2$, əhalisi 99 min nəfərdir. Mərkəzi Sxinvali şəhəridir. – 57,63,65.

**81. Dnestryanı** – Moldovada Dnestr çayı sahilində tanınmamış bölgə. 1992-ci ildə Dnestryanıda hərbi münaqişə başladı. İyulun ortalarına qədər bir neçə ay davam edən silahlı toqquşmalar zamanı Lebedin komandanı olduğu Rusiyanın 14-cü ordusunun separatçılara yaxından dəstək verməsi nəticəsində Kişinyov sol sahildəki rayonlar üzərində nəzarətini itirdi və Dnestryanı Moldovanın nəzarətindən çıxmış əraziyə çevrildi. – 57.

**82. Trayan Besesku** (d.1951) – Rumıniya siyasi və dövlət xadimi. 2004–2014-cü illərdə Rumıniya Respublikasının prezidenti olmuşdur. – 59,94.

**83. İpək Yolu**, B ö y ü k İ p ə k Y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək Yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 61.

**84. Rossiya, Ümumrusiya Dövlət Televiziya və Radio Verilişləri Kompaniyası** (ÜDTRVK) – Rusiya media holdinqi. 1990-cı ildə yaradılmışdır, Rusiya Federasiyası ərazisində televiziya və radio verilişlərini təşkil edir. 1998-ci ildə ÜDTRVK bazası əsasında yaradılmış dövlət informasiya holdinqı yaradıldı. «Rossiya» və «Kultura» telekanallarını, «Radio Rossii», «Mayak», «Orfey», «Yunost», «Qolos Rossii» radiostansiyalarını və 92 regional dövlət teleradiokompaniyalarını, Ostankino televiziya və Rusiya informasiya texniki mərkəzini, «Vesti» agentliyini əhatə edir. – 68.

**85. Oleq Dobrodeyev** (d.1959) – tarixçi. 2000-ci ildən Ümumrusiya Dövlət Televiziya və Radio Yayımları Şirkətinin Baş direktorudur. – 68.

**86. Zərifə xanım Əliyeva,** Z ə r i f ə Ə z i z q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anası. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə fəaliyyəti, xüsusilə kimya və elektron sənaye sahələrində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə Rusiya Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 68,254.

**87**. **Los-Anceles** – ABŞ-da, Sakit okeanın cənub sahilində şəhər və liman. – 69.

**88. Kaliforniya** – ABŞ-ın qərbində ştat. Sahəsi 411 min km$^2$, əhalisi 31,9 milyon nəfərdir. İnzibati mərkəzi – Sakramento. – 69.

**89. Səfər Əbiyev,** S ə f ə r A x u n d b a l a o ğ l u (d.1950) – general-polkovnik. 1995–2013-cü illərdə Azərbaycan Respublikasının Müdafiə naziri olmuşdur. – 71,74.

**90. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton-Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 78,94.

**91. Oqtay Əsədov,** O q t a y  S a b i r  o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur.

Azərbaycan Respublikası Milli Məclisinin üzvü, 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin sədridir. Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvüdür. – 84.

**92. Kanada** – Şimali Amerikada dövlət. Sahəsi 9,97 milyon km$^2$, əhalisi 29,6 milyon nəfərdir. Kanada 10 əyalətə və 3 əraziyə bölünmüş federasiyadır. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır. Onu ölkədə general-qubernator əvəz edir. Qanunverici orqanı ikipalatalı (Senat və İcmalar Palatası) parlamentdir. Paytaxtı Ottavadır. – 86,87.

**93. Mişel Jan** (d.1957) – Kanada dövlət və siyasi xadimi. 2005-ci ildən Kanadanın general - qubernatoru. –86.

**94. Stief Harper** (d.1959) – 2006-cı ildən Kanadanın 22-ci Baş naziri. Mühafizəkarlar Partiyasının lideri. – 87.

**95. Belarus,** B e l a r u s  R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 207,6 min km$^2$, əhalisi 10 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minskdir. – 88.

**96. Aleksandr Lukaşenko** (d.1954) – Belarus dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının prezidentidir. – 88.

**97. İstanbul (**1453-cü ilədək Konstantinopol) – Türkiyədə ən böyük şəhər. İstanbul ilinin inzibati mərkəzi. Sahəsi 285,4 $km^2$, əhalisi 16 milyon nəfərdir. Mərmərə dənizi yaxınlığında Bosfor boğazının hər iki sahilindədir. Şəhərin çox hissəsi Avropada, az hissəsi Asiyadadır. Əsası e.ə. 660-cı ildə Bizans kimi qoyulmuşdur. Eramızım 330-cu ilində Roma imperatoru Konstantinin şərəfinə Konstantinopol adlandırılmışdır. 395-ci ilə qədər Roma imperiyasının, 395–1453-cü illərdə fasilələrlə Bizansın paytaxtı olmuşdur. 1453-cü ildə Türkiyə Konstantinopolu tutmuş və İstanbul adlandırılmışdır. 1453–1918-ci illərdə Osmanlı imperiyasının, 1923-cü ilə kimi Türkiyə Cümhuriyyətinin paytaxtı olmuşdur. – 89–111.

**98. Müəmmər Gülər** (d.1949) – türk siyasətçisi. 2003–2010-cu illərdə İstanbul valisi olmuşdur. – 89,111.

**99. Qədir Topbaş** (d.1945) – türk məmuru, iş adamı və siyasətçisi. Qədir Topbaş 2004-cü ildən İstanbul Böyük Şəhər Bələdiyyəsinin başqanıdır. –89,111.

**100. Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı** – 1992-ci ildə İstanbul zirvə görüşündə yaradılmışdır. Buraya Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Serbiya, Xorvatiya, Türkiyə, Ukrayna və Yunanıstan daxildir. Bu təşkilat ancaq iqtisadi əməkdaşlıq maraqları əsasında qurulmuş təşkilatdır. İqamətgahı İstanbuldadır. – 89–111.

**101. Əhməd Necdət Sezər** (d.1941) – 2000–2007-ci illərdə Türkiyə Cümhuriyyətinin prezidenti olmuşdur. 1962–83-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmış, 1998–2000-ci illərdə Türkiyə Konstitusiya Məhkəməsinin sədri olmuşdur. – 90–111.

**102. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyə siyasi və dövlət xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə qoşulmuşdur. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri, Ədalət və İnkişaf Partiyasının lideri.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Cümhuriyyətinin prezidenti seçilmişdir. –91,97,150.

**103. YUNİSEF,** BMT-nin U ş a q F o n d u – 1946-cı ildə təsis edilmişdir (1953-cü ildən indiki adı ilə adlanır). BMT-nin müəssisəsi olub uşaqlar üçün proqramlar üzrə fəaliyyəti əlaqələndirir, başlıca olaraq inkişaf etməkdə olan ölkələrə yardım göstərir. Maliyyə təsisatlarının mənbələrini hökumətlərin könüllü üzvlük haqları, ictimai təşkilatların, xüsusi şəxslərin və başqalarının ianələri təşkil edir. Fondun rəhbər orqanında – İdarə heyətində 41 dövlət təmsil olunur. Katibliyi Nyu-Yorkda, şöbələri Avropa üzrə Cenevrədə, regionlar üzrə bir sıra inkişaf etməkdə olan ölkələrdə yerləşir. Nobel sülh mükafatı laureatıdır. – 92.

**104. Albaniya,** A l b a n i y a R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 28,7 min $km^2$, əhalisi 3,5 milyon nəfərdir. İnzibati cəhətdən 26 retiyə (rayona) bölünür. Dövlətin başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Tirana şəhəridir. – 93,94, 153.

**105. Sali Berişa** (d.1944) – Abaniya dövlət və siyasi xadimi. 1992–97-ci illərdə Albaniya prezidenti, 2005-ci ildən Albaniyanın Baş naziridir. – 93,94.

**106. Vladimir Voronin** (d.1941) **–** Moldova siyasi və dövlət xadimi. 2001 və 2005-ci illərdə Moldova Respublikasının prezidenti olmuşdur. – 94,120,262.

**107. Georgi Pırvanov** (d.1957) – Bolqarıstan siyasi və dövlət xadimi. Tarix elmləri doktoru. 2000–2011-ci illərdə Bolqarıstanın prezidenti olmuşdur. – 94.

**108. Serbiya,** S e r b i y a R e s p u b l i k a s ı – Cənub-Şərqi Avropada, Balkan yarımadasının mərkəzi hissəsində

dövlət. Serbiyanın sahəsi 88361 $km^2$ (Kosovo daxil olmaqla), əhalisi 7,498 min nəfərdir. Dövlətin başçısı prezident, qanunvericilik orqanı Skuppinadır. Paytaxtı Belqraddır. – 94,95.

**109. Boris Tadiç** (d.1958) – Serbiya siyasətçisi, Serbiya Demokratlar Partiyasının sədri. 2004–2012-ci illərdə Serbiya Respublikasının prezidenti olmuşdur. – 94.

**110. Konstantinos Karamanlis** (1907–1998) – XX əsrin 2-ci yarısında yunan siyasətçilərinin ən məşhuru. 1955–63, 1974–80-ci illərdə Yunanıstanın Baş naziri, 1980–85, 1990–95-ci illərdə Yunanıstanın prezidenti olmuşdur. – 94,206.

**111. Slovakiya,** S l o v a k i y a R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 49 min $km^2$, əhalisi 3,4 milyon nəfərdir. İnzibati cəhətdən 3 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Milli Şuradır. Paytaxtı Bratislavadır. 1992-ci ilin noyabrına qədər Çexoslovakiyanın tərkibində olmuşdur. – 94,280.

**112. Ümumdünya Ticarət Təşkilatı** – 1947-ci ildə qəbul edilmiş müqavilə. 23 ölkənin beynəlxalq ticarətdə gömrük rüsumlarının aşağı salınmasına və başqa çətinliklərin aradan götürülməsində hökumətlərarası qəbul etdiyi çoxtərəfli müqavilədir. Bu müqavilə 1995-ci ildə beynəlxalq ticarətdə rüsumlar haqqında qəbul edilmiş müqavilənin hüquqi varisidir.

Təşkilatın əsas prinsipi bütün iştirakçılar üçün münasib mühit yaratmaqdır. Təşkilata 130 ölkə daxildir. – 94.

**113. Bosfor** – Avropa ilə Kiçik Asiya arasında boğaz. Qara və Mərmərə dənizlərini birləşdirir. Uzunluğu təqribən 30 km, eni 750 m-dən 3,7 km-dək, dərinliyi ən dayaz yerdə 33 m-dir. Qara dənizdən yeganə çıxış yolu olan Bosforun mühüm iqtisadi və strateji əhəmiyyəti var. – 97,110.

**114. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlü-

kəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 100,168,248.

**115. OPEK** (Neft ixrac edən ölkələrin təşkilatı) – 1960-cı ildə yaradılmışdır. Tərkibinə İran, Venesuela, Küveyt, Səudiyyə Ərəbistanı, Qətər, İndoneziya, Əlcəzair, Nigeriya, Ekvador, Qabon daxildir. Mənzil-qərargahı Vyanadadır. – 102,103.

**116. Birləşmiş Ərəb Əmirlikləri** – Cənubi Asiyada dövlət. Sahəsi 83,6 min $km^2$, əhalisi 2,5 milyon nəfərdir. BƏƏ-nin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı – Federal Milli Şuradır ki, prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 103.

**117. «Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 105.

**118. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarəetməsini, gələcək nəsillər üçün saxlanmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 109,184.

**119. Pakistan,** Pakistan İslam Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 796 min $km^2$, əhalisi 133,5 milyon nəfərdir. Paytaxtı İslamabad şəhəridir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. – 112.

**120. Pərviz Müşərrəf** (d.1943) – 2001–2007-ci illərdə Pakistan Respublikasının prezidenti, ordu generalı. 1988–90 və 1993–96-cı illərdə Pakistanın Baş naziri, 1998-ci ildə Baş qə-

rargah rəisi olmuş, 1999–2015-ci ildə hərbi çevriliş nəticəsində hakimiyyətə gəlmişdir. – 112.

**121. Venesuela,** V e n e s u e l a R e s p u b l i k a s ı – Cənubi Amerikanın şimalında dövlət. Sahəsi 916,4 min km$^2$, əhalisi 22,3 milyon nəfərdir. Venesuela federasiyası 21 ştata bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir (Deputatlar Palatası və Senat). Paytaxtı Karakasdır. – 113.

**122. Hüqo Rafael Çaves Frias** (1954–2013) – 1999-cu ildən Venesuela prezidenti. – 113,120.

**123. Corc Buş** (d.1946) – ABŞ-ın 43-cü prezidenti (2000–2008-ci illər). ABŞ-ın 41-ci prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel universitetini (incəsənət, tarix bakalavrı), 1975-ci ildə isə Harvard universitetini (incəsənət magistri) bitirmişdir. «Speaktrum-7 Enerci Korporeyşn» firmasının yaradıcısıdır. 1994-cü ildən Texas ştatının qubernatoru olmuşdur. – 114–115.

**124. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Elmi ədəbiyyatda Şuşanın əsasının 1750-ci illərin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.

1992-ci ildə erməni işğalçıları Şuşanı işğal etdilər. Hazırda Şuşa yadellilərin tapdağı altındadır. – 116.

**125. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi. 1990-cı ildən erməni separatçıları tərəfindən işğal edilmişdir. –

**126. Polad Bülbüloğlu** (d.1945) – bəstəkar, müğənni, dövlət xadimi. Azərbaycan Respublikasının Xalq artisti. 1988–2005-ci illər Azərbaycan Respublikasının Mədəniyyət naziri olmuşdur. Hazırda Azərbaycan Respublikasının Rusiya Federasiyasında Fövqəladə və Səlahiyyətli səfiridir. I çağırış Azərbaycan Respublikasının Milli Məclisinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 116.

**127. Bakı Musiqi Akademiyası** – 1921-ci ildə yaradılıb. Bakı Musiqi Akademiyası Azərbaycanda ilk musiqi tədris müəssisəsidir. 4 fakültəsi vardır. Təhsil iki pilləlidir – bakalavr və magistratura. Bakı Musiqi Akademiyasının tərkibində opera studiyası və musiqi məktəbi studiyası fəaliyyət göstərir. – 116.

**128. Fərhad Bədəlbəyli,** F ə r h a d Ş ə m s i o ğ l u (d.1947) – Azərbaycan pianoçusu və musiqi xadimi. Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyasının (1991) rektoru, professor. Azərbaycan Dövlət mükafatı laureatı. Azərbaycan və SSRİ Xalq artisti. B.Smetana və J.Viania da Motta adına beynəlxalq müsabiqələr laureatıdır. Azərbaycan piano məktəbini ləyaqətlə təmsil edən çoxlu sayda pianoçu yetişdirmiş istedadlı pedaqoqdur. Azərbaycan Respublikası Musiqi Xadimləri İttifaqının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 116.

**129. Bakı Slavyan Universiteti** – 2000-ci ildə prezident Heydər Əliyevin fərmanı ilə M.F.Axundov adına Azərbaycan Rus Dili və Ədəbiyyatı İnstitutunun bazası əsasında yaradılmışdır. İnstitutun beş fakültəsi var. Burada rus, bolqar, polyak, çex, yunan, ukrayna dilləri, roman-alman filologiyası öyrənilir. Universitetdə 40-dan çox elmlər doktoru, 200-ə

yaxın fəlsəfə doktoru fəaliyyət göstərir, üç min tələbə təhsil alır. – 116.

**130. Azərbaycan Milli Elmlər Akademiyası** (AMEA)– Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirən ali dövlət elmi təşkilatı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Azərbaycan Milli EA-nın aşağıdakı bölmələri var: fizika; texnika və riyaziyyat elmləri; kimya elmləri; yer elmləri; biologiya elmləri; aqrar elmləri; humanitar və ictimai elmlər. Burada elmin müxtəlif sahələrinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarla elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 116,238.

**131. Kamal Abdulla,** Kamal Mehdi oğlu Abdulla-yev (d.1950) – Azərbaycan Respublikasının millətlərarası, multikultu-ralizm və dini məsələlər üzrə Dövlət müşaviri. Filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi, AMEA-nın həqiqi üzvü, Azərbaycan Yaradıcılıq Fondunun sədri, Bakı Slavyan Universitetinin rektoru (2000–2014), Azərbaycan Yazıçılar Birliyinin üzvü. – 116.

**132. Azər Paşa Nemət,** Azər Paşa Zəfər oğlu (d.1947) – Azərbaycan teatrp rejissoru. 1983–90-cı illərdə Gənc Tamaşaçılar Teatrında rejissor və Baş rejissor, 1990-cı ildən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının quruluşçu rejissorudur. Azərbaycan Xalq artisti, Teatr Xadimləri İttifanın İdarə Heyətinin sədri, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun Himayəçilik Şurasının üzvüdür. – 116.

**133. Lujkov Yuri Mixayloviç** (d.1936) – Rusiyanın ictimai və dövlət xadimi. 1992–2010-cu illərdə Moskva şəhərinin meri olmuşdur. – 119.

**134. Rostov-Don** – Rusiyanın cənubunda, Don çayı sahilində şəhər-port (1796-cı ildən), əhalisi 1017 min nəfər. Əsası 1746-cı ildə qoyulmuşdur. – 120–123.

**135. Özbəkistan,** Özbəkistan Respublikası – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 23,3 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd şəhəridir. – 120,279.

**136. İslam Kərimov,** İslam Əbduqəni oğlu (d.1938) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989–90-cı illərdə Özbəkistan KP MK-nın Birinci katibi olmuşdur. 1990-cı ildən Özbəkistan Respublikasının prezidentidir. – 120,279.

**137. Ramil Usubov,** Ramil İdris oğlu (d.1948) – general-polkovnik. 1994-cü ildən Azərbaycan Respublikasının Daxili İşlər naziridir. – 124–136.

**138. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 nəfər gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin mar-

tında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. –126.

**139. ABŞ Konqresi,** A m e r i k a B i r l ə ş m i ş Ş t a t l a- r ı K o n q r e s i – ali qanunverici hakimiyyət orqanı. İki palatadan – Senatdan və Nümayəndələr Palatasından ibarətdir.

Senatın 100 üzvü var. Ölkənin hər ştatından Senata iki senator seçilir. Nümayəndələr Palatasının 435 üzvü var. Bu palatanın üzvləri hər seçki dairəsində yaşayan əhalinin sayına görə seçilir. Qanun layihələri hər iki palatada müzakirə olunur. Konqres tərəfindən qəbul olunan qanunları ABŞ prezidenti təsdiq edir. – 137.

**140. Nümayəndələr Palatası** – ABŞ-da parlamentin aşağı palatasının adı. Nümayəndələr Palatası ABŞ-da 1787-ci il Konstitusiyasına əsasən yaradılmışdır. – 137.

**141. Fransa,** F r a n s a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 551 min km$^2$, əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 138.

**142. Nikola Sarkozi** (d.1955) –Fransa dövlət və siyasi xadimi. Fransa Respublikasının 2007–2015-ci illərdə prezidenti olmuşdur. 1993–95, 2002–2004 və 2005–2007-ci illərdə Fransa hökumətində nazir vəzifəsində çalışmışdır. – 138.

**143. Bastiliyanın alınması** – Parisdə qala. 1370–82-ci illərdə tikilmişdir. XV əsrdən həm də dövlət həbsxanası idi. Bastiliyada əsasən siyasi dustaqlar saxlanılırdı. 1789-cu il iyulun 14-də Paris üsyançıları Bastiliyanı hücumla aldılar. Bu, Böyük Fransa inqilabının başlanğıcı idi. Bastiliyanın alındığı gün Fransanın milli bayramı (1880) kimi qeyd olunur. – 138.

**144. Monqolustan,** M o n q o l u s t a n R e s p u b l i- k a s ı – Mərkəzi Asiyada dövlət. Sahəsi 1566 min km$^2$, əhalisi

2,3 milyon nəfərdir. İnzibati ərazisi 18 aymaka bölünür. Ulan-Bator, Dərhan və Erdenet şəhərləri xüsusi ərazi bölgüsünə daxildir. Dövlət başçısı prezident, ali dövlət hakimiyyəti orqanı Böyük Xalq Xuralıdır. Paytaxtı Ulan-Batordur. –139.

**145. Nambarın Enxbayar** (d.1958) – Monqolustan dövlət və siyasi xadimi. 2005-ci ildən Monqolustan prezidentidir. – 139.

**146. Avpora Şurasının Nazirlər Komitəsi** – bu təşkilatın rəhbər və direktiv orqanıdır. Komitəni bütün üzv ölkələrin xarici işlər nazirləri və daimi diplomatik nümayəndələri təşkil edir. Onlar–Nazirlər Komitəsi hüquq bərabərliyində Avropa cəmiyyətinin problemlərinin milli dəyərlərə əsaslanaraq həll edilməsinə çalışır. Parlament Assambleyası ilə birlikdə Nazirlər Komitəsi üzv ölkələrin götürdükləri öhdəliklərə nəzarət edir və fundamental dəyərlərin keşiyində durur. İldə bir dəfə keçirilən sessiyada nazirlər siyasi dialoq aparır, Avropa əməkdaşılğı məsələlərini həll edirlər. – 140.

**147. «AQO» –** seçki monitorinq qrupu. Qrupa cəmi 13 dövlət daxildir. Avropa Şurası Nazirlər Komitəsi tərəfindən 2001-ci ildə yaradılan «AQO» qrupunun vəzifəsi Cənubi Qafqaz ölkələrinin AŞ qarşısında götürdükləri öhdəliklərin yerinə yetirilməsinə nəzarət etməkdir. – 140.

**148. Kolumbiya,** Kolumbiya Respublikası **–** Cənubi Amerikanın şimal-qərbində dövlət. Sahəsi 1139 min km$^2$, əhalisi 35,7 milyon nəfərdir. İnzibati ərazisi 32 departamentə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı ikipalatalı Konqresdir. Paytaxtı Boqotadır. – 142.

**149. Alvaro Uribe Veles** (d.1952) – 2002–2009-cu illərdə Kolimbiyanın prezidenti olmuşdur. – 142.

**150. Belçika,** Belçika Krallığı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min km$^2$, əhalisi 10,2 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüsseldir. – 143,144.

**151. II Albert** (d.1934) – 1993-cü ildən Belçika kralı. Sakson-Koburq sülaləsindəndir. III Leopoldun oğludur. – 143.

**152. Gi Verhofstadt** (d.1953) – Belçika siyasi xadimi. 1999–2008-ci illərdə Belçikanın Baş naziri. – 144.

**153. Maldiv,** M a l d i v R e s p u b l i k a s ı – Cənubi Asiyada Maldiv adalarında dövlət. Sahəsi 298 min km$^2$, əhalisi 266 min nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Şurasıdır. – 145.

**154. Məmun Əbdül Qəyyum** (d.1937) – 1978–2008-ci illərdə Maldiv Respublikasının prezidenti. Diktator üsul-idarəsinə görə həmişə tənqid edilmişdir. – 145.

**155. Misir Ərəb Respublikası** – Afrikanın şimal-şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1001,4 min km$^2$, əhalisi 61 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 146.

**156. Hüsnü Mübarək,** S e y i d M ə h ə m m ə d (d.1928) – 1975–81-ci illərdə Misir Ərəb Respublikasının vitse-prezidenti, 1981–2011-ci illərdə prezidenti olmuşdur. – 146.

**157. Braziliya,** B r a z i l i y a F e d e r a t i v R e s p u b -l i k a s ı – Cənubi Amerikada dövlət. Sahəsi 8,5 milyon km$^2$, əhalisi 157,9 milyon nəfərdir. Braziliya federasiyası 26 ştata və federativ mahala (paytaxta) bölünür. Dövlətin və hökumətin başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Braziliyadır. – 147,287.

**158. Luis İnasiu Lula Silva** (d.1945) – 2003–2011-ci illərdə Braziliya Federativ Respublikasının prezidenti olmuşdur. – 147,287.

**159. Mərakeş,** M ə r a k e ş K r a l l ı ğ ı – Şimal-Qərbi Afrikada dövlət. Sahəsi 446,6 min km$^2$, əhalisi 26,7 milyon nəfərdir. İnzibati ərazisi 35 əyalətə və 8 prefektura bölünür. Mərakeş konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı Nümayəndələr Palatasıdır. Paytaxtı Rabatdır. – 148.

**160. VI Məhəmməd,** b i n ə l - H ə s ə n (d.1963) – 1999-cu ildən Mərakeş kralı. Məhəmməd 1666-cı ildən Mərakeşi idarə edən Alautlar sülaləsindən 18-ci kraldır. –148.

**161. İsveçrə,** İ s v e ç r ə  K o n f e d e r a s i y a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 7,1 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 149.

**162. Mişelin Kalmi - Rey** (d.1945) **–** İsveçrə dövlət və siyasi xadimi. 2003–2007-ci illərdə İsveçrənin Xarici İşlər naziri, 2007-ci ildən 2011-ci ilə qədər prezidenti olmuşdur. – 149.

**163. Türkiyə Ədalət və İnkişaf Partiyası** (Adelet və Kalkinma Partisi) – hal-hazırda Türkiyədə hakimiyyətdə olan partiya. 2002-ci ildə Rəcəb Tayyib Ərdoğan və Abdullah Gül tərəfindən yaradılmışdır. – 150.

**164. Hindistan,** H i n d i s t a n  R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Millətlər Birliyinin tərkibindədir. Sahəsi 3,3 milyon km$^2$, əhalisi 1 milyard 200 milyon nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Dehli şəhəridir. – 151,201,202.

**165. Pratibha Patil** (d.1934) – hind hüquqşünası, siyasətçi. 2007–2012-ci illərdə Hindistanın prezidenti olmuşdur. – 151, 201.

**166. Bamir Topi** (d.1929) – Albaniya siyasətçisi. 2007–2012-ci illərdə Albaniya Respublikasının prezidenti olmuşdur. – 153.

**167. Vyetnam,** V y e t n a m  S o s i a l i s t  R e s p u b l i k a- s ı (VSR) – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 322 min km$^2$, əhalisi 76,1 milyon nəfərdir. İnzibati ərazisi 50 əyalətə bölünür. Dövlət başçısı prezident, dövlətin və qanunvericiliyin ali orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Hanoydır. – 154,286.

**168. Nquen Minh Triet** (d.1942) – Vyetnam dövlət xadimi. 2006–2011-ci illərdə Vyetnamın prezidenti olmuşdur. – 154,286.

**169. Həmid Kərzai** (d.1957) – 2004-cü ildən Əfqanıstan İslam Dövlətinin prezidenti. 2001–2002-ci illərdə Əfqanıstanın Baş naziri olmuşdur. – 155,204.

**170. Zahir şah Məhəmməd** (1914–2007) – 1933–73-cü illərdə Əfqanıstan respublika elan edildikdən sonra monorxiya devrilmiş və xaricdə yaşamağa məcbur olmuşdur. – 155.

**171. Kot-d Uvuar** (1986-cı ilə qədər Fil Dişi Sahili) – Cənubi Afrikada dövlət. Sahəsi 322,5 $km^2$, əhalisi 19 milyon nəfərdir. Dövlət başçısı prezidentdir. Paytaxtı Yamusukrodur. – 156.

**172. Sinqapur,** S i n q a p u r R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 639 $km^2$, əhalisi 3,05 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Sinqapurdur. – 157.

**173. Sellapan Rama Natan** (d.1924) – 1999-cu ildən Sinqapur prezidenti. – 157.

**174. Sergey Kislyak** (d.1950) – Rusiya diplomatı. 2003–2008-ci illərdə Rusiya Federasiyası Xarici İşlər nazirinin müavini, 2008-ci ildən Rusiyanın ABŞ-da Fövqəladə və Səlahiyyətli səfiridir. – 158.

**175. İordaniya,** İ o r d a n i y a H a ş i m i l ə r K r a l -l ı ğ ı – Qərbi Asiyada dövlət. Sahəsi 89,4 min $km^2$, əhalisi 6,5 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Ammandır. – 159–180.

**176. II Abdullah,** A b d u l l a h b i n H ü s e y n (d.1962) – 1999-cu ildən İordaniyanın kralıdır. II Abdullah kvalifikasiyalı dalğıc, paraşütist və pilotdur.– 160–163, 167, 168.

**177. Heydər Babayev,** H e y d ə r A y d ı n o ğ l u (d.1957) – iqtisadçı. 1999–2005-ci illərdə Azərbaycan Respublikası Prezidenti Yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri, 2005-ci ilin oktyabrından 2008-ci ilə qədər Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri olmuşdur. – 162,214,238.

**178. Kral Hüseyn bin Təlal** (1935–1999) – 1952–1999-cu illərdə İordaniyanın kralı olmuşdur. – 163,177.

**179. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 73 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci il mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 165.

**180. İslam Konfransı Təşkilatı** (İKT) – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv-dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. Hazırda İslam Əməkdaşlıq Təşkilatıdır. – 169,170, 199,244,294.

**181. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublikanın sahəsi 5,5 min km$^2$, əhalisi 435,3 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi var. – 176.

**182. Bizans,** B i z a n s i m p e r i y a s ı – VI əsrdə Roma imperiyasının parçalanması nəticəsində onun şərqində yaranmış, XV əsrin ortalarına qədər mövcüd olmuş dövlət. Paytaxtı Konstantinopol idi. Əslində Konstantinopolun yaranması ilə (324–330-cu illərdə) Bizansın Roma imperiyası tərkibindən ayrılması dövrü başlandı. Dünyanın ən böyük sivilizasiyalarından biri olan Bizans antik mədəniyyətilə xristian dünyası, Şərqlə Qərb arasında əlaqələndirici kimi rol oynamışdır. Bizanslılar

özlərini romalı, öz dövlətlərini isə Roma dövləti adlandırırdılar. Bizans imperiyası türk ordusu Konstantinopolu (1453) hücumla aldıqdan sonra süqut etməyə başladı. XV əsrin 60-cı illərində Bizans imperiyasına son qoyuldu və onun ərazisi Osmanlı imperiyasına daxil edildi. – 179.

**183. Əməvilər xilafəti** (661–750) – Əməvilərin feodal dövləti Əməvilər xilafətinin xəlifələri Qureyşilər tayfasının ümeyyə qoluna mənsub idilər. İlk xəlifə I Müaviyə xəlifə Əliyə qarşı çıxmış, 660-cı ildə özünü xəlifə elan etmiş (Qüdsdə), 661-ci ildə Əli öldürüldükdən sonra isə Xilafətin başçısı olmuşdu. Əməvilər xilafəti Şimali Afrikanı, Pireney yarımadasının çox hissəsini, Orta Asiyanı və s. əraziləri işğal etmişdilər. 747–750-ci illərdə Əbu Müslümün rəhbərlik etdiyi üsyan nəticəsində Əməvilər xilafəti devrildi, hakimiyyət Abbasilərin əlinə keçdi. – 179.

**184. Eneolit** – mis-daş dövrü, Neolitdət Tunc dövrünə keçid dövrü; bəzən Xalkolit dövrü də adlanır. Hər iki termin misin meydana gəlməsini göstərir. Mis alətlərin meydana gəlməsinin əhəmiyyəti böyük olmuşdur. Cəmiyyət tarixində Eneolit dövrü mühüm iqtisadi-ictimai mərhələ təşkil edir. Əvvəlcə misi daşın növlərindən hesab edən ibtidai insanlar ilk dəfə metal alətləri mis külçəsindən döymə üsulu ilə almışlar, tədricən misi istidə yumşaldıb işlənilən formaya sala bilmişlər. – 179.

**185. Paleolit** – qədim daş dövrü. Daş dövrünün əsas mərhələlərindən birincisi. Paleolit qazıntı adamının yaşadığı dövrdür. Paleolit iki böyük mərhələyə bölünür. 1 – alt, yaxud ilk Paleolit; 2 – üst və ya son Paleolit. Alt Paleolit 2,7 milyon il bundan əvvəl başlamışdır. Bu dövrdə bəşər tarixində ilk dəfə olduvay tipli insanlar meydana çıxmışdır. 35–32 min il bundan qabaq alt Paleoliti üst Paleolit əvəz etmişdir. Bu dövrdə müasir tipli insanlar formalaşmışdır. Üst Paleolit təqribən 12–10 min il bundan əvvəl Mezolitlə əvəz olunmuşdur. – 179.

**186. Tunc dövrü** – bəşəriyyətin inkişafında mədəni-tarixi dövr; Eneolitdən sonrakı mərhələ. Tunc dövrünün özünəməxsus xüsusiyyətləri olmuş, o, müxtəlif lokal qruplar və mədəniyyətlər şəklində yayılmış, ibtidai-icma quruluşunu təmsil etmişdir. Azərbaycan ərazisində Tunc dövrü e.ə. 4-cü minilliyin sonu 3-cü minilliyin əvvəllərində başlanmışdı. Azərbaycan ərazisində bu dövrə məxsus abidələr daha çox tədqiq edilmişdir. – 179.

**187. Etibar Pirverdiyev** (d.1964) – 2001-ci ildən «Azərenerji» ASC-nin prezidenti vəzifəsində çalışır. – 193,194.

**188. Misir Mərdanov,** M i s i r C u m a y ı l o ğ l u (d.1946) – fizika-riyaziyyat elmləri doktoru, professor. Tədqiqatları əsasən riyaziyyatın müasir sahələrindən biri olan optimal idarəetmə nəzəriyyəsinin aktual problemlərinə həsr edilmişdir.

Azərbaycan Respublikası Təhsil Nazirliyi ali təhsil və elm idarəsinin rəisi, Təhsil nazirinin müavini, BDU-nun tədris işləri üzrə prorektoru, BDU-nun rektoru kimi müxtəlif vəzifələrdə çalışmışdır. 1998–2013-cü illərdə Azərbaycan Respublikasının Təhsil naziri olmuşdur. Hal-hazırda AMEA-nın Riyaziyyat İnstitutunun direktorudur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 194,238.

**189. Zeynal Nağdəliyev,** Z e y n a l S ə f ə r o ğ l u (d.1957) – tarix elmləri doktoru. 2005-ci ildən Prezident Administrasiyasının Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri. – 196.

**190. Əlixan Məlikov** (d.1951) – mühəndis. 2000–2009-cu illərdə «Azəriqaz» Qapalı Səhmdar Cəmiyyətinin sədri vəzifəsində çalışmışdır. – 197.

**191. «Azəriqaz» İstehsalat Birliyi** – ARDNŞ-in hasil etdiyi təbii qazın Rusiya, İran və Gürcüstana ixrac edilən nəqli ilə məşğuldur. «Azəriqaz» İstehsalat Birliyinin əsas vəzifəsi respublikanın istehlakçılarını fasiləsiz, keyfiyyətli və təhlükəsiz təbii qazla təmin etmək, abonentlərə yüksək səviyyəli xidmət göstərmək, qaz şəbəkəsini beynəlxalq standartlara uyğun yenidən qurmaqdan ibarətdir. – 197.

**192. Azərbaycan Dövlət İnvestisiya Şirkəti** (AİŞ) – Açıq Səhmdar Cəmiyyəti. 2006-cı ildə yaradılmışdır. AİŞ-nin məqsədi mövcud və yeni kommersiya müəssisələrinə yerli və xarici investorlar cəlb etmək və öz vəsaiti hesabına müddətli investisiya qoymaq vasitəsilə Azərbaycan ərazisində iqtisadiyyatın qeyri-neft sektorunun inkişaf etdirilməsidir. – 198, 326.

**193. Əli Abbasov,** Ə l i M ə m m ə d o ğ l u (d. 1953) – texnika elmləri doktoru, professor. AMEA-nın həqiqi üzvü. 2000–2004-cü illərdə Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, 2000-ci ildən Milli Məclisin üzvü, 2001-ci ildən AŞPA-nın üzvü olmuşdur.

2004-cü ildən Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar naziridir. – 199, 238.

**194. Manmohan Sinqh** (d.1932) – Hindistan dövlət və siyasi xadimi. Hindistan Respublikasının 14-cü Baş naziri. –202.

**195. Koreya,** K o r e y a R e s p u b l i k a s ı – Şərqi Asiyada dövlət. Sahəsi 98,5 min km$^2$, əhalisi 45,2 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə və 6 mərkəzi tabe şəhərə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Seuldur. – 203.

**196. Roh Mu-Hyun** (Ho Mu Xeyn) (1946–2009) – 2003–2008-ci illərdə Koreya Respublikasının prezidenti. Dövlət başçısı olduğu dövr Cənubi Koreyada iqtisadiyyatın inkişafı və artım dövrü olmuşdur. – 203.

**197. İndoneziya,** İ n d o n e z i y a R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 1904,5 min km$^2$, əhalisi 198,2 milyon nəfərdir. İnzibati ərazisi 24 əyalətə, əyalət statusu olan 2 xüsusi inzibati əraziyə, 1 metropoliten mahalına (paytaxt) bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridir. – 205.

**198. Susilo Bambanq Yudhoyono** (d.1949) – istefada olan general-leytenant. 2004-cü ildən İndoneziyanın prezidentidir. – 205.

**199. Karlos Papulyas** (d.1929) – yunan siyasətçisi, 2005-ci ildən Yunanıstanın prezidentidir. – 206.

**200. Mətyu Brayza** – Amerika diplomatı. 2001–2005-ci illərdə ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi olmuşdur. Sonra isə Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya konfliktlərinin sülh yolu ilə həll olunması işi ilə məşğul olmuşdur. 2011–12-ci illərdə ABŞ-ın Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 260.

**201. Astana** ( 1961-ci ilə qədər Akmolinsk, 1961–92-ci illərdə Selunoqrad, 1992–98-ci illərdə Akmola) – Qazaxıstan Respublikasının paytaxtı. – 212–232.

**202. Zakir Qaralov,** Z a k i r  B ə k i r  o ğ l u (d.1956) – hüquqşünas, I dərəcə Dövlət Ədliyyə müşaviri, Beynəlxalq Prokurorlar Assosiasiyasının üzvü. 2000-ci ildən Azərbaycan Respublikasının Baş prokuroru. Azərbaycan Respublikasının «Azərbaycan Bayrağı» ordeni və «İgidliyə görə» medalı ilə təltif edilmişdir. – 214.

**203. Az TV** – Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti. Əsası 1918-ci ildə Gəncədə ilk radiostansiya kimi qoyulmuşdur. 1933-cü ildə XKS yanında Radiolaşdırma və Radio Verilişləri Komitəsi yaradılmış, Bakıda 35 kt gücündə yeni ötürücü radiostansiya işə salınmışdır. 1956-cı ildə Bakı Televiziya Mərkəzi yaradılmış, respublikada televiziya yayımına başlanmışdır. 1957-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Radio və Televiziya Verilişləri Komitəsi yaradılmışdır.

1991-ci ildə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsi şirkətə çevrilmiş, 2005-ci ildə isə Azərbaycan Dövlət Televiziya və Radio Verilişi Şirkəti ləğv edilərək həmin bazada Az TV QSC yaradılmışdır. – 215.

**204. Arif Alışanov,** A r i f  N i z a m  o ğ l u (d.1960) – iqtisadçı, iqtisad elmləri namizədi. 2006-cı ildən «Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin sədri, Milli Məclisin üzvüdür. – 215.

**205. Karim Masimov** (d.1965) – Qazaxıstan dövlət xadimi, iki dəfə Qazaxıstan Respublikasının Baş naziri (2007–2012, 2014-cü illər); 2012–2014-cü illərdə isə Qazaxıstan Respublikası Prezident Administrasiyasının rəhbəri olmuşdur. – 216.

**206. Ural** – Rusiya Federasiyasında, Şərqi Avropa və Qərbi Sibir düzənlikləri arasında ərazi. Uralın əsas hissəsi Ural dağ sistemindən ibarətdir (uzunluğu 2000 km-dən çox, eni 45-15 km, hündürlüyü 1895 metrədək).

Ural faydalı qazıntılarla zəngindir. Mis, dəmir, titan, nikel və xromit filizləri, daş kömür, neft, qaz və s. yataqları var. – 217.

**207. Sibir** – Rusiya Federasiyasının Asiyadakı ərazisinin çox hissəsi. Sahəsi təqribən 10 milyon $km^2$, əhalisi 23,8 milyon nəfərdir. Sibir Qərbi Sibir və Şərqi Sibir hissələrinə bölünür. – 217.

**208. Qasımcomərd Tokayev** (d.1953) – Qazaxıstan dövlət xadimi, diplomat. 2002–2003-cü illərdə Qazaxıstan Respublikasının Xarici İşlər naziri və Dövlət katibi olmuşdur.

2007-ci ildə Parlament Senatının sədri, 2011-ci ilin martından BMT Baş katibinin müavini və BMT-nin Cenevrə şöbəsinin direktorudur. – 229.

**209. Tacikistan,** Tacikistan Respublikası – Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 143,1 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. İnzibati ərazisi Bədaxşən Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 233–255,284.

**210. Emoməli Rəhmon,** Emoməli Şərif oğlu (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin sədri olmuşdur. Həmin ilin noyabrından Tacikistan Respublikasının prezidentidir. – 233–255,284.

**211. Mahmud Kərimov,** Mahmud Kərim oğlu (1948–2013) – fizik, fizika-riyaziyyat elmləri doktoru, professor, akademik. 2001–2013-cü illərdə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti olmuşdur. İlk dəfə olaraq yüksək molekullu sistemlərdə güclü elektrik və maqnit sahəsinin təsiri ilə baş verən elementar elektrik və molekulyar prosesləri, elektrik və fotoelektrik keçiricilərinin maqnit spin effektlərini tədqiq etmişdir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 238.

**212. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO-nun və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni numayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 252–253,261,305–306.

**213. Vaqif Sadıqov,** V a q i f İ s m a y ı l o ğ l u (d.1956) – diplomat. 2004-2010-cu illərdə Xarici İşlər nazirinin müavini işləmişdir. 2010-cu ildən Azərbaycan Respublikasının İtaliyada Fövqəladə və Səlahiyyətli səfiridir. – 254,255.

**214. Azərbaycan Dövlət İncəsənət Muzeyi –** (R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi nəzərdə tutulur.) 1936-cı ildə Azərbaycan Dövlət Muzeyinin incəsənət şöbəsi əsasında yaradılmış və 1937-ci ildə açılmışdır. Muzeyin fondunda on minə qədər incəsənət əsəri qorunub saxlanılır. Ekspozisiyasında Azərbaycan, rus sənətkarlarının, Qərbi Avropa və Şərq ölkələrinin boyakarlıq, qrafika, heykəltəraşlıq və s. əsərləri nümayiş etdirilir. – 258–259.

**215. Muğam mərkəzi** – Bakıda, dənizkənarı Milli parkda açılmış mədəniyyət mərkəzi. Muğam mərkəzi ümumi sahəsi 7,5 min kvadratmetr olan üçmərtəbəli binadan ibarətdir. Binanın forması Azərbaycanın qədim musiqi alətlərindən olan tarın hissələrini xatırladır. Ən müasir texnologiyadan istifadə edilməklə tikilən bina üçün lazımi avadanlıq İtaliya, Avstriya, Fransa və Türkiyədən gətirilmişdir. İnşaat işləri zamanı 2 mindən çox müxtəlif ölçülü şüşədən istifadə edilmişdir. – 260–261.

**216. YUNESKO –** BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 260, 261.

**217. İSESKO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. İSESKO-nun Baş direktoru Əbdüləziz bin Osman əl-Tüveyjridir. Azərbaycan dövləti İSESKO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 260.

**218. Koişiro Mutsuura** (d.1937) – 2005–2009-cu illərdə YUNESKO-nun Baş direktoru. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 261.

**219. Malayziya** – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 329,7 min km$^2$, əhalisi 20,4 milyon nəfərdir. Malayziya federasiyadır. Tərkibinə 13 ştat və federal ərazi – Kuala-Lumpur və Lavyan daxildir. Millətlər Birliyinin üzvüdür. Malayziya konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultanlığın ştat başçıları tərəfindən 5 il müddətinə seçilən kraldır. Qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Kuala-Lumpurdur. – 264.

**220. Abdulla Əhməd Bədəvi** (d.1939) – 2003–2009-cu illərdə Malayziyanın Baş və Maliyyə naziri olmuşdur. Hakim Milli Cəbhə Partiyasının lideridir. – 265.

**221. Qırğızıstan,** Q ı r ğ ı z ı s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 198,5 min km$^2$, əhalisi 4,53 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkekdir. – 266.

**222. Kurmanbek Bakiyev** (d.1949) – Qırğızıstan siyasi və dövlət xadimi, «Qırğızıstan xalq hərəkatı» blokunun lideri, 2005–2010-cu illərdə Qırğızıstan Respublikasının prezidenti olmuşdur. Hazırda Belarusda siyasi mühacirdir. – 266.

**223. Müslüm Maqomayev,** M ü s l ü m M ə h ə m m ə d o ğ l u (1942–2008) – görkəmli Azərbaycan müğənnisi. Azərbaycan Respublikası və SSRİ xalq artisti. Bəstəkar Müslüm Maqomayevin nəvəsi. Keçmiş SSRİ məkanında və bir çox xarici ölkələrdə müvəffəqiyyətlə çıxış etmişdir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 267–268.

**224. İsrail –** Yaxın Şərqdə dövlət. Sahəsi 20,8 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir (1948–49-cu illərdə işğal edilmiş ərazi daxil olmaqla). İsrail dövləti BMT-nin Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli qərarına əsasən yaradılmışdır. İsrail inzibati cəhətdən 6 mahala bölünür. Dövlət başçısı prezidentdir, onu birpalatalı parlament (Knesset) seçir. Hökumətə geniş səlahiyyəti olan Baş nazir başçılıq edir. – 269.

**225. Aviqdor Liberman** (d.1958) – İsrail siyasətçisi. 2007–2013-cü illərdə İsrail Xarici İşlər naziri, Knessetin deputatı, «Haşdom İzrail» partiyasının lideri, Strateji Araşdırmalar naziri olmuşdur. –269.

**226. Peru,** P e r u  R e s p u b l i k a s ı – Cənubi Amerikanın qərbində dövlət. Sahəsi 1285,2 min km$^2$, əhalisi 23,95 milyon nəfərdir. İnzibati ərazisi 12 rayona bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Demokratik Müəssislər Məclisi Konqresidir. Paytaxtı Limadır. – 271.

**227. Şri-Lanka,** Ş r i - L a n k a D e m o k r a t i k S o s i a- l i s t R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Millətlər Birliyinə daxildir. Sahəsi 65,6 min km$^2$, əhalisi 18,3 milyon nəfərdir. İnzibati ərazisi 25 əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı rəsmi olaraq Cayavar Denapurakotte, faktiki isə Kolombodur. – 272.

**228. Elçin Quliyev,** E l ç i n  İ s a ğ a  o ğ l u (d.1967) – hüquqşünas, general-polkovnik. Bakı Dövlət Universitetini və Bakı Ali Hərbi Birləşmiş Komandirlər Məktəbini bitirmişdir. 2001-ci ildən Azərbaycan Respublikası Sərhəd Qoşunları Komandanıdır. «Azərbaycan bayrağı» ordeni ilə təltif olunmuşdur. – 273–277.

**229. İvan Qaşparoviç** (d.1941) – Slovakiya dövlət xadimi, hüquqşünas-alim, 2004-cü ildən Slovakiya Respublikasının prezidenti. – 280.

**230. Liviya,** L i v i y a Ə r ə b X a l q S o s i a l i s t C ə- m a h i r i y y ə s i – Şimali Afrikada dövlət. Sahəsi 1759,5 min km$^2$, əhalisi 5,4 milyon nəfərdir. Liviyanın rəhbər orqanı inqilabi rəhbərdir. Qanunverici orqanı Umumi Xalq Konqresidir. Dövlətin funksiyasını Ali Xalq Komitəsi yerinə yetirir. Paytaxtı Tripolidir. – 281.

**231. Müəmmər əl-Qəddafi** (d.1942) **–** Liviyanın dövlət və siyasi xadimi. 1970–2011-ci illərdə Liviyanın prezidenti olmuşdur. – 281.

**232. Makedoniya,** M a k e d o n i y a  R e s p u b l i k a -s ı – Cənubi Avropada dövlət. Sahəsi 25,7 min km$^2$, əhalisi 1,97 milyon nəfərdir. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Məclisdir. – 282.

**233. Branko Çrvenkovski** (d.1962) – 2004–2009-cu illərdə (marta qədər) Makedoniya Respublikasının prezidenti. –282.

**234. Koreya Xalq Demokratik Respublikası** – Şərqi Asiyada, Koreya yarımadasında dövlət. 1948-ci ildə yaradılmışdır. Sahəsi 121,2 min km$^2$, əhalisi 23,9 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Ali Xalq Məclisidir. Paytaxtı Pxenyandır. – 283.

**235. Kim Çen İr** (1941 və ya 1942–2012) – 2003–2011-ci illərdə Koreya Xalq Demokratik Respublikasının başçısı, Koreya Əmək Partiyasının Baş katibi, Koreya Xalq Ordusunun Baş komandanı, KXDR-in Dövlət Müdafiə Komitəsinin sədri olmuşdur, «Dahi rəhbər» Kim İr Senin oğlu. – 285.

**236. San-Marino,** S a n - M a r i n o R e s p u b l i k a s ı – Cənubi Avropada. Apennin yarımadasında dövlət. Sahəsi 61 km$^2$, əhalisi 25 min nəfərdir. Ölkə inzibati cəhətdən 12 mahala bölünür. Dövlət başçısı funksiyasını bərabərhüquqlu 2 kapitan – regent icra edir. Ali qanunverici orqan 5 il müddətinə seçilən Böyük Baş Şuradır.Paytaxtı San-Marinodur. – 288–302.

**237. Mahmud Əhmədinejad** (d.1956) – 2005–2013-cü illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. – 292.

**238. Ziya Məmmədov,** Z i y a A r z u m a n o ğ l u (d.1952) – dəmiryolçu mühəndis. 1996–2005-ci illərdə Azərbaycan Dövlət Dəmir Yolunun rəisi, 2005-ci ildən isə Azərbaycan Respublikasının Nəqliyyat naziridir. – 292.

**239. Mənuçehr Mottəki** (d.1953) – 2005–2010-cu illərdə İran İslam Respublikasının Xarici İşlər naziri olmuşdur. – 292.

**240. Natiq Əliyev,** N a t i q A g a ə l i o ğ l u (d.1947) – 1993–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti olmuşdur. Hazırda Azərbaycan Respublikası Sənaye və Energetika naziridir. Birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 292.

**241. Xələf Xələfov,** X ə l ə f A l ı o ğ l u (d.1959) – diplomat, Fövqəladə və Səlahiyyətli səfir. Moskvada ikiillik Ali Diplomatiya

Akademiyasını bitirmişdir. 1997-ci ildən Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavinidir. – 306.

**242. Almaniya Bundestaqı** – Almaniya parlamentinin Aşağı palatası. – 308.

**243.** ***bp,*** «B r i t i ş h P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 309.

**244. Endi İnqlis** (d.1960) – britaniyalı mühəndis. 2004–2007-ci illərdə *bp*-nin əvəzedici direktoru və *bp*-nin kəşfiyyat və istehsalat biznesi üzrə Baş direktoru olmuşdur. – 309.

**245. Neftçala** – Azərbaycan Respublikasında inzibati rayon. 1940-cı ildə təşkil olunmuşdur. 1959-cu ildə ləğv edilərək ərazisi Salyan rayonuna birləşdirilmişdir. 1973-cü ildə yenidən müstəqil rayon statusu almışdır. Sahəsi 1452 km$^2$, əhalisi 84,0 min nəfərdir. – 310–320.

**246. «Xalq Bank»** – 2004-cü il Azərbaycan Respublikasının Mərkəzi Bankının lisenziyası əsasında fəaliyyət göstərən «Xalq Bank» Azərbaycanda həm fiziki şəxslərin, həm də hüquqi şəxslərin etibar göstərdiyi ilk 3 bankdan biridir. Bankın nizamnamə kapitalı 72 milyon 828,000 AZN, aktivləri isə 534 milyon 488 691 AZN həcmindədir. «Xalq Bank» kredit portfelinə görə respublikada ikinci ən böyük bankdır. – 317.

**247. Hacıqabu**l – Azərbaycan Respublikasında inzibati rayon. 1990-cı ildə təşkil olunmuşdur. Sahəsi 1641 km$^2$, əhalisi 70,1 min nəfərdir. –321–333.

## Şəxsi adlar göstəricisi

**Abbasov Əli** – 199,238
**Abutalıbov Hacıbala** – 5,8,14,89,111,120,123,209, 232,254,255,306,307
**Abdullayev Kamal** – 116
**I Abdullah** – 163
**II Abdullah** – 160–163
**Adamkus Valdas** – 43
**Ağayev Vüqar** – 134
**Axmetov Serik** – 231
**Akour İman** – 159
**II Albert** – 143
**Alışanov Arif** – 215
**Almazov Raciv** – 134
**Amanşayev Vermek** – 231
**Aşur Əbdürəhim** – 238
**Azər Paşa Nemət** – 116
**Babayev Heydər** – 162,214,238
**Bakan Leroy** – 69
**Bakiyev Kurmanbek** – 266
**Behbudov Asif** – 134
**Berişa Sali** – 93,94
**Berdiməhəmmədov Qurbanqulu**– 8
**Besesku Trayan** – 59,94
**Bədəlbəyli Fərhad** – 116
**Bədəvi Abdullah** – 265
**Bobozadə Qulamjon** – 238
**Bokin Tuncay** – 31
**Brayzə Mətyu** – 207
**Buş Corc** – 114–115
**Çrvenkovski Branko** – 282
**Dobrodeyev Oleq** – 68
**Dumor Hani** – 164– 172
**Enxbayar Nambarın** – 139
**Əbiyev Səfər** – 71,74
**Əhmədinejad Mahmud** – 288–302
**Əl-Əli Suheyr** – 161
**Əl-Hamili Məhəmməd** – 103
**Əl- Xətib Abdul** – 160,180

**Əl- Qəddafi Müəmmər** – 281
**Əl- Məəni Ömər** – 162,173–175
**Əl- Müktəfi Billah Tuanku** – 264
**Əl- Tahir Tabit** – 162
**Əliyev Azad** – 134
**Əliyev Heydər** – 15,16–17,68,72,81,83,84,105, 124,125,127,128,134,175,176, 177,178,187,224,226,246, 252–253,254,269,275, 306,310,312,313,317,334
**Əliyev Natiq** – 292
**Əliyeva Mehriban** –5,260,310,317,318,319,330, 331
**Əliyeva Zərifə** – 68,254,306
**Ərdoğan Rəcəb Tayyib** – 91,97,150
**Əsədov Oqtay** – 84
**Əsgərov Cahangir** – 31
**Fariz Ziyad** – 160
**Fətəliyev İlham** – 116
**Frias Hüqo** – 113,120
**Gülər Hilmi** – 103
**Gülər Müəmmər** – 89,111
**Harper Stefen** – 87
**Hauzer Otto** – 278
**Həsənov Kərəm** – 238
**Xələfov Xələf** – 306
**Xudoyarov Baxtiyar** – 238
**İldırım Özcan** – 121
**İlolov Mamadşo** – 238
**İnqlis Endi** – 309
**Jan Mişel** – 86
**Kabdıqal Mark** – 208
**Kaçinski Lex** – 41–42,47–48,152
**Kalmi-Rey Mişelin** – 149
**Karamanlis Konstantinos** – 94
**Kərəmov Kərəm** – 10
**Kərimov İslam** – 120
**Kərimov Mahmud** – 238

**Kərzai Həmid** – 155,204
**Kİm Çen İr** – 283
**Kislyak Sergey** – 158
**Köçəryan Robert** – 6,120
**Qaralov Zakir** – 214
**Qasımova Fidan** – 38
**Qaşparoviç İvan** – 280
**Qbaqbo Loran** – 156
**Qəyyum Məmun** – 145
**Qriqoryan Alksandr** – 116
**Quliyev Elçin** – 273–277
**Liberman Aviqdor** – 269
**Lintner Eduard** – 308
**Lujkov Yuri** – 119
**Lukaşenko Aleksandr** – 88
**Maqomayev Müslüm** – 267–268
**Mançini Alessandra** – 285
**Marin Anqel** – 44
**Martirosyan Radik** – 116
**Matsuşima Midori** – 270
**Mehdiyev Ramiz** – 5,8,84,89,111,120,123,160
**Meyer Andre** – 334
**Məlikov Əlixan** – 197
**VI Məhəmməd** – 148
**Məhəmməd Zahir** – 155
**Məmmədov Gündüz** – 214
**Məmmədov Ziya** – 292
**Məmmədyarov Elmar** – 6,161,233,238,292,302
**Mərdanov Misir** – 194,238
**Masimov Karim** – 216
**Mottəki Məniçehr** – 292
**Muxamedkarim Aznur** – 208
**Muxtarov Əhməd** – 322
**Musa Zərgər** – 292
**Mustafayev Fərman** – 9
**Mustafazadə Cəsarət** – 134
**Mustafazadə Elza** – 36
**Mustafazadə Əzizə** – 36

**Mutsaura Koişiro** – 261
**Mübarək Hüsnü** – 146
**Müşərrəf Pərviz** – 112
**Nacmuddinov Səfərəli** – 238
**Nağdəliyev Zeynal** – 196
**Natan Sellapan** – 157
**Nazarbayev Nursultan** – 7,210,211–227
**Nquyen Minh Triet** – 154
**Obraztsova Yelena** – 37
**Orazbakov Qalim** – 214
**Oskanyan Vartan** – 95
**Papulyas Karlos** – 206
**Patil Pratibha** – 151
**Peiris Corc** – 272
**Peres Alan** – 271
**Piriyev Heydər** – 71
**Pırvanov Georgi** – 94
**Pirverdiyev Etibar** – 193,194
**Polad Bülbüloğlu** – 116
**Putin Vladimir** – 7,94,120–123,141,158
**Rasizadə Artur** – 5,8,84,89,111,120,123,160,180,209,232,233,307
**Rəhmon Emoməli** – 233–255,284
**Ro Mu Hyun** – 203
**Ruşaylo Vladimir** – 8
**Saakaşvili Mixeil** – 39,65–66,94,102,103
**Sadıqov Vaqif** – 254,255
**Sallivan Deniel** – 256–257
**Sanakoyev Dmitrii** – 66
**Saracyan Sergey** – 116
**Sarkozi Nikola** – 138
**Sezər Əhməd Necdət** – 90–111
**Silva Luis** – 147,287
**Sinqh Manmohan** – 202
**Siufas Dimitris** – 206
**Smbatyan Armen** – 116

**Syöqren Pen** – 140
**Şabazov Mirqand** – 237
**Tadiç Boris** – 94
**Tajin Marat** – 231
**Tarlev Vasile** – 45,64–65,66–67
**Təlal bin Abdullah** – 163,177
**Teymurov Emin** – 84
**Tierni Con** – 137
**Tokayev Qasımcomərd** – 229
**Topbaş Qədir** – 89,111
**Topi Bamir** – 153
**Tusupbekov Rəşid** – 214
**Usama Ald Abbas** – 179
**Usubov Ramil** – 124–136
**Uzbekov Qani** – 214
Veles Alvaro – 142
**Veneman Ann** – 92
**Verhofstadt Gi** – 144
**Vergin Deniel** – 85,102,104
**Vəliyev Arif** – 237
**Voronin Vladimir** – 94,120,262
**Yabunaka Mitodzi** – 46
**Yudhoyono Susilo** – 205
**Yuşşenko Viktor** – 40,49,63–64,67,67,94,102, 103,263
**Zaripi Xamroxon** – 238
**Zeynalov Ramiz** – 136

## Coğrafi adlar göstəricisi


**Abxaziya** – 57
**Abşeron** – 23
**Alaniya** – 62
**Albaniya** – 93,94, 153
**Almaniya** – 12,278,308
**Almatı** – 219,225
**Amerika Birləşmiş Ştatları** – 24,25,50,55,69,85,94,102, 114–115,137,207,256–257,320
**Aralıq dənizi** – 18,19,99,107
**Asiya** – 52,75,99,219
**Astana** – 212–232
**Atlantika okeanı** – 253
**Avrasiya** – 21,22,50,54,57,63
**Avropa** – 16,18,19,21,22,23,26,27,51, 52,53,54,57,63,64,75,99, 108,110,131,140, 186,216, 218
**Avstraliya** – 12
**Avstriya** – 19
**Bakı** – 8,16,22,32,34,37,41–42,46, 56,58,86,87,88,107,108,111, 112,113,115, 118, 119,136, 138, 139,141,142,143,144, 145,146,147,148,149,150, 151,152,153,154,155,156, 157,193,201,202,203,204, 205,216,217,218,219,221, 262,263,264,265,266,268, 269,271,279,280,281,282, 283,284,285, 296
**Balkan (*yarımada*)** – 103
**Baltik dənizi** – 50,56,110
**Belçika** – 16,143

**Belarus** – 88
**Birləşmiş Ərəb Əmirlikləri** – 103
**Bolqarıstan** – 19,27,50,94
**Bosfor** – 97,110
**Böyük Britaniya** – 12,102,118,230
**Braziliya** – 147,287
**Buxarest** – 94
**Ceyhan** – 19,103
**Cənubi Qafqaz** – 19,21,55,102,242,243
**Cənubi Osetiya** – 57,63,65
**Çili** – 320
**Çin** – 11,12,217
**Daşkəsən** – 9
**Dağlıq Qarabağ** – 28,29,57,63,77,78,79,95,96, 100,114, 117,138,191,225,242, 294
**Dnestryanı** – 57
**Düşənbə** – 8
**Estoniya** – 50
**Əfqanıstan** – 26,155,204
**Ələt** – 321
**Əmman** – 160–180
**Fransa** – 138
**Gəncə** – 9,10,32,34
**Gürcüstan** – 18,21,22,39,52,53,54,57,62, 65–66,70,94,95,99,102,103, 106,108,109,186,212,218
**Hacıqabul** – 321–333
**Həsənabad** – 319
**Çexiya** – 16
**Hindistan** – 10,151,201,202
**Xankəndi** – 116
**Xəzər dənizi** – 20,21,23,50,52,56,62,110, 114,118,216,225
**Xıllı** – 319
**İndoneziya** – 205
**İordaniya** – 159–180
**İran** – 25,288–302

**İspaniya** – 12
**İsrail** – 269
**İstanbul** – 89–111
**İtaliya** – 17
**İsveçrə** – 149
**Kaliforniya** – 69
**Kanada** – 86,87
**Kerç** – 67
**Kolumbiya** – 142
**Kosovo** – 26
**Koreya Respublikası** – 203
**Koreya XDR** – 283
**Kot-d'İvuar** – 156
**Krakov** – 47,51,61,108
**Kvemo-Kartli** – 70
**Qafqaz** – 21,55,57,216
**Qara dəniz** – 18,50,56,62,99,110,216
**Qazaxıstan** – 7,8,21,22,208,209–232
**Qırğızıstan** – 266
**Qızılburun** – 330
**Quba** – 334
**Qvineya** – 10
**Laçın** – 29
**Latviya** – 150
**Lənkəran** – 32,34
**Litva** – 43,50,61
**Liviya** – 281
**Los-Anceles** – 68
**Macarıstan** – 19
**Makedoniya** – 282
**Malayziya** – 264
**Maldiv** – 145
**Marazad** – 292
**Mərakeş** – 148
**Mərkəzi Asiya** – 21,242
**Misir** – 146
**Moldova** – 45,53,54,57,62,64–65,66–67,94,95,120,262

| | |
|---|---|
| **Monqolustan** | – 139 |
| **Moskva** | – 45,53,54,119 |
| **Naxçıvan** | – 32,34,176,297,317 |
| **Naxçıvan MR** | – 176 |
| **Neftçala** | – 310–320 |
| **Norveç** | – 253 |
| **Novorossiysk** | – 18 |
| **Ordubad** | – 292 |
| **Orta Asiya** | – 168,217 |
| **Özbəkistan** | – 120,279 |
| **Pakistan** | – 112 |
| **Peru** | – 271 |
| **Poldəşt** | – 292 |
| **Polşa** | – 41–42,47–48,50,55,61,152 |
| **Rostov- Don** | – 120–123 |
| **Rumıniya** | – 19,27,50,59,94,95 |
| **Rusiya** | – 5–8,10,12,18,22,24,25,68, 94,95,99,16,19,120–123,141, 158,217,221,253 |
| **Sakit okean** | – 253 |
| **San-Marino** | – 285 |
| **San-Paulo** | – 147 |
| **Sankt-Peterburq** | – 5–8 |
| **Serbiya** | –94–95 |
| **Sxinvali** | – 65 |
| **Sibir** | – 217 |
| **Sinqapur** | – 157 |
| **Slovakiya** | – 94,280 |
| **Soçi** | – 141 |
| **Sumqayıt** | – 9–13,317 |
| **Şahtaxtı** | – 292 |
| **Şri-Lanka** | – 272 |
| **Şuşa** | – 116 |
| **Tacikistan** | – 233–255,284 |
| **Tbilisi** | – 65 |
| **Tehran** | – 296 |
| **Türkiyə** | – 10,12,18,19,21,52,89–111, 121,150,186,217,230 |

**Türkmənistan** – 8,22
**Ukrayna** – 10,40,49,63–64,67,94,95, 102,109,263
**Ural** – 217
**Venesuela** – 113,120
**Vyetnam** – 154,286
**Yalta** – 94
**Yaponiya** – 18–30,46,55,270,320
**Yunanıstan** – 16,52,94,206
**Zaqatala** – 32,34,317

## MÜNDƏRİCAT

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN SANKT-PETERBURQA SƏFƏRİ

*9 iyun 2007-ci il..........................................................................................5*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV MDB DÖVLƏT BAŞÇILARININ
QEYRİ-RƏSMİ ZİRVƏ TOPLANTISINDA
İŞTİRAK ETMİŞDİR

*10 iyun 2007-ci il........................................................................................7*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV SUMQAYIT «ALÜMİNİUM» İSTEHSALAT
SAHƏSİNDƏ YENİ ELEKTROLİZ KORPUSLARININ
İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİNDƏ
İŞTİRAK ETMİŞDİR

*12 iyun 2007-ci il........................................................................................9*

«DİZAYN–GENAY AZƏRBAYCAN» POLİETİLEN VƏ POLİPROPİLEN
BORU ZAVODUNUN TƏNTƏNƏLİ
AÇILIŞ MƏRASİMİNDƏ

*12 iyun 2007-ci il......................................................................................12*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV ŞƏHİDLƏR XİYABANINDA APARILAN
YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR

*12 iyun 2007-ci il......................................................................................14*

HEYDƏR ƏLİYEV ADINA İDMAN-KONSERT KOMPLEKSİNDƏ
ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNİN GEDİŞİ İLƏ
TANIŞLIQ

*13 iyun 2007-ci il......................................................................................16*

YAPONİYANIN «NİKKEY» («NİHON KEYDZAY ŞİMBUN»)
QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ

*13 iyun 2007-ci il......................................................................................18*

HEYDƏR ƏLİYEV ADINA BEYNƏLXALQ
HAVA LİMANINDA «HOLİDAY İNN»
MEHMANXANASININ AÇILIŞ MƏRASİMİNDƏ
NİTQ

*14 iyun 2007-ci il.........................................................................................31*

MƏSHUR AZƏRBAYCANLI PİANOÇU, BƏSTƏKAR VƏ CAZ İFAÇISI
ƏZİZƏ MUSTAFAZADƏ VƏ ANASI, TANINMIŞ MUSİQİÇİ ELZA
MUSTAFAZADƏ İLƏ GÖRÜŞ

*14 iyun 2007-ci il.........................................................................................36*

MƏŞHUR OPERA MÜĞƏNNİSİ, SSRİ XALQ ARTİSTİ
YELENA OBRAZTSOVA İLƏ GÖRÜŞ

*14 iyun 2007-ci il.........................................................................................37*

AZƏRBAYCAN RESPUBLİKASININ XALQ ARTİSTİ
FİDAN QASIMOVAYA

*16 iyun 2007-ci il.........................................................................................38*

GÜRCÜSTAN RESPUBLİKASININ PREZİDENTİ
MİXEİL SAAKAŞVİLİ İLƏ GÖRÜŞ

*18 iyun 2007-ci il.........................................................................................39*

UKRAYNA RESPUBLİKASININ PREZİDENTİ
VİKTOR YUŞŞENKO İLƏ GÖRÜŞ

*18 iyun 2007-ci il.........................................................................................40*

POLŞA RESPUBLİKASININ PREZİDENTİ LEX KAÇİNSKİ
İLƏ GÖRÜŞ

*18 iyun 2007-ci il.........................................................................................41*

LİTVA RESPUBLİKASININ PREZİDENTİ
VALDAS ADAMKUS İLƏ GÖRÜŞ

*18 iyun 2007-ci il.........................................................................................43*

BOLQARISTAN RESPUBLİKASININ VİTSE-PREZİDENTİ
ANQEL MARİN İLƏ GÖRÜŞ

*18 iyun 2007-ci il*........................................................................................*44*

MOLDOVA RESPUBLİKASININ BAŞ NAZİRİ
VASİLE TARLEV İLƏ GÖRÜŞ

*18 iyun 2007-ci il*........................................................................................*45*

YAPONİYA XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MİTODZİ
YABUNAKA İLƏ GÖRÜŞ

*18 iyun 2007-ci il*........................................................................................*46*

BAKIDA GUAM–POLŞA GÖRÜŞÜ

*18 iyun 2007-ci il*........................................................................................*47*

DEMOKRATİYA VƏ İQTİSADİ İNKİŞAF UĞRUNDA
TƏŞKİLAT – GUAM ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ
2-ci ZİRVƏ GÖRÜŞÜNDƏ NİTQ

*19 iyun 2007-ci il* .......................................................................................*49*

YEKUN NİTQİ

*19 iyun 2007-ci il* .......................................................................................*54*

RUMINİYA RESPUBLİKASININ PREZİDENTİ
TRAYAN BESESKU İLƏ GÖRÜŞ

*19 iyun 2007-ci il*........................................................................................*59*

GUAM-ın ÜZVÜ OLAN ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT
BAŞÇILARININ BİRGƏ MƏTBUAT KONFRANSI

*19 iyun 2007-ci il*........................................................................................*60*

ÜMUMRUSİYA DÖVLƏT TELERADİO ŞİRKƏTİNİN BAŞ DİREKTORU
OLEQ DOBRODEYEV İLƏ GÖRÜŞ

*20 iyun 2007-ci il*........................................................................................*68*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ
LOS-ANCELES DAİRƏSİNİN ŞERİFİ LEROY BAKAN
İLƏ GÖRÜŞ

*20 iyun 2007-ci il*........................................................................................*69*

GÜRCÜSTANIN KVEMO-KARTLİ REGİONUNUN QUBERNATORU
ZURAB MELİKİŞVİLİNİN RƏHBƏRLİK
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 iyun 2007-ci il............................................................................................70*

HEYDƏR ƏLİYEV ADINA AZƏRBAYCAN ALİ HƏRBİ MƏKTƏBİNİN
NÖVBƏTİ BURAXILIŞINA HƏSR OLUNMUŞ
TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

*22 iyun 2007-ci il............................................................................................71*

ABŞ-ın KEMBRİC ENERJİ TƏDQİQAT ASSOSİASİYASININ
SƏDRİ DENİEL YERGİNİN RƏHBƏRLİK ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*22 iyun 2007-ci il............................................................................................85*

KANADANIN GENERAL-QUBERNATORU
ZATİ-ALİLƏRİ XANIM MİŞEL JANA

*22 iyun 2007-ci il............................................................................................86*

KANADANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ
CƏNAB STEFEN HARPERƏ

*22 iyun 2007-ci il............................................................................................87*

BELARUS RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR LUKAŞENKOYA

*22 iyun 2007-ci il..........................................................................................88*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN İSTANBULA SƏFƏRİ

*24 iyun 2007-ci il............................................................................................89*

TÜRKİYƏ PREZİDENTİ ƏHMƏD NECDƏT SEZƏR
İLƏ GÖRÜŞ

*25 iyun 2007-ci il............................................................................................90*

TÜRKİYƏNİN BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN
İLƏ GÖRÜŞ

*25 iyun 2007-ci il..............................................................................................91*

YUNİSEF-in İCRAÇI DİREKTORU XANIM
ANN VENEMAN İLƏ GÖRÜŞ

*25 iyun 2007-ci il..............................................................................................92*

ALBANİYANIN BAŞ NAZİRİ SALİ BERİŞA İLƏ GÖRÜŞ

*25 iyun 2007-ci il..............................................................................................93*

QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ
ZİRVƏ GÖRÜŞÜ

*25 iyun 2007-ci il..............................................................................................94*

QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ
ZİRVƏ GÖRÜŞÜNDƏ NİTQ

*25 iyun 2007-ci il..............................................................................................98*

«ŞƏRQ QƏRBLƏ QARŞILAŞIR: ENERJİ
TƏHLÜKƏSİZLİYİNDƏ YENİ HÜDUDLAR»
MÖVZUSUNDA 10-cu İLLİK KONFRANS

*26 iyun 2007-ci il............................................................................................102*

«ŞƏRQ QƏRBLƏ QARŞILAŞIR: ENERJİ TƏHLÜKƏSİZLİYİNDƏ YENİ
HÜDUDLAR» MÖVZUSUNDA 10-cu İLLİK
KONFRANSDA ÇIXIŞ

*26 iyun 2007-ci il............................................................................................105*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ

*27 iyun 2007-ci il............................................................................................112*

VENESUELA BOLİVAR RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB HUQO RAFAEL ÇAVEZ FRİASA

*27 iyun 2007-ci il............................................................................................113*

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB CORC BUŞA

*27 iyun 2007-ci il ...............................................................................114*

AZƏRBAYCAN VƏ ERMƏNİSTANIN BİR QRUP ZİYALISI
İLƏ GÖRÜŞ

*28 iyun 2007-ci il...............................................................................116*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ
KRALLIĞININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ
CƏNAB QORDON BRAUNA

*28 iyun 2007-ci il...............................................................................118*

MOSKVANIN MERİ CƏNAB YURİ LUJKOVA

*28 iyun 2007-ci il...............................................................................119*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN ROSTOV-DON ŞƏHƏRİNƏ
SƏFƏRİ

*30 iyun 2007-ci il...............................................................................120*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ
RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN
GÖRÜŞÜ

*30 iyun 2007-ci il ...............................................................................122*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV AZƏRBAYCAN POLİSİNİN
YARANMASININ 89-cu İLDÖNÜMÜNƏ VƏ POLİS AKADEMİYASININ
2006-2007-ci il TƏDRİS İLİNİN BURAXILIŞINA HƏSR OLUNMUŞ
TƏNTƏNƏLİ
MƏRASİMDƏ İŞTİRAK ETMİŞ VƏ NİTQ SÖYLƏMİŞDİR

*2 iyul 2007-ci il ...............................................................................124*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV BAKI ŞƏHƏR BAŞ DÖVLƏT YOL POLİSİ
İDARƏSİNİN YENİ İNZİBATİ BİNASININ AÇILIŞ MƏRASİMİNDƏ
İŞTİRAK ETMİŞDİR

*2 iyul 2007-ci il...............................................................................125*

ABŞ KONQRESİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*3 iyul 2007-ci il*......................................................................................*137*

FRANSA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB NİKOLA SARKOZİYƏ

*3 iyul 2007-ci il*......................................................................................*138*

MONQOLUSTANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB NAMBARIN ENXBAYARA

*3 iyul 2007-ci il*......................................................................................*139*

AVROPA ŞURASI NAZİRLƏR KOMİTƏSİNİN
«AQO» MONİTORİNQ QRUPUNUN NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*5 iyul 2007-ci il*......................................................................................*140*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*6 iyul 2007-ci il*......................................................................................*141*

KOLUMBİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ALVARO URİBE VELESƏ

*16 iyul 2007-ci il*....................................................................................*142*

BELÇİKA KRALI ƏLAHƏZRƏT II ALBERTƏ

*16 iyul 2007-ci il* ...................................................................................*143*

BELÇİKA KRALLIĞININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ CƏNAB Gİ VERHOFSTADTA

*16 iyul 2007-ci il* ..................................................................................*144*

MALDİV RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MƏMUN ƏBDÜL QƏYYUMA

*16 iyul 2007-ci il*....................................................................................*145*

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD HÜSNÜ MÜBARƏKƏ

*16 iyul 2007-ci il*.......................................................................................*146*

BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LUİS İNASİU LULA DA SİLVAYA

*18 iyul 2007-ci il*.......................................................................................*147*

MƏRAKEŞİN KRALI ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ

*20 iyul 2007-ci il*.......................................................................................*148*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ XANIM MİŞELİN KALMİ-REYƏ

*20 iyul 2007-ci il*.......................................................................................*149*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*23 iyul 2007-ci il*.......................................................................................*150*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ XANIM PRATİBHA PATİLƏ

*23 iyul 2007-ci il*.......................................................................................*151*

POLŞA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB LEX KAÇİNSKİYƏ

*23 iyul 2007-ci il*.......................................................................................*152*

ALBANİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB BAMİR TOPİYƏ

*24 iyul 2007-ci il*...................................................................................... *153*

VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB NQUYEN MINH TRİETƏ

*24 iyul 2007-ci il*.......................................................................................*154*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ

*24 iyul 2007-ci il*.......................................................................................*155*

KOT-D’IVUAR RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB LORAN QBAQBOYA

*26 iyul 2007-ci il*.........................................................................................*156*

SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB SELLAPAN RAMA NATANA

*26 iyul 2007-ci il*.........................................................................................*157*

RUSİYA FEDERASİYASI XARİCİ İŞLƏR NAZİRİNİN
MÜAVİNİ SERGEY KİSLYAKIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*26 iyul 2007-ci il*.........................................................................................*158*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV İORDANİYA KRALI
DİVANININ SİYASİ XƏBƏRLƏR ÜZRƏ BAŞ MÜXBİRİ, İORDANİYA
TELEVİZİYA VƏ RADİO KORPORASİYASININ
BAŞ REDAKTORU VƏ PRODÜSERİ İMAN AKOURA
MÜSAHİBƏ VERMİŞDİR

*27 iyul 2007-ci il*.........................................................................................*159*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN İORDANİYAYA RƏSMİ SƏFƏRİ

*29 iyul 2007-ci il*.........................................................................................*160*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVƏ İORDANİYA UNİVERSİTETİNİN FƏXRİ
DOKTORU ADI VERİLMƏSİ MƏRASİMİ

*29 iyul 2007-ci il* .......................................................................................*164*

İORDANİYA UNİVERSİTETİNİN FƏXRİ DOKTORU ADININ
VERİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

*29 iyul 2007-ci il* .......................................................................................*167*

ƏMMAN BƏLƏDİYYƏSİNDƏ GÖRÜŞ VƏ ŞƏHƏRİN
KÜÇƏLƏRİNDƏN BİRİNƏ «HEYDƏR ƏLİYEV PROSPEKTİ»
ADI VERİLMƏSİNƏ HƏSR OLUNMUŞ MƏRASİM

*29 iyul 2007-ci il*.........................................................................................*173*

ARXEOLOGİYA MUZEYİ, TARİX-MEMARLIQ
ABİDƏLƏRİ İLƏ TANIŞLIQ

*30 iyul 2007-ci il*.......................................................................................179

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ NAZİRLƏR KABİNETİNİN 2007-ci
ILIN BİRİNCİ YARISINDA SOSİAL-İQTİSADİ İNKİŞAFIN
YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR
OLUNMUŞ İCLASDA NİTQ

*1 avqust 2007-ci il* .....................................................................................181

YEKUN NİTQİ

*1 avqust 2007-ci il* .....................................................................................192

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ XANIM PRATİBHA PATİLƏ

*1 avqust 2007-ci il* .....................................................................................201

HİNDİSTAN RESPUBLİKASININ BAŞ NAZİRİ
ZATİ-ALİLƏRİ CƏNAB MANMOHAN SİNQHƏ

*1 avqust 2007-ci il* ....................................................................................202

KOREYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB RO MU HYUNA

*1 avqust 2007-ci il* .....................................................................................203

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ

*1 avqust 2007-ci il* ....................................................................................204

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA

*1 avqust 2007-ci il* .....................................................................................205

YUNANISTANIN İNKİŞAF NAZİRİ DİMİTRİS SİUFASIN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 avqust 2007-ci il* ........................................................................................*206*

ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ MƏRKƏZİ ASİYA
MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ MƏTYU BRAYZƏ
İLƏ GÖRÜŞ

*2 avqust 2007-ci il* ........................................................................................*207*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEV QAZAXISTANLI JURNALİSTLƏRƏ
MÜSAHİBƏ VERMİŞDİR

*2 avqust 2007-ci il* ........................................................................................*208*
........................
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN QAZAXISTANA RƏSMİ SƏFƏRİ

*7 avqust 2007-ci il* ........................................................................................*209*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN VƏ QAZAXISTAN RESPUBLİKASININ
PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN
TƏKBƏTƏK GÖRÜŞÜ

*7 avqust 2007-ci il* ........................................................................................*211*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN VƏ QAZAXISTAN RESPUBLİKASININ
PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN
GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*7 avqust 2007-ci il* ........................................................................................*212*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN VƏ QAZAXISTAN RESPUBLİKASININ
PREZİDENTİ NURSULTAN NAZARBAYEVİN MƏTBUAT
ÜÇÜN BƏYANATLARI

*7 avqust 2007-ci il* ........................................................................................*216*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ
NURSULTAN NAZARBAYEVİN ADINDAN
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN ŞƏRƏFİNƏ TƏŞKİL OLUNMUŞ
RƏSMİ QƏBULDA NİTQ

*7 avqust 2007-ci il* ......................................................................................*222*

QAZAXISTANIN BAŞ NAZİRİ KARİM MASİMOV İLƏ GÖRÜŞ

*8 avqust 2007-ci il* ......................................................................................*228*

QAZAXISTAN SENATININ SƏDRİ
QASIMCOMƏRD TOKAYEV İLƏ GÖRÜŞ

*8 avqust 2007-ci il* ......................................................................................*229*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN QAZAXISTANA RƏSMİ SƏFƏRİ
DAVAM EDİR

*8 avqust 2007-ci il* ......................................................................................*230*

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ
EMOMƏLİ RƏHMONUN AZƏRBAYCANA
RƏSMİ SƏFƏRİ

*13 avqust 2007-ci il* ....................................................................................*233*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN VƏ TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ
EMOMƏLİ RƏHMONUN TƏKBƏTƏK
GÖRÜŞÜ

*13 avqust 2007-ci il* ....................................................................................*235*

AZƏRBAYCAN VƏ TACİKİSTAN RESPUBLİKASININ
PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*13 avqust 2007-ci il* ....................................................................................*236*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZIDENTI
İLHAM ƏLİYEVİN VƏ TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ
EMOMƏLİ RƏHMONUN MƏTBUAT ÜÇÜN BƏYANATLARI

*13 avqust 2007-ci il* ....................................................................................*239*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN ADINDAN TACİKİSTAN
PREZİDENTİ İMOMƏLİ RƏHMONUN ŞƏRƏFİNƏ
TƏŞKİL EDİLMİŞ QƏBULDA NİTQ

*13 avqust 2007-ci il* ........................................................................................ *247*

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMONUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*13 avqust 2007-ci il* ........................................................................................ *252*

ABŞ DÖVLƏT KATİBİNİN MÜŞAVİRİ, İQTİSADİ ƏMƏKDAŞLIQ ÜZRƏ ABŞ–AZƏRBAYCAN HÖKUMƏTLƏRARASI KOMİSSİYASININ HƏMSƏDRİ DENİEL SALLİVANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 avqust 2007-ci il* ........................................................................................ *256*

İNCƏSƏNƏT MUZEYİNİN VƏ GƏNC TAMAŞAÇILAR TEATRININ BİNALARINDA TƏMİR-TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*15 avqust 2007-ci il* ........................................................................................ *258*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEV BEYNƏLXALQ MUĞAM MƏRKƏZİNDƏ TİKİNTİ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞ OLMUŞDUR

*15 avqust 2007-ci il* ........................................................................................ *260*

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR VORONİNƏ

*15 avqust 2007-ci il* ........................................................................................ *262*

UKRAYNA PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VİKTOR YUŞŞENKOYA

*15 avqust 2007-ci il* ........................................................................................ *263*

MALAYZİYANIN ALİ BAŞÇISI, ƏLAHƏZRƏT TUANKU MİZAN ZEYNAL ABİDİN İBN ƏL-MƏRHUM SULTAN MAHMUD ƏL-MÜKTƏFİ BİLLAH ŞAHA

*15 avqust 2007-ci il* ........................................................................................ *264*

MALAYZİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLA ƏHMƏD BƏDƏVİYƏ

*15 avqust 2007-ci il* ........................................................................................ *265*

QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KURMANBEK BAKİYEVƏ

*15 avqust 2007-ci il* ........................................................................................ *266*

AZƏRBAYCANIN XALQ ARTİSTİ MÜSLÜM MAQOMAYEVƏ
*16 avqust 2007-ci il* ........................................................................ *267*

İSRAİLİN BAŞ NAZİRİNİN MÜAVİNİ, STRATEJİ PLANLAŞDIRMA NAZİRİ AVİQDOR LİBERMANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*17 avqust 2007-ci il* ........................................................................ *269*

YAPONİYANIN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ MİDORİ MATSUŞİMANIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*17 avqust 2007-ci il* ........................................................................ *270*

PERU RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALAN QARSİA PERESƏ
*17 avqust 2007-ci il* ........................................................................ *271*

ŞRİ-LANKANIN İXRACATIN İNKİŞAFI VƏ BEYNƏLXALQ TİCARƏT NAZİRİ CORC PEİRİSİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*17 avqust 2007-ci il* ........................................................................ *272*

DÖVLƏT SƏRHƏD XİDMƏTİNİN «SƏRHƏDÇİ» İSTİRAHƏT MƏRKƏZİNİN AÇILIŞ MƏRASİMİNDƏ
*17 avqust 2007-ci il* ........................................................................ *273*

ALMANİYANIN KEÇMİŞ DÖVLƏT KATİBİ, ALMANİYA–AZƏRBAYCAN FORUMUNUN SƏDRİ OTTO HAUZERİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*20 avqust 2007-ci il* ........................................................................ *278*

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA
*20 avqust 2007-ci il* ........................................................................ *279*

SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İVAN QAŞPAROVİÇƏ
*20 avqust 2007-ci il* ........................................................................ *250*

LİVİYA İNQİLABININ RƏHBƏRİ, LİVİYA ƏRƏB SOSİALİST XALQ CƏMAHİRİYYƏSİNİN BAŞÇISI ZATİ-ALİLƏRİ CƏNAB MÜƏMMƏR ƏL-QƏDDAFİYƏ
*20 avqust 2007-ci il* ........................................................................ *281*

MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB BRANKO SRVENKOVSKİYƏ
*20 avqust 2007-ci il* ........................................................................ *282*

KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI
DÖVLƏT MÜDAFİƏ KOMİTƏSİNİN
SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB KİM ÇEN İRƏ
*20 avqust 2007-ci il* ........................................................................ *283*

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB EMOMƏLİ RƏHMONA
*20 avqust 2007-ci il* ........................................................................ *284*

SAN-MARİNO RESPUBLİKASININ RECENT KAPİTANLARI ZATİ-ALİLƏRİ ALESSANDRO ROSSİYƏ VƏ ALESSANDRO MANÇİNİYƏ
*20 avqust 2007-ci il* ........................................................................ *285*

VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB NQUYEN MİNH TRİETƏ
*20 avqust 2007-ci il* ........................................................................ *286*

BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LUİS İNASİU LULA DA SİLVAYA
*20 avqust 2007-ci il* ........................................................................ *287*

İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN
AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ
*21 avqust 2007-ci il* ........................................................................ *288*
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN VƏ İRAN PREZİDENTİ
MAHMUD ƏHMƏDİNEJADIN TƏKBƏTƏK GÖRÜŞÜ
*21 avqust 2007-ci il* ........................................................................ *289*

AZƏRBAYCAN VƏ İRAN PREZİDENTLƏRİNİN GENİŞ
TƏRKİBDƏ GÖRÜŞÜ
*21 avqust 2007-ci il* ........................................................................ *290*

AZƏRBAYCAN VƏ İRAN PREZİDENTLƏRİNİN
MƏTBUAT ÜÇÜN BƏYANATLARI
*21 avqust 2007-ci il* ........................................................................ 293

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN SƏFƏRİNƏ
TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ
*21 avqust 2007-ci il* ........................................................................ *300*

İRAN PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJADIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ DAVAM EDİR
*21 avqust 2007-ci il ....................................................................................305*

BUNDESTAQIN DEPUTATI, AŞPA-nın MONİTORİNQ KOMİTƏSİNİN SƏDRİ EDUARD LİNTNER İLƏ GÖRÜŞ
*22 avqust 2007-ci il ....................................................................................308*

*bp* QRUPUNUN KƏŞFİYYAT VƏ HASİLAT İŞLƏRİ ÜZRƏ BAŞ İCRAÇI DİREKTORU ENDİ İNQLİS İLƏ GÖRÜŞ
*22 avqust 2007-ci il ....................................................................................309*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NEFTÇALA RAYONUNA SƏFƏRİ
*23 avqust 2007-ci il ....................................................................................310*

NEFTÇALA RAYONU İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ
*23 avqust 2007-ci il ....................................................................................312*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN HACIQABUL RAYONUNA VƏ QARADAĞ RAYONUNUN ƏLƏT QƏSƏBƏSİNƏ SƏFƏRİ
*23 avqust 2007-ci il ....................................................................................321*

HACIQABUL RAYON UŞAQ TİBB MƏRKƏZİNİN TƏMƏLQOYMA MƏRASİMİNDƏ NİTQ
*23 avqust 2007-ci il ....................................................................................323*

AVROPA VOLEYBOL KONFEDERASİYASININ PREZİDENTİ ANDRE MEYERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ
*24 avqust 2007-ci il ....................................................................................334*

*Q E Y D L Ə R* ....................................................................................
*Şəxsi adlar göstəricisi*....................................................................................
*Coğrafi adlar göstəricisi* ....................................................................................

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** ***İlhamə Kərimova***
**Kompyuter tərtibatı** ***Məhəbbət** **Orucov***

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x108 1/32. Ofset kağızı 1. Şərti çap vərəqi 25,75. Uçot vərəqi 26,25 Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.